DOI: 10.28942/appj.vXXIVi2y2025

AZƏRBAYCAN RESPUBLİKASI
SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ
AZƏRBAYCAN ƏCZAÇILAR ASSOSİASİYASI

AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN YARADILMASININ 95,
AZƏRBAYCANDA ALİ ƏCZAÇILIQ TƏHSİLİNİN 85 İLLİK
YUBİLEYLƏRİNƏ HƏSR EDİLMİŞ

“ƏCZAÇILIĞIN MÜASİR PROBLEMLƏRİ”

MÖVZUSUNDA
VI BEYNƏLXALQ ELMİ KONQRESİN

MATERİALLARI



Bakı-2025

“ƏCZAÇILIĞIN MÜASİR PROBLEMLƏRİ”



AZƏRBAYCAN TİBB UNİVERSİTETİ
AZƏRBAYCAN ƏCZAÇILAR ASSOSİASİYASI

AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN YARADILMASININ 95, AZƏRBAYCANDA ALİ ƏCZAÇILIQ TƏHSİLİNİN 85 İLLİK YUBİLEYLƏRİNƏ HƏSR EDİLMİŞ

“ƏCZAÇILIĞIN MÜASİR PROBLEMLƏRİ”

MÖVZUSUNDA

VI BEYNƏLXALQ ELMİ KONQRESİN

MATERİALLARI

Bakı-2025

Redaksiya heyəti:

Baş redaktor: professor Tahir Abbasəli oğlu Süleymanov

Üzvlər: professor Yusif Balakərim oğlu Kərimov
dosent Kamandar Mehdi oğlu Yaqubov
dosent Cəmilə Yusif qızı Yusifova
dosent Kübra Yaşar qızı Əliyeva
ə.ü.f.d., baş müəllim Emiliya Zakir qızı Balayeva
ə.ü.f.d., baş müəllim Xuraman Niyazi qızı Mustafayeva

Məsul katib: dosent Fuad İlham oğlu Məmmədov

Korrektor: Telli Fikrət qızı Həsənova

“Əczaçılığın müasir problemləri” mövzusunda VI Beynəlxalq Elmi konqresin materialları, Bakı, “Universal Poliqraf MMC”, 2025, 468 səhifə.

Kitab ümumi və xüsusi hissələrdən ibarətdir. Ümumi hissədə Azərbaycan əczaçılığının nailiyyətləri və perspektivləri, əczaçılıq təhsili ilə məşğul olan ixtisas kafedralarının fəaliyyətinin əsas istiqamətləri, eləcə də əczaçılıq istehsalı və dərman təchizatına dair məlumatlar dərc edilmişdir.

Kitabın xüsusi hissəsində əczaçılıq elminin müxtəlif sahələri, o cümlədən əczaçılıq kimyası, farmakoqnoziya, əczaçılıq texnologiyası və idarəçiliyi, farmakologiya, təbii və sintetik maddələrin bioloji fəallığının öyrənilməsi və dərman maddələrinin klinik xüsusiyyətlərinin tədqiqinə dair elmi işlərin nəticələri dərc olunmuşdur.

ISBN : 978-9952-594-71-3

Azərbaycan əczaçılığının korifeyi, farmakoqnoziya kafedrasının banisi, unudulmaz müəllimimiz professor İsrafil Adış oğlu Dəmirovun əziz xatirəsinə ithaf olunur

* * * * *

ÖN SÖZ / INTRODUCTION

XX əsrdə ölkəmizin əczaçılıq tarixində ən möhtəşəm və əhəmiyyətinə görə bənzəri olmayan hadisə baş vermişdir ki, bu da 1938-ci ilin sonunda ali əczaçılıq təhsilinin yaranması və Azərbaycan Dövlət Əczaçılıq İnstitutunun təşkilindən ibarətdir. İnstitutun rektoru görkəmli dövlət xadimi prof. Əziz Əliyev, prorektoru prof. Əhəd Həsənov, dekanı isə prof. İ.K. Qolberq olmuşdur. Dərslər 1939-cu ilin fevralında başlanmışdır. Beləliklə, artıq Azərbaycanda ali əczaçılıq təhsilinin yaranmasının 85 ili tamam olur. İftixarla qeyd etmək lazımdır ki, keçmiş SSRİ-nin türkdilli respublikaları arasında, həmçinin də Türkiyə və İran daxil olmaqla, ali əczaçılıq təhsili üzrə ilk qurum – Azərbaycan Dövlət Əczaçılıq İnstitutu, məhz respublikamızda təşkil olunmuş və sonradan, müharibənin başlanması ilə əlaqədar, 1941-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun əczaçılıq fakültəsinə çevrilmişdir.
Qürur hissi ilə qeyd etmək lazımdır ki, respublikamızda əczaçılıq fəaliyyəti ilə məşğul olan mütəxəssislərin demək olar ki, hamısı əczaçılıq fakültəsinin bakalavr və magistr məzunlarıdır. Respublikada yüksək ixtisaslı əczaçı kadrların hazırlanması ilə məşğul olan fakültənin hal-hazıra qədər 6000-dən artıq məzunu əsasən əhalinin və müalicə profilaktika müəssisələrinin dərman təchizatı ilə məşğul olmaqla sağlamlığın keşiyində dayanırlar. Fakültə bu illər ərzində respublikamız ilə yanaşı digər ölkələr üçün də ali təhsilli əczaçılar və elmi-pedaqoji kadrlar hazırlamışdır. Bu ölkələr sırasında Türkmənistan, Gürcüstan, Ermənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Rusiya Federasiyası (xüsusən Şimali Qafqaz respublikaları), İran İslam Respublikası, Türkiyə Cümhuriyyəti, İraq Respublikası, Sudan, İsrail, Polşa və b. vardır. Ali əczaçılıq təhsili almış mütəxəssislər arasında çoxsaylı elmi kadrlar - əczaçılıq, kimya, biologiya üzrə fəlsəfə doktorları və elmlər doktorları vardır ki, bunlar da respublikamızda, həmçinin digər ölkələrdə, o cümlədən ABŞ-da, Fransada, Ukraynada, Rusiya Federasiyasında və s. müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Ötən illər ərzində əczaçılıq fakültəsi Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Ermənistan üçün əczaçılıq elmləri üzrə ilk elmlər namizədlərini və doktorlarını yetişdirmişdir. Bu kadrların əksəriyyəti həmin ölkələrdə əczaçılıq üzrə ali təhsil və elmi-tədqiqat işlərinə rəhbərlik etmiş və edirlər. Azərbaycan Respublikası Elmlər Akademiyasında çalışan bir çox aparıcı kimya və biologiya elmləri doktorları bu təhsil ocağının yetişdirmələridir.

Uzun illərdir ki, Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsi, əczaçılıq sahəsində respublikada yeganə elmi tədqiqatlar mərkəzinə çevrilmişdir. Elmi tədqiqat işlərinin yerinə yetirilməsi məqsədilə son illərdə Əczaçılıq kimyası kafedrasının

nəzdində Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə müasir Əczaçılıq laboratoriyası qurulmuşdur.

Respublikada əczaçılıq sənayesinin yaranması və inkişafında da əczaçılıq fakültəsi və əczaçı kadrlarının rolu böyük olmuşdur.

Xüsusilə qeyd etmək istəyirəm ki, ümumiyyətlə Azərbaycan Tibb Universiteti, o cümlədən də əczaçılıq fakültəsinin bu səviyyəyə çatmasında Respublika rəhbərliyinin müstəsna xidmətləri olmuş və hal-hazırda da yüksək səviyyədə qalmaqda davam edir. Belə ki, ötən əsrin 70-ci illərindən ulu öndər Heydər Əliyevin respublika rəhbərliyində fəaliyyəti nəticəsində həyatımızın bütün sahələri, xüsusilə də səhiyyə və əczaçılıq sahəsinin inkişafında güclü sıçrayışlar baş vermişdir. Ulu öndərin layiqli davamçısı, müzəffər sərkərdəmiz, cənab İlham Əliyevin Azərbaycan Tibb Universitetinə diqqət və qayğısı daim hiss olunur. Bir sözlə dövlət müstəqilliyimizin əbədiliyinin əsl təminatçıları olan dahi Heydər Əliyev böyüklüyü, dünya siyasətinin öncül simalarından olan cənab Prezident İlham Əliyev qüdrəti, həmçinin də öz fəaliyyəti ilə humanistlik, vətənpərvərlik rəmzinə çevrilən ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva işgüzarlığı, əsasən də rəhbərlə xalqın birliyi xalqımıza işıqlı yollar göstərir.

Son illərdə Azərbaycan Tibb Universitetində çox siddi islahatlar aparılır. İslahatların tərkib hissəsi olaraq əczaçılıq ixtisası üzrə yeni təhsil standartı hazırlanmış və təsdiq edilmiş, əczaçılıq ixtisasının tədrisinin yenilənməsi istiqamətində görülən tədbirlər xarici ölkə universitetləri ilə ikili diplomların verilməsinə zəmin yaratmışdır. Sevindirici haldir ki, Azərbaycan Tibb Universiteti 2022-ci ildə Beynəlxalq akkreditasiyadan keçmiş və əczaçılıq ixtisası da akkreditasiya statusu qazanmışdır.

Konqres materialları toplu şəklində nəşr ediləcəkdir. Topluda əczaçılıq elminin müxtəlif sahələrində əldə edilmiş nailiyyətlər, elmi tədqiqat işlərinin nəticələri, yeni dərman vasitələrinin yaradılması, həmçinin də bu gün üçün əhəmiyyət kəsb edən problemli sahələrə, o cümlədən süni intellektin yeni dərman maddələrinin yaradılmasında tətbiqi, klinik əczaçılıq, ailə əczaçılığı, sığorta əczaçılığı və onun respublikada tətbiqinə dair işlərin nəticələri dərc ediləcəkdir.

Azərbaycan Tibb Universitettinin 95 illiyi və Azərbaycanda ali Əczaçılıq təhsilinin 85 illik yubileylərinə həsr edilmiş “Əczaçılığın müasir problemləri” mövzusunda keçiriləcək beynəlxalq konqresin iştirakçılarını salamlayır və konqresin işində uğurlar arzulayıram. Azərbaycanda ali əczaçılıq təhsilinin təşkilinin, tarixi bir hadisə kimi gələcəkdə də qeyd olunmasını ənənəyə çevirmək, milli dəyərlərimizin qorunub saxlanmasına, əczaçı peşəsinin cəmiyyətdə populyarlaşmasına və əczaçılığın daha da tərəqqi etməsinə zəmin yaradacaqdır.

Azərbaycan Tibb Universitetinin rektoru
t.e.d., professor Gəray Gəraybəyli

ÜMUMİ HİSSƏ - GENERAL PART

AZƏRBAYCAN ƏCZAÇILIĞININ İNKİŞAFİ: NAİLİYYƏTLƏR VƏ PERSPEKTİVLƏR (2021-2025-ci illər)

Tahir Süleymanov
Azərbaycan Əczaçılar Assosiasiyasının sədri,
associationpharma.az@gmail.com

Açar sözlər: Azərbaycan əczaçılığı, elmi tədqiqatlar, tədris işləri, praktik əczaçılıq

Azərbaycan əczaçılığının inkişafı dərin köklərə malik olub, müvəffəqiyyətli bir intibah dövrü keçmişdir və bu barədə “Əczaçılığın müasir problemləri” mövzusunda Azərbaycan Əczaçılarının V Elmi Konqresinin materialları toplusunda geniş məlumat verilmişdir. Bax: Tahir Süleymanov Azərbaycan Əczaçılığının inkişafı: nailiyyətlər və perspektivlər // “Əczaçılığın müasir problemləri” mövzusunda V Beynəlxalq Elmi Konqresin materialları, Bakı, 2021, səh. 3-9.

Azərbaycan əczaçılarının, eləcə də Azərbaycan Əczaçıları Assosiasiyasının fəaliyyəti elmi və praktik əczaçılığın, həmçinin respublika əhalisinin sağlamlığının qorunması kimi məsələlərə dair ölkənin qanunverici və icra hakimiyyəti orqanlarının əmr və qərarlarına müvafiq olaraq həyata keçirilmişdir.

Hesabat dövründə Respublika əczaçıları tərəfindən həyata keçirilən vəzifələr və qazanılan nailiyyətləri 3 istiqamətdə qruplaşdırmaq olar: 1) əczaçı kadrların hazırlanması; 2) elmi-tədqiqat işləri; 3) praktik əczaçılıq (dərman təchizatı və istehsalat) və təşkilatı fəaliyyət.

Əczaçı kadrların hazırlanması. XX əsrdə ölkəmizin əczaçılıq tarixində əhəmiyyətli hadisə baş vermiş, 1938-ci ilin sonunda rektoru görkəmli dövlət xadimi professor Əziz Əliyevin olduğu Azərbaycan Dövlət Əczaçılıq İnstitutu yaradılmışdır. Beləliklə, artıq Azərbaycanda ali əczaçılıq təhsilinin yaranmasının 85 ili tamam olmuşdur. Respublikanın əczaçılıq müəssisələrinin ali və orta ixtisas təhsilli əczaçı kadrları ilə təmini əsasən Azərbaycan Tibb Universiteti, Naxçıvan Dövlət Universiteti və orta ixtisas kolleclərinin köməyilə həyata keçirilir. Qürur hissi ilə qeyd etmək lazımdır ki, respublikamızda əczaçılıq fəaliyyəti ilə məşğul olan mütəxəssislərin demək olar ki, hamısı əczaçılıq fakültəsinin məzunlarıdır. Respublikada yüksək ixtisaslı əczaçı kadrların hazırlanması ilə məşğul olan fakültənin hal-hazıra qədər 6000-dən artıq məzunu əsasən əhalinin və müalicə-profilaktika müəssisələrinin dərman təchizatı ilə məşğul olur. Fakültə bu illər ərzində respublikamız ilə yanaşı, digər ölkələr üçün də ali təhsilli əczaçılar və elmi-pedaqoji kadrlar hazırlamışdır. Bu ölkələr sırasında Türkmənistan, Gürcüstan, Ermənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Rusiya Federasiyası (xüsusən, Şimali Qafqaz respublikaları), İran İslam Respublikası, Türkiyə Cümhuriyyəti, İraq Respublikası, Sudan, İsrail, Polşa və s. vardır. Ali əczaçılıq təhsili almış mütəxəssislər arasında çoxsaylı elmi kadrlar - əczaçılıq, kimya, biologiya üzrə fəlsəfə doktorları və elmlər doktorları vardır ki, bunlar da respublikamızda, həmçinin digər ölkələrdə, o cümlədən

ABŞ-da, Fransada, Ukraynada, Rusiya Federasiyasında fəaliyyət göstərirlər.

Ötən illər ərzində əczaçılıq fakültəsi Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Ermənistan üçün əczaçılıq üzrə ilk elmlər namizədlərini və doktorlarını yetişdirmişdir. Bu kadrların əksəriyyəti həmin ölkələrdə əczaçılıq üzrə ali təhsil və elmi-tədqiqat işlərinə rəhbərlik etmiş və hal-hazırda fəaliyyətlərini davam etdirirlər. Azərbaycan Respublikası Elmlər Akademiyasında çalışan bir çox aparıcı kimya və biologiya elmləri doktorları bu təhsil ocağının yetirmələridir. Məlumdur ki, respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində, o cümlədən Azərbaycan Tibb Universitetində mütəxəssis hazırlığı Bolonya bəyannaməsinə əsasən pilləli təhsil sistemi üzrə aparılır. Müvafiq olaraq əczaçılıq ixtisası üzrə orta ixtisas təhsili və ali təhsil pillələri, ali təhsilin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə mütəxəssis hazırlığı həyata keçirilir.

Son illərdə Azərbaycan Tibb Universitetində ciddi işlər aparılır. Bunların tərkib hissəsi olaraq əczaçılıq ixtisası üzrə yeni təhsil standartı hazırlanmış və 2020-ci ildə təsdiq edilmişdir. Əczaçılıq ixtisasının tədrisinin yenilənməsi istiqamətində görülən tədbirlər xarici ölkə universitetləri (Türkiyə Cumhuriyyəti, İraq Respublikası və s.) ilə ikili diplomların verilməsinə zəmin yaratmışdır.

Sevindirici haldır ki, Beynəlxalq Akkreditasiya qurumları tərəfindən Azərbaycan Tibb Universitetində aparılan akkreditasiyanın nəticəsi olaraq Əczaçılıq ixtisası da Akkreditasiyadan keçərək Beynəlxalq rəyə layiq görülmüşdür. Belə ki, Əczaçılıq fakültəsinin ixtisas kafedraları bakalavr mütəxəssisləri hazırlığı üçün maddi-texniki bazaya və kadr potensialına malikdir. Ümumiyyətlə, fakültənin ayrı-ayrı ixtisas kafedralarında 116 nəfər yüksək ixtisaslı mütəxəssis-müəllim, o cümlədən AMEA-nın müxbir üzvü -1 nəfər, professor - 13 nəfər, dosent - 45 nəfər, baş müəllim - 29 nəfər, assistent - 23 nəfər, müəllim - 5 nəfər çalışır. Fakültədə tədris edilən fənləri, proqramları, işçi tədris planları, eləcə də kreditlərin (saatlar) miqdarı qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılmışdır. Yeni hazırlanmış təhsil standartları müvafiq qurumlar tərəfindən təsdiq edilmiş və son 3 ildə tədris məhz yeni proqramlar əsasında həyata keçirilir. Bu cür təcrübə həm Universitetin diplomlarının xarici ölkələr tərəfindən tanınması prosesinə təkan vermiş, həm də xarici ölkələrin aparıcı universitetləri ilə müəllim və tələbə mübadiləsinə zəmin yaratmışdır. Hal-hazırda Əczaçılıq fakültəsində dünyanın 10-a qədər ölkəsindən olan tələbələr təhsillərini müvəffəqiyyətlə davam etdirirlər. Bununla bərabər, fakültəni bitirmiş bir sıra məzunlar Türkiyə, Fransa, ABŞ kimi ölkələrin nüfuzlu Universitetlərində elmi-pedaqoji kadrlar olaraq çalışırlar. Respublikada son dövrlərdə əczaçılıq sənayesinin inkişaf etdirilməsinə, bu sahədə idxaldan asılılığın azaldılmasına, əhalinin dərman vasitələrinə tələbatının ödənilməsinə xüsusi diqqət verilir.

Azərbaycan Respublikasının ərazisində yaradılan xüsusi iqtisadi zonalarda müasir texnologiya və avadanlıqlarla təchiz edilmiş əczaçılıq müəssisələri qurulur. Buna görə də əczaçılıq təhsilində yeni texnologiyalardan və təlim üsullarından istifadə edilməsinə, maddi-texniki və tədris bazasının inkişaf etdirilməsinə zərurət yaranmışdır.

Göstərilən müsbət məqamlarla yanaşı, təhsilin inkişafı üçün bir sıra tədbirlərin

həyata keçirilməsinə ehtiyac vardır. Əczaçı bakalavrların hazırlığının müasir standartlara və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması məqsədi ilə fakültə nəzdində Elmi-istehsalat təcrübə bazasının yaradılması məqsədəuyğun olardı. Bu cür bazanın yaradılması tədris prosesində müasir texnologiyalardan istifadəyə imkan verməklə bərabər, elmi-tədqiqat işlərinin nəticələrinin istehsalata tətbiqinə şərait yaradar, həmçinin də universitetin “Texnoparkı”nın yaradılmasının tərkib hissəsi olaraq iqtisadi cəhətdən də əlverişli olardı. Lazım olduğu halda Elmi-istehsalat təcrübə bazasının layihələndirilməsi işində fakültə əməkdaşları iştirak edə bilərlər.

Bəzi ölkələrdə Elmi-istehsalat təcrübə bazası ilə yanaşı “Ali məktəblər üçün virtual əczaçılıq zavodu” layihəsi tətbiq edilir ki, belə layihə proqramlarının əldə olunması və tədris prosesində istifadəsi məqsədəuyğun olardı. Qeyd etmək lazımdır ki, bu cür layihənin hazırlanması əsaslı maliyyə vəsaiti tələb etmir və qısa müddətdə tədris prosesinə tətbiq oluna bilər.

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq, respublikada fəaliyyət göstərən əczaçılıq müəssisələri, xüsusilə apteklərin sayı son on illiklərdə təxminən 4-5 dəfə artmışdır. Bu da müvafiq olaraq əczaçı kadrların çatışmazlığına səbəb olmuşdur. Göstərilən problemin həlli xüsusilə ali təhsil müəssisələrinin əczaçılıq fakültələrinə dövlət, həmçinin də ödənişli əsaslarla plan yerlərinin artırılmasını tələb edir. Gələcəkdə ATU-nun əczaçılıq fakültəsində distant təhsilin təşkil olunması da qarşımızda duran vacib məsələlərdən biridir. Respublikada orta və ali təhsilli əczaçı kadrların ixtisasartırma işləri Ə. Əliyev adına ADHTİ-da həyata keçirilir. Məlumdur ki, hal-hazırda Respublikada müxtəlif ixtisas sahələri üzrə kadr potensialının gücləndirilməsi üçün xarici ölkələrin nüfuzlu universitetlərinə məqsədli doktoranturaya göndərişlər təşkil olunmuşdur. Fikrimizcə, əczaçılıq ixtisasının bəzi ixtisaslaşmaları üzrə (klinik əczaçı, əczaçılıq kosmetologiyası, nanotexnologiya və s.) elmi kadrların hazırlanması üçün bu yaradılan şəraitdən istifadə etməliyik.

Əczaçı kadrların hazırlığı üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri dərslik, dərs vəsaitləri, metodik göstərişlərin və s. hazırlanmasıdır ki, əczaçılıq fakültəsinin əməkdaşları tərəfindən bu vəzifə layiqincə yerinə yetirilir və son illərdə azərbaycan dilində kifayət qədər vəsaitlər dərc olunmuşdur. Son illərdə ATU-da aparılan islahatların tərkib hissəsi olaraq, ATU-nun bütün fakültələrində tədris olunan fənlər üzrə proqramların dünyanın qabaqcıl universitetlərinin proqramları ilə eyniləşdirilməsi üzrə işlər aparılır və bu baxımdan əczaçılıq ixtisası üzrə dərslik və dərs vəsaitləri də yenilənir.

Sevindirici haldır ki, 2022-ci ildə Azərbaycan Tibb Umiversiteti, o cümlədən də Əczaçılıq fakultəsi Beynəlxalq akkredetasiyadan uğurla keçmişdir. Bu da beynəlxalq səviyyədə kadr hazırlığına zəmin yaradır.

Elmi-tədqiqat işləri. Əczaçılıq fakültəsinin ixtisas kafedralarının əməkdaşları “Təbii, sintetik bioloi fəal maddələr və metal-kompleks birləşmələrinin tədqiqi, dərmanların marketinqi, alınma və standartlaşdırılması üsullarının təkmilləşdirilməsi” mövzusu üzrə elmi tədqiqat işləri ilə məşğul olmuşlar. Elmi tədqiqatlar əsasən farmakoqnoziya, əczaçılıq kimyası, əczaçılıq texnologiyası və idarəçiliyi kimi

ixtisaslar üzrə istiqamətləri əhatə etmişdir. Bu istiqamətlər üzrə tədqiqatlarda Azərbaycan Milli Elmlər Akademiyasının ayrı-ayrı institutlarının əməkdaşları da bioloi fəal maddələrin sintezi və tədqiqi, respublikanın təbii xammal mənbələrinin öyrənilməsi kimi mövzularda tədqiqatlar aparmışlar. Sözsüz ki, zəngin növ tərkibinə malik olan Azərbaycan florasının tədqiqi əsas istiqamət kimi qeyd olunmalıdır.

Qeyd etmək lazımdır ki, təxminən 5000 növlə təmsil olunan respublika florası kimi zəngin sərvətimizdən səhiyyənin tələbatının tam ödənilməməsinin səbəbi əksər bitki növlərinin fitokimyəvi və farmakoloji cəhətdən az tədqiq olunmasıdır. Bu problem respublikamız müstəqillik əldə etdikdən sonra xüsusilə aktualdır. Bu istiqamətdə ATU-nun əczaçılıq fakultəsi, Elm və Təhsil Nazirliyinin Botanika, Dendrologiya institutları, eləcə də Naxçıvan Bioresurslar institutunun əməkdaşları tərəfindən geniş tədqiqatlar aparılır.

Qeyd olunmalıdır ki, hesabat dövründə əməkdaşlarımız tərəfindən onlarla növ xammal tədqiq olunmuş, 150-dən artıq fərdi bioloji fəal maddələr alınmış və tədqiq olunmuşdur. Bu müddət ərzində fakültə əməkdaşlarının elmi işlərinin nəticəsi olaraq, “Fagolin”, “Fitotussin” kimi yeni dərman preparatları, eləcə də “Qobustan” balzamı, biyan əsasında 6 çeşiddə müxtəlif şərbətlər, “Stomangin” kimi qida əlavələrinin və s. respublikada istehsalı təşkil olunmuş və tibb təcrübəsində müvəffəqiyyətlə istifadə olunur. Tədqiqatların nəticələrinə dair 50-dən artıq Avroasiya və Respublika patentləri alınmış, 800-dən artıq elmi işlər dərc olunmuşdur. Hal-hazırda əczaçılıq fakültəsinin ixtisas kafedralarında 9 nəfər (onlardan 3 nəfəri son illərdə) elmlər doktoru, 45 nəfər əczaçılıq üzrə fəlsəfə doktorloğu çalışır.

Məlumdur ki, təbii sərvətlərimiz əsasında istehsal olunan dərman vasitələrimiz çox az saydadır. Bu problemin həlli göstərilən institutların vahid elmi proqram əsasında fəaliyyət göstərməsini tələb edir. Bu məqsədlə fakultəmizin əməkdaşları tərəfindən müəyyən işlər görülüb. Belə ki, 2017-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə qrant layihəsi həyata keçirilmiş və “Əczaçılıq üzrə elmi tədqiqat laboratoriyası” təşkil olunmuşdur. Laboratoriyada fitokimya, əczaçılıq analizi, əczaçılıq texnologiyası bölmələri fəaliyyət göstərir.

Elmi tədqiqatların aparılmasında beynəlxalq əlaqələr müstəsna əhəmiyyət kəsb edir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Əczaçılıq fakültəsinin əməkdaşlarının iştirakı ilə Amerika Birləşmiş Ştatları, Fransa, Almaniya, Böyük Britaniya, Yaponiya, Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası, Rusiya Federasiyası, Ukrayna və digər dövlətlərin müxtəlif universitetlərinin mütəxəssisləri ilə birgə tədqiqatlar aparılır. Bu cür əməkdaşlıq istər elmi kadr potensialının artırılması, istərsə də gənc əczaçı alim-mütəxəssislərin hazırlanması üçün zəruridir.

Praktik əczaçılıq və təşkilati fəaliyyət. Göstərilən bütün istiqamətlər üzrə əczaçıların birgə fəaliyyətinin təşkili və yönləndirilməsi məqsədi ilə son illər ərzində Azərbaycan Əczaçılar Assosiasiyasının işi yenidən təşkil olunmuş və müxtəlif tədbirlər həyata keçirilir.

Son illər ərzində əhalinin və müalicə-profilaktika müəssisələrinin dərman təchizatının yaxşılaşdırılması məqsədilə tədbirlər kompleksi həyata keçirilmişdir.

Apteklər şəbəkəsi daha da böyümüş və demək olar ki, bütün yaşayış məntəqələrində aptek müəssisələri açılmışdır. Bu sahədə “Avromed company”, “Zeytun pharmaceutical”, “Azərmed” kimi böyük topdansatış şirkətlərinin fəaliyyəti tədqirəlayiqdir. “Gələcəyin aptekləri” istiqamətində aptek müəssisələrinin işinin təkmilləşdirilməsi əczaçılar qarşısında duran əsas vəzifələrdəndir.

Azərbaycan Respublikasının dövlətçilik ənənələrinin qurulmasında ulu öndər Heydər Əliyevin xidmətləri danılmazdır, belə ki, ölkə həyatının elə bir sahəsi yoxdur ki, ümummilli liderin xidmətləri görünməsin. Ümummilli lider, Səhiyyə və əczaçılığın inkişafına xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Məhz onun rəhbərliyi dövründə əczaçılıq sahəsində də mühüm uğurlar qazanılmışdır. Məlumdur ki, dərman təhlükəsizliyi ölkənin əsas atributlarından biri olmalıdır. Bunu nəzərə alaraq əczaçılıq sənayesinin qurulması müstəqil ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Ulu öndərin layiqli davamçısı müzəffər ali baş komandan prezident İlham Əliyevin sərəncamı ilə milli əczaçılıq sənayesinin inkişafı istiqamətində işlər davam etdirilmiş, bir sıra istehsal müəssisələri açılmış, bəzi müəssisələrin qurulması həyata keçirilir. Belə ki, 1998-ci ildə müstəqil respublikamızda dərman vasitələri istehsal edən zavod – “Azərfarm” MMC təsis olunmuş və hal-hazırda zavodda 30-ə qədər dərman preparatları istehsal olunur. “Diamed” və “R-pharm” MMC müəssisələrində də müxtəlif dərman preparatları istehsal olunur. Milli Onkologiya Mərkəzinin nəzdində “Nüvə Təbabəti Mərkəzi” yaradılmış və burada 14 adda radiofarmasevtik dərman vasitələri istehsal olunur. Hal-hazırda “ Scandens” , “GenİlaC” və s. istehsal müəssisələri qurulur. bioloji fəallığa malik qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin, o cümlədən “Herba Flora”, “Biyan Products” MMC və s. fəaliyyətlərini təqdirəlayiq hesab etmək olar. Göstərilənlərlə yanaşı, ölkədə istehsal edilən dərman vasitələrinin çeşidinin artırılması üçün mövcud istehsal müəssisələrinin gücünün artırılması və yeni zavodların qurulması həyati vacib vəzifələrdəndir. Qeyd etmək lazımdır ki, Respublika əczaçıları praktik işlər, elmi tədqiqat və tədris prosesi ilə bərabər Respublikanın ictimai-siyasi həyatında da yaxından iştirak edirlər. ATU-nun əczaçılıq fakültəsinin məzunları təkcə əczaçılıq və tibb sahəsində deyil, ölkə həyatının müxtəlif sahələrində (Müdafiə Nazirliyi, İqtisadiyat Nazirliyi və s.) müvəffəqiyyətlə çalışırlar.

Azərbaycan Əczaçılar Assosiasiyası tərəfindən təşkil olunan bu konqresdə əczaçılıq və həmmərz elmlər üzrə bütün istiqamətlərdə aparılan elmi-tədqiqat işlərinin nəticələri, o cümlədən, yeni dərman vasitələrinin yaradılması, həmçinin də bu gün üçün əhəmiyyət kəsb edən müxtəlif problemli sahələrə: klinik əczaçılıq, ailə əczaçılığı, sığorta əczaçılığı, eləcə də süni intellektin və onun respublikada tətbiqinə dair məruzələr dinlənilәcək və müzakirələr aparılaraq gələcək fəaliyyətimiz üçün vəzifələr planlaşdırılacaqdır.

Summary
Development of Azerbaijan pharmacy: Achievements and perspectives (2021-2025 years)
Tahir Suleymanov

Chairman of the Association of Pharmacists of Azerbaijan,
associationpharma.az@gmail.com

Keywords: Azerbaijan pharmacy, Scientific research, educational work, practical pharmacy

In the article provides on overview of the a chiek ements of Azerbaijan pharmacy and its future tasks. The work carried out in various areas of the pharmacy, including the training of pharmacists, scientific-research works, supply and manufacture of drugs, is presented in detail. In addition, the necessary measures and daties for the development of the pharmacy were specified.

PROFESSOR DƏMİROV İSRAFİL ADIŞ OĞLUNUN HƏYAT VƏ YARADICILIĞI

İsayev Cavanşir İsa oğlu

Azərbaycan Tibb Universitetinin Farmakoqnoziya kafedrası,
isayev.cavanshir@amu.edu.az

***Açar sözlər*:** Dəmirov İsrafil Adış oğlu, Farmakoqnoziya, dərman bitkiləri, xalq təbabəti.

Azərbaycanda ali və orta əczaçılıq təhsilinin təşkilatçılarından biri, respublikanın əməkdar əczaçısı, mərhum professor Dəmirov İsrafil Adış oğlu 1909-cu il dekabrın 31-də Sabirabad rayonunun Qalaqayın kəndində anadan olmuşdur. Professor Dəmirov İ.A. gənc nəslə nümunə ola biləcək mürəkkəb ömür yolu keçmişdir.

O, 1926-cı ildə orta məktəbi bitirərək Bakıya gəlir və əczaçılıq texnikumuna daxil olur. 1930-cu ildə texnikumu bitirib doğma Sabirabad rayonuna qayıdır və 124 saylı aptekdə assistent vəzifəsində çalışır. 1931-ci ilin noyabrından 1932-ci ilin sentyabrına kimi Tbilisi şəhərində orduda xidmət edir. Ordu sıralarından tərxis olunan professor Dəmirov İ.A. 124 saylı aptekə müdir təyin olunur.

Professor Dəmirov İ.A. 1933-cü ildə Leninqrad əczaçılıq institutuna daxil olur və 1937-ci ildə institutu bitirib Bakıya qayıdır və Baş Apteklər İdarəsinin nəzarət-analitik laboratoriyasında siravi işçi kimi fəaliyyətə başlayır və sonra müdir vəzifəsində işləyir.

1942-ci ildə Baş Apteklər İdarəsinin Naftalan təcrübə zavodunun elmi-tədqiqat laboratoriyasına müdir təyin olunur. Bir müddətdən sonra zavodun direktoru kimi fəaliyyət göstərir.

Professor Dəmirov İ.A. 1939-cu ildən həmçinin pedaqoji fəaliyyətlə də məşğul olmağa başlayır. O, əvvəlcə Azərbaycan Dövlət Tibb İnstitutunun farmakoqnoziya və botanika kafedrasında assistent kimi çalışmış, 1941-ci ildən 1990-cı ilə kimi isə kafedra müdiri vəzifəsində çalışmışdır. 1990-cı ildən isə kafedrada professor-məsləhətçi kimi çalışmışdır.

Professor İ.A. Dəmirovun əmək fəaliyyətinin 55 ili Tibb universitetinin əczaçılıq fakültəsi ilə bağlı olmuşdur. O, uzun illər ərzində kafedranın əməkdaşları ilə birlikdə öz elmi-tədqiqat işlərini Azərbaycanın dərman bitkilərinin öyrənilməsinə sərf etmişdir. Professor Dəmirov İ.A. xalq təbabətinin təcrübəsindən Azərbaycan təbabətində istifadə olunmasına və onun elmi təbabətə tətbiq edilməsinə böyük diqqət yetirmişdir. Eləcə də mühüm yabanı dərman bitkilərinin yayılması, onların xammal ehtiyatı və tədarükü məsələlərini öyrənmişdir.

1941-45-ci müharibə illərində professor İ.A. Dəmirovun işləyib hazırladığı üsulla əsasən yabanı nardan limon turşusunun və sonra ondan da hematologiyada geniş istifadə olunan natrium-sitratın istehsalı təşkil edilmişdir. İ.A.Dəmirovun təklif etdiyi üsul əsasında acı yovşan bitkisindən santoninin istehsalı zavod miqyasında həyata keçirilmişdir.

Professor İ.A.Dəmirov respublikada orta və ali əczalılıq təhsilinin təşkilatçılarından biri olmaqla, yüksək ixtisaslı əczaçı kadrların hazırlanmasında da böyük rol oynamışdır. Onun yetirmələri nəinki respublikada, həmçinin keçmiş SSRİ-nin müxtəlif şəhərlərində də fəaliyyət göstərmişlər. Kafedraya rəhbərlik etdiyi müddətdə Azərbaycan və qonşu ölkələr üçün 3000-dən artıq ali savadlı əczaçı kadrların hazırlanmasında yaxından iştirak etmişdir.

Professor Dəmirov İ.A. 1952-ci ildə “Azərbaycanın yovşan bitkisinin bəzi növləri santonin almaq üçün yeni xammal mənbəyi ola bilər” mövzusunda namizədlik dissertasiyası mövzusu və 1970-ci ildə “Azərbaycanın dərman bitkilərinin öyrənilməsi və istifadəsinə dair materiallar” mövzusunda dissertasiya müdafiə edərək əczaçılıq elmləri doktoru elmi dərəcəsi almışdır. Ona 1954-cü ildə dosent, 1972-ci ildə professor elmi adı, 1990-cı ildə isə “Azərbaycanın əməkdar əczaçısı” fəxri adı verilmişdir.

Professor Dəmirov İ.A. Böyük Vətən müharibəsi illərində Azərbaycan Xalq Səhiyyə Komissarlığının tapşırığı ilə Naftalan təcrübə zavodunun bazasında az tapılan bir sıra dərman preparatlarının istehsalını təşkil etdiyinə görə “Qafqazın müdafiəsi”, “Böyük Vətən müharibəsindəki rəşadətli əməyinə görə” medalları ilə və “Səhiyyə əlaçısı” nişanı ilə təltif edilmişdir.

Professor İ.A. Dəmirovun elmi əsərləri AMEA-nın “Xəbərlər” və “Məruzələr”, “Azərbaycan Tibb Jurnalı”, ATU-nun elmi əsərlərində, “*Farmasiya*”, “*Mediçinskaya promışlennost SSSR*”, “*Apteçnoe delo*” və digər elmi jurnallarda dərc edilmişdir. Onun əczaçılıq elminə həsr etdiyi elmi əsərləri keçmiş SSRİ-nin Moskva, Kiyev, Lvov, Leninqrad, Tbilisi, Daşkənd, Alma-Ata, eləcə də bir çox xarici ölkələrdə: Türkiyə, Polşa, Rumıniya və s. keçirilən qurultay, simpozium və konfranslarda səslənmiş və materiallarda dərc edilmişdir.

Professor İ.A.Dəmirovun 250-dən artıq elmi əsəri respublikada və xaricdə dərc edilmişdir. Əsərlərinin siyahısı onun məhsuldar alim olmasını sübut edir. Onun elmi əsərləri sırasında 10 monoqrafiya, 2 dərslik, 2 dərs vəsaiti və 3 tədris-metodik vəsait var. Professor İ.A. Dəmirovun 1957-1992-ci illərdə dəfələrlə dərc edilmiş “Azərbaycanın dərman bitkiləri” kitabı hal hazırda da öz aktuallığını itirməmişdir. Müxtəlif illərdə dərc edilmiş “Dərman bitkiləri”, “Farmakoqnoziya”, “Botanika kursu

ümumi biologiyanın əsasları ilə” dərslikləri azərbaycan dilində ilk dəfə müəllif tərəfindən yazılmışdır. Onun dövri mətbuatda dərc etdirdiyi və insanlar arasında çox populyar olan “Vitaminlər və onların orqanizm üçün əhəmiyyəti”, “Maraqlı bitkilər”, “Dərman otlarını necə yığmaq olar”, “Kimya və təbabət”, “Müalicəvi bitkilər” və s. məqalələri xəstəliklərin müalicəsində dərman bitkilərindən istifadə edilməsini sürətləndirmişdir.

Professor İ.A.Dəmirov elmi-pedaqoji fəaliyyəti ilə yanaşı ictimai işlər də aparmışdır. O, uzun illər Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsinin dekanı vəzifəsində çalışmışdır. “Azərbaycan Əczaçılarının Elmi Cəmiyyətinin sədri”, “Ümumittifaq Əczaçıların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin üzvü”, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin “Farmakologiya və Xalq təbabəti Elmi-İstehsalat Birliyi”nin elmi şurasının üzvü, AR-nın Səhiyyə Nazirliyinin Əczaçı kadrların attestasiya komissiyasının üzvü, ATU-nun və Əczaçılıq fakültəsinin Elmi şuralarının üzvü, Rusiya federasiyasının I Moskva Tibb İnstitutunun müdafiə üzrə İxtisaslaşdırılmış şurasının üzvü olmuşdur.

Mərhum professor İsrafil Adış oğlu Dəmirovun hazırladığı əczaçı kadrlar bu gün də iş başındadırlar. Onlar ATU-nun əczaçılıq üzrə ixtisas kafedralarında, əczaçılıq şirkətlərində və apteklərdə fəaliyyətlərini davam etdirirlər. Onun Azərbaycanda əczaçılıq elminin inkişafında gördüyü misilsiz işlərə görə ruhu qarşısında baş əyirik və Allahdan ona rəhmət diləyirik.

Summary

LIFE AND SCIENTIFIC CONTRIBUTIONS OF PROFESSOR ISRAFİL ADISH OGLU DAMIROV

Isayev Javanshir Isa

Department of Pharmacognosy, Azerbaijan Medical University,
isayev.cavanshir@amu.edu.az

Keywords: Israfil Adish oglu Damirov, Pharmacognosy, medicinal plants, traditional medicine.

Abstract Professor Israfil Adish oglu Damirov was one of the founders of higher and secondary pharmaceutical education in Azerbaijan and an Honored Pharmacist of the Republic. The late professor was born on December 31, 1909, in Galagain village of the Sabirabad region. Professor Damirov began his academic career in 1939, initially serving as an teaching assistant at in the Department of Pharmacognosy and Botany at the Azerbaijan State Medical Institute. From 1941 to 1990, he worked as the Head of the Department, and after 1990, he continued his academic career as a professor-consultant. Throughout his occupational life, Professor Damirov demonstrated exceptional dedication to the advancement of pharmaceutical science. He authored more than 250 scientific works published in Azerbaijan and abroad, including 10 monographs, 2 textbooks, 2 teaching manuals, and 3 methodological guides. His scholarly productivity and commitment established him as one of the most influential figures in Azerbaijani pharmacy education. Many of his former students continue to work successfully in universities, pharmaceutical

companies, and pharmacies. His remarkable service to the development of pharmaceutical science in Azerbaijan remains an enduring legacy. Professor Damirov is remembered with deep respect and gratitude for his invaluable contributions. His lifelong dedication to pharmaceutical science and education played a crucial role in the development of pharmacy as an academic and professional field in Azerbaijan.

AZƏRBAYCANDA ƏCZAÇILIQ TƏHSİLİNİN FORMALAŞMASI VƏ İNKİŞAFI

Yaqubov K.M., Süleymanov T.A., Mədətli F.İ, Hacıyeva E.M.
ATU, Farmakologiya kaferdası, Əczaçılıq kimyası kaferdası, Əczaçılıq texnologiyası və idarəçiliyi kaferdası, Farmakoqnoziya kaferdası, Bakı, Azərbaycan

Açar sözlər: əczaçılıq təhsili, beynəlxalq akkreditasiya, mübadilə proqramları, elektron tədris

Əczaçılıq sahəsi insan sağlamlığının qorunmasında, dərman vasitələrinin hazırlanması, istehsalı və istifadəsində mühüm rol oynayır. Bu sahə səhiyyə sisteminin ayrılmaz tərkib hissəsi olmaqla, həm də elmi və texnoloji tərəqqinin mühüm istiqamətlərindən biridir. Ölkənin müstəqil dövlətçilik ənənələri, səhiyyə sisteminin təşkili və elmi potensialının artması ilə sıx bağlıdır.

Tədqiqatın məqsədi Azərbaycanda əczaçılıq təhsilinin formalaşması və inkişaf prosesini araşdırmaq, ali təhsil sistemində beynəlxalq standartların tətbiqini, mübadilə proqramlarını və rəqəmsal transformasiyanın rolunu qiymətləndirməkdir.

Azərbaycanda əczaçılıq təhsilinin təşəkkülü XX əsrin əvvəllərinə, xüsusilə Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. Azərbaycan Xalq Cümhuriyyətinin Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən Tibbi-Əczaçılıq şöbəsi tərəfindən əczaçılıqla bağlı elmi-praktik fəaliyyətlər və təlim kursları təşkil edilmişdir. Bakı şəhərində dövlət aptekləri fəaliyyətə başlamış, dərmanların hazırlanması və satışı dövlət nəzarətinə götürülmüşdür.

1919-cu ildə Bakı Dövlət Universitetinin yaradılması ilə səhiyyə sahəsində ali təhsilin əsasları qoyuldu və bu, əczaçılıq təhsilinin formalaşmasında mühüm mərhələ oldu. 1925-ci ildə Bakı şəhərində Əczaçılıq Texnikumu açıldı və burada orta ixtisaslı əczaçı kadrların hazırlanmasına başlandı. 1938-ci ildə isə əczaçılıq üzrə ixtisaslaşmış ilk ali təhsil müəssisəsi - Azərbaycan Dövlət Əczaçılıq İnstitutu təsis edilmişdir. Bu institut ölkədə əczaçılıq sahəsində ali təhsilin formalaşmasında və inkişafında əsas rol oynadı. İnstitutun rektoru vəzifəsini bacarıqlı təşkilatçı və siyasi dövlət xadimi prof. Əziz Məmmədkərim oğlu Əliyev yerinə yetirmişdir.

II Dünya müharibəsi illərində institutun fəaliyyəti dayandırıldı və tələbələr Azərbaycan Dövlət Tibb İnstitutunun Əczaçılıq fakültəsinə qəbul edildilər. 1957-ci ildən isə qiyabi şöbə fəaliyyətə başladı. 1950-ci illərdən etibarən professor Rüstəm Qambay oğlu Əliyevin rəhbərliyi ilə əczaçılıq elmi və təhsili yeni mərhələyə qədəm qoydu, laboratoriya metodları təkmilləşdirildi, yeni dərman preparatlarının hazırlanması istiqamətində tədqiqatlar aparıldı. 1951-ci ildə Azərbaycan Elmi

Əczaçılıq Cəmiyyəti yaradıldı. Bu cəmiyyətin fəaliyyəti nəticəsində ölkədə əczaçılıq elmi-tədqiqatları genişləndi, dərman təminatının keyfiyyəti yüksəldi.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ali təhsil sistemində çoxpilləli model - bakalavr və magistratura pillələri tətbiq edildi. Əczaçılıq təhsili də bu model əsasında yenidən qurularaq beynəlxalq təhsil standartlarına uyğunlaşdırıldı.

Azərbaycan Tibb Universitetinin 050802 – Əczaçılıq ixtisası 2021-ci ilin noyabr ayında “*Müstəqil Akkreditasiya və Reytinq Agentliyi*” tərəfindən aparılan qiymətləndirmə nəticəsində beynəlxalq akkreditasiya statusu qazanmışdır. Akkreditasiyanın etibarlılıq müddəti 28.01.2022-ci ildən 27.01.2027-ci ilədək müəyyən edilmişdir. Bu nailiyyət ATU-nin əczaçılıq təhsilinin beynəlxalq standartlara tam uyğun şəkildə təşkil olunduğunu təsdiqləyir. Həmçinin, bu akkreditasiya Əczaçılıq ixtisası üzrə təhsil proqramının müasir elmi, peşəkar və metodoloji tələblərə cavab verdiyini göstərir.

Bu gün fakültə beynəlxalq əməkdaşlıq və mübadilə proqramları həyata keçirir (Türkiyənin Qazi, Hacettepe, Cerrahpaşa, Atatürk, Ege, Lokman Hekim və s. universitetləri ilə). Xüsusilə Macarıstanın Pécs Universiteti və “Scandens Pharmaceutical Industrials Ltd.” şirkəti ilə əməkdaşlıq çərçivəsində tələbələrin xaricdə təcrübə keçməsi, elmi mübadilələr aparması və gələcəkdə hətta ikili diplom proqramlarının təşkil edilməsi təmin olunur. 12.02.2025-ci ildə ATU və “Scandens Pharmaceutical Industrials Ltd.” şirkətinin nümayəndələrinin Macarıstanın Pécs Universitetinə rəsmi səfəri təşkil edilmişdir. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Macarıstan Səfirliyinin dəstəyi ilə reallaşan bu səfər iki ölkə arasında təhsil və elmi-texniki əməkdaşlığın, xüsusilə əczaçılıq sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

ATU-də tədrisin keyfiyyətinin yüksəldilməsi və rəqəmsal transformasiyanın təmin olunması məqsədilə 2018-ci ildə Elektron Tədris Sistemi (ETS) tətbiq edilməyə başlamışdır. Sistemin əsas məqsədi tədris prosesinin səmərəliliyini artırmaq, qiymətləndirmə mexanizmini şəffaflaşdırmaq və müəllim-tələbə qarşılıqlı əlaqəsini müasir texnoloji əsaslar üzərində qurmaq olmuşdur. COVID-19 pandemiyası dövründə təhsil distant formatda aparılırdı, bu səbəbdən də ETS-nin əhəmiyyəti daha da artmışdır.

Beləliklə, Azərbaycanda əczaçılıq təhsili XX əsrin əvvəllərindən bu günə qədər çoxşaxəli inkişaf yolu keçmişdir. Əvvəlki illərdə formalaşan təhsil və elmi baza bu gün müasir beynəlxalq standartlara cavab verən sistemlə əvəz olunmuşdur. Bu gün Əczaçılıq ixtisası üzrə təhsil proqramı Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununa, Nazirlər Kabinetinin müvafiq qərarlarına və “Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların təsnifatına” tam uyğun şəkildə hazırlanmışdır. Bu isə proqramın həm milli təhsil standartlarına, həm də beynəlxalq akademik tələblərə cavab verdiyini göstərir.

Müasir dövrdə əczaçılıq təhsili yüksək ixtisaslı, peşəkar və beynəlxalq səviyyədə rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasına xidmət edir. Əczaçılıq

sahəsi həm səhiyyə sisteminin dayanıqlılığında, həm də milli dərman sənayesinin inkişafında mühüm əhəmiyyət daşıyır.

Nəticə: Araşdırma göstərir ki, Azərbaycanda əczaçılıq təhsili XX əsrin əvvəllərindən etibarən davamlı inkişaf etmiş, müasir dövrdə beynəlxalq akkreditasiya, xarici universitetlərlə əməkdaşlıq və elektron tədris sistemlərinin tətbiqi ilə yüksək keyfiyyətli, rəqabətqabiliyyətli və peşəkar əczaçıların hazırlanması təmin olunmuşdur. Bu proses həm milli dərman sənayesinin, həm də səhiyyə sisteminin inkişafına mühüm töhfə verir.

Summary

FORMATION AND DEVELOPMENT OF PHARMACEUTICAL EDUCATION İN AZERBAIJAN

Yagubov K.M., Suleymanov T.A., Madatli F.İ, Hajiyeva E.M.

AMU, Department of Pharmacology, Department of Pharmaceutical Chemistry, Department of Pharmaceutical Technology and Administration, Department of Pharmacognosy, Baku, Azerbaijan

Key words: pharmaceutical education, international accreditation, exchange programs, e-learning

Pharmaceutical education in Azerbaijan plays an important role in protecting human health and ensuring the production of medicines. Its foundation dates back to the early 20th century, during the period of the Azerbaijan Democratic Republic. The establishment of Baku State University in 1919, the Pharmaceutical Technical School in 1925, and the Azerbaijan State Institute of Pharmacy in 1938 marked key stages in the development of this field.

During the period of independence, pharmaceutical education was aligned with international standards, introducing bachelor’s and master’s degree programs. In 2021, the Pharmacy program at Azerbaijan Medical University received international accreditation, and partnerships were established with the different foreign universities, such as University of Pécs in Hungary and *Scandens Pharmaceuticals Ltd*.

Thus, pharmaceutical education in Azerbaijan has gone through a rich historical development and has evolved into a modern system that trains highly qualified and internationally competitive specialists.

FARMAKOQNOZİYA KAFEDRASININ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ (2021-2025-ci illər)

İsayev Cavanşir İsa oğlu, Kərimov Yusif Balakərim oğlu

ATU, Farmakoqnoziya kafedrası, isayev.cavanshir@amu.edu.az

Açar sözlər: bioloji fəal birləşmələr, flavonoidlər, efir yağları, iridoidlər, aşı maddələri.

Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsinin profil kafedralarından olan farmakoqnoziya kafedrası 1938-ci ildə Azərbaycan Dövlət Əczaçılıq

İnstitutunun nəzdində yaradılmışdır. Yarandığı gündən kafedraya professor Dəmirov İsrafil Adış oğlu rəhbərlik etmişdir. İ.A.Dəmirovun əmək fəaliyyətinin 55 ili tibb universitetinin əczaçılıq fakültəsi ilə bağlı olmuşdur. O, uzun illər ərzində kafedranın əməkdaşları ilə birlikdə öz elmi-tədqiqat işlərini Azərbaycanın dərman bitkilərinin öyrənilməsinə sərf etmişdir. İ.A.Dəmirov Azərbaycan xalq təbabətinin təcrübəsindən elmi təbabətdə istifadə olunmasına böyük diqqət yetirmişdir. Eləcə də mühüm yabanı dərman bitkilərinin yayılması, onların xammal ehtiyatı və tədarükü məsələlərini öyrənmişdir. Farmakoqnoziya kafedrasının ilk müdiri olmuş professor İ.A. Dəmirovun rəhbərliyi altında 8 elmlər namizədi, 1 elmlər doktoru hazırlanmışdır. 1941-45-ci müharibə illərində İ.A.Dəmirovun işləyib hazırladığı üsulla əsasən yabanı nardan limon turşusunun və sonra ondan da hematologiyada geniş istifadə olunan natrium-sitratın istehsalı təşkil edilmişdir. İ.A.Dəmirovun təklif etdiyi üsul əsasında acı yovşan bitkisindən santoninin istehsalı zavod miqyasında həyata keçirilmişdir.

Professor İ.A.Dəmirov respublikada orta və ali əczalılıq təhsilinin təşkilatçılarında biri olmaqla, yüksək ixtisaslı elmi əczaçı kadrların hazırlanmasında da böyük rol oynamışdır. Onun yetirmələri nəinki Azərbaycanda, həmçinin keçmiş SSRİ-nin müxtəlif ölkələrində fəaliyyət göstərirlər. İ.A.Dəmirov 1952-ci ildə “Azərbaycanın yovşan bitkisinin bəzi növləri santonin almaq üçün yeni xammal mənbəyi ola bilər” mövzusunda namizədlik dissertasiyası mövzusu və 1970-ci ildə “Azərbaycanın dərman bitkilərinin öyrənilməsi və istifadəsinə dair materiallar” mövzusunda dissertasiya müdafiə edərək əczaçılıq elmləri doktoru elmi dərəcəsi almışdır. Ona 1954-cü ildə dosent, 1972-ci ildə prpfessor elmi adı, 1990-cı ildə isə “Azərbaycanın əməkdar əczaçısı” fəxri adı verilmişdir. Onun 250-dən artıq elmi əsəri respublikada və xaricdə dərc edilmişdir. Onun elmi əsərləri sırasında 10 monoqrafiya, 2 dərslik, 2 dərs vəsaiti və 3 tədris metodik vəsait var.

Kafedranın ilk müəllimləri dosentlər İslamova Nabat Ağaəli qızı, Manafov Ənvər Beydulla oğlu, Xəlilov Cəmil Səlahəddin oğlu olmuşlar. Dosent İslamova N.A. Azərbaycan florasında olan çətiryarpaq (*Asperula*) və dilqanadan (*Galium*) cinslərinin bəzi növlərinin fitokimyəvi tədqiqini həyata keçirmiş, yeni dərman xammalı və Qalen preparatı təklif edilmişdir. Dosent Manafov Ə.B. Azərbaycanda bitən bəzi südləyən (*Euphorbia*) növlərinin tədqiqi ilə məşğul olmuş, onların fitokimyəvi tədqiqini həyata keçirmiş, həmçinin bu bitkilərin anatomik quruluşundakı fərqli diaqnostik əlamətlərini müəyyən etmişdir. Dosent Xəlilov C.S. Azərbaycan florasından olan bəzi xaçgülü növlərinin farmakoqnostik tədqiqini həyata keçirmiş, bu bitki növlərindən fərdi şəkildə alkaloidlər almışdır.

1990-cı ildən 2017-ci ilə qədər kafedraya İ.A.Dəmirovun yetirməsi olan professor Kərimov Yusif Balakərim oğlu rəhbərlik etmişdir. Professor Y.B.Kərimov 51 ildir ki, ATU-da fəaliyyət göstərir. 26 il Farmakoqnoziya kafedrasının müdiri vəzifəsində çalışmışdır. Onun rəhbərliyi altında 5 əczaçılıq üzrə fəlsəfə doktoru və 2 əczaçılıq elmləri doktoru hazırlanmışdır. 190-dan artıq elmi əsərin müəllifidir. Ümumilikdə 13 ixtiranın sahibidir ki, bunlardan da 4-ü istehsal prosesində tətbiqini tapmışdır. “Əczaçılıq və farmakoterapiya” jurnalının redaksiya heyətinin üzvü, “Farmakom” jurnalının və “*Çelovek i lekarstvo*” nəşrinin redaksiya şurasının

üzvüdür. “SSRİ-nin ixtiraçısı” medalına layiq görülmüşdür. “Beynəlxalq Naturapatiya Assosiasiyasının üzvüdür və həmin assosiasiyanın “Qalen medalına” layiq görülmüşdür. Onun kafedraya rəhbərliyi dövründə Fransanın Aralıq Dənizi Tibb Universitetinin Farmakoqnoziya laboratoriyasının əməkdaşları ilə, Gürcüstan Respublikasının İ.Q.Kutateladze adına Farmakokimya Elmi Tədqiqat İnstitutu, Rusiyanın Sankt-Peterburq Əczaçılıq Akademiyası və Ukraynanın Milli Əczaçılıq Universiteti ilə sıx elmi əməkdaşlıq həyata keçirilmişdir. Əczaçılıq elmləri doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi, professordur.

2017-ci ildən kafedraya Y.B.Kərimovun yetirməsi olan Cavanşir İsa oğlu İsayev rəhbərlik edir. O, 200-dən artıq elmi məqalə və tezisin, 3 dərsliyin, 1 monoqrafiyanın, 4 dərs vəsaitinin, həmçinin 6 ixtiranın müəllifidir. Hazırda kafedrada doktorantura pilləsində təhsil alan 4 doktorantın elmi işlərinə rəhbərlik edir.

Farmakoqnoziya kafedrasında hal hazırda 2 əczaçılıq elmləri doktoru, professor, 2 dosent, əczaçılıq üzrə fəlsəfə doktoru, 1 dosent biologiya üzrə fəlsəfə doktoru, 1 dosent tarix üzrə fəlsəfə doktoru, 4 baş müəllim, əczaçılıq üzrə fəlsəfə doktoru, 3 baş müəllim, biologiya üzrə fəlsəfə doktoru, 4 assistent fəaliyyət göstərir.

Kafedrada əczaçılıq fakultəsinin I kurs tələbələrinə əczaçılıq botanikası 1 və əczaçılıq botanikası 2 fənləri, II, III və IV kurs tələbələrinə isə farmakoqnoziya 1, farmakoqnoziya 2, farmakoqnoziya 3 və farmakoqnoziya 4 fənləri, fitoterapiya, eləcə də seçim fənni olan bioloji fəallığa malik qida əlavələritədris olunur.

Tədris-metodiki bölmənin işi kafedranın iş planına və Tibb Universitetinin tədris hissəsinin tələbinə uyğun olaraq aparılmışdır. Bir çox mövzular üzrə təcrübi dərslər üçün tələbələrə və müəllimlərə aid metodiki göstərişlər, tələbələrin auditoriyadan kənarda müstəqil hazırlaşmaları üçün suallar hazırlanmışdır.

Farmakoqnoziya kafedrasında təhsilin ikinci pilləsi olan Magistratura səviyyəsində hər il 8 magistrant “Farmakoqnoziya” ixtisaslaşması üzrə qəbul olur. 2025-2026-cı tədris ilindən başlayaraq kafedrada “Əczaçılıq fitoterapiyası” ixtisaslaşması üzrə magistrant qəbulu planlaşdırılmışdır.

Kafedrada son 5 ildə beş doktorant təhsil almışdır. Əksər doktorantlar dissertasiya işlərini yekunlaşdırmış və müdafiə ərəfəsindədirlər.

Farmakoqnoziya kafedrasının əsas fəaliyyəti yüksək ixtisaslı əczaçı kadrların hazırlanmasıdır. Əczaçı kadrların hazırlanması ilə yanaşı Azərbaycan florasından olan bitkilərdə bioloji fəal maddələrin aşkar edilməsi, tədqiqi və tibbdə istifadəsi, bəzi yabanı bitkilərin xammal ehtiyatının öyrənilməsi istiqamətində elmi-tədqiqat işləri də aparılır. Hazırda kafedrada “Azərbaycan ərazisində etnofarmakoloji tədqiqatların aparılması, tərkibində bioloji fəal maddələr olan bəzi bitkilərin farmakoqnostik tədqiqi və yeni fitopreparatların hazırlanmasında istifadəsi” mövzusu üzrə elmi tədqiqat işləri yerinə yetirilir. Tədqiqat işlərində məqsəd yabanı bitkilərdən alınan bioloji fəal birləşmələr əsasında əhalinin tələbatına müvafiq keyfiyyətli və zərərsiz fitopreparatlar yaratmaqdır. Son illər kafedra əməkdaşları tədqiqat obyekti kimi Azərbaycan florasından olan *Hedysarum atropatanum və H. formosum, Gentiana gelida, G. septemfida, G. asclepiadea, G. cruciata, Iris carthalinae, I. imbricata və I.*

medwedewii; Phlomis pungens, Salvia glutinosa, S. verticillata, Fraxinus exselsior, Mentha longifolia, M. aquatica, M. pulegium, Satureja hortensis, *Thymus* sp., *Dracocephalum austriacum, D. botryoides, Campanula saxifraga* subsp. *meyeriana, C. saxifraga* subsp. *aucheri, C. glomerata, C. sarmatica, Alchemilla caucasica, A. seracata, A. venosa* və s. yabanı bitki növlərini öyrənirlər.

Farmakoqnoziya kafedrasının əməkdaşlarının əldə etdiyi nailiyyətlər sırasında Tahir Süleymanovun və Cavanşir İsayevin əczaçılıq elmlər doktoru dissertasiyası müdafiə etmələrini, professor elmi dərəcəsi almasını, dosent Səbinə Əliyevanın, dosent Sənəm Əliyevanın, baş müəllim Aytən Şükürovanın və baş müəllim Elvin Kərimlinin əczaçılıq üzrə fəlsəfə doktoru dissertasiyasını müdafiə etməsini göstərmək olar.

Hazırda kafedrada 1 doktorant var. Həm kafedranın əməkdaşları, həm də doktorant Azərbaycan florasından olan yabanı dərman bitkilərinin farmakoqnostik tədqiqi ilə məşğul olurlar. Onların tədqiqat işlərinin bir hissəsi Türkiyə universitetlərində, digər bir hissəsi isə Ulan-Ude şəhərində yerləşən Rusiya Federasiyasının Elmlər Akademiyasının Sibir Şöbəsinin ümumi və eksperimental biologiya İnstitutunun təbii kimyəvi birləşmələrin tədqiqi laboratoriyasında yerinə yetiriləcək, eləcə də həmin institutun əməkdaşları ilə birlikdə müştərək tədqiqatların aparılması, qrant layihələrində birgə iştirak, beynəlxalq və milli konfranslarda iştirak etmək, ekspedisiyaların təşkil olunması planlaşdırılır. Farmakoqnoziya kafedrası beynəlxalq əlaqələr və müqavilələrə əsasən Fransanın Aralıq Dənizi Tibb Universitetinin Farmakoqnoziya laboratoriyasının əməkdaşları ilə, Türkiyənin Hacettepe və Əskişəhər Anadolu Universitetinin farmakoqnoziya kafedrasının fitokimyəvi laboratoriyası ilə, Gürcüstan Respublikasının İ.Q.Kutateladze adına Farmakokimya Elmi Tədqiqat İnstitutu ilə, Rusiya Federasiyasının Elmlər Akademiyasının Sibir Şöbəsinin ümumi və eksperimental biologiya İnstitutunun təbii kimyəvi birləşmələrin tədqiqi laboratoriyası ilə, Rusiyanın Sankt-Peterburq Əczaçılıq Akademiyası və Ukraynanın Milli Əczaçılıq Universiteti ilə sıx elmi əməkdaşlıq həyata keçirir.

Farmakoqnoziya kafedrasında mütəmadi olaraq Azərbaycan Dövlət Aqrar Universitetinin və ölkənin müxtəlif Tibb kolleclərinin farmakoqnoziya fənnini tədris edən mütəxəssisləri üçün təkmilləşmə kursları təşkil edilir. Kafedranın əməkdaşlarının elmi tədqiqat işlərinin yekunu olaraq “Qobustan” və “Şəfa” qidaya bioloji əlavələr, “Faqolin” və “Fitotussin” dərman preparatları hazırlanmışdır. Həmin preparatlar Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin müvafiq qurumunda dərman vasitəsi kimi qeydiyyata alınmışdır.

Kafedranın dosenti Məmmədova Nərgiz “Dodaqçiçəyikimilər fəsiləsinin efir yağlı bitkilərinin öyrənilməsi” istiqaməti üzrə fəaliyyət göstərir. Onun rəhbərliyi altında dodaqçiçəyikimilər fəsiləsinə aid olan *Teucrium, Nepeta, Mentha, Satureja* cinsinin bitkiləri tədqiq olunur. Bu cinslərə daxil olan bəzi bitkilərin farmakoqnostik tədqiqi həyata keçirilmiş, onlardan efir yağı alınmış, efir yağlarının antimikrob fəallığı tədqiq olunmuşdur. Adları qeyd olunan cinsə aid bəzi bitki növlərinin xammallarının fərqli diaqnostik əlamətləri müəyyən edilmişdir.

Kafedranın dosenti Əliyeva Səbinə “Azərbaycanın təbii müalicəvi vasitələrinin kosmetologiyada tətbiqinin araşdırılması” elmi istiqamət üzərində fəaliyyət göstərir. Dermatologiya, fiziologiya, farmakologiya, cərrahiyyə, eləcə də kimya, fitokimya, farmakognoziya sahəsindəki elmi nailiyyətlər kosmetologiyanın yeri və rolunu əhəmiyyətli dərəcədə dəyişdirdi. Hal hazırda kosmetologiya orqanizmə təsir dərinliyi və effektivliyinə görə tibb və əczaçılıqla sıx əlaqəlidir. Xüsusən, kosmetologiyanın inkişaf tendensiyası müşahidə olunur ki, bunun da xarakterik xüsusiyyəti tərkibinə yeni bioloji aktiv maddələrin və köməkçi maddələrin daxil olması hesabına kosmetik vasitələrin resepturasının əhəmiyyətli dərəcədə mürəkkəbləşməsidir. Müasir baxımdan bitki mənşəli kosmetik vasitələr kifayət qədər farmakoloji aktivliyi, dəri hüceyrələrindəki gedən fizioloji proseslərə təsir göstərmək qabiliyyəti ilə xarakterizə olunur ki, bu da onları dərman vasitələrinə yaxınlaşdırır. Bu sırada təbii bitən, həmçinin becərilən dərman bitkilərindən geniş istifadə olunur.

Dosent Əliyeva Sənəm Azərbaycan florasında növlərin sayına görə zəngin cinslərdən biri olan adaçayı (*Salvia*) cinsinin bəzi növlərini farmakoqnostik tədqiq etmişdir. Tədqiqat işlərinin nəticələrinə əsasən Azərbaycan florasında yayılan və perspektivli hesab edilən *S. verticilata* və *S. glutinosa* ölkəmizə xaricdən gətirilən *S. officinalis* növünü əvəz edə bilən bitkilər kimi müəyyən edilmişdir. *S. glutinosa* otunun efir yağının kimyəvi tərkibində 41 komponent aşkar edilmişdir ki, bunlardan da germakren D, α-farnezen, β-kariofillen, β-kadinen, humulen, skvalen və α-kadinol miqdarca üstünlük təşkil edir. S. verticillata otunun tərkibindəki lipidlərin yağ turşularının 12 maddədən ibarət olduğu və bunlardan palmitin, linolen, linol və stearin turşularının miqdarca üstünlük təşkil etdiyi aşkar edilmişdir. *S. verticillata* əsasında tərkibi kompleks birləşmələrdən ibarət yeni dərman vasitəsi - "Salvident" məhlulu işlənib hazırlanmışdır.

Kafedranın baş müəllimi Kərimli Elvin “Azərbaycan florasında yayılan tərkibində efir yağı olan bəzi bitkilərin farmakoqnostik tədqiqi” istiqamətin elmi fəaliyyətini davam etdirir. *Ferula* L. cinsinin dünyada 130-a yaxın növü yayılmışdır. Cinsin Qafqazda 10, Azərbaycanda isə 8 növü vardır. Əsas komponent tərkibini terpenoidli kumarinlər, laktonlar, efir yağları təşkil edir. Tədqiqat zamanı *Ferula persica* köklərindən bitsiklik terpenoidli kumarinlər və laktonlar alınaraq, müasir spektroskopik üsullarla tədqiq edilmişdir. Tədqiqatlarda ekstraksiya, nazik təbəqəli və sütunlu xromatoqtafiya, kimyəvi üsullar və spektroskopik tədqiqatlardan istifadə edilmişdir. Nəticə etibarilə aşağdakı bioloji birləşmələr alınmışdır: Ostol - alkilləşmiş kumarin; konferol; moqoltavidin və badrakemin - bitsiklik terpenoidli kumarinlər. Həmçinin badxızin və badxızidin seskviterpen laktonları alınmışdır. Bu maddələrin stukturlarının təyin edilməsində spektroskopik UB-ultrabənövşəyi, İQ-infraqırmızı, NMR-nüvə maqnit rezonansı, həm 1 ölçülü PMR, ^{13}C NMR, DEPT və 2 ölçülü COSY, HSQC, HMQC, HMBC, NOESY, X-ray rentgen struktur analiz üsullarından istifadə edilmişdir. *Ferula persica* meyvələrində isə terpenoidli kumarinlərdən: konferol və badrakemin alınmışdır. *Ferula persica* köklərindən və meyvələrindən hidrodistilyasiya üsulu ilə efir yağı alınaraq GC-MS Qaz-xromatoqrafiyalı kütlə

spektroskopiyasından istifadə edilmişdir. Bu komponentlərin içərsində əsas üstünlüyü təşkil edən kükürdlü birləşmələrdir.

Baş müəllim Mustafayeva Xuraman tədris prosesi ilə yanaşı Beynəlxalq elmi mühitdə də aktiv iştirak edir. **“***Pharmacognosy Communications*” elmi jurnalının redaksiya heyətinin üzvüdür. O, fitokimyəvi analiz, dərman bitkilərinin bioloji fəal maddələrinin tədqiqi və etnofarmakologiya sahəsində elmi-tədqiqat layihələrini həyata keçirir. Elmi fəaliyyəti çərçivəsində UFAZ _Fransa-Azərbaycan Universiteti və Elm və Təhsil Nazirliyinin Geofizika və Geologiya institutunun əməkdaşalrı ilə əməkdaşlıq quraraq birgə tədqiqat layihələrində iştirak edir. Farmakoqnoziya, fitokimya, fitofarmasiya, tədqiqat işinin aparılması və elmi dizayn fənlərindən bakalavr və magistratura səviyyəsində dərslər aparmaqla yanaşı, magistrant tələbələrin elmi-tədqiqat işlərinə rəhbərlik edir.

Baş müəllim Şükürova Aytən Azərbaycan florasında olan tikanlı odotu (*Phlomis pungens*) bitkisinin otuna aid müvəqqəti farmakopeya məqaləsi işlənib hazırlamış və bu sənəd müvafiq qurum tərəfindən təsdiq edilmişdir. Bitkidən iridoid və feniletanoid birləşmələrinə aid fərdi maddələr alınmışdır. Tikanlı odotu bitkisinin xammalının ehtiyatının təyini aparılmışdır. Həmçinin, bitkinin otundan alınmış ekstraktın farmakoloji tədqiqatları aparılmış, onun şəkərli diabet və antioksidant təsirləri öyrənilmişdir. Hazırda *Betonica* və *Centaurea* cinsinə aid bəzi bitkilərin farmakoqnostik tədqiqi istiqamətində fəaliyyət göstərir.

Kafedranın assistenti Babayeva Nərmin “*Hedysarum* cinsinə aid bəzi bitki növlərinin farmakoqnostik tədqiqi” mövzusu üzrə dissertasiya işini yerinə yetirir. Azərbaycan florasında növlərin sayına görə zəngin fəsilələrdən biri olan paxlakimilər fəsiləsinə aid köpükotu - H*edysarum* cinsinə daxil olan *H. formosum, H. sericeum* və *H. atropatanum* növlərini farmakoqnostik tədqiq etmişdir. Hər üç bitkinin xammalının morfoloji-anatomik quruluşunda diaqnostik əhəmiyyət kəsb edən əlamətlər öyrənilmişdir. Fitokimyəvi tədqiqatlar nəticəsində həmin bitki növlərindən müxtəlif qrup bioloji fəal birləşmələrə aid olan 11 fərdi maddə alınmışdır. Perspektiv bitki növlərinə aid ehtiyatşünaslıq tədqiqatları həyata keçirilmişdir. Eləcə də tədqiq olunan bitkilərin müxtəlif ekstraktlarının və alınmış fərdi maddələrin bəzi farmakoloji xüsusiyyətləri öyrənilmişdir.

Kafedranın doktorantı olmuş Qədimli Aydan “Azərbaycan florasından olan *Gentiana* (acıçiçək) cinsinə aid bəzi bitki növlərinin farmakoqnostik tədqiqi” mövzunda dissertasiya işini yekunlaşdırmışdır, hazırda dissertasiya işinin müdafiəsi həyata keçirilir. Acıçiçək (*Gentiana*) cinsinin Azərbaycan florasında cinsə aid 14 bitki növü yayılmışdır. 4 növ acıçiçək bitkisi: *G. septemfida, G. gelida, G. cruciata* və *G. asclepiadea* xammal ehtiyatına görə maraq kəsb edir. Bu bitkilərin həm otu, həm də yeraltı hissəsi müasir fiziki-kimyəvi üsullardan olan HPLC-DAD-ESI-QQQ-MS vasitəsilə öyrənilmişdir. Bu bitkilərdə ksantonlar, flavonoidlər və iridoidlərə aid 100-dən artıq təbii birləşmələrin olması aşkar edilmişdir. Elmi tədqiqat işinin davamı olaraq öyrənilən acıçiçək növlərindən müxtəlif təbii birləşmələr qrupuna aid 15 fərdi maddə təcrid edilmişdir. *Gentiana septemfida Pall.* bitkisinin kökümsov və köklərindən və *Gentiana asclepiadea L.* bitkisinin isə otundan alınan 98% metanollu

ekstraklar boru xromatoqrafiya və orta axınlı maye xromatoqrafiya üsulları ilə işlənmişdir. Nəticədə *G. septemfida Pall*. bitkisindən 7, *G. asclepiadea L.* bitkisindən isə 5 maddə izolyasiya edilmiş və NMR identifikasiya üçün tədqiqatlara başlanılmışdır. Hesabat dövründə isə izolyasiya edilmiş maddələrin nüvə maqnit rezonansı *(NMR)* (*^{1}H, ^{13}C, COSY, HMQC və HMBC*) spektrofotometriya üsulundan istifadə edilməklə identifikasiyası aparılmışdır. Nəticədə *Gentiana asclepiadea L.* bitkisinin otundan alınmış 5 maddədən 3-ü (mangiferin, izoorientin, izoviteksin), *Gentiana septemfida Pall*. bitkisinin kökümsov və köklərindən alınmış 7 maddənin hamısı təyin edilmişdir.

Farmakoqnoziya kafedrasının assistenti Cəfərova Günay “Bəzi İlanbaşı (*Dracocephalum* L.) növlərinin farmakoqnostik öyrənilməsi”dissertasiya mövzusu üzərində çalışır. Azərbaycan florasında maraq kəsb edən cinslərdən biri də İlanbaşı (*Dracocephalum*) cinsidir. Ölkənin müxtəlif coğrafi ərazilərdə 4 ilanbaşı bitkisi yayılmışdır. Müəyyən edilmişdir ki, *D. austriacum* və *D. botroides* növləri ümumiyyətlə farmakoqnostik tədqiqatlara cəlb edilməmişdir. İlkin *fitokimyəvi* tədqiqatlar hər iki bitkinin tərkibində efir yağları, flavonoidlər, polisaxaridlər, iridoidlər və digər qrup təbii birləşmələrin olmasını göstərmişdir. Avstriya ilanbaşı bitkisinə aid ehtiyatşünaslıq tədqiqatları yerinə yetirilmişdir.

Kafedranın assistenti Səfərova Nilufər “Azərbaycan florasında olan zəngçiçəyi (*Campanula* L.) cinsinə aid bəzi bitkilərin farmakoqnostik tədqiqi” dissertasiya mövzusu üzərində çalışır. Tədqiqat zamanı Azərbaycan florasında rast gəlinən zəngçiçəyi – *Campanula* cinsinə aid perspektiv növlər müəyyən edilmişdir. *C.saxifraga* subsp. *meyeriana* farmakoqnostik tədqiqatlara cəlb edilmişdir. Bitki qurudulduqdan sonra toz halına salınmış və metanol vasitəsilə ekstraksiya edilmişdir. *C.saxifraga* subsp. *meyeriana* bitkisinin kökündən və otundan metanollu ekstrakt alınmışdır. Kökdən poliamid və silikaqel tətbiq edilmiş sütundan istifadə etməklə p-OH benzoy turşusu, kempferol-3-O-qalaktozid, kempferol-3-O-qlikozid izolə edilmişdir. Yerüstü hissənin ekstraktından isə kversetin-3-O-qlikozid, kempferol-7-O-diqlikozid və kversetin-7-O-diqlikozid (4,8 mq) ayrılmışdır. Daha sonra poliamid sütundan kempferol izolə edilmişdir. Ümumilikdə kökdən 3, yerüstü hissədən 4 fərqli maddə izolə edilmişdir.

Hazırda Farmakoqnoziya kafedrasında Nağıyev Elvin doktorantura pilləsində təhsil alır. O, “Azərbaycan florasına aid şaxduran (*Alchemilla* L.) cinsinin bəzi bitki növlərinin farmakoqnostik tədqiqi” dissertasiya mövzusu üzərində çalışır. Müəyyən etmişdir ki, Azərbaycan ərazisində yayılmış şaxduran növlərinin heç biri hal hazıra qədər farmakoqnostik tədqiqata cəlb edilməmişdir. Şaxduran bitkisinin xammal kimi otu və kökümsovları fitokimyəvi tədqiqatlara cəlb edilmişdir. Eynilik və xromatoqraffik analiz nəticəsində müəyyən edilmişdir ki, şaxduran bitkilərinin tərkibində fenol təbiətli birləşmələrdən hidroliz olunan və kondensləşmiş aşı maddələri, fenolkarbon turşuları, aqlikon və qlikozid şəklində flavonoidlər, eləcə də polisaxaridlər vardır. İlkin fitokimyəvi tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan ərazisində yayılmış şaxduran növləri bioloji fəal birləşmələrlə, xüsusən fenol təbiətli maddələrlə zəngindir, onların tədqiqi aktualdır və aparılan tədqiqat işləri

nəticəsində farmakopeya növü olan *A. vulgaris* növünə analoq yeni bitki xammalı təklif etmək perspektivi vardır. Tədqiqat çərçivəsində Azərbaycan florasında rast gəlinən *Alchemilla* L. – şaxduran cinsinə daxil olan perspektiv növləri aşkar ediləcək, yayılma arealı geniş və xammal ehtiyatı çox olan bitkilər farmakoqnostik tədqiqatlara cəlb olunacaq, perspektiv bitkilərdən aşı maddələri, flavonoidlər, efir yağları, polisaxaridlər və digər qrup bioloji fəal birləşmələr alınaraq tədqiq olunacaq, öyrənilən bitkilərin istifadə imkanlarını əsaslandırmaq üçün onlardan alınan müxtəlif çıxarışların, ekstraktların, fraksiyaların və fərdi maddələrin bioloji fəallıqları *in vitro* və *in silico* tədqiqatlarla müqayisəli öyrəniləcəkdir ki, bu da Azərbaycan Respublikasında istifadə olunan dərman bitki xammalının çeşidini genişləndirməyə zəmin yaradacaqdır. Azərbaycan florasından olan perspektiv şaxduran bitkilərindən alınacaq müxtəlif qrup bioloji fəal birləşmələrin bioloji fəallaqlarını müəyyən etdikdən sonra bitki xammalına, substansiyaya və hazırlanacaq dərman vasitəsinə aid analitik-normativ sənədlərin layihələri işlənib hazırlanacaq və təsdiq ediləcək.

Son illər Farmakoqnoziya kafedrasında etnofarmakoloji tədqiqatlar yerinə yetirilir. Azərbaycanın müxtəlif bölgələrində yerli əhali arasında yazılı və şifahi sorğu keçirməklə dərman bitkilərinin istifadəsi haqqında məlumat toplanılır. Sonra həmin məlumatlar statistik işlənmə və digər müasir üsullarla analiz edilir. Alınmış nəticələr Azərbaycanın, eləcə də dünyanın yüksək indeksləşmiş elmi jurnallarında dərc edilir.

Kafedrada yerinə yetirilən elmi işlərin nəticələri dünyanın nüfuzlu jurnallarında: *Antioxidants, Metabolites, Plants* və s. dərc edilir.

Farmakoqnoziya kafedrasında ölkənin bitki mənşəli dərman vasitələrinin çeşidini artırmaq məqsədilə müxtəlif bitki xammallarına aid elmi tədqiqatlar həyata keçirilir. Hazırda kafedranın əməkdaşları əczaçılıq fakültəsinin digər ixtisas kafedraları ilə birlikdə Respublikada yüksək ixtisaslı əczaçı kadrların, magistrantların və doktorantların hazırlanması sahəsində, həmçinin ölkə florasında olan yabanı dərman bitkilərinin farmakoqnostik baxımdan tədqiqi istiqamətində fəaliyyətlərini davam etdirirlər.

Ədəbiyyat siyahısı

1. Kashchenko N.I., Jafarova G.S., Isaev J.I., Olennikov D.N., Chirikova N.K. Caucasian Dragonheads: Phenolic Compounds, Polysaccharides, and Bioactivity of Dracocephalum austriacum and Dracocephalum botryoides. // Plants- 2022, 11, p. 2126. https://doi.org/10.3390/plants11162126

2. Olennikov D.N., Gadimli A.I., Isaev J.I., Kashchenko N.I., Prokopyev A.S., Kataeva T.N., Chirikova N.K., Venno C. Caucasian *Gentiana* Species: Untargeted LC-MS Metabolic Profiling, Antioxidant and Digestive Enzyme Inhibiting Activity of Six Plants // Metabolites- 2019, 9, p. 271. https://doi.org/10.3390/metabo9110271

3. Isayev J.I., Hajiyeva E.M., Mustafayeva Kh.N., Yagubov K.M., Babayeva N.T., Safarova N.M., Gadimli A.I., Jafarova G.S. Ethnopharmacological study of the treatment of diseases of the respiratory system in the Zuvand geobotanical territory of Azerbaijan // Azerbaijan Medical Journal, 2024, (3), p. 121-127. https://doi.org/10.3492/amj.2024.3.021

4. Isayev J.I., Hajiyeva E.M., Babayeva N.T., Jafarova G.S., Safarova N.M., Gadimli A.I. Ethnopharmacological study of the treatment of diseases of the digestive system in the geobotanical region of Azerbaijan Nakhichevan Highlands // Azerbaijan medical journal, 2024, (4), p. 151-157. https://doi.org/10.3491/amj.2024.4.024

5. Isayev J.I., Hajiyeva E.M., Babayeva N.T., Jafarova G.S., Safarova N.M., Gadimli AIsayev J.I., Babayeva N.T., Jafarova G.S., Mustafayeva Kh. N., Hajiyeva E.M., Safarova N.M., Gadimli A.I. Ethnopharmacological study of the treatment of cardiovascular diseases in the Guba mountain geobotanical region of Azerbaijan// Azerbaijan medical journal, 2025, (1), p. 171-176. https://doi.org/10.34921/amj.2025.1.030.

6. Olennikov, D.N., Kashchenko, N.I., Gadimli, A.I. et al. Polysaccharides from Three Species of *Gentiana* // Chemistry of Natural Compounds- 2022, 58, p. 799-803. https://doi.org/10.1007/ s10600-022-03801-y

7. Kerimov, Y.B., Isayev, J.I. Pharmacognostic study of medicinal plants flora of Azerbaijan and prospect of their use // Azerbaijan Pharmaceutical and Pharmacotherapy Journal. 2010, 10(2), p.13-18.

8. Olennikov D.N., Jafarova G.S., Isaev D.I. New acacetin glycosides from the genus Dracocephalum // Chemistry of Natural Compounds, 2022, v. 61(3), p. 452-458. https://doi.org/10.1007/ s10600-025-04676-5

9. Shahla Jafarova, Tuba Aydın, Javanshir Isayev, Ruya Saglamtas, Fevzi Ozgokce, Cavit Kazaz, Ahmet Çakir. Anti-Alzheimer, Antiglaucoma, and Antidiabetic Activities of Sainfoin (*Onobrychis buhseana* Boiss.) // Chemistry and biodiveesrsity, 2025, № 1, p. 76-81. https://doi.org/10.1002/cbdv.e202402013

10. Kərimov Y.B., İsayev C.İ., Süleymanov T.A. Azərbaycan florasının perspektiv yabanı bitkilərinin axtarılmasının müasir istiqamətləri və onların əczaçılıq istehsalında istifadəsi // Azərbaycan Əczaçılıq və Farmakoterapiya jurnalı, 2024, № 2, s. 35-57.

11. Gadimli A.I., Suleymanova T.H., Isayev J.I. Study of antimicrobial and antifungal properties of some species of Gentiana L. distributed in Azerbaijan // Azerbaijan medical journal, 2024, № 2, p. 131-135.

Summary

MAIN DIRECTIONS OF SCIENTIFIC RESEARCH OF THE DEPARTMENT OF PHARMACOGNOSY (2021-2025)

Isayev Javanshir Isa, Kerimov Yusif Balakerim
AMU, Department of Pharmacognosy
isayev.cavanshir@amu.edu.az

Keywords: biologically active compounds, flavonoids, essential oils, iridoids, tannins

The Department of Pharmacognosy, one of the core divisions of the Faculty of Pharmacy at Azerbaijan Medical University, was established in 1938 under the Azerbaijan State Institute of Pharmacy. In addition to providing pharmaceutical

education, the department conducts scientific research focused on the identification, investigation, and medical application of biologically active compounds found in plants of Azerbaijan’s flora, as well as the study of wild medicinal plant materials. Currently, research is being carried out on the topic *“*Pharmacognostic studies of certain plants containing biologically active compounds and their use in the development of new phytopharmaceuticals*.”*

In recent years, the department’s researchers have studied several wild plant species native to Azerbaijan, including *Hedysarum atropatanum, H. formosum, Gentiana gelida, G. septemfida, G. asclepiadea, G. cruciata, Phlomis pungens, Salvia glutinosa, S. verticillata, Fraxinus excelsior, Mentha longifolia, M. aquatica, M. pulegium, Satureja hortensis, Thymus* spp., *Dracocephalum austriacum, D. botryoides, C. saxifraga* subsp. *meyeriana, Alchemilla* spp., and others.

The department’s ongoing scientific work on various plant raw materials aims to expand the range of herbal medicines produced in the country. In collaboration with other departments of the Faculty of Pharmacy, the academic staff continues to contribute to the training of highly qualified pharmacists, master’s students, and PhD researchers, as well as to the pharmacognostic investigation of wild medicinal plants in Azerbaijan’s flora.

FARMAKOLOGİYA KAFEDRASINDA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, QAZANILAN NAİLİYYƏTLƏR, PROBLEMLƏR VƏ VƏZİFƏLƏR (2021-2025)

M.M.Qəniyev, K.M.Yaqubov, A.U.Kazimova, N.T.Bayramov
ATU, farmakologiya kafedrası

Açar sözlər: Farmakologiya, elmi istiqamət, kadr hazırlığı

Farmakologiya elminin tarixi insan cəmiyyətinin yaranma tarixi qədər qədim olsa da, ölkəmizdə bu elmin sistemli, ardıcıl, dinamik və planlı inkişafı farmakologiya kafedrası yarandıqdan sonrakı dövrə təsadüf edir. Farmakologiya kafedrası ilk dəfə 1920-ci ilin aprel ayında Bakı Universitetinin tibb fakültəsi nəzdində yaradılmışdır. Təşkili və inkişafının ilk illərində burada qısa müddət ərzində o dövrün tələblərinə tam cavab verən eksperimental laboratoriya yaradılmış və bu elm sahəsi güclü inkişaf yoluna qədəm qoymuşdur. Yarandığı ilk dövrlərdə farmakologiya kafedrasında elmi-tədqiqat işləri əsasən zəhərli alkoloidlərin tədqiqi istiqamətində aparılsa da, sonrakı illərdə bu tədqiqatlar həm də ölkəmizin dərman bitki xammalı və təbii müalicə vasitələrinin öyrənilməsinə həsr olunmuşdur. Bu cəhətdən respublikamızın ərazisində bitən 300-dən artıq bitki növü tədqiq olunmuş və onlardan 26 bitki növünün tərkibində alkoloidli birləşmələrin olduğu müəyyən edilmişdir. Dərman bitkilərinin tədqiqi istiqamətində xüsusən yemişan bitkisinin öyrənilməsi zamanı alınan nəticələr daha yüksək qiymətləndirilməlidir. Bu bitkinin tinkturasının yüksək farmakoloji fəallığa malik olduğu eksperimental tədqiqatlarda

tamamilə öz təsdiqini tapdığı üçün, potensial aktiv dərman maddəsi kimi kardiologiya praktikasında istifadə olunmağa tövsiyə edilmişdir.

2019-cu ildən Neyro və psixoaktiv fəallığa malik təbii və sintetik mənşəli dərman preparatlarının və analoji aktivliyi ehtimal olunan müxtəlif dərman bitkilərindən alınmış çıxarışlarının əhatəli eksperimental farmakoloji tədqiqi və neyroleptoterapiya zamanı törənən mərkəzi mənşəli dəyişikliklərin eksperimental terapiya metodlarının işlənib hazırlanması istiqamətində elmi işlər aparılır. Bununla yanaşı neyro və psixoaktiv fəallığa malik təbii və sintetik mənşəli potensial aktiv birləşmələrin və analoji aktivliyi ehtimal olunan müxtəlif dərman bitkilərindən alınmış çıxarışların eksperimental farmakoloji tədqiqi və neyroleptoterapiya zamanı törənən əlavə effektlərin eksperimental terapiya metodları işlənib hazırlanıb. Digər tərəfdən Neyro və psixoaktiv fəallığı olan birləşmələrin, antikanser preparatların hamiləlikvə yeni törənən nəslin pre- və postnatal inkişaf dövrlərinə təsirin müqayisəli tədqiqi apqarılır. Qarşıya qoyulan məqsəd Neyro və psixoaktiv fəallığa malik təbii və sintetik mənşəli dərman preparatlarının və analoji aktivliyi ehtimal olunan müxtəlif dərman bitkilərindən alınmış çıxarışlarının əhatəli eksperimental farmakoloji tədqiqi və neyroleptoterapiya zamanı törənən mərkəzi mənşəli pozğunluqların eksperimental terapiya metodlarının işlənib hazırlanmasından ibarət olmuşdur. Bu tədqiqat işi, son 35 ildə “Təbii və sintetik mənşəli bioloji fəal maddələrin alınması və öyrənilməsi” istiqamətində kafedrada aparılması planlaşdırılmış ümumi elmi istiqamətin tərkib hissəsi və davamıdır. Aparılacaq elmi-tədqiqat işləri kafedranın qəbul olunmuş iş planının tərkib hissəsi olub, ATU-nun Elmi Tədqiqat Mərkəzi, Milli Elmlər Akademiyasının Fiziologiya institutu, Əczaçılıq fakultəsinin farmakoqnoziya və əczaçılıq kimyası kafedraları ilə əlaqəli, eləcə də Rusiya Federasiyası V.V.Zakusov adına ET Farmakologiya İnstitutu arasında bağlanmış müqaviləyə uyğun olaraq həyata keçirilmişdir. Növbələşən illər üzrə planlaşdırılan tədqiqatlarda həmçinin Respublikamızın ərazisində bitən Qantəpər və Quşqonmaz bitkisindən alınan və tərkibi bu bitkilərin bioloji fəal birləşməsi olan qarışıqların stress vəziyyətlərdə farmakoloji fəallığının, tərkibi 40 hissə Dəniz kələmi, 10 hissə şirquyruğu otu, 10 hissə yatıq qanqal, 10 hissə itburnu meyvələri və 10 hissə çobanyastığı çiçəklərinin aktiv çıxarışından ibarət, şərti laborator adı “Antisklerozin” olan fitokompozisiyanın ateroskleroz əleyhinə farmakoloji fəallığının müqayisəli tədqiqi aparılmışdır. Müvafiq tədqiqatlar Qəniyev M., Əsmətov V., Yaqubov K., Əliyev A., Tahirov İ., Aydınqızı X., Hüseynova G., Poluxova Ş,, Babayeva S., Abdulkərimova F., Məcidova Ü., Şadlinski E., Musayeva E. və dissertantlar tərfəindən aparılmışdır.

Hər iki bitkidən alınmış bioloji fəal birləşmələrin antioksidant xüsusiyyətə malik olduğu və metabolitik proseslərə müsbət təsirini nəzərə alaraq, onların müvafiq neyrofarmakoloji və neyrokimyəvi testlər üzrə tədqiqi, meksidol və pirasetamla müqayisəli şəkildə aparılmışdır. Müvafiq bitkilərdən alınmış bioloji aktiv birləşmələrin effektiv istifadə dozaları, kəskin toksikliyi, baş beyin strukturlarında (striatum, beyinin alın payı) lipid peroksid məhsulların, qanda lipid peroksid məhsullarının miqdarına təsiri öyrənilmişdir. 2013-cü ildən başlayaraq reproduktiv farmakologiya istiqamətində elmi tədqiqat işləri aparılmağa başlanılmıdır. 2020-

2025-ci illərdə butirofenon və dibenzadiazepin törəmələri qrupundan olan psixoleptiklərin klassik nümayəndələri- haloperidol və klozapinin, potensial neyro-psixoaktiv fəallığa malik olan etanolun hamiləlik, nəslin prenatal və erkən postnatal inkişaf dövrlərinə, eləcə də diamidfosfat və antrasiklinlər qrupundan olan bəzi sitostatiklərin dölün prenatal inkişaf dövrünə təsirinin müqayisəli eksperimental tədqiqatlar həyata keçirilir. Müvafiq tədqiqatlar Kazımova A., Rüstəmova M., Heybətova M. tərəfindən həyata keçirilmişdir.

Bu tədqiqatların yekunu kimi alınan, xüsusən aşağıdakı nəticələrin elmi-praktik əhəmiyyəti daha yüksək qiymətləndirilir:

-Neyrotrop maddələr qrupunun psixomotor stimulyatorlar, antipsixotik maddələr və antioksidantlar kimi nümayəndələrinin təsir mexanizmlərinin tədqiqinin nəticələri.

a) psixostimulyatorların təsir mexanizmində beyinin katexolaminergik və aminturşu mediatorları sistemlərinin müqayisəli rolunun öyrənilməsi. Mezokarbın təsir mexanizmində noradrenergik sistemlə yanaşı, mezolimbik dofaminergik sistemin də mühüm rol oynadığının müəyyən edilməsi. Preparatın dofaminergik proseslərlə əlaqələndirilən əlavə təsirləri daha az törətməsinin, digər dofaminergik sistemlərlə müqayisədə mezolimbik strukturlara qarşı daha yüksək tropluğu ilə bağlı olmasının eksperimental təsdiqi. Mezokarbın təsir mexanizmində pre- və postsinaptik noradrenergik və dofaminergik reseptorların, eləcə də aminturşu mediatorlarının (QAYT, qlutamat və aspartat) rolunun müəyyən edilməsi.

b) Antipsixotik maddələrin tipik və atipik təsirli nümayəndələrinin təsir mexanizmində müxtəlif lokalizasiyalı dofamin reseptorlarının, aminturşu mediatorlarının, lipidlərin oksidləşmə-reduksiya reaksiyalarının rolunun öyrənilməsi və onların neyrokimyəvi autorequlyator dofaminergik proseslərə fərqli təsirlərinin müəyyən edilməsi. Benzamid törəmələri qrupunun şərti laborator şrifti İF-8890, İF-8897, T-707, NSŞT-171, NSŞT-174, eləcə də aminotetralin törəmələrinin AJ-76 və UH-232 kimi nümayəndələrində antipsixotik aktivliyin müəyyən edilməsi.

c) Antipsixotik maddələrin müxtəlif kimyəvi qrupdan olan nümayəndələrinin yaddaşın formalaşması prosesinə, baş beyinin inteqrativ və koqnitiv funksiyalarına təsirinin tədqiqi, neyroleptiklərin törətdiyi yaddaş pozğunluqlarının farmakoloji korreksiyasının eksperimental modelinin hazırlanması.

d) Antipsixotik maddələrin lipidlərin oksidləşmə-reduksiya prosesinə təsirinin öyrənilməsi və bu reaksiyaların neyroleptiklərin təsir mexanizmində mühüm rol oynadığının müəyyən edilməsi. Antioksidantların tipik neyroleptiklərlə birgə istifadəsi zamanı sonuncuların törətdiyi ektrapiramid pozğunluqların intensivliyinin nəzərəçarpacaq dərəcədə azalması və buna əsaslanaraq hazırlanacaq neyroleptik (haloperidol) və antioksidant birgə kombinə olunmuş dərman formasının eksperimentdə farmakoloji fəallığının təsdiqi nəticələri.

e) Antioksidantlar qrupunun nümayəndəsi meksidolun klinikaya qədərki tədqiqatının nəticələri, eləcə də bu preparatın müxtəlif ekstremal vəziyyətlərin korreksiyasında potensial aktiv birləşmə olduğunun müəyyən edilməsi.

f) Kalsium kanalı antaqonistlərində neyrotrop fəallığın, eləcə də antipsixotik maddələrin əlavə effektlərinin effektiv korrektoru olduğunu təsdiqləyən eksperimental tədqiqatların nəticələri.

Son illəir kafedrada aparılan elmi-tədqiqtların ən çox ümüd verən istiqamətlərindən biri də, müxtəlif kimyəvi qruplardan olan dərman maddələrinin pre və postnatal inkişaf mərhələlərinə müqayisəli təsirinin öyrənilməsidir. Bu istiqamətdə kalsium antaqonistlərinin müxtəlif kimyəvi qruplardan olan nümayəndələrinin, butirofenon və dibenzadiazepin törəmələri qrupundan olan antipsixotik maddələrin, diamidfosfat və antrasiklinlər qrupundan olan bəzi sitostatiklərin, eləcə də etanolun tədqiqi istiqamətində alınan nəticələr mühüm praktik əhəmiyyət kəsb edir. Bu dərman qruplarının hər biri hazırda tibbin müxtəlif sahələrində geniş istifadə olunur. Nəzərə almaq lazımdır ki, onların tətbiqi istiqamətində də istər etnik, istərsə də cinsi fərqlilik xüsusi əhəmiyyət kəsb etmir. Məsələn, kardiologiya praktikasında istifadə olunan kalsium antaqonistlərinin, eləcə də psixotrop maddə kimi istifadə imkanları yüksək dəyərləndirilən butirofenon və dibenzadiazepin törəmələrinin, onkoloji xəstəliklərin kimya-terapiyasında seçim preparatları sayılan diamidfosfat və antrasiklinlər qrupundan olan bəzi sitostatiklərin, eləcə də etanolun istifadəsində cinslər arasında əsaslı fərdlilik yoxdur. Aparılan tədqiqatın ilkin nəticələri söyləməyə əsas verir ki, bu qruplardan olan dərman maddələrinin bir çoxu təkrari qəbulda prenatal inkişafın müxtəlif mərhələlərində döldə ciddi keyfiyyət dəyişiklikləri törətmir, terotogen və embriotiksik təsir xüsusiyyətləri prinsipial əhəmiyyət kəsb etmir. Bu tədqiqatlar başlanğıc mərhələdə olsa da, tədqiqata cəlb olunan dərman qruplarının əksər nümayəndələrinin tibbi praktikada təkrari və uzunmüddətli qəbulu, zərurətdən irəli gələn reallıq olduğundan, hazırda aldığımız ilk müsbət və uğurlu nəticələrin praktik dəyərinin yüksək olacağı heç bir şübhə doğurmur. Digər tərəfdən, göstərilən dərman maddələrinin hər iki cinsdən olan təcrübə heyvanlarına təsirinin müqayisəli tədqiqi, reproduktiv funksiyaya təsirinin hərtərəfli araşdırılması, yeni törənən nəslin fiziki inkişafı, hərəki-sensor reflekslərin formalaşması sürəti və şərti passiv qorunma reaksiyalarında baş verə biləcək dəyişikliklər, eləcə də monoaminergik sistemin neyrokimyəvi parametrlərində törənən kəmiyyət və keyfiyyət dəyişikliklərinin tədqiqinin də praktik dəyəri nəzərəçarpacaq dərəcədə mühümdür. Çünki, müvafiq preparatların təhlükəsizlik göstəricisi və istifadə imkanlarının dəyərləndirilməsi baxımından, neyrofarmakoloji və neyrokimyəvi göstəricilərin müqayisəli təhlili nəticələrinin, praktik təbabətə gətirəcəyi fayda xüsusilə vurğulanmalıdır.

Dərmanşünaslıqla sıx əlaqəli, tibbin nəzəri əsasını təşkil edən baza fənnlərindən biri olduğu üçün, dövrün tələblərinə cavab verən, farmakoloq kadrların hazırlanması, kafedranın yarandığı ilk illərdən, müasir dövrümüzə qədər, daima prioritet məsələlərdən biri olmuşdur.

Türkiyə, Rusiya, Çin kimi ölkələrin qabaqcıl farmakoloji məktəblərilə qarşılıqlı elmi əməkdaşlıq əsasında planlaşdırılan elmi tədqiqatlar, kadr mübadiləsi, yaxın gələcəkdə ölkəmizdə, xüsusən müalicəvi əhəmiyyət kəsb edən təbii vasitələrin (məs. Naftalan nefti) və dərman bitki xammalının farmakoloji tədqiqi istiqamətində praktik əhəmiyyət kəsb edəcək daha uğurlu elmi nəticələr alınacağını və perspektivli gənc

farmakoloq kadrlarının yetişəcəyini söyləməyə əsas verir. Son illərdə dərc olunan dərslik və dərs vəsaitləri:

1. M. M. Qəniyev “Farmakologiya” dərslik, I hissə, Bakı, 2019, 497 səh.
2. M. M. Qəniyev, F. D. Abdulkərimova “Ümumi reseptura” dərslik, Bakı, 2018, 326 səh.
3. V.Y.Əsmətov, S.T.Quliyeva, A. N. Əliyev “Tənəffüs orqanlarının funksiyasına təsir göstərən dərman maddələrinin farmakologiyası” dərs vəsaiti, Bakı, 2023
4. Əsmətov V.Y., Qəniyev M.M., Qasımova G.N., A. N. Əliyev “Farmakologiya Təcrübə-məşğələlər” dərs vəsaiti, Bakı, 2023 Ali Təhsil haqqında Qanuna müvafiq olaraq farmakologiya -magistr hazırlığını nəzərdə tutan yeni tədris proqramları tərtib olunmuşdur. Bu proqramın hazırlanmasında tədris sahəsində kafedranın çoxillik iş təcrübəsi, həmçinin digər ölkələrin xüsusilə Türkiyə Cumhuriyyəti Universitetlərinin bu sahədə təcrübəsi nəzərə alınmışdır.

2024-2025-ci illər ərzində əməkdaşlarımızın **Scopus və Web of Science bazasında indeksləşən Q1, Q2, Q3 və Q4 kvartilli jurnallarda məqalələri çap olunmuşdur.**

Şübhəsiz ki, bu cür elmi əməkdaşlıqların daha da inkişaf etdirilməsi imkan verəcək ki, kafedra olaraq yaxın gələcəkdə, daha prioritet elmi nəticələr alaq, yetişəcək farmakoloqların potensial elmi imkanları, eləcə də vətən farmakologiyası, öz elmi nəzəri və eksperimental bazasına görə, digər təbabət elmləri içərisində layiq olduğu yeri tutsun.

Summary

MAIN RESEARCH AREAS CONDUCTED AT THE DEPARTMENT OF PHARMACOLOGY MAJOR ACHIEVEMENTS, PROBLEMS, AND CHALLENGES (2021-2025)

M.M.Ganiyev, K.M.Yaqubov, A.U.Kazimova, N.T.Bayramov
ATU, Department of Pharmacology

Keywords: Pharmacology, scientific direction, personnel training

Although the history of pharmacology is as ancient as the origins of human society, the development of this science in our country dates back to the period following the establishment of the Department of Pharmacology. Research work at the Department of Pharmacology was carried out primarily in the direction of studying toxic alkaloids, and in subsequent years this research was devoted to the study of natural medicines, and such work is currently ongoing. Since 2019, scientific work has been conducted on a comprehensive experimental pharmacological study of natural and synthetic drugs with neuropsychoactive activity and extracts from various medicinal plants with probable similar activity, as well as on the development of experimental treatment methods for central changes that occur during neuroleptotherapy. This research project is part of and continues the general research direction planned for the department over the past 35 years in the area of "Obtaining

and Studying Biologically Active Substances of Natural and Synthetic Origin." This research project is part of the department's established work plan and is being implemented in accordance with an agreement concluded between the AMU Research Center, the Institute of Physiology of the National Academy of Sciences, the departments of pharmacognosy and pharmaceutical chemistry of the Faculty of Pharmacy, the pharmacology departments of several Turkish universities, and the V.V. Zakusov Institute of Pharmacology of the Russian Federation. One of the areas of research conducted at the department in recent years is the comparative impact of drugs of different chemical groups on the stages of pre- and postnatal development. Since pharmacology is one of the fundamental disciplines that form the theoretical basis of medicine, the training of pharmacologists who meet the demands of the times has always been one of the department's priorities. In addition to a series of textbooks, teaching aids, methodological manuals and recommendations published by the staff of the Department of Pharmacology, in 2024-2025, articles were published in journals indexed in Scopus and Web of Science, included in quartiles Q1, Q2, Q3 and Q4. Such scientific collaboration will undoubtedly enable the department to continue its development, and in the near future, it will achieve even more high-priority scientific results.

ƏCZAÇILIQ KİMYASI KAFEDRASININ FAƏLİYYƏTİ: NAİLİYYƏTLƏR, PERSPEKTİVLƏR (2021-2025-ci illər)

Tahir Süleymanov, Vaqif İsgəndərov, Cəmilə Yusifova, Fuad Məmmədov, Emilya Balayeva

Azərbaycan Tibb Universiteti, əczaçılıq kimyası kafedrası

Açar sözlər: əczaçılıq kimyası, məqsədyönlü sintez, dərman vasitələrinin analizi, tədris-metodik işlər

Azərbaycanda əczaçılıq kimyası elminin inkişafı əczaçılıq kimyası kafedrasının yaranması və inkişafı ilə sıx bağlıdır. Əczaçılıq kimyası kafedrasının yaranması 1938-ci ilin sonunda Azərbaycan Dövlət Əczaçılıq İnstitutunun təşkili ilə əlaqədardır və bu kafedra institutun ilk kafedralarından biri olmuşdur. 1941-ci il sentyabr ayının l-dən Əczaçılıq İnstitutu Azərbaycan Dövlət Tibb İnstitutunun tərkibinə fakültə kimi daxil edildikdən sonra əczaçılıq kimyası kafedrası ATİ-nin müstəqil kafedrası kimi fəaliyyətə başlamışdır [1].

Kafedranın təşkilatçısı və ilk müdiri professor **İsaak Konstantinoviç Qolberq** (1882-1957) olmuşdur. O, 1938-ci ildən 1957-ci ilə qədər kafedraya rəhbərlik etmişdir.

1959-1965-ci illərdə kafedraya kimya üzrə fəlsəfə doktoru, dosent **Slambek Xangireyeviç Dzotsoti**, 1965-ci ildən 2013-cü ilin may ayına qədər professor ***Hafiz Məmmədrəhim oğlu Əliyev*** rəhbərlik etmişdir [1; 2].

*2013-cü ilin may ayından hal-hazıra qədər kafedraya professor **Tahir Abbasəli oğlu Süleymanov** rəhbərlik edir.*

Kafedranın fəaliyyəti əsasən tədris, tədris-metodik, elmi və ictimai işlər kimi

istiqamətləri əhatə edir.

I. Elmi-tədqiqat işləri

Qeyd olunmalıdır ki, kafedranın əsas fəaliiyətinin yüksək ixtisaslı əczaçı kadrların hazırlanması olmasına baxmayaraq, elmi tədqiqat işləri əsas fəaliyyət istiqamətlərindədir.

Kafedranın elmi-tədqiqat sahəsində fəaliyyəti əsasən iki istiqamətdə aparılır.

Birinci istiqamət - dərman maddələrinin tədqiq olunması üçün yeni, həssas və səciyyəvi üsulların yaradılması, həmçinin mövcud üsulların təkmilləşdirilməsini əhatə edir. **İkinci istiqamət** - təbii və sintetik mənşəli bioloji fəal maddələrin tədqiqidir. Bu tədqiqatların bir hissəsi təbii maddələrin farmakokimyasma aid olub, bitki və heyvan mənşəli xammalın öyrənilməsinə həsr edilmişdir.

Birinci istiqamət üzrə hesabat dövründə (2020-2024-cü illər) tədqiqatlar kafedrada aşağıdakı əməkdaşlar və dissertantlar tərəfindən yerinə yetirilmişdir: prof. Tahir Süleymanov, dos. Vaqif İskəndərov, dos. Cəmilə Yusifova, dos. Fuad Məmmədov, baş müəl. Emilya Balayeva və Tahirə Hacıbəyli, assistentlər: Könül Ağamirzəyeva, Kəmalə Hüseynova, Hüseyn Əliyev, Dostu Qafarova və Gülnar Zeynalova, dissertantlar: Sənəm Əliyeva, Razim Şükürov, Çingiz Şükürov, Aytəkin Qəribli, Süsən Abbasova, Nigar Paşayeva və Jalə Fərəcova.

Son illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilən Qrant layihəsi (layihənin həmrəhbəri prof.Tahir Süleymanov) çərçivəsində kafedrada müasir elmi-tədqiqat laboratoriyasının qurulması əczaçılıq analizinin müasir üsullarını tətbiq etməyə imkan yaratmışdır.

Yüksək effektli maye xromatoqrafiyanın tətbiqi ilə bir sıra preparatların keyfiyyətinə nəzarət məqsədilə yeni üsullar işlənilib hazırlanmışdır. “Kalinol+”, “Fagolin”, “Levofloxacin-polimer”, immunosupressant dərman preparatları: sirolimus, everolimus və takroliumusun analizi üçün YEMX üsulları işlənilib hazırlanmış və validasiya qiymətləndirilməsi həyata keçirilmişdir.

“Fagolin” preparatının YEMX ilə miqdarı təyini üsulu işlənib hazırlanmış və onun validasiya qiymətləndirilməsi həyata keçirilmiş və müvafiq protokol hazırlanmışdır.

“Kalinol plus” şərbətində timolun yüksək effektli maye xromatoqrafiya ilə miqdari təyini üsulunun validasiyası həyata keçirilmiş və müvafiq hesabat hazırlanmışdır [3].

Son dövrlərdə immun sisteminin vəziyyətinin qiymətləndirilməsi məqsədilə biolojı mayelərdə immunosupressant faktorların analizi geniş istifadə olunur.

Qan nümunəsində takrolimus, everolimus, sirolimus və siklosporin A-nın yüksək effektli maye xromatoqrafiya-kütlə spektrometriya/ kütlə spektrometriya ilə miqdarı təyini üsulu işlənilib hazırlanmışdır. Üsulun validasiya qiymətləndirilməsi aparılmış, düzgünlük, dəqiqlik və xəttilik təyin edilmişdir. Üsulun düzgünlük göstəricisi sərhədləri takrolimus üçün 81.7%-dən 101,8%-ə qədər; everolimus üçün 98%-dən 118.8%-ə qədər; sirolimus üçün 89%-dan 112.1%-ə qədər; siklosporin A üçün 92.3%-dən 108.2%-ə qədər; dəqiqlik göstəricisinin standart kənaraçıxması: takrolimus 6.7%; everolimus 3.1%; sirolimus 0.42%; siklosporin A 0.24%; xəttilik

göstəricisi: 1-25 ppb/ µl (takrolimus R^2=0.997; sirolimus R^2=0.996; everolimus R^2=0.995; siklosporin A R^2=0.999) qatılıq intervalındadır [4; 5].

Tor implantın tərkibində verilən prolonqasiya edilmiş levofloksasinin qanda miqdarı təyini üçün UB-spektrofotometriya üsulu işlənilib hazırlanmışdır.

Üsulun validasiya qiymətləndirilməsi aparılmış və üsulun düzgünlük göstəricisinin etibarlılıq intervalı 0.53; dəqiqlik göstəricisinin nisbi standart kənaraçıxması: I gün-0.13, II gün-0.25; xəttilik göstəricisi: 0.5-2.5 µ/ml (R^2=0.999) qatılıq intervalında olması müəyyən edilmişdir [6].

Levotiroksin polimerin qanda YEMX ilə analiz üsulu işlənilib hazırlanmışdır [7].

Spektrofotometriya üsulu ilə omeprazol, esomeprazol, prolanqasiyaedilmiş levofloksasin, tamsulozin-hidroxlorid və sumatriptanın müxtəlif dərman formalarıanaliz edilmişdir.

Omeprazol və ezomeprazolun substansiya və müxtəlif preparatlarda spektrofotometrik analiz üsullarının işlənib hazırlanmış və onların validasiya qiymətləndirilməsi aparılmışdır. Ümumi həlledici kimi 96%-li etil spirti seçilmişdir. Təyinatın dalğa uzunluqları kimi 295 nm müəyyən edilmişdir. Təyinatın nisbi xətası “Omeprazol” kapsullarda ± 1.2%, “Omeqast” kapsulları üçün ± 0.51%, “Esom” kapsulları üçün ± 0.39% təşkil edir.

“Megrifit 1A” tabletlər, “Sumitrex”, “İmigran 50” və “İmigran 100”örtüklü tabletlərində sumatriptanın UB sahədə spektrofotometriya ilə miqdarı təyinatı aparılmışdır. Sumatriptanın standart nümunəsinin həlledici kimi 0.9%-li NaCl məhlulunun və təmizlənmiş su istifadəsi ilə miqdarı təyini metodikasının validasiyası aparılmışdır.

Tamsulozin-hidroxloridin standart nümunədə, “Tulozin” və “Ornadeks” kapsullarında, silodozinin “Urorek” kapsullarında spektrofotometrik üsulla eyniliyinin təyini üçün optimal şərait müəyyən edilmişdir. Təyinatda həlledicilər kimi 96%-li etil spirti, 1 M NaOH və 1 M HCl istifadə olunmuşlar. Tamsulozinin standart nümunədə, “Tulozin” və “Ornadeks” kapsullarında həlledici kimi 96%-li etil spirti istifadə olunmaqla UB sahədə spektrofotometriya üsulu ilə miqdarı təyinatı aparılmışdır. Təyinatın nisbi xətası tamsulozin standart nümunəsi üçün ± 0.25%, “Tulozin” kapsulları üçün ± 0.93%, “Ornadeks” kapsulları üçün ± 1.43% təşkil edir [8; 9].

Qreyfrut (Citrus paradisi) ekstraktında naringinin eləcədə dərman gülxətmi ekstraktı əsasında hazırlanmış “Altex” şərbətində polisaxaridlərin miqdarı təyinləri məqsədilə YEMX üsulu işlənilib hazırlanmış və validasiya qiymətləndirilməsi aparılmışdır [10; 11].

Son illərdə kafedrada aparılan elmi tədqiqat işlərinin əczaçılıq praktikasına tətbiqi istiqamətində müvəffəqiyyətli addımlar atılmaqdadır. Belə ki, Milli Onkologiya Mərkəzi nəzdində “Nüvə təbabəti” şöbəsində radiofarmasevtik preparatların istehsalı və istifadəsi zamanı preparatların keyfiyyətinə nəzarəti həyata keçirmək məqsədilə bir sıra yeni analiz üsulları işlənilib hazırlanmış və tətbiq edilir.

Milli Onkologiya Mərkəzi Nüvə Təbabəti şöbəsində istehsal edilən “69 GaFAPI46” ^{18}F-FDG YEMX vasitəsilə və AcPSMA preparatlarının miqdari təyinat üsulunun validasiyası aparılmış və spesifiklik, dəqiqlik, düzgünlük, xəttilik, təyinolunma həddi, miqdari təyinolunma həddi, dayanıqlıq kimi validasiya göstəriciləri təyin edilmişdir [12].

İkinci istiqamət

Respublika florasından olan təbii mənbələrdən bioloji fəal maddələrin alınması və tədqiqi istiqamətində aparılan işlər aktual və perspektivlidir. Belə ki, tərkibində bioloji fəal maddələr olan yeni xammal mənbələrinin müəyyən olunması istiqamətində aparılan işlər, xüsusilə müstəqil ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir.

Təbii birləşmələrin farmakokimyəvi tədqiqi istiqamətində Alcea, Salvia L., Phlomis L., Medicago L., Veronica L., Vicia L., Fraxinus L., Sephalaria və Scabiosa. cinslərinə aid bitki növləri kafedra əməkdaşları prof. T.A.Süleymanov, dos. C.Y.Yusifova, baş müəllim Tahirə Hacıbəyli və assistentlər Könül Ağamirzəyeva, Kəmalə Hüseynova, dissertantlar Sənəm Əliyeva, Aytən Şükürova, Nigar Paşayeva, Aytəkin Qəribli tərəfindən tədqiq olunmuşdur.

Şərq fıstığı yağı əsasında yeni dərman vasitəsi olan “***Fagolin***” məlhəmi işlənilib hazırlanmış, AR Səhiyyə Nazirliyində yeni dərman vasitəsi kimi qeydiyyata alınmış və hal hazırda reparativ prosesləri stimullaşdırıcı vasitə kimi tibb təcrübəsində istifadə olunur. Preparatın YEMX üsulu ilə miqdarı təyini üsulu işlənilib hazırlanmış və validasiya qiymətləndirilməsi aparılmışdır.

Corylus avellana L. – adi fındıq yarpaqlarından mirisetin, kversetin, kempferol, afzelin, kversitrin flavonoidləri alınmış, yarpaqların spirtli ekstraktı əsasında damar möhkəmləndirici vasitə olan “Venocoryl” məlhəmi və hepatoprotektor təsirə malik “Corylexin” tabletləri kimi yeni dərman vasitələri hazırlanmışdır.

Sitrus bitkilərdən bioaktiv maddələr kompleksi alınmış, fərdi maddələrə ayrılaraq tərkibi öyrənilmiş və kompleksin antioksidant fəallığa malik olduğu aşkar edilmişdir [13].

Azərbaycan florasında ***Medicago sativa*** – əkin yoncası bitkisinin bioaktiv maddələr kompleksi alınmış, fərdi maddələrər ayrılaraq tərkibi öyrənilmiş və kompleksin antioksidant fəallığa malik olduğu aşkar edilmişdir [15].

Tədqiqatlar nəticəsində *M. orbicularis* L. növünün fenol birləşmələri, o cümlədən flavonoidlərlə zəngin olduğu müşahidə edilmişdir. Əsasən etilasetat və n-butanol fraksiyaları işlənilmişdir. Yüksək rezulyasiyalı mass spektroskopiyası (HR-MS) ilə aparılan analizdə etilasetat fraksiyasında lüteolin, izokversetin, izolikviritigenin, bioxanin A, kempferol 3-O-rutinozid, rutin, kempferol-3–O-qlükozid, 7.4`-dihidroflavon, 7,3`,4` - trihidroksiflavon, formononetin, likviritin, qall turşusu, 7-[(2-O-alfa-L-ramnopiranozil-beta-D-qlükopiranozil-oksi]-3',4',5-trihidroksiflavanon, maddələrinin olduğu müəyyən edilmişdir. N-butanol fraksiyasında isə isoramnetin-3-O-qlükozid, kversetin 3,4`-O-di-qlükozid, lüteolin-

7,3`-di-O-qlükozid, kempferol-3-O-rutinozid, isokversetin, apigenin maddələrinin olduğu *in silico* müəyyən edilmişdir [16].

Phlomis pungens ekstraktı və onun əsasında hazırlanmış tabletlərin antidiabetik təsiri aşkar edilmişdir [17].

Veronica crystagalli növünün iridoid tərkibi öyrənilmişdir. Nəticədə iridoid birləşmələrinə məxsus 6 maddə alınmışdır. Fiziki-kimyəvi xassələri xromatoqrafik və spektroskopik tədqiqatlar nəticəsində alınan maddələr Veronikozid, verprozid, katolpozid və skutellozid turşusunun benzol efiri kimi identifikasiya edilmişdir. Göstərilən maddələr *Veronica crystagalli* növündən ilk dəfə alınmışdır [18].

Müəyyən edilmiş normativlər əsasında xammala dair normativ sənəd-müvəqqəti Farmakopeya Məqaləsi hazırlanmış və təsdiq üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Farmakopeya və Farmakologiya Ekspert Şurasında təsdiq edilmişdir.

Visia faba xammalında flavonoidlər tədqiq olunmuş və spektrofotometriya üsulu ilə flavonoidlərinin miqdarının 2,34 % olduğu aşkar edilmişdir. İlk dəfə olaraq xammaldan apigenin, kempferol və kversetin flavonoidləri alınmış və identifikasiya edilmişdir. *Rosa damascena* xammalının istehsalat tullantısından flavonoidlər alınmış və identifikasiya edilmişdir [19].

Azərbaycan florasında *Verbascum* (Sığırquyruğu) cinsinə aid 25 növ yayılmışdır. *V.stachydiforme* və *V.thapsus* növlərinin xammalında flavonoidlər, iridoidlər, kumarinlər və saponinlərlə zəngin olduğu müəyyən edilmişdir.

V.stachydiforme növü otundan flavonoid və iridoid məcmusu alınmış və komplekslərin tərkibində 30-a qədər maddənin olduğu aaşkar edilmişdir. Hər iki növə aid xammalın element tərkibinin tədqiqi nəticəsində müvafiq olaraq 25 elementin olduğu müəyyən edilmişdir.

Verbascum pyramidatum xammalının iridoid tərkibi araşdırılmış, nəticədə spirtli ekstraktın butanol fraksiyasından 5 maddə alınmışdır. Hal-hazırda maddələrin identifikasiyası üzrə tədqiqatlar davam etdirilir [20].

Aparılan fitokimyəvi tədqiqatlar nəticəsində *E.dodonaei və E.angustifolium* xammalının flavonoid və saponinlərlə zəngin olduğu aşkar edilmişdir.

Xammaldan fenol birləşmələri məcmuyu alınmış, tərkib hissələrinə bölünmüş, 5 fərdi maddə alınmışdır. Maddələrin identifikasiyası üzrə tədqiqatlar davam etdirilir.

Spektrofotometriya üsulu ilə xammalda flavonoidlərin miqdarı təyini aparılmış, *E.dodonaei* xammalında 2,19 % , *E.angustifolium* xammalında isə 2,77 % təşkil etdiyi aşkarlanmışdır [21].

Thymus Grossheimii Rovnn. in Fedde növünün fitokimyəvi tədqiqi aparılmışdır.

Xammaldan efir yağı alınmış və tərkibi qaz xromatoqrafiyası üsulu ilə tədqiq edilmiş və efir yağ tərkibində 49 komponentin olduğu aşkar edilmişdir. [22].

Hal-hazırda müxtəlif bioloji və yaxud farmakoloji fəallığa malik olan birləşmələrin **məqsədyönlü sintez**inə üstünlük verilir. Bu baxımdan antifunqal və şiş əleyhinə fəallığa malik yeni birləşmələrin sintezi aktuallıq kəsb edir.

Bu səbəblə əlaqədar olaraq tərkibində piperazin halqası olan ditiokarbamat törəmələri sintez edilmişdir.

Nəticədə ditiokarbomat törəməsi olan 15 yeni maddə sintez edilmişdir. Ilk dəfə sintez olunan 2-((4-morfolinfenil)amino)-2-oksoetil 4-(4-metilbenzil) piperazin-1-karboditioat maddəsi CAS (Chemical Abstracts Service, USA) tərəfindən yeni maddə kimi (RN: 2055204-10-7)[9] qeydiyyata alınmışdır.

Yeni sintez olunmuş 2-((4-(4-metilpiperazin-1-il)fenil)amino)-2-oksoetil 4-etilpiperazin-1- karboditioat (A5) maddəsi ən aktiv fungisid təsirli olmaqla antifunqal preparat kimi təklif edilmişdir [23].

Hesabat dövründə kafedrada aşağıdakı dissertasiya işləri yekunlaşdırılmışdır:

1.Mövzu: «Phlomis L. (Odotu) cinsinə aid bəzi növlərin farmakoqnostik öyrənilməsi».

İcraçı: dissertant Şükürova Aytən Sadiq qızı

Elmi rəhbər: prof. T.A.Süleymanov.

Əczaçılıq ixtisası üzrə birdəfəlik Dissertasiya Şurasında müdafiə etmiş, AAK-da təsdiq olunmuş və fəlsəfə doktorluğu diplomunu almışdır.

2. Mövzu: «Bitki mənşəli bəzi dərman preparatlarının miqdarı təyini üsullarının validasiyası».

İcraçı: doktorant Balayeva Emilya Zakir qızı

Elmi rəhbər: prof. T.A.Süleymanov.

Əczaçılıq ixtisası üzrə birdəfəlik Dissertasiya Şurasında müdafiə etmiş, AAK-da təsdiq olunmuş və fəlsəfə doktorluğu diplomunu almışdır.

3.Mövzu: «Ditiokarbomat törəmələrinin sintezi və bioloji fəallığının öyrənilməsi».

İcraçı: doktorant Şükürov Çingiz Yavər oğlu

Elmi rəhbər: prof. T.A.Süleymanov.

Əczaçılıq ixtisası üzrə birdəfəlik Dissertasiya Şurasında müdafiə etmiş, hal-hazırda AAK-da təsdiq mərhələsindədir.

4.Mövzu: «Medicago L. cinsinə aid bəzi növlərin xammalının fitokimyəvi tədqiq və standartlaşdırılması».

İcraçı: doktorant Qəribli Aytəkin Səbuhi qızı

Elmi rəhbər: prof. T.A.Süleymanov.

Əczaçılıq ixtisası üzrə birdəfəlik Dissertasiya Şurasında müdafiə etmiş, hal-hazırda AAK-da təsdiq mərhələsindədir.

5.Mövzu: « Azərbaycan Respublikasında istehsal olunan bəzi radiofarmasevtik preparatların keyfiyyətinin təyini üçün müasir üsulların işlənib hazırlanması və validasiyası».

İcraçı: dissertant Şükürov Razim Tahir oğlu

Elmi rəhbər: prof. T.A.Süleymanov.

Dissertasiya işini yekunlaşdırmış və kafedralararası ilkin müzakirədən keçmişdir.

Hal-hazırda kafedrada 4 nəfər əczaçılıq üzrə fəlsəfə doktorluğu, 1 nəfər isə əczaçılıq elmləri doktorluğu dissertasiya işləri üzərində çalışır.

II. Tədris və tədris-metodiki işlər

Kafedranın tədris və tədris-metodik işlərinə dair əvvəlki illər üzrə fəaliyyəti haqqında geniş məlumat verilmişdir [1].

Kafedrada dərslər əczaçılıq fakultəsinin bakalavr və magistr pillərində təhsil alan tələbələrə azərbaycan, ingilis və rus dillərində aparılır.

Giriş. XX əsrin əvvəllərində tənəffüs yolları xəstəliklərinin müalicəsində bəlğəmin reoloji xüsusiyyətlərini dəyişmək məqsədilə spesifik maddələrin tətbiqi ideyası ortaya çıxdı. 1960-cı illərdə kükürd tərkibli birləşmələr əsasında ilk effektiv mukolitiklərdən biri olan asetilsistein yaradıldı. Bununla yanaşı sonra da asetilsisteinin antioksidant xüsusiyyətləri də müəyyənləşdirildi ki, bu da onun tətbiq sahəsini daha da genişləndirdi [1, 4].

Asetilsisteinin substansiya və dərman preparatlarında miqdarı təyini üçün müxtəlif kimyəvi və fiziki-kimyəvi üsullar tətbiq olunur. Bu üsullar sırasında spektrofotometriya xüsusi yer tutur [6-7]. Tədqiqatlardan bəzilərini təqdim edirik. N-asetil-L-sisteinin dərman preparatlarında miqdarı təyini üçün Cu(II) kompleksin əmələgəlməsinə (λmax = 483 nm) [3], o-ftalaldehid və izoleysinlə reaksiyasına (λmax= 335 nm) [2], Fe(III)-kompleksinin əmələgəlməsinə [5] əsaslanan spektrofotometrik üsullar təklif olunub.

Işin məqsədi bəzi çoxkomponentli preparatlarda həlledici kimi etanol-asetat turşusu (2:1) istifadə olunmaqla asetilsisteinin spektrofotometrik miqdarı təyinat üsullarının işlənib hazırlanmasıdır.

Material və metodlar. Tədqiqat obyekti kimi istifadə olunmuşdur. Asetilsisteinin standart nümunəsi: seriyası: 20/609/26, yararlılıq müddəti: 22.11.2018, Türkiyə istehsalı. “Fitokof” şərbəti, tərkibi: hər 10 ml şərbətin tərkibində vardır: asetilsistein 200 mq, adi kəklikotu otunun ekstraktı – 300 mq, dərman gülxətmi kökünün ekstraktı – 600 mq; dərman novruzgülü kökünün ekstraktı – 55 mq, cökə çiçəklərinin ekstraktı – 520 mq, C vitamini – 40 mq, bal – 0,5 q. “Koç İlaç”, Türkiyə, 150 ml şərbət, seriyası: FTK0323, yararlılıq müddəti: 25.06.26. “Unkaston” şaşe, hər 1 şaşenin tərkibində vardır: asetilsistein 600 mq, bromelayn – 150 mq, C vitamini – 300 mq, natrium-sorbat – 200mg. “Erbozeta” San Marino Respublikası, N20 şase, seriyası: V641, yararlılıq müddəti: 12.2025.

İşçi reagentlər kimi duru asetat turşusu, 96%-li etil spirti, 1 M NaOH məhlulu, təmizlənmiş su istifadə olunublar. Tədqiqatın aparılması üçün “Aoste Precision Balance” HS 2009 (ÇXR) markalı elektron analitik tərəzidən, «Agilent Technologies Cary 60 UV-Vis» (ABŞ) spektrofotometrindən istifadə olunmuşdur.

Spektrofotometrik miqdarı təyini metodikaları:

Asetilsisteinin standart nümunədə spektrofotometriya ilə miqdarı təyini üçün işçi məhlulunun hazırlanma metodikası: 0.001 qr (dəqiq kütlə) asetilsistein standart nümunə tozu analitik tərəzidə çəkilərək həcmi 50 ml olan kolbaya keçirdilir. Üzərinə 20 ml etanol-asetat turşusu (2:1) məhlulu əlavə edilərək qarışdırılır. Sonra məhlulun həcmi etanol-asetat turşusu (2:1) məhlulu ilə ölçüyə çatdırılır. Alınmış məhlulun udma spektri qat qalınlığı 10 mm olan kvars küvetlərdə, 190-400 nm dalğa uzunluğu intervalında spektrofotometrdə çəkilir. 230 nm dalğa uzunluğunda olan optik sıxlığın göstəricisi əsasında miqdarı təyinatı aparılır.

Asetilsisteinin “Fitokof” şərbətində UB sahədə spektrofotometriya ilə miqdarı təyini üçün işçi məhlulunun hazırlanma metodikası: 5 ml (dəqiq həcm) “Fitokof” şərbəti məhlulu həcmi 50 ml olan kolbaya keçirdilir. Üzərinə 20 ml etanol-asetat turşusu (2:1) məhlulu əlavə edilərək qarışdırılır. Alınmış məhlul kağız filtri vasitəsi ilə süzülür və ardı asetilsistein substansiyada olduğu kimi davam etdirilir.

Asetilsisteinin “Unkaston” tozunda UB sahədə spektrofotometriya ilə miqdarı təyini üçün işçi məhlulunun hazırlanma metodikası:

0.67 qr (dəqiq kütlə) “Unkaston” tozu həcmi 50 ml olan kolbaya keçirilir. Üzərinə 20 ml etanol-asetat turşusu (2:1) məhlulu əlavə edilərək qarışdırılır. Alınmış

məhlul kağız filtri vasitəsi ilə süzülür və ardı asetilsistein substansiyada olduğu kimi davam etdirilir.

Dərman preparatlarında asetilsisteinin miqdarı (q-la) aşağıdakı düsturla hesablanmışdır:

$$X = \frac{D_{pr} \bullet m_{st} \bullet m_{orta} \bullet 50}{D_{st} \bullet m_{pr}}$$

burada,

D_{st} – asetilsisteinin standart nümunənin optik sıxlığı;

D_{pr} – yoxlanılan preparatın optik sıxlığı;

m_{st} – standart nümunə məhlulunda asetilsisteinin miqdarı, q-la,

m_{orta} – yoxlanılan preparatın orta nümunə kütləsi, q-la;

m_{pr} – yoxlanılan preparatın nümunə çəkisi, q-la;


50 – durulaşma.


Miqdarı təyinatın nəticələrinin statistik işlənməsi üçün *Styudentin t_α meyarı* üsulundan istifadə edilmişdir.

Nəticələr və onların müzakirəsi.

İlkin tədqiqatlar asetilsisteinin substansiyası, “Fitokof” şərbəti və “Unkaston” tozunda həlledicilər kimi 10%li NaOH, təmizlənmiş su, 96%-li etil spirti, duru CH_3COOH, 96% C_2H_5OH : duru CH_3COOH (1:1) və 96% C_2H_5OH : duru CH_3COOH (2:1) istifadə edilməsi ilə aparılmışdır. Tədqiqatların nəticəsində asetilsisteinin seçilmiş vasitələrdə spektrofotometrik təyini üçün optimal həlledici kimi 96% C_2H_5OH : duru CH_3COOH (2:1) müəyyən edilmişdir.

Asetilsisteinin standart nümunəsində, “Fitokof” şərbətində həlledici kimi 96% C_2H_5OH : duru CH_3COOH (2:1) istifadə etməklə spektrofotometik tədqiqinin nəticəsi şəkildə təqdim olunmuşdur. Şəkildən göründüyü kimi bu şəraitdə asetilsisteinin maksimum udması 230 nm dalğa uzunluğunda qeydə alınmışdır.

a) 

b) 

Şəkil. Asetilsistein standart nümunənin (a) “Fitkof” şərbətinin (b) 96% C_2H_5OH : duru CH_3COOH (2:1) həlledicidə udma spektri
Müqayisə məhlulu: 96% C_2H_5OH : duru CH_3COOH (2:1).

Asetilsisteinin “Fitkof” şərbəti və “Unkaston” tozunda həlledici kimi 96% C_2H_5OH : duru CH_3COOH (2:1) götürülməklə miqdarı təyininin nəticələri cədvəldə

verilmişdir. Cədvəldən görünür ki, “Fitkof” şərbətində təyinatın nisbi xətası ±2,21%; “Unkaston” tozunda ± ±1,8% təşkil edir. Alınmış nəticələr tədqiq edilən vasitələrin normativ sənədlərin tələblərinə cavab verdiyini göstərir.

Cədvəl. Asetilsisteinin “Fitkof” şərbətində, “Unkaston” tozunda spektrofotometrik üsulla miqdarı təyinatının nəticələri

Nümunə çəki, mq-la/ (inyeksiyada ml-lə)	Asetilsisteinin aşkarlanmış miqdarı (qr, %)		Metroloji xarakteristika
	q-la	%-lə	
“Fitokof” şərbətində təyinatın nəticələri			
5	0,197	98,5	X = 99,5%
5	0,194	97,0	S = 5,39
5	0,189	94,5	S_x = 2,2
5	0,196	98.0	ε_α = 5.65
5	0,198	99,0	A = ±2,21%
5	0,22	110	a = 97,3-101,7%
“Unkaston” tozunda təyinatın nəticələri			
0.67	0,191	98,5	X = 99,5%
0.65	0,194	97,0	S = 4,38
0.66	0,193	94,5	S_x = 1,79
0.65	0,21	98.0	ε_α = 4.59
067	0,195	99,0	A = ±1,8%
0.67	0,21	105	a = 97,6-101,2%

Ədəbiyyat siyahısı:

1.Симонова О. И. Муколитики в педиатрической практике: рациональный выбор, лечебные эффекты и особенности терапии // Вопросы современной педиатрии, 2013, т. 12(4), с. 136-141.

2. Alvarez-Coque M.C., Medina-Hernandes M.J., Villanuave-Camanas R.M. et al. Spectrophotometric determination of *N*-acetylcysteine in drug formulations with *o*-phthalaldehyde and isoleucine // Analyst, 1989, v. 8, p. 975-977.

3. Baeyens W., Van der Weken G., Lin Ling B. et all. Hplc Determination of N-Acetylcysteine in Pharmaceutical Preparations After Pre-Column Derivatization With Thiolyte^R MB Using Fluorescence Detection // Analytial Letters, 1988, v. 5, p. 741-757.

4. Balsamo, R., Lanata, L., & Egan, C. G. Mucoactive drugs. // European Respiratory Review, 2010, v. 19, p.127-133.

5.Kukoc-Modun L., Radić N. Spectrophotometric Determination of *N*-Acetyl-L-Cysteine and *N*-(2-Mercaptopropionyl)-Glycine in Pharmaceutical Preparations // International Journal of Analytical Chemistry, 2011, Article ID 140756, 6 pages.

6. Medina Hernández M.J., García Alvarez-Coque M.C., Bonet Domingo E., Villanueva Camañas R.M. FIA-spectrophotometric assay of N-acetylcysteine by o-phthalaldehyde derivatization. // Pharmazie, 1990, v.45, p.745-747.

7.Sanchez-Pedreno C., Albero M.I., Soledad Garcia M., Rodenas V. Determination of N-Acetylcysteine in Pharmaceutical Samples by Flow Inject ion // Analyst, 1992, v. 117, p. 925-928.

Summary

DEVELOPMENT OF A METHOD FOR THE SPECTROPHOTOMETRIC DETERMINATION OF ACETYLCYSTEINE IN SOME MULTICOMPONENT MEDICINES

Fuad I. Mammadov[1], Afsana E. Mammadova[2]

[1]Azerbaijan Medical University, Department of Pharmaceutical Chemistry, Baku, Azerbaijan,

[2]Azerbaijan Medical University, Department of Pharmaceutical Technology and Management, Baku, Azerbaijan

doctorfuad@yandex.ru

Keywords: “Fitokof” syrup, “Unkaston” sachet, acetylcysteine, spectrophotometric determination

The article is devoted to the development of spectrophotometric methods for the determination of acetylcysteine in some multicomponent medicines. 96% ethyl alcohol: pure CH_3COOH (2:1) was determined as the general solvent. The working wavelength of the determination was determined to be 230 nm. The relative error of the determination is ± 2.21% in “Fitokof” syrup and ± 1.8% in “Unkaston” sachet.

AKTİV ƏCZACILIQ İNQREDİYENTLƏRİNİN (API) SİNTEZİ VƏ İSTEHSALINDA “YAŞIL KİMYA”NIN ROLU

Tahir Süleymanov, Dostu Qafarova, Gülnar Zeynalova, Tahirə Hacıbəyli

ATU, Əczaçılıq kimyası kafedrası

Açar sözlər: yaşıl kimya, aktiv əczacılıq inqrediyenti, təhlükəsiz dərman sintezi, davamlı istehsal

Aktiv əczacılıq inqrediyenti (API) — dərman vasitəsinin tərkibində olan və əsas terapevtik təsiri göstərən kimyəvi maddədir. Hər bir dərmanın effektivliyi məhz onun tərkibindəki API ilə bağlıdır. API-lərin sintezi əczacılıq sənayesinin əsas mərhələlərindən biridir.

API sintezinin əsas mərhələləri aşagıdakılardır:

1. Prekursor seçimi - Sintez üçün ilkin xammallar (prekursorlar) seçilir. Onların təmizliyi, mövcudluğu və ekoloji uyğunluğu qiymətləndirilir.

2. Kimyəvi reaksiya mərhələləri --API çox zaman çoxmərhələli üzvi sintez yolu ilə əldə olunur: - alkilləşmə, asetilləşmə: - oksidləşmə və reduksiya: - kondensasiya və halogenləşmə: - həlledici və katalizatorlardan istifadə.

3. Təmizləmə və saflaşdırma: - kristallaşma:-filtrasiya :- ekstraksiya: - xromatoqrafiya (TLC, HPLC)

4. Analitik nəzarət - hazır API-nin keyfiyyəti aşağıdakı üsullarla yoxlanır: UV/IR spektrofotometriya: - NMR spektroskopiya: - kütlə spektrometriyası: - xromatoqrafik üsullar

Əczacılıqda “**Yaşıl kimya” (Green chemistry**) — dərman istehsalında və işlənib hazırlanmasında ətraf mühitə zərəri minimuma endirən və daha təhlükəsiz kimyəvi proseslərdən istifadə edən bir yanaşmadır. Yaşıl kimyanın əczacılıqda rolu: 1. Ətraf mühitə zərərin azaldılması - zəhərli reaktivlərdən və həlledicilərdən istifadə minimuma endirilir: - tullantı miqdarı azalır. 2. Daha təhlükəsiz dərman sintezi - zərərli kimyəvi ara məhsulların yaranması azaldılır: - işçi təhlükəsizliyi artır. 3. Enerji və resurslara qənaət: - daha az enerji ilə daha səmərəli reaksiyalar (aşağı temperatur, təzyiq): - yenilənə bilən xammal istifadə olunur (məsələn, biokimyəvi mənbələr).

4. Davamlı istehsal - dərmanlar və onların yan məhsulları təbiətdə asan parçalanır. - bioloji parçalanan qablaşdırma materiallarından istifadə edilir. 5. Yaşıl katalizatorlar və fermentlər - sintetik mərhələlərdə metallar əvəzinə biokatalizatorlar (enzimlər) tətbiq edilir.

Əczacılıqda Yaşıl Kimyanın tətbiqi

1.Dərman sintezində zərərsiz metodlar:

- zəhərli həlledicilər əvəzinə su və ya biohəlledicilərdən istifadə olunur:
- reaksiyalar aşagı temperaturda və təzyiqdə həyata kecirilir.

2. Biokatalizatorların tətbiqi:

- fermentlər və mikroorqanizmlər kimyəvi sintez mərhələlərində katalizator kimi istifadə olunur.
- bu həm enerji qənaəti,həm də daha təmiz məhsul alınmasına səbəb olur.

3.Dərman tullantılarının idarə olunması:

- artıq dərmanların təbiətdə parcalanmayan formalarının əvəzinə ,bioloji parcalanan formulalar hazırlanır.

4. Təhlükəsiz istehsal və işçi mühiti:

- kimyəvi maddələrin toksikliyi azalır.
- işcilər ücün daha təhlükəsiz şərait yaradılır.

Nümunə: - Pfizer firması Lipitor adlı dərmanın istehsal prosesində yaşıl kimya prinsiplərindən istifadə edərək tullantıları 80% azaltmışdır.

Nəticə. Beləliklə, yaşıl kimya əczacılığın yalnız insan sağlamlığına deyil, həm də təbiətə qarşı məsuliyyətli yanaşmasını ifadə edir. Bu yanaşmanın geniş tətbiqi gələcək nəsillər üçün sağlam həyat tərzinə zəmanət verir.

Yaşıl kimya sayəsində əczaçılıq sənayesi: - ətraf mühiti qoruyur, xərcləri azaldır, istehsalı daha davamlı hala gətirir. Gələcəkdə dərman sənayesində süni intellekt, biotexnologiya və yaşıl kimya birlikdə işləyərək həm effektiv, həm də ekoloji təmiz dərmanlar yaratmağa imkan verəcək.

Summary

THE ROLE OF “GREEN CHEMİSTRY” İN THE SYNTHESİS AND PRODUCTİON OF ACTİVE PHARMACEUTİCAL İNGREDİENTS (API)

Tahir Suleymanov, Dostu Gafarova, Tahira Hajibayli, Gulnar Zeynalova
AMU, Department of Pharmaceutical Chemistry

Keywords: green chemistry, active pharmaceutical ingredient, safe drug synthesis, sustainable production

“Green chemistry” in pharmacy is an approach that minimizes environmental damage and uses safer chemical processes in the production and development of drugs. Green chemistry expresses a responsible approach of pharmacy not only to human health, but also to nature. The widespread application of this approach will help build a healthy world for future generations.

Thanks to green chemistry, the pharmaceutical industry: - protects the environment, reduces costs, makes production more sustainable. In the future, artificial intelligence, biotechnology, and green chemistry will work together in the pharmaceutical industry to create both effective and environmentally friendly medicines.

SAXTALAŞDIRILMIŞ DƏRMAN VASİTƏLƏRİNİN AŞKARLANMASI ÜSULLARI

Tahir Süleymanov, Dostu Qafarova, Tahirə Hacıbəyli, Gülnar Zeynalova
ATU, Əczacılıq kimyası kafedrası

***Açar sözlər*:** saxta dərman vasitələri, analiz üsulları, rəqəmsal texnologiyalarla nəzarət

Saxta dərman vasitələri (SDV) — tərkibi, dozası və ya qablaşdırılması real dərmandan fərqli olan məhsullardır. Aktiv maddələrlə yanaşı dərman formaları,məhsulun etiketləri, istehsalcıların adları, seriyaların nömrələri, keyfiyyətə nəzarət sənədləri saxtadır. Saxtalaşdırma həm orijinal, həm də ümumi dərmanlara aiddir. Bütün farmakoloji qrupların dərmanları saxtalaşdırılır, lakin ÜST-nin məlumatına görə, antibakterial agentlər bunların arasında lider qrupudur. ÜST-ün məlumatına görə, saxtalaşdırma tezliyinə görə antihistaminlər, hormonlar, steroidlər və antimikroblardan sonra ikinci yerdə gəlir. Əczacılıq şirkətləri üçün saxtalaşdırma ilk növbədə mənfəət itkisi deməkdir, çünki cinayətkar istehsalçılar öz dərmanlarını daha aşagı qiymətə sata bilirlər. Saxta bir məhsul, dərman şirkətinin nüfuzuna uzun illər xələl gətirə bilir, insan sağlamlığına ciddi təhlükə yaradır və səhiyyə sisteminə etimadı azaldır. Bu səbəbdən onların vaxtında aşkarlanması və qarşısının alınması vacibdir.

Azərbaycan Respublikasında SDV-ə qarşı mübarizə Səhiyyə Nazirliyi, xüsusilə əczacılıq üzrə məsul qurum – Dərman Vasitələrinin Analitik Ekspertiza

Mərkəzi tərəfindən aparılır. Saxtalaşdırılmış dərman vasitəsini orijinal dərman preparatdan fərqləndimək ücün laboratoriyalarda aşagıdakı kimyəvi, fiziki-kimyəvi və s. üsullardan istifadə olunur.

Fiziki və vizual yoxlama üsullar:

- Qablaşdırmanın yoxlanması – Orijinala uyğun olmayan etiketlər, yazı səhvləri, fərqli logo və rənglər:
- Həblərin görünüşü – ölçü, forma, rəng və qoxu fərqləri:
- Hologram və barkod yoxlaması – orijinal istehsalçı tərəfindən qoyulmuş təhlükəsizlik nişanlarının yoxlanması.

Laborator analiz üsulları:

- Spektrofotometriya (UV, IR)
- Xromatoqrafiya (HPLC)
- Mass-spektrometriya

Kimyəvi reaksiya testləri:

- Sadə reaktivlərlə aparılan sürətli testlər
- Mobil analiz dəstləri ilə ilkin yoxlamalar
- Aptek və gömrükdə tətbiq olunan sahə test üsulları

Rəqəmsal texnologiyalarla nəzarət

- QR kod/barkod vasitəsilə mobil tətbiqlərlə yoxlama
- Track & Trace sistemləri ilə dərman hərəkətinin izlənməsi
- Blockchain texnologiyası – saxtakarlığın qarşısını alan təhlükəsiz məlumat bazası

Rəsmi nəzarət və sərhəd yoxlamaları

- Dövlət orqanlarının (Səhiyyə Nazirliyi, TƏBİB, AEM və s.) nəzarəti
- Gömrük və sərhəd keçid məntəqələrində dərman yoxlamaları
- Beynəlxalq əməkdaşlıqla saxta dərman dövriyyəsinin qarşısının alınması

Nəticə. Hazırda saxta dərmanlarla mübarizə aparmaq ücün milli və beynəlxalq şəbəkələr yaradılır. Onların vəzifələrinə saxta məhsullar barədə məlumat toplamaq, araşdırma aparmaq, məhsulun mənbələrini və distribütorlarını araşdırmaq, təlimlər proqramı təşkil etmək aiddir. Saxtalaşdırılmış dərmanlar cəmiyyət üçün təhlükə mənbəyidir. Onların aşkarlanması və dövriyyədən çıxarılması üçün həm texnoloji, həm də hüquqi üsullar kompleks şəkildə tətbiq olunmalıdır. Əhalinin maarifləndirilməsi və texnoloji həllər bu mübarizədə əsas rol oynayır.

Summary

METHODS FOR DETECTİNG COUNTERFEİT MEDİCİNES

Tahir Suleymanov, Dostu Gafarova, Tahira Hajibayli, Gulnar Zeynalova
AMU, Department of Pharmaceutical Chemistr

Keywords: counterfeit medicines, analysis methods, control with digital technologies

Counterfeit medicines are products that differ in their composition, dosage and packaging from real medicines.To distinguish counterfeit medicines from original

medicines, the following chemical, physicochemical, etc. methods are used in laboratories: Physical and visual inspection methods; Laboratory analysis methods; Chemical reaction tests; Control with digital technology; Official control and border checks

Conclusion: Counterfeit medicines are a source of danger. Both technological and legal methods are applied in a complex way to detect and remove them from circulation. Public education and technological solutions play a key role in this fight

DİTİOKARBAMATLARA AİD YENİ MADDƏLƏRİN SİNTEZİ VƏ BİOLOJİ FƏALLIĞININ TƏDQİQİ

Tahir A. Süleymanov, Çingiz Y. Şükürov
ATU, Əczaçılıq kimyası kafedrası
china.86@mail.ru

Açar sözlər: ditiokarbamat, piperazin, piperidin, morfolin, antifunqal, spektroskopiya, Avrasiya patenti, in silico

Dövr keçdikcə, patogen mikrob ştamlarında istifadədə olan antimikrob dərman vasitələrinə qarşı rezistentlik yaranmaqda davam edir. Bu baxımdan hal-hazırda dünyada yeni potensial antimikrob maddələrin axtarışı və sintezi əhəmiyyətlidir. Bir çox aparıcı əczaçılıq şirkətləri tərəfindən yeni göbələk əleyhinə dərman maddələrinin yaradılması istiqamətində çoxlu kompleks tədqiqatlar aparılmaqdadır.

Antifunqal təsir baxımından potensial birləşmələrdən biri də ditiokarbamatlardır. Ditiokarbamat birləşmələri dimetil ditiokarbamin və etilen-bis-ditiokarbamin turşusunun törəmələridir. Bu birləşmələr bir çox istiqamətlərdə uğurla istifadə edilməkdədir.

İşin məqsədi. Yeni ditiokarbamat törəmələrinin sintezi, onların quruluşlarının identifikasiyası və bioloji fəallığının tədqiqi.

Material və metodlar. 4-morfolin anilin, piperazin anilin, 4-piperidin anilin və ditiokarbamat natrium duzları əsasında ditiokarbamat törəməsi olan 15 yeni maddə sintez edilmiş, alınmış maddələrin quruluşları, İQ-, NMR- və MS- spektroskopiyanın köməyi ilə tədqiq edilmişdir. Sintez edilmiş yeni maddələrin bioloji fəallığı in vitro olaraq, antifunqal fəallıq və kəskin toksiklik tədqiqatları əsasında öyrənilmişdir.

Nəticə. Tədqiqatlar zamanı sintez edilmiş maddələrin quruluşları identifikasiya edilmişdir. Sintez edilmiş maddələrdən 2-((4-(4-metilpiperazin-1-il) fenil) amino)-2-oksoetil 4-(4-metilbenzil) piperazin-1-karboditioat**,** 2-((4-(4-metilpiperazin-1-il)fenil)amino)-2-oksoetil 4-etilpiperazin-1-karboditioat**,** 2-((4-(piperidin-1-il)fenil)amino)-2-oksoetil4-benzil piperazin-1-karboditioat, 2-((4-(piperidin-1-il)fenil)amino)-2-oksoetil4-(4-metoksibenzil) piperazin-1-karboditioat**,** 2-((4-morfolinofenil)amino)-2-oksooetil 4-(4-metoksibenzil) piperazin-1-karboditioat və 2-((4-morfolinofenil) amino)-2-oksooetil 4-etilpiperazin-1-karboditioat maddələri yüksək antifunqal fəallığa malik olmaları müəyyən edilmişdir.

Sintez edilmiş birləşmələrin bioloji fəallıqları *in silico* olaraq PASS proqramı vasitəsilə tədqiq edilmişdir. Proqnozlaşdırma, alınmış maddələrin antifunqal fəallıqla

yanaşı, antianginal, o cümlədən, bir çox şiş xəstəliklərinin müalicəsində, qaraciyər fəaliyyətinin pozğunluğunda istifadə edilməsinin mümkünlüyünü göstərmişdir.

Türkiyə Cümhuriyyəti, Əskişəhər, Anadolu Universitetinin Əczaçılıq kimyası kafedrasında lisenziyalaşdırılmış *Science Finder* onlayn proqramı vasitəsi ilə sintez edilmiş ditiokarbamat törəmələrinin yeni maddələr olduğu müəyyən edilmişdir. 2-((4-morfolinofenil)amino)-2-oksoetil 4-(4-metilbenzil) piperazin-1-karboditioat maddəsinə 03.01.2017-ci il tarixində CAS (Chemical Abstracts Service) tərəfindən yeni maddə kimi (RN): 2055204-10-7 qeydiyyat nömrəsi verilmişdir.

Sintez edilmiş yeni ditiokarbamat törəməsi olan 2-((4-(4-metilpiperazin-1-il)fenil)amino)-2-oksoetil 4-etilpiperazin-1-karboditioat maddəsinin sintezi və bioloji fəallığının müəyyən edilməsinə dair Avrasiya Patenti alınmışdır (№ 025187, 30.09.2016-cı il).

SYNTHESIS AND BIOLOGICAL ACTIVITY OF NEW DITIOCARBAMATE COMPOUNDS

Tahir A. Suleymanov, Chingiz Y. Shukurov
AMU, Department of Pharmaceutical Chemistry
china.86@mail.ru

Keywords: dithiocarbonate, piperazine, piperidine, morpholine, antifungal, spectroscopy, Eurasian Patent, in silico

Taking into consideration resistance of fungal strains to known antifungal agents new dithiocarbamate derivatives were synthesized. Their structural properties were investigated by IR-, NMR- and LC-MS/MS spectral methods. Melting point of synthesized derivatives were determined. Some of synthesized new derivatives showed antifungal activity against Candida strains. Synthesized compounds were investigated by Science Finder data base in Anadolu University, and found out to be original. A Eurasian Patent has been obtained for one of the synthesized substances (2-((4-(4-methylpiperazine-1-yl)phenyl)amino)-2-oxoethyl 4-ethylpiperazine-1-carbodithioate).

VERBASCUM L. NÖVLƏRİNİN KİMYƏVİ TƏRKİBİ VƏ BİOLOJİ FƏALLIĞININ TƏDQİQİ ÜZRƏ BƏZİ NƏTİCƏLƏR

Könül Ağamirzəyeva
ATU, Əczaçılıq kimyası kafedrası

Açar sözlər: antioksidant aktivlik, asetilxolinesteraz, butirilxolinesteraz, təbii birləşmələr

Verbascum (Scrophulariaceae) cinsinə daxil olan növlər xalq təbabətində geniş istifadə olunur və müxtəlif bioloji aktiv maddələrlə zəngindir. Bu bitkilər öskürək, bronxit, soyuqdəymə, dəri və sidik yolları xəstəliklərinin müalicəsində yumşaldıcı, iltihabəleyhinə və bəlğəmgətirici təsirinə görə tətbiq edilir. Kimyəvi tərkibində

saponinlər, flavonoidlər, iridoidlər, feniletanoidlər və taninlər üstünlük təşkil edir. Bu birləşmələr antioksidant, antimikrob, iltihabəleyhinə və ferment inhibitor aktivlik göstərir.

İşin məqsədi. Müxtəlif *Verbascum L*. növlərinin kimyəvi tərkibinin və bioloji aktivliyinin müqayisəli tədqiqidir.

Material və metodlar - Tədqiqatda Azərbaycanın müxtəlif bölgələrindən toplanmış 4 Verbascum növü — *V. stachydiforme, V.pyramidatum, V.paniculatum* və *V.erivanicum* istifadə edilmişdir. Bitkilərin qurudulmuş və üyüdülmüş hissələri 80%-li etanolla ekstraksiya olunmuş və fitokimyəvi tədqiq edilmişdir. Tədqiq edilən növ xammalının tərkibi LC-MS/MS üsulu ilə təyin edilmişdir. *DPPH, FRAP* və *CUPRAC* metodları ilə antioksidant aktivlik, *Folin–Ciocalteu* üsulu ilə ümumi fenol və $AlCl_3$ üsulu ilə ümumi flavonoid miqdarı müəyyən edilmişdir. Asetilxolinesteraz və butirilxolinesteraz fermentlərinin inhibitor aktivliyi Ellman metoduna əsasən təyin edilmişdir.

Nəticələr. Aparılmış analizlər nəticəsində *V. stachydiforme* növündə aminturşuların, xüsusilə etanolamin, asparagin turşusu, valin, prolin və qlutaminin miqdarca üstünlük təşkil etdiyi müəyyən edilmişdir. Fenol tərkibin təhlili göstərmişdir ki, *V. pyramidatum* və *V. paniculatum* növü digərlərinə nisbətən daha yüksək ümumi fenol və flavonoid miqdarına malikdir. Antioksidant analizlərdə DPPH və FRAP nəticələri ilə *V.pyramidatum* və *V.paniculatum* növləri ən yüksək sərbəst radikal neytrallaşdırma qabiliyyəti göstərmişdir. Ferment inhibitor analizlərinə əsasən *V. erivanicum* növü AChE və BChE fermentlərinə qarşı orta dərəcədə inhibisiya qabiliyyətinə malik olduğu aşkar edilmişdir. İzolyasiya nəticəsində əldə edilmiş 16 təbii maddə əsasən iridoid, feniletanoid və flavonoid quruluşlu birləşmələrdən ibarətdir.

Yekun. Aparılan tədqiqatlar nəticəsində *Verbascum* növləri arasında kimyəvi tərkib və bioloji aktivlik baxımından əldə olunan fərqlər onların farmakoloji potensialının müxtəlifliyini göstərmişdir. Alınan nəticələr Verbascum növlərinin gələcəkdə təbii antioksidant və ferment inhibitor maddələrin mənbəyi kimi istifadəsi üçün zəmin yaradır. *V.pyramidatum,V.paniculatum* və *V. erivanicum* növlərinin YEMX üsulu ilə fenol birləşmələrinin tədqiqi aparılmış və nəticə olaraq *V. paniculatum* ,*V. pyramidatum* növlərində 12, *V.erivanicum* növündə isə 13 maddənin olduğu məlum olmuşdur .Azərbaycan florasında *V. stachydiforme* xammalının tərkibində ümumilikdə 33 aminturşunun olduğu aşkar edilmişdir.

Summary

SOME RESULTS ON THE STUDY OF THE CHEMICAL COMPOSITION AND COMPARATIVE BIOLOGICAL ACTIVITY OF *VERBASCUM* L. SPECIES

Konul Aghamirzayeva
AMU, Department of Pharmaceutical Chemistry

Keywords: antioxidant activity, acetylcholinesterase, butyrylcholinesterase, natural compounds

In this study, the amino acid composition of *Verbascum stachydiforme* was analyzed by LC-MS/MS, while the phenolic content, antioxidant, and enzyme inhibitory activities of *V. pyramidatum*, *V. paniculatum*, and *V. erivanicum* were investigated. The results revealed that *V. stachydiforme* contains high levels of proteinogenic amino acids, particularly aspartic acid, serine, glycine, and alanine. *V. pyramidatum* and *V. paniculatum* exhibited strong phenolic content and antioxidant capacity. The inhibitory effects of all three species against acetylcholinesterase and butyrylcholinesterase were evaluated: *V. erivanicum* showed relatively higher inhibition on acetylcholinesterase, while all three species demonstrated weak activity against butyrylcholinesterase. These findings confirm the potential of *Verbascum* species as valuable sources of natural antioxidant and enzyme inhibitory compounds.

LEVOFLOKSASİNİN BİOLOJI MATERİALDA ANALİZİ

Balayeva Emilya Zakir, Zeynalova Gülnar Rəşid, Məmmədova Leyla Tariyel
ATU, Əczaçılıq kimyası kafedrası, Bakı
leylamamadova.003@gmail.com

Açar sözlər: Levofloksasin, YEMX, plazmada analiz, terapevtik monitorinq

Müasir dövrdə antibiotiklərin səmərəli və təhlükəsiz istifadəsi onların qan plazmasındakı səviyyəsinin dəqiq müəyyənləşdirilməsi ilə sıx bağlıdır. Levofloksasin kimi geniş təsir spektrinə malik antibakterial preparatların farmakokinetik parametrlərinin öyrənilməsi və fərdi dozalanmasının optimallaşdırılması klinik praktikada mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə yüksək dəqiqlik və seçicilik təmin edən yüksək effektli maye xromatoqrafiya metodunun tətbiqi aktual elmi-tədqiqat istiqamətidir. YEMX metodu levofloksasinin bioloji mayelərdə miqdarının etibarlı təyinini, metodun validasiyasını və terapevtik dərman monitorinqində tətbiqini təmin etməklə əczaçılıq analizində innovativ yanaşmanı təmin edir.

Levofloksasin xinolin törəməsi olub, flüorxinolon qrupuna aid olan geniş təsir spektrinə malik antibakterial preparatdır. O, bakterial DNT-giraza və topoizomeraza IV fermentlərini inhibə etməklə bakterisid təsir göstərir. Levofloksasin tənəffüs, sidik-ifrazat və həzm sistemi infeksiyalarının müalicəsində geniş tətbiq olunur. Preparatın plazmadakı konsentrasiyasının müəyyənləşdirilməsi onun farmakokinetik xüsusiyyətlərinin öyrənilməsi və optimal dozalanmasının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə müasir analitik üsullardan biri olan yüksək effektli maye xromatoqrafiya metodu istifadə edilir. YEMX dərman maddələrinin bioloji mayelərdə təyini zamanı yüksək dəqiqlik, seçicilik və etibarlılıq təmin edən analitik texnikadır. Levofloksasinin plazmada miqdarının YEMX metodu ilə müəyyənləşdirilməsi, metodun validasiyasının aparılması və nəticələrin terapevtik dərman monitorinqində tətbiqi müasir əczaçılıq və klinik analiz sahəsində aktual tədqiqat istiqamətlərindən biridir.

İşin məqsədi: Levofloksasinin bioloji materialda miqdarının yüksək effektli maye xromatoqrafiya üsulu ilə analizidir.

Levofloksasinin bioloji mayelərdə miqdarının təyini üçün ən çox istifadə edilən analitik üsul yüksək effektli maye xromatoqrafiyadır (HPLC). Yıldırım və həmkarları (2020) tərəfindən aparılmış tədqiqatda levofloksasinin plazma və sidik nümunələrində təyini üçün HPLC-FLD-DAD metodu işlənmiş və metodun terapevtik dərman monitorinqində tətbiq üçün yararlı olduğu müəyyən edilmişdir. Ertürk Toker və b. (2021) flüoresans detektorla HPLC metodunun validasiyasını aparmış və levofloksasinin bioloji nümunələrdə dəqiq və seçici təyini üçün yüksək uyğunluq göstərdiyini təsdiqləmişlər. Zheng və b. (2020) levofloksasinin LC-MS/MS üsulu ilə plazmada bir neçə antitüberküloz dərmanla eyni vaxtda təyini üçün sadə və validasiyadan keçmiş metod təklif etmişlər. Ebers və b. (2017) isə levofloksasinin çoxdərmanarezistent vərəm xəstələrinin müalicəsində terapevtik monitorinq məqsədilə plazmada təyini üçün HPLC metodunu klinik şəraitdə tətbiq etmişlər. Mula və b. (2023) 19 antibiotikin plazmadakı miqdarının UHPLC-MS/MS metodu ilə təyini üçün geniş validasiya apararaq, metodun bioanalitik tələblərə tam uyğun olduğunu göstərmişlər.

Nəticə: Aparılmış ədəbiyyat təhlili göstərir ki, yüksək effektli maye xromatoqrafiya (YEMX) metodu levofloksasinin bioloji mayelərdə, xüsusilə qan plazmasında miqdarının təyini üçün etibarlı və dəqiq analitik yanaşmalardan biridir. Metodun validasiyası onun yüksək seçicilik, dəqiqlik və həssaslıqla xarakterizə olunduğunu təsdiqləyir. YEMX metodunun tətbiqi levofloksasinin farmakokinetik tədqiqatlarında və terapevtik dərman monitorinqində geniş imkanlar yaradır və klinik-praktik əhəmiyyət daşıyır.

Summary

ANALYSIS OF LEVOFLOXACIN IN BIOLOGICAL MATERIAL

Balayeva Emilya Zakir, Zeynalova Gulnar Rashid, Mammadova Leyla Tariyel

AMU, Department of Pharmaceutical Chemistry, Baku

leylamamadova.003@gmail.com

Keywords: Levofloxacin, HPLC, plasma analysis, therapeutic monitoring

The conducted literature review shows that the high-performance liquid chromatography method is one of the most reliable and accurate analytical techniques for the quantification of levofloxacin in biological fluids, particularly in blood plasma. Validation of the method has demonstrated its high selectivity, accuracy, and sensitivity. The application of the HPLC method provides wide possibilities for the use of levofloxacin in pharmacokinetic studies and therapeutic drug monitoring.

AMİNTURŞULARIN YODLU TÖRƏMƏLƏRİNİN QANDA ANALİZİ

Balayeva Emilya Zakir, İskəndərov Vaqif Hüseyn, Osmanlı Jalə Vüqar

ATU, Əczaçılıq kimyası kafedrası, Bakı
jalosmanli3@gmail.com

Açar sözlər: Yüksək effektli maye xromatoqrafiya, aminturşuların yodlu törəmələri, bioloji məhlul

Aminturşuların yodlu törəmələri, xüsusilə qalxanabənzər vəzi hormonlarının tərkib hissəsi olaraq, insan orqanizminin normal böyümə və inkişafı üçün həyati əhəmiyyət kəsb edir. Yod çatışmazlığı müxtəlif sağlamlıq problemlərinə, o cümlədən kretinizm və qalxanabənzər vəzin böyüməsinə səbəb ola bilər. Bu səbəbdən dərman molekullarının və onların metabolitlərinin bioloji mayelərdə dəqiq təyini, dərmanların keyfiyyətinə nəzarət və terapevtik monitorinq üçün vacibdir. Yüksək effektli maye xromatoqrafiya (YEMX) metodu bu analitik tələbləri qarşılayan, yüksək həssaslıq, dəqiqlik və seçicilik təmin edən müasir və effektiv texnikadır. Metodun tətbiqi aminturşuların yodlu törəmələrinin qanda təyini və müxtəlif dərman formalarının analizində elmi-praktik əhəmiyyət daşıyır. Dərman molekulunun və onun metabolitlərinin bioloji mayelərdə və toxumalarda analizi dərmanların keyfiyyətinə nəzarəti həyata keçirmək üçün əczaçılıq elminin qarşısında duran aktual məsələlərdən biridir.

İşin məqsədi: Aminturşuların yodlu törəmələri olan dərman preparatlarının qanda miqdarının yüksək effektli maye xromatoqrafiya üsulu ilə analizidir.

Yod, qalxanabənzər vəzi hormonlarının tərkib hissəsi olaraq, xüsusilə uşaqların normal böyümə və inkişafı üçün həyati vacib mikroelementdir. Yodun gündəlik qəbulu kifayət qədər olmadıqda yod çatışmazlığı meydana çıxır ki, bu da kretinizm və qalxanabənzər vəzin böyüməsi (şişləri) kimi bir sıra sağlamlıq problemlərinə səbəb olur. Qalxanabənzər vəz hormonları koqnitiv funksiyaların və beyinin inkişafında mühüm rol oynayır.

Yüksək effektli maye xromatoqrafiya maddələrin, onların komponentlərinin və dərmanla əlaqəli əlavə maddələrin, eləcə də istehsal və ya saxlanma zamanı əmələ gələ biləcək parçalanma məhsullarının müəyyən edilməsi, çıxarılması və ölçülməsi üçün mühüm tədqiqat üsuludur. Dərman maddəsinin kimyəvi tərkibini müəyyən etmək üçün analitik üsulların işlənilib hazırlanmasını asanlaşdırır. Prosedurun effektiv aparılması məqsədilə müxtəlif xromatoqrafik parametrlər tədqiq edilmiş və optimallaşdırılmışdır. Dərmanın preparatında aminturşuların yodlu törəmələrinin miqdarının təyini üçün YEMX-UB üsulunun işlənib hazırlanması zamanı xromatoqrafik bölünmə üçün optimal şərtlərin seçilməsi həyata keçirilmişdir. Bu prosesdə kolonkanın düzgün təyin olunması, həlledici sistemin seçilməsi, inyeksiya həcmi, temperatur, dalğa uzunluğu, mobil fazanın tərkibi və axın sürətinin müxtəlif parametrləri üzrə tədqiqatlar aparılmışdır.

Nəticə: Beləliklə, aparılmış tədqiqat və ədəbiyyat təhlili göstərir ki, yüksək effektli maye xromatoqrafiya (YEMX) aminturşuların yodlu törəmələri olan preparatların bioloji mayelərdə, xüsusilə qanda miqdarının dəqiq və etibarlı təyini üçün effektiv analitik üsuldur. Optimal xromatoqrafik şəraitin müəyyən edilməsi nəticəsində metod yüksək həssaslıq, dəqiqlik və selektivlik göstərir. YEMX üsulunun

tətbiqi dərmanların keyfiyyətinə nəzarət, metabolitlərin izlənməsi və terapevtik monitorinq sahəsində geniş imkanlar yaradır ki, bu da əczaçılıq analizinin müasir standartlara uyğunluğunu təmin edir.

Summary

BLOOD ANALYSIS OF IODINE DERIVATIVES OF AMINO ACIDS

Balayeva Emilya Zakir, Iskandarov Vagif Huseyn, Osmanli Jale Vugar,
AMU, Department of Pharmaceutical Chemistry,Baku
jalosmanli3@gmail.com

Keywords: High-performance liquid chromatography, iodinated derivatives of amino acids, biological solution

Thus, the conducted research and literature review show that high-performance liquid chromatography (HPLC) is an effective analytical method for the accurate and reliable determination of the amount of drugs containing iodinated derivatives of amino acids in biological fluids, especially in blood. As a result of determining the optimal chromatographic conditions, the method shows high sensitivity, accuracy and selectivity. The application of the HPLC method creates broad opportunities in the field of drug quality control, metabolite tracking and therapeutic monitoring, and meets modern standards in pharmaceutical analysis.

PROTON POMPASI İNHİBİTORLARININ DƏRMAN PREPARATLARINDA TƏYİNİ

Süleymanov Tahir Abbasəli , Balayeva Emilya Zakir, Əlizadə Nuridə Fuad
ATU, Əczaçılıq kimyası kafedrası, Bakı
alizadenurida03@gmail.com

Açar sözlər: yüksək effektli maye xromatoqrafiya, proton pompası inhibitorları

Dərman vasitələrinin keyfiyyətinə nəzarət məqsədilə tətbiq olunan analitik metodların işlənib hazırlanması və təkmilləşdirilməsi əczaçılıq sahəsində mühüm əhəmiyyət daşıyır. Proton pompası inhibitorlarının (PPI) keyfiyyətli və təhlükəsiz istifadəsi, onların farmakokinetik və farmakodinamik xüsusiyyətlərinin düzgün qiymətləndirilməsi ilə birbaşa bağlıdır. Bu preparatların müxtəlif dərman formalarında miqdarının dəqiq təyini və analizinin aparılması əczaçılıq elmi və klinik praktikada mühüm əhəmiyyət kəsb edir. Yüksək effektli maye xromatoqrafiya (YEMX) üsulu PPI-lərin qida borusu, mədə və onikibarmaq bağırsaq xəstəlikləri, həmçinin H. pylori infeksiyası müalicəsində istifadə olunan dərmanların keyfiyyətinin və tərkibinin etibarlı təyini üçün effektiv və selektiv analitik yanaşma təqdim edir. Bu səbəbdən PPI-lərin YEMX ilə təyini və metodların validasiyası aktuallığını qoruyur.

İşin məqsədi: Proton pompası inhibitorlarının dərman preparatlarının yüksək effektli maye xromotaqrafiya ilə analiz üsullarının işlənib hazırlanmasıdır.

Proton pompası inhibitorları tibbi praktikada geniş tətbiq sahəsinə malik antisekretor preparatlardır. Bu preparatlar mədə turşusunun sekresiyasını tənzimləyərək qida borusu, mədə və onikibarmaq bağırsaq xəstəliklərinin müalicəsində, o cümlədən Helicobacter pylori infeksiyasının simptomlarının aradan qaldırılmasında istifadə edilir.

PPI-lər turş mühitdə aktiv formaya keçərək H^+/K^+-ATPaza fermentini geri dönməz şəkildə inhibə edir və bununla da mədədə turşu ifrazını azaldırlar. Onların yarımparçalanma müddəti qısa olsa da, təsiri uzunmüddətli olur, çünki qaraciyərdə metabolizmə uğradıqdan sonra aktiv metabolitlər qana keçərək təsirini davam etdirir.

Klinik praktikada proton pompası inhibitorları qastroezofageal reflüks, mədə və onikibarmaq bağırsaq xorası, Zollinger–Ellison sindromu və H. pylori eradikasiya terapiyasında geniş istifadə olunur. Bu qrupa daxil olan omeprazol, dekslansoprazol və pantoprazol kimi maddələrin metabolizmi əsasən CYP2C19 fermenti vasitəsilə, qismən isə CYP3A4 ilə baş verir.

Yüksək Effektli Maye Xromatoqrafiya, müasir analitik kimyada ən geniş istifadə olunan üsullardan biridir. Bu metod müxtəlif maddələrin qarışıqlardan ayrılması, təyini və miqdarca ölçülməsi üçün yüksək dəqiqlik və həssaslıq təmin edir. YEMX üsulu hərəkətsiz faza və hərəkətli faza arasında baş verən adsorbsiya və diffuziya proseslərinə əsaslanır.

Nəticə: Proton pompası inhibitorlarının təyini üçün müxtəlif üsullardan – titrimetriya, UV-spektrofotometriya və yüksək effektli maye xromotoqrafiya üsulundan istifadə olunur. Son illərdə YEMX üsulu daha üstün analitik göstəricilər verdiyi üçün geniş tətbiq edilir. Beləliklə, Proton pompası inhibitorları olan dərman preparatlarının yüksək effektli maye xromatoqrafiya ilə analiz üsullarının işlənib hazırlanması və validasiyası aktualdır.

Summary

DETERMINATION OF PROTON PUMP INHIBITORS IN MEDICINAL PRODUCTS

Suleymanov Tahir Abbasali , Balayeva Emilia Zakir, Alizade Nurida Fuad
ATU, Department of Pharmaceutical Chemistry, Baku
alizadenurida03@gmail.com

Keywords: High-performance liquid chromatography, proton pump inhibitors

Various methods are used for the determination of proton pump inhibitors-titrimetry, UV-spectrophotometry and high-performance liquid chromatography. In recent years, the YEMX method has been widely used because it provides superior analytical indicators. Thus, the development and validation of high-performance liquid chromatography methods for the analysis of drugs containing proton pump inhibitors is relevant.

SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ DƏRMAN DİZAYNI PROSESİNDƏ TƏTBİQİ

Bayramov Murad Yuris oğlu
Naxçıvan Dövlət Universiteti, Bakı, Azərbaycan
bayramovmurad405@gmail.com

Açar sözlər: süni intellekt, dərman dizaynı, bioinformatika, dərin öyrənmə, generativ modellər, maşın öyrənməsi

Giriş. Süni intellektin (Sİ) farmasevtik tədqiqatlarda inteqrasiyası müasir dərman dizaynı sistemlərinin struktur-funksional inkişafını stimullaşdırmışdır. Ənənəvi dərman kəşfi yanaşmaları uzunmüddətli sınaq mərhələləri və yüksək maliyyə yükü ilə xarakterizə olunduğundan, Sİ əsaslı modellərin tətbiqi bu prosesdə inqilabi dönüş yaratmışdır. Dərin öyrənmə (Deep Learning, DL), maşın öyrənməsi (Machine Learning, ML) və generativ süni neyron şəbəkələri (Generative Neural Networks, GNN) kimi metodologiyalar molekulyar strukturun optimallaşdırılması, hədəf-ligand qarşılıqlı təsirinin modelləşdirilməsi və farmakokinetik parametrlərin (absorbsiya, distribusiya, metabolizm, ekskresiya) proqnozlaşdırılmasında geniş tətbiq olunur. Sİ-nin tətbiqi yalnız eksperimental səmərəliliyi artırmaqla qalmır, həm də farmakoqnomik göstəricilərin etibarlılığını yüksəldir və dərman kəşfi mərhələlərində translasyonal elmin potensialını genişləndirir.

Material və metodlar. Tədqiqatda süni intellekt texnologiyalarının dərman dizaynı mərhələlərində tətbiqinə dair 2018–2025-ci illər arasında nəşr edilmiş beynəlxalq elmi mənbələr sistemli ədəbiyyat icmalı (systematic review) yanaşması ilə təhlil edilmişdir. Məqalələr PubMed, ScienceDirect və SpringerLink elmi bazalarından seçilmiş, axtarış prosesi “artificial intelligence in drug discovery”, “deep learning pharmacology” və “machine learning molecule prediction” açar sözləri ilə aparılmışdır. Analizdə molekulyar docking, virtual skrininq və QSAR (Quantitative Structure–Activity Relationship) modellərinin istifadəsi, eləcə də bioinformatik məlumatların inteqrasiyası və alqoritmik interpretasiya aspektləri qiymətləndirilmişdir. Əlavə olaraq, məlumatların keyfiyyət göstəriciləri və etik-tənzimləyici uyğunluq prinsipləri kontekstində müqayisəli analiz aparılmışdır.

Nəticələr və onların müzakirəsi. Analiz nəticələri göstərmişdir ki, süni intellekt texnologiyaları dərman kəşfi zəncirinin bütün mərhələlərində — molekulyar hədəflərin identifikasiyası, aktiv birləşmələrin seçimi, toksikoloji profillərin qiymətləndirilməsi və klinik tədqiqat modellərinin simulyasiyasında yüksək proqnozlaşdırıcı gücə malikdir. Konvolyusion neyron şəbəkələri (CNN) və transformer əsaslı arxitekturalar struktur-sekans əlaqələrinin aşkarlanmasında yüksək dəqiqlik göstərir. Generativ modellər (Generative Adversarial Networks — GAN və Variational Autoencoders — VAE) isə yeni kimyəvi quruluşların in silico sintezini mümkün edərək, eksperimental mərhələlərin müddətini əhəmiyyətli dərəcədə azaldır. Bununla belə, məlumat heterojenliyi, qeyri-konsistent datasetlər və modellərin interpretasiya çətinlikləri hələ də geniş miqyaslı tətbiqləri məhdudlaşdıran əsas amillər kimi qalmaqdadır. Nəticələr göstərir ki, Sİ-nin farmasevtik tədqiqatlara effektiv inteqrasiyası üçün izaholunan süni intellekt (Explainable AI, XAI) modellərinin inkişafı və tənzimləyici uyğunluğun harmonizasiyası vacibdir. Beləliklə, bu texnologiyaların məqsədyönlü istifadəsi farmasevtik innovasiyaların səmərəliliyini

və təhlükəsizliyini artırmaqla, dərman dizaynında yeni paradiqmanın formalaşmasına zəmin yaradır.

Summary

APPLICATION OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES IN THE DRUG DESIGN PROCESS

Bayramov Murad Yuris oglu
Nakhchivan State University, Baku, Azerbaijan
bayramovmurad405@gmail.com

Keywords: artificial intelligence, drug design, deep learning, machine learning, bioinformatics, generative models

The integration of artificial intelligence (AI) into pharmaceutical research has revolutionized drug design paradigms by enhancing the predictive accuracy of molecular modeling and pharmacokinetic assessments. This study provides a systematic review of international publications between 2018 and 2025, emphasizing the implementation of deep learning, machine learning, and generative models in molecular docking, virtual screening, and QSAR analyses. Findings indicate that AI-driven frameworks improve target identification, ligand optimization, and toxicity prediction, significantly reducing time and cost. However, data heterogeneity, lack of interpretability, and regulatory constraints remain major challenges. The evolution of explainable AI (XAI) and harmonized regulatory standards will be crucial for ensuring transparent and safe integration of AI technologies into modern drug discovery pipelines.

ОЦЕНКА ОБЩЕГО СОДЕРЖАНИЯ ФЕНОЛЬНЫХ КИСЛОТ И ФЛАВАНОИДОВ В ТАБЛЕТКАХ НА ОСНОВЕ ШАЛФЕЯ СТЕПНОГО

Левая Яна Константиновна, Бадекова Каракоз Жаиловна
НАО «Карагандинский медицинский университет»; город Караганда; Казахстан
yaninka_25@mail.ru.

***Ключевые слова*:** Salvia dumetorum, микроволновая экстракция, таблетки, фенольные соединения, флавоноиды, антиоксидантная активность

Введение. Растения рода *Salvia* (семейство Lamiaceae) представляют собой один из крупнейших и наиболее изученных таксонов лекарственных растений, насчитывающий более 900 видов, распространённых в различных климатических зонах мира [1]. Многие представители рода отличаются высоким содержанием биологически активных веществ — фенольных кислот, флавоноидов [2], терпенов и эфирных масел, что обусловливает их выраженные антиоксидантные [3], противовоспалительные, антимикробные и нейропротекторные свойства. Благодаря этому препараты на основе видов *Salvia* находят широкое применение в традиционной и современной фитотерапии, а также в фармацевтической и пищевой промышленности.

Salvia dumetorum Andrz. ex Besser [4] (синоним *Salvia stepposa* Des.-Shost) — малоизученный вид, распространённый на территории Центрального Казахстана, преимущественно в степных и полупустынных районах. Несмотря на то, что многие виды шалфея активно исследуются с точки зрения химического состава и фармакологической активности, данные о фитохимических характеристиках и биологической активности *S. dumetorum* крайне ограничены.

Современные подходы к получению растительных экстрактов ориентированы на повышение эффективности извлечения биологически активных веществ при минимальном воздействии на их химическую структуру. Среди таких методов особое внимание привлекает микроволновая экстракция (MAE), отличающаяся высокой скоростью, низким расходом растворителя и возможностью сохранения термолабильных соединений [5].

Создание твердых лекарственных форм, таких как таблетки, на основе растительных экстрактов представляет собой перспективное направление фитофармацевтики, обеспечивающее стандартизацию дозировки и повышение стабильности биологически активных веществ.

В связи с этим целью настоящего исследования явилось получение этанольного экстракта листьев *Salvia dumetorum* методом микроволновой экстракции, получение таблетированной формы на его основе и определение общего содержания фенольных соединений и флавоноидов в полученных образцах.

Целью данного исследования являлось получение этанольного экстракта листьев *Salvia dumetorum* Andrz. ex Besser методом микроволновой экстракции, получение таблетированной формы на его основе и определение содержания основных групп биологически активных веществ — фенольных соединений и флавоноидов.

Сухие листья растения, собранные в Карагандинской области (Казахстан), подвергали микроволновой экстракции 40% этанолом при мощности 400 Вт и соотношении сырья и растворителя 1:30 (г/мл) в течение 8 минут. Выход экстракта составил 23,4% от сухого веса. На основе полученного экстракта были изготовлены таблетки методом прямого прессования. Общее содержание фенольных соединений (TPC) определяли по методу Фолина–Чокалтеу, а содержание флавоноидов (TFC) — по колориметрическому методу с хлоридом алюминия. Проведённые исследования демонстрируют потенциал *S. dumetorum* как источника природных антиоксидантов и перспективного фитосырья для разработки стандартизированных лекарственных форм.

Материалы и методы. *Приготовление таблеток на основе этанольного экстракта листьев Salvia Dumetorum*

Экстракция листьев *S. dumetorum* проводилась с использованием метода MAE [5] на микроволновой системе ETHOS X (Milestone, Италия). 10 г листьев *S. dumetorum* смешивали с 40% этанолом в экстракционной камере и подвергали микроволновой обработке в течение 8 минут. Мощность микроволн

составила 400 Вт, соотношение растворитель/материал 1:30 (г/мл). Полученные экстракты были отфильтрованы, сконцентрированы при пониженном давлении с помощью роторного испарителя RV 8 (IKA, Германия) и дополнительно высушены на водяной бане при 55 °C. Выход экстракции составил 23,40 % от сухого веса.

Таблетки на основе экстракта листьев *S. dumetorum* были произведены методом прямого прессования с помощью гидравлического пресса [6]. Все компоненты, включая 50 мг экстракта и вспомогательные вещества (микрокристаллическая целлюлоза 75 мг, α-лактоза моногидрат 589,5 мг, лимонная кислота 28 мг, стеарат кальция 7,5 мг, масло перечной мяты 1,0 мл и масло эвкалипта 0,5 мл), были точно взвешены, просеяны и тщательно перемешаны. Порошковая смесь была смазана стеаратом кальция и снова перемешана для обеспечения равномерного распределения. Перед прессованием влажность контролировалась и поддерживалась в допустимом диапазоне (5–6 %). Во время производства таблеток проводился рутинный контроль качества.

Определение общего содержания фенольных соединений

TPC в таблетках оценивали с помощью колориметрического анализа по методу Фолина-Чокалтеу, следуя процедуре, первоначально разработанной Синглтоном и Росси, с небольшими изменениями [7]. Стандарты галловой кислоты были приготовлены в концентрациях от 100 до 500 мкг/мл. Для анализа таблетки растворяли в этаноле, и 100 мкл этого раствора (или стандартов галловой кислоты) смешивали с 500 мкл разбавленного реагента Фолина-Чокалтеу (1:10 по объему в дистиллированной воде) и инкубировали в течение 6 минут при комнатной температуре. Затем добавляли 400 мкл 7,5 % (мас./об.) раствора карбоната натрия и инкубировали реакционную смесь при 40 °C в течение 15 минут. Поглощение регистрировали при 765 нм с помощью УФ-спектрофотометра. Все измерения проводились в трех повторностях, а результаты выражались в миллиграммах эквивалентов галловой кислоты на грамм таблеток (мг GAE/г).

Определение общего содержания флавоноидов

TFC в таблетках было определено с помощью колориметрического анализа с хлоридом алюминия в соответствии с ранее установленными протоколами [8]. В качестве эталонного стандарта для построения калибровочной кривой использовался рутин, стандартные растворы которого были приготовлены в концентрациях от 10 до 100 мкг/мл. Для подготовки образца 20 мг таблеток растворяли в 10 мл этанола. Затем 1 мл этого раствора смешивали с 4 мл дистиллированной воды и 0,3 мл 5% раствора нитрита натрия. После 5-минутной инкубации добавляли 0,3 мл 10% раствора хлорида алюминия, после чего проводили дополнительную 6-минутную инкубацию. Затем в смесь добавляли 2 мл 1 М гидроксида натрия. Поглощение измеряли при 415 нм с помощью УФ-спектрофотометра. Все измерения проводились в

трех повторностях, а результаты выражались в миллиграммах эквивалентов рутина на грамм таблеток (мг RuE/г).

Результаты и их обсуждения. Для оценки содержания основных групп биологически активных веществ в таблетках на основе этанольного экстракта *S. dumetorum* были проведены количественные спектрофотометрические исследования общего содержания TPC и TFC. Результаты представлены в таблице.

Problem yönümlü öyrənmə (Problem-Based Learning, PBL). Bu yanaşma tələbələrin real və ya simulyasiya olunmuş kimyəvi-farmasevtik problemləri müstəqil şəkildə analiz etməsini, həll yolları tapmasını və nəticə çıxarmasını nəzərdə tutur. Məsələn, tələbələrə dərman maddəsinin sintezi zamanı alınan əlavə məhsulların analizinə dair praktiki problem təqdim olunur və onlar bu problemi kimyəvi biliklərə əsaslanaraq həll edirlər [1].

Tədqiqat əsaslı öyrənmə. Əczaçılıq kimyasında tədqiqat əsaslı öyrənmə tələbələrin elmi araşdırma aparmaq, hipotez qurmaq, eksperimental nəticələri analiz etmək və hesabat hazırlamaq bacarığını inkişaf etdirir. Bu yanaşma elmi-tədqiqat institutları və universitet laboratoriyaları ilə əməkdaşlıq şəraitində daha effektiv olur.

İnteraktiv öyrənmə metodları

“Flipped classroom” (Tərs sinif) modeli. Bu modeldə tələbələr dərs materiallarını əvvəlcədən video formatında izləyir, dərs vaxtı isə praktiki məsələlər, hesablama və analiz işləri ilə məşğul olurlar. Əczaçılıq kimyasında bu metod sintez reaksiyalarının və analiz üsullarının tətbiqinə yönəlmiş interaktiv müzakirələri təşviq edir.

“Case study” (Təcrübə əsaslı vəziyyət öyrənməsi) metodu. “Case study” metodu tələbələrin real və ya simulyasiya olunmuş vəziyyətləri analiz edərək dərs materialını mənimsəməsini təmin edən interaktiv öyrənmə metodudur. Bu metod, tələbələrin yalnız nəzəri bilikləri öyrənməsi ilə kifayətlənməyib, onları praktik problemləri analiz etməyə, qərar verməyə və nəticələr çıxarmağa yönəldir. Əczaçılıq kimyasında bu yanaşma xüsusilə dərman maddələrinin sintezi (məsələn, aspirinin laboratoriya şəraitində sintezi zamanı əldə olunan məhsulun aşağı keyfiyyəti və ya əlavə məhsulların çoxluğu problemi tələbələrə təqdim olunur, onlar səbəbləri araşdırır və optimallaşdırma yollarını təklif edirlər); keyfiyyətin yoxlanması (dərman istehsalında stabillik, təmizlik və saxlanma şəraiti ilə bağlı qarşılaşılan problemlər tələbələrə təqdim olunur və onlar həll yollarını təklif edirlər); farmakoloji və toksikoloji məsələlərin (məsələn, bitki mənşəli dərman preparatının toksik təsirlərini minimuma endirmək üçün tələbələr müxtəlif ekstraksiya metodlarını qiymətləndirirlər) və s. öyrənilməsi baxımından əhəmiyyətlidir. Metodun əsas prinsiplərinə aiddir: ***real situasiyalar*** – tələbələr əczaçılıq laboratoriyalarında və ya sənaye şəraitində qarşılaşa biləcək problemlərlə işləyirlər; ***analitik düşüncə*** - hər vəziyyət tələbələrin məlumatları təhlil etməsini, alternativ həll yollarını araşdırmasını tələb edir; ***qrup işi*** – tələbələr çox vaxt qruplar şəklində işləyir, fikir mübadiləsi aparır və birgə qərarlar qəbul edirlər; ***müzakirə və təqdimat*** – tələbələr tapdıqları həll yollarını auditoriyada təqdim edir, müəllim və digər tələbələrdən rəy alırlar.

“Gamification” (Oyunlaşdırma) metodu. “Gamification”, dərs prosesinə oyun elementlərini daxil etməklə tələbələrin motivasiyasını və dərsə marağını artıran interaktiv öyrənmə metodudur. Əczaçılıq kimyasında bu metod nəzəri və praktiki biliklərin mənimsənilməsini daha maraqlı və rəqabətli bir mühitdə təmin edir. Məsələn, tələbələr dərman maddələrinin kimyəvi strukturlarını düzgün ardıcıllıqla yerləşdirməli və ya quruluş-fəallıq əlaqəsini düzgün təhlil etməlidirlər; reaksiyaların düzgün ardıcıllığı və təhlükəsizlik qaydalarına əməl edilməsi oyun şəklində test olunur və s.

“Peer teaching” (Tələbələrin bir-birinə öyrətməsi) metodu. “Peer teaching”, tələbələrin bir-birinə müəyyən mövzunu öyrətməsi və izah etməsi prinsipi üzərində qurulan interaktiv öyrənmə metodudur. Bu metod tələbələri yalnız bilik alan tərəf kimi deyil, həm də bilik verən tərəf kimi aktiv rol oynamağa təşviq edir. Əczaçılıq kimyasında bu yanaşma tələbələrin nəzəri bilikləri daha yaxşı mənimsəməsinə, ünsiyyət bacarıqlarının inkişafına və praktik problemləri izah etmə qabiliyyətinə kömək edir. Metodun əsas prinsiplərinə tələbələrin fəal iştirakı, qarşılıqlı bilik mübadiləsinin aparılması, analitik və tənqidi düşüncənin formalaşması aiddir.

“Collaborative learning” (Əməkdaşlığa əsaslanan öyrənmə və ya Kooperativ öyrənmə) metodu. “Collaborative learning”, tələbələrin qruplar şəklində birgə

işləyərək öyrənməsini təmin edən interaktiv öyrənmə metodudur. Bu metod tələbələrin yalnız fərdi biliklərini deyil, həm də qrup daxilində qarşılıqlı öyrənmə və birgə qərarvermə bacarıqlarını inkişaf etdirir. Əczaçılıq kimyasında bu yanaşma tələbələrin laboratoriya işlərini, dərman sintezini və analitik təhlilləri birlikdə həyata keçirməsinə imkan yaradır [2,3].

Qiymətləndirmə və nəticələrin monitorinqi. Ənənəvi qiymətləndirmə üsulları (imtahan, test) müasir dövrdə formativ (davamlı) və summativ (yekun) qiymətləndirmə metodları ilə tamamlanır. Elektron testlər, mini-quizlər, laborator hesabatların elektron təqdimatı və layihə müdafiələri tələbə fəaliyyətini daha obyektiv qiymətləndirməyə imkan verir.

Azərbaycanda və beynəlxalq təcrübədə tətbiq nümunələri. Azərbaycan əczaçılıq təhsilində son illərdə elektron tədris resurslarının, e-universitet sistemlərinin tətbiqi genişlənməkdədir. Beynəlxalq səviyyədə isə Finlandiya və Almaniya universitetlərində kimya fənnləri üçün molekulyar model simulyatorları (ChemDraw, Avogadro) dərs prosesinə daxil edilmişdir; ABŞ və Kanada universitetlərində PBL və tədqiqat əsaslı laboratoriyalar əczaçılıq kurikulumunun əsas komponentinə çevrilmişdir; Yaponiya və Cənubi Koreyada isə süni intellekt (AI) əsaslı dərman dizaynı simulyasiyaları tələbələrin tədris proqramına inteqrasiya olunmuşdur.

Nəticə. Əczaçılıq kimyasının tədrisində müasir və innovativ metodların tətbiqi tələbə mərkəzli, praktik yönümlü və interaktiv təhsil modelinin formalaşmasına xidmət edir. Bu yanaşma nəticəsində tələbələrdə kimyəvi təfəkkür, analitik bacarıq və peşəkar məsuliyyət inkişaf edir. Rəqəmsal texnologiyaların və tədqiqat əsaslı metodların inteqrasiyası gələcəkdə əczaçılıq təhsilinin keyfiyyətini yüksəltmək üçün strateji istiqamət kimi dəyərləndirilməlidir.

Ədəbiyyat siyahısı:

1. Gu X., Song X., Sun H., Dong M., Li J., Liu G., Zhang Z., Wu J. (2016). Teaching reform of pharmaceutical chemistry with PBL method//Indian Journal of Pharmaceutical Education and Research, Vol 50, Issue 4, pp. 530-533
2. Ni D.R., Gong L.H., Jin C.H., Li W.C., Li H.Y. (2023). Application of the Case Teaching Method in a pharmaceutical analysis online course//Indian Journal of Pharmaceutical Education and Research, Vol 57, Issue 2, pp. 377-385
3. Soni I., Mane M., Sing S.K., Upadhye V.J., Deo R.C., Saini P., Surale-Patil S.A. (2024). Innovative teaching methods in healthcare education: A comparative analysis//Health Leadership and Quality of Life, Vol 3, pp. 1-8

Summary

APPLICATION OF INNOVATIVE TEACHING METHODS IN EDUCATION OF PHARMACEUTICAL CHEMISTRY

Nagiyeva M.M., Mammadova A.S., Kazimzade H.C.
Azerbaijan State Agricultural University, Department of Pharmacy, Azerbaijan, Ganja, mahrux.nagiyeva@adau.edu.az

Keywords: pharmaceutical chemistry, innovative teaching methods, digital education, simulation, problem-based learning, pharmacy education

The subject of Pharmaceutical chemistry, as one of the main directions of pharmacy education, plays an important role in shaping knowledge about the chemical structure, synthesis, properties, analytical methods, and biological activities of drug substances. In the modern era, the integration of traditional teaching methods with innovative approaches is considered essential for improving the quality of pharmacy education. The article analyzes modern pedagogical technologies applied in the teaching of pharmaceutical chemistry, digital learning environments, laboratory simulations, as well as problem-based and research-oriented learning approaches.

DƏRMAN MADDƏLƏRİNİN SİNTEZİNDƏ “YAŞIL KİMYA” PRİNSİPLƏRİNİN TƏTBİQİ

Nağıyeva M.M., Məmmədova A.S., Kazımzadə H.C.
Azərbaycan Dövlət Aqrar Universiteti, Əczaçılıq kafedrası, Azərbaycan Respublikası, Gəncə şəhəri
huseyn.kazimzada@adau.edu.az

Açar sözlər: yaşıl kimya, dərman sintezi, ekoloji təhlükəsizlik, davamlı inkişaf, əczaçılıq sənayesi

XXI əsrdə kimya sənayesinin inkişafı ilə yanaşı, onun yaratdığı ekoloji problemlər də qlobal narahatlığa çevrilmişdir. Kimyəvi istehsal proseslərində istifadə olunan toksik reagentlər, zərərli həlledicilər və əlavə məhsulların artması ətraf mühit və insan sağlamlığı üçün təhlükə yaradır. Bu səbəbdən alimlər və sənaye mütəxəssisləri “yaşıl kimya” anlayışını formalaşdıraraq kimyanın davamlı inkişaf modelini yaratmışlar.

Əczaçılıq sənayesi kimyəvi tullantıların əsas mənbələrindən biridir. Tədqiqatlar göstərir ki, 1 kq dərman maddəsinin sintezi zamanı 25-100 kq kimyəvi tullantı əmələ gəlir. Buna görə də “yaşıl kimya” prinsiplərinin dərman sintezinə tətbiqi həm elmi, həm də etik baxımdan olduqca aktualdır.

İşin məqsədi: “yaşıl kimya” prinsiplərinin dərman sintezinə tətbiqinin təhlilidir.

“Yaşıl kimya”nın tarixi inkişafı və prinsipləri. “Yaşıl kimya” termini ilk dəfə 1990-cı illərdə ABŞ-da Paul Anastas və John Warner tərəfindən elmi termin kimi təklif edilmişdir. Onlar kimyəvi sintezlərin ekoloji məsuliyyətlə həyata keçirilməsi üçün 12 əsas prinsip formalaşdırmışdır. Bu prinsiplər aşağıdakılardır:

1. Tullantıların qarşısının alınması;
2. Atom iqtisadiyyatı (atom economy);
3. Az toksik maddələrdən istifadə;
4. Təhlükəsiz məhsul dizaynı;
5. Təhlükəsiz həlledici və köməkçi maddələr;

6. Enerji səmərəliliyi;
7. Bərpa olunan xammaldan istifadə;
8. Aralıq məhsul və törəmələrin azaldılması;
9. Katalitik proseslərin üstünlüyü;
10. Bioloji parçalana bilən məhsullar;
11. Real vaxtda analitik nəzarət
12. Qəzaların və risklərin minimuma endirilməsi

Bu prinsiplər dərman sintezində həm laborator, həm də sənaye miqyasında tətbiq edilə bilər [2, 3].

Dərman maddələrinin sintezində “yaşıl kimya” yanaşmaları

Atom iqtisadiyyatı və reaksiyaların səmərəliliyi. Ənənəvi sintezlərdə istifadə olunan çoxmərhələli reaksiyalar nəticəsində atomların bir hissəsi tullantıya çevrilir. “Yaşıl kimya” bu itkini minimuma endirməyi hədəfləyir. Məsələn, paroksetin, ibuprofen və naproksen kimi dərmanların istehsalında daha səmərəli, az mərhələli reaksiyalar hazırlanmışdır. Ənənəvi ibuprofen sintezi 6 mərhələdən ibarət olub, çoxlu miqdarda üzvi həlledici və əlavə məhsul əmələ gətirirdi. “BHC Company” tərəfindən təklif olunan “yaşıl ibuprofen prosesi” isə 3 mərhələdən ibarətdir və atom iqtisadiyyatı 77%-dən 99%-ə qədər artırılmışdır.

Həlledicilərin ekoloji əvəzlənməsi. Üzvi həlledicilər (xüsusilə xlorlu birləşmələr) dərman sintezində ən çox ekoloji yük yaradan komponentlərdir. Alternativ kimi istifadə edilə bilər: su və ionlaşan mayelər – toksik olmayan, təkrar istifadə oluna bilən həlledicilər; superkritik CO_2 – təzyiq altında qaz halında həlledici kimi istifadə olunur və reaksiyadan sonra asanlıqla ayrılır; etanol və etillaktat – bioloji mənşəli, təkrar emal edilə bilən həlledicilərdir.

Katalitik sistemlər və biokataliz. Kataliz “yaşıl kimya”nın əsas sütunlarından biridir. Katalizatorlar reaksiyaları daha aşağı enerji sərfiyyatı ilə və daha az tullantı ilə həyata keçirməyə imkan verir. Metallokataliz: palladium, nikel, rubidium kimi metallara əsaslanan homogen və heterogen kataliz sistemləri; biokataliz: fermentlərin və mikroorqanizmlərin iştirakı ilə dərman sintezinin həyata keçirilməsi və s. geniş tətbiq edilir. Məsələn, β-laktam antibiotiklərinin sintezində fermentativ üsullar (penisillin asilaza) yüksək selektivlik və aşağı ekoloji risk təmin edir.

Cədvəl. “Yaşıl kimya”nın əczaçılıq sənayesində tətbiq nümunələri

Şirkət	Layihə və tətbiq	Nəticə
Pfizer	Az həlledici ilə sertralin (Zoloft) sintezi	Tullantı 60% azalmışdır
GSK (GlaxoSmithKline)	“Green Metrics” sistemi ilə dərman sintezi optimallaşdırılmışdır	E-faktor 25-dən 5-ə endirilmişdir
Merck & Co.	Enzimatik katalizlə sitaqliptin (Januvia) sintezi	Reaksiya selektivliyi artmış, enerji sərfiyyatı 20 % azalmışdır

AstraZeneca	Superkritik CO_2 ilə təmizləmə mərhələləri	Həlledici istifadəsi 80% azalmışdır

Enerji səmərəliliyi və alternativ enerji mənbələri. Kimyəvi reaksiyalarda enerji sərfiyyatını azaltmaq üçün “mikrodalğalı”, “ultrasəs”, “fotokimyəvi” və “plazma əsaslı” sintez üsulları tətbiq olunur. Bu metodlar reaksiya vaxtını qısaldır, tullantı miqdarını azaldır və həlledici ehtiyacını minimuma endirir. Məsələn, mikrodalğalı sintez üsulu ilə sulfonamidlər və pirazol törəmələri daha yüksək çıxımla və daha qısa vaxtda əldə edilir.

Bərpa olunan xammaldan istifadə. Ənənəvi kimyəvi reagentlər əvəzinə təbii və bioloji mənşəli xammal (bitki yağları, şəkərlər, sellüloza) istifadə olunur. Bu yanaşma bioəsaslı kimyəvi maddələr (biobased chemicals) və fitokimyəvi törəmələrin istehsalını stimullaşdırır. Məsələn, askorbin turşusunun sənaye istehsalı qlükoza əsasında biotexnoloji yolla həyata keçirilir [1].

Ekoloji və iqtisadi üstünlüklər. “Yaşıl kimya” prinsiplərinin tətbiqi ekoloji dayanıqlığın qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Ənənəvi kimyəvi sintezlərdə çox zaman toksik reagentlər, həlledicilər və katalizatorlar istifadə olunur ki, bunlar tullantılar şəklində hava, su və torpağa daxil olaraq çirklənməyə səbəb olur. “Yaşıl kimya” isə bu problemlərin qarşısını almağa yönəlmişdir. Bu yanaşma sayəsində toksik tullantıların həcmi və zərərli kimyəvi emissiyalar əhəmiyyətli dərəcədə azalır; təkrar emal oluna bilən reagentlər və bərpa olunan enerji mənbələri tətbiq edilir; hava və su hövzələrinin çirklənməsi minimuma endirilir; bioloji parçalanan və ekoloji cəhətdən təhlükəsiz məhsulların istehsalı təşviq olunur. Beləliklə, “yaşıl kimya” kimyəvi istehsalatın ekoloji izini azaldır, həm də biosferin qorunmasına, ekosistemlərin tarazlığının saxlanmasına real töhfə verir.

Ekoloji təhlükəsizliyin təmin olunması ilə yanaşı, “yaşıl kimya”nın tətbiqi iqtisadi baxımdan da çoxsaylı üstünlüklər yaradır. Ənənəvi kimyəvi proseslərdə reagent və enerji sərfiyyatı, tullantıların utilizasiyası və təhlükəsizliyin təminatı əlavə xərclər tələb edir. Yaşıl texnologiyalar isə bu problemləri aradan qaldırır: reagentlərin səmərəli istifadəsi və tullantıların minimuma endirilməsi nəticəsində xammal itkiləri azalır; enerji baxımından qənaətcil metodlar (məsələn, mikrodalğa sintezi, ultrasəs ekstraksiyası və s.) istehsal proseslərinin rentabelliyini artırır; katalizatorların təkrar istifadəsi və bərpa olunan xammalların tətbiqi xərclərin azalmasına səbəb olur; uzunmüddətli perspektivdə istehsalın dayanıqlılığı və bazar rəqabətliliyi təmin edilir. “Yaşıl kimya” həm ekoloji, həm də iqtisadi baxımdan optimal nəticə verən bir strategiya kimi çıxış edir.

“Yaşıl kimya”nın tətbiqi təkcə ekoloji və iqtisadi üstünlüklərlə məhdudlaşmır, həm də sosial rifaha mühüm təsir göstərir. Bu konsepsiyanın əsas məqsədlərindən biri insan sağlamlığını qorumaq və təhlükəsiz iş şəraiti yaratmaqdır. Kimyəvi sintezlərdə istifadə olunan toksik maddələrin azaldılması laboratoriya və istehsalat şəraitində çalışan mütəxəssislərin sağlamlığını qoruyur; “yaşıl” proseslərdə yanıcı və partlayıcı maddələrin miqdarı azaldıldığı üçün əməyin təhlükəsizliyi artır; ekoloji təmiz məhsulların istehsalı cəmiyyətin sağlamlıq səviyyəsinə müsbət təsir göstərir; ətraf

mühitin mühafizəsinə yönəlmiş yanaşmalar ictimai ekoloji məsuliyyətin formalaşmasına və ekoloji təhsilin inkişafına xidmət edir [4, 5].

Azərbaycanda “yaşıl kimya” istiqamətində perspektivlər. Azərbaycanda ekoloji kimya və əczaçılıq sənayesində “yaşıl laboratoriya standartları”nın tətbiqi hələ başlanğıc mərhələdədir. Lakin Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetində əczaçılıq istiqamətli olmasa da ekoloji kimya və biotexnologiya tədqiqatları inkişaf etdirilir (qida sənayesi və kənd təsərrüfatı istiqamətlərində).

Əczaçılıq kimyası üzrə magistr proqramlarında “yaşıl kimya” prinsiplərinin tədrisi müasir kurkulumlara daxil edilməkdədir.

Ölkəmizdə yaradılması planlaşdırılan yerli dərman istehsalı müəssiələrinin öz fəaliyyətlərində “yaşıl kimya” prinsiplərindən istifadə etmələri perspektivli və arzuolunan hesab edilir.

Nəticə. Dərman maddələrinin sintezində “yaşıl kimya” prinsiplərinin tətbiqi həm elmi, həm də iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edir. Bu yanaşma nəticəsində dərmanların sintezi daha səmərəli, təhlükəsiz və ekoloji baxımdan məsuliyyətli olur.

Əczaçılıq sənayesinin gələcəyi ekoloji dayanıqlılıq, resurs səmərəliliyi və texnoloji innovasiyaların inteqrasiyası üzərində qurulmalıdır. “Yaşıl kimya” prinsiplərinin tətbiqi bu məqsədə çatmaq üçün strateji və etik bir zərurətdir.

Ədəbiyyat siyahısı:

1. Dunn P.J., Wells A.S., Williams M.T. (2010). Green chemistry in the pharmaceutical industry. Weinheim, 391 p.
2. https://aem.az/uploads/files/2022-03/1646309018_tezis-son.pdf
3. https://www.anl.az/down/meqale/abbassehhet-150_km/2024/133(meqale).pdf
4. https://orgm.meb.gov.tr/meb_iys_dosyalar/2023_07/12212134_YesYil_Kimya_Atolyesi.pdf
5. https://assets.ctfassets.net/u02mj37wat6q/501xKGXICZQ5plUTlOEtRM/9191320b4480763a5685d90b83d33861/ACSGreenChemistry.pdf

Summary

APPLICATION OF “GREEN CHEMISTY” PRINCIPLES IN THE SYNTHESİS OF DRUG SUBSTANCES

Nagiyeva M.M., Mammadova A.S., Kazimzade H.C.
Azerbaijan State Agricultural University, Department of Pharmacy, Azerbaijan, Ganja, mahrux.nagiyeva@adau.edu.az

Keywords: green chemistry, drug synthesis, environmental safety, sustainable development, pharmaceutical industry

“Green chemistry” is a concept that ensures the implementation of chemical processes in an environmentally safe, efficient, and sustainable manner. In the modern pharmaceutical industry, principles such as reducing waste during the

synthesis of drug substances, using safe reagents and solvents, and optimizing energy consumption play a significant role.

The article presents information on the main principles of green chemistry, their application in drug synthesis, as well as the ecological, economic, and social advantages, along with the experiences of international pharmaceutical companies.

НЕКОТОРЫЕ ИТОГИ ФАРМАКОХИМИЧЕСКИХ ИССЛЕДОВАНИЙ РАСТЕНИЙ РОДА *VICIA L.*

Гаджибейли Т.А., Сулейманов Т. А., Зейналова Г.Р., Кафарова Д.С.
АМУ, Кафедра фармацевтической химии
tahira.hajibayli@gmail.com

***Ключевые слова*:** Vicia L., флавоноиды, фенольные соединения, сапонины, микроэлементы, фармакохимия, антиоксидантная активность

Род *Vicia (Fabaceae*) включает важные виды — *Vicia faba* (broad bean), *Vicia sativa* (common vetch), *Vicia variabilis, Vicia narbonensis* и др. широко распространенные в Азербайджане виды. Эти виды исследуются как пищевые/кормовые растения, а также как источник биоактивных веществ (фенолы, флавоноиды, алкалоиды, сапонины, жирные кислоты и пр.). Многочисленные исследования фокусируются на химическом составе семян, надземной массы и экстрактах — с целью выявить антиоксидантную, антибактериальную, противовоспалительную и прочую активность.

Последние годы нами проводятся фармакохимические исследования растений рода *Vicia L*. произрастающих в Азербайджане. Проведены множество анализов, из который некоторые проведены впервые.

***Актуальность темы*:** Известно, что лечебное действие растений связано с наличием в их составе ряда групп биологически активных веществ. Флавоноиды, алкалоиды, эфирные масла, сапонины, микроэлементы и др. которые содержатся в растительном сырье, создают основу для ее широкого спектра применения. В связи с этим изучение биологически активных веществ является актуальным.

Цель исследования: Провести фармакохимическое изучение некоторых видов растений рода *Vicia L.*, произрастающих в Азербайджане, с определением их химического состава, содержания биологически активных веществ и элементного профиля.

Основные этапы фармакохимического исследования:

1. Сбор материала и подготовка проб — семена, кора, листья, надземная масса; сушка при контролируемой температуре, измельчение.
2. Экстракция — использование растворителей разной полярности (н-гексан, хлороформ, этиловый эфир, этанол/метанол, вода). Пошаговая фракционировка (последовательная экстракция) — стандарт.

3. Качественная (скрининговая) фитохимия —традиционные цветные реакции для обнаружения алкалоидов, сапонинов и фенольных групп; TLC (тонкослойная хроматография).

4. Количественные определение общих показателей — общий фенольный контент, общий флавоноидный контент (цветная спектрофотометрия), общие сапонины/таннины (спектрофотометрически).

5. Хромато- и спектрометрические методы для идентификации отдельных молекул — HPLC MS/MS, GC-MS (для летучих/жирнокислотных фракций), NMR для окончательной структурной характеристики.

6. Биологическая оценка — антиоксидантные (DPPH), антибактериальные и пр.

7. Изучения химического состава растительного сырья современным методом и оборудованием, оснащенным функциями молекулярно-сетевого прогнозирования.

8. Изучение морфологических и анатомо-диагностических признаков сырья электронным микроскопом *Latimet* (*Leitz*).

9. Изучение элементного состава сырья Vicia sativa subsp.Nigra., Vicia elegans Guss. и Vicia cordata L. атомно-абсорбционным методом, с помощью спектрографа марки ДФС-8 с трехлинзовой системой подсветки с дифракционной решеткой.

Результаты :

В результате проводимых исследований обнаружены в сырье *Vicia L.*:

- Фенольные соединения и флавоноиды (кверцетин, кемпферол, различные гликозиды). Часто идентифицируются в семенах и надземной массе.

- Алкалоиды (в некоторых видах — присутствие нейротоксичных аминокислот обсуждается в литературе).
- Сапонины и танины — чаще в полярных экстрактах; влияют на антибактериальную-антимикробную активность.
- Жирнокислотные фракции, стеролы и фенольные эфиры — особенно в коре/отходах после обработки зерна.
- Прочие вторичные метаболиты — органические кислоты, аминокислоты, небольшие фенилпропаноиды.
- Идентифицировано 22 элемента. Макроэлементы Mg, Ca, K, Na, микроэлементы Zn, Cu, Ni в составе сырья преобладают.

Наличие в составе ряда групп биологически активных веществ, макро и микроэлементов в изучаемых видах сырья *Vicia L.* свидетельствует о перспективности фитохимических исследований.

SUMMARY
SOME RESULTS OF A PHARMACOCHEMİCAL STUDY OF PLANTS OF THE GENUS *VICIA L.*

Hajibayli T.A., Suleymanov T.A., Zeynalova G. R., Gafarova D. S.
AMU, Department of Pharmaceutical Chemistry
tahira.hajibayli@gmail.com

***Keywords*:** *Vicia L.*, flavonoids, phenolic compounds, saponins, microelements, pharmacochemistry, antioxidant activity

The genus Vicia (Fabaceae) includes important species - Vicia faba (bean), Vicia sativa (common vetch), Vicia variabilis, Vicia narbonensis and other species widely distributed in Azerbaijan.

Relevance of the topic: It is known that the medicinal properties of plants are associated with the presence of various groups of biologically active substances. Flavonoids, alkaloids, essential oils, saponins, microelements and other substances contained in plant materials provide the basis for their wide range of applications. Therefore, the study of biologically active substances is relevant.

Conclusion: Using modern methods and equipment, the chemical composition, anatomical-morphological features and elemental composition of plant materials have been studied.

BƏZİ MÜASİR PERORAL ANTİDİABETİK DƏRMAN PREPARATLARININ SPEKTROFOTOMETRİYA İLƏ TƏYİNİ

V.H.İskəndərov, G.R.Zeynalova, F.A.İsmayıllı
ATU, Əczaçılıq kimyası kafedrası, Bakı
Feridismayıllı20@gmail.com

***Açar sözlər*:** sitagliptin, dapagliflozin vildagliptin, antidiabet, spektrofotometriya, yüksək performanslı maye xromatoqrafiyası (RP-HPLC)

2 ci tip peroral şəkərəleyhinə müasir dərman vasitələrinin sırasında gliptin törəmələri və dapagliflozin geniş yer tutur. Əsas nümayəndələri Vildagliptin, sitagliptin, dapagliflozin kimi dərman preparatları göstərmək mümkündür. Dapagliflozin böyrəklərdə qlükozanın geri sorulmasına təsir edən natrium-qlükoza birgə daşıyıcıları vasitəsilə fəaliyyət göstərən antidiabetik dərmandır. Dapagliflozinin aktiv farmasevtik maddə (API) və ya dərman formulasyonunun təyini üçün bir sıra analitik tədqiqatlar mövcuddur. Bu tədqiqatlarda əsasən tərs fazalı yüksək performanslı maye xromatoqrafiyası (RP-HPLC) və ultra-bənövşəyi spektroskopiya (UV) metodlarından istifadəsi aktualdır.

İşin məqsədi Vildagliptin, sitagliptin, dapagliflozin standart nümunələrində spektrofotometrik təyinatlarının aparılmasıdır.

Nəticə və müzakirələr: Hər üç preparatların ayrı-ayrılıqda 0,01 M spirtli məhlulları hazırlanmışdır və əczaçılıq kimyası kafedrasının elmi-tədqiqat laboratoriyasında “Agilent” (ABŞ) “Cary 60” markalı spektrofotometrdə alınmış məhlulların qat qalınlığı 1 sm olan kvars küvetlərdə müvafiq spektrlər çəkilmişdir. Alınan spektrlərdə müəyyən olunmuşdur ki, işığın ultra-bənövşəyi sahəsində alınan maksiumumların köməyi ile tədqiq olunan maddələr identifikasiya oluna biler ve

miqdari təyinatları aparmaq mümkündür. Eyni zamanda tərkibində dapaqlifozin və metformin olan tabletlərdə spektrofotometrik üsullarla aparılması planlaşdırılır

Summary

DETERMINATION OF SOME MODERN ORAL ANTIDIABETIC DRUGS BY SPECTROPHOTOMETRY

V.H. Iskandarov, G.R.Zeynalova, F.A. Ismayilli
AMU, Department of Pharmaceutical Chemistry, Baku
Feridismayilli20@gmail.com

***Keywords*:** sitagliptin, dapagliflozin, vildagliptin, antidiabetic, spectrophotometry, high-performance liquid chromatography (RP-HPLC)

Spectrophotometric Determination of Standard Samples of Vildagliptin, Sitagliptin, and Dapagliflozin Spectrophotometric analysis was performed on standard samples of vildagliptin, sitagliptin, and dapagliflozin. It should be noted that the standard samples were kindly provided by the Analytical Expertise Center for Medicinal Products, and we express our gratitude for their support. Individual 0.01 M alcoholic solutions of each drug were prepared, and their spectra were recorded using an “Agilent Cary 60” spectrophotometer (USA) in the scientific-research laboratory of the Department of Pharmaceutical Chemistry. The measurements were carried out in quartz cuvettes with a path length of 1 cm. The obtained spectra revealed that the substances under investigation can be identified and quantitatively determined based on the maxima observed in the ultraviolet region of light. Additionally, spectrophotometric analysis is planned for tablets containing both dapagliflozin and metformin.

İMİDAZOL VƏ TRİAZOL TÖRƏMƏLƏRİ OLAN MÜASİR ANTİFUNQAL PREPARATLAR

Alqayeva Ülviyyə Fərhad, Yusifova Cəmilə Yusif
ATU, Əczaçılıq kimyası kafedrası, Bakı
ulviyyealqayeva2020@gmail.com

***Açar sözlər*:** Vorikonazol, itrakonazol ,sertakonazol, ekonazol

Hal-hazırda kimyaterapevtik preparatlara aid olan göbələk əleyhinə preparatlar tibbdə geniş istifadə olunur. Bu preparatlar arasında xüsusi yer imidazol və triazol törəmələri olan preparatlara ayrılır. Bu günə qədər 170-dən çox adla imidazol və triazol törəməli mono və kombinə olunmuş antifunqal preparatlar Azərbaycan Respublikası tərəfindən Dövlət qeydiyyatına alınmışdır.

Son illər göbələk xəstəlikləri çoxaldığına görə yeni antifunqal preparatların yaradılmasına ehtiyac duyulur. Buna səbəb müxtəlif infeksiyalarla müşahidə olunan yeni göbələk formalarının tapılması və bunların mövcud dərman preparatlarına qarşı rezistentliyinin güclənməsidir.

Məqsəd: İmidazol törəmələrinin təsnifatı, quruluş xüsusiyyətləri, təsir mexanizmi, klinik əhəmiyyəti və tibbi praktikada istifadəsinin öyrənilməsidir.

Nəticə və müzakirələr: Kimyaterapevtik preparatlar arasında antifunqal preparatlara geniş yer verilir. Onların arasında həm təbii antifunqal antibiotiklər (qrizeofulvin,nistatin,amfoterisin B və s.), həm də sintetik mənşəli (mikozolon, itrakonazol, oksikonazol, sertakonazol) preparatlar son illər müxtəlif infeksion xəstəliklərdə istifadə olunur. Sintetik antifunqal preparatlar içərisində imidazol və triazol törəmələri ən çox preparatla təmsil olunur. Məsələn, oftalmologiyada göbələk keratitlərdə ekonazol kimi sintetik preparatlar geniş istifadə olunur, öyrənilən azol preparatları vulvovaginal kandidozların müalicəsində də tətbiq olunur. Bunlardan klotrimazol, ketokonazol, mikonazol, ekonazolu misal göstərmək olar.

İki azot atomundan ibarət unikal beş üzvlü halqa (imidazol) antifunqal dərmanların azol ailəsinin bir alt qrupunu təşkil edir. İmidazollar ağız boşluğunun iltihabı və vaginal kandidozun müalicəsində polien göbələk əleyhinə dərmanlarla müqayisədə öz effektivliyini nümayiş etdirmişdir.

Nəticə: İmidazol törəmələrinin təsnifatı, quruluş xüsusiyyətləri, təsir mexanizmi, klinik əhəmiyyəti və tibbi praktikada istifadəsinin öyrənilməsi bu preparatların geniş tətbiqini təmin edir.

Summary

MODERN ANTİFUNGAL PREPARATİONS WİTH İMİDAZOLE AND TRİAZOLE DERİVATİVES

Algayeva Ulviyya Farhad, Yusifova Jamila Yusif
AMU, Department of Pharmaceutical Chemistry, Baku
ulviyyealqayeva2020@gmail.com

***Keywords*:** Voriconazole, itraconazole, sertaconazole, econazole

Among chemotherapeutic agents, antifungal drugs occupy a significant place. These include both natural antifungal antibiotics (such as griseofulvin, nystatin, amphotericin B, etc.) and synthetic compounds (such as mycozolon, itraconazole, oxiconazole, sertaconazole), which in recent years have been widely used in various infectious diseases. Among synthetic antifungal agents, derivatives of imidazoles and triazoles are the most extensively represented. For example, in ophthalmology, synthetic drugs such as econazole are widely used in the treatment of fungal keratitis. The studied azole compounds are also applied in the treatment of vulvovaginal candidiasis. Examples include clotrimazole, ketoconazole, miconazole and econazole.

A unique five-membered ring consisting of two nitrogen atoms (imidazole) forms a subgroup within the azole family of antifungal drugs. Imidazoles have demonstrated their effectiveness, compared to polyene antifungal agents, in the treatment of oral cavity inflammations and vaginal candidiasis.

BETA-LAKTAM ANTİBİOTİKLƏRİN YENİ NƏSİL KOMBİNƏ OLUNMUŞ PREPARATLARININ ANALİZİ

İsrafilli Xanım Azad, Yusifova Cəmilə Yusif
ATU,Əczaçılıq kimyası kafedrası,Bakı
Xanimisrafilova598@gmail.com

***Açar sözlər*:** Beta-laktam antibiotikləri, klavulan turşusu, sulbaktam, tazobaktam, HPLC, LC–MS/MS, HPLC/TLC

Beta-laktam antibiotikləri klinik praktikada ən çox istifadə olunan antimikrob preparatlardır. Son illərdə bakterial rezistentliyin artması nəticəsində bu qrup antibiotiklərin beta-laktamaz inhibitorları (klavulan turşusu, sulbaktam, tazobaktam və s.) ilə kombinasiyası geniş yayılmışdır. Lakin bu kombinə olunmuş preparatların tərkibində beta-laktamaz inhibitorlarının eyni anda mövcudluğu onların analitik təyinatını, stabillik tədqiqatını və keyfiyyətə nəzarət prosesini mürəkkəbləşdirir. Bu səbəbdən preparatların dəqiqliklə analiz olunması üçün müasir yüksək həssaslıq və seçiciliyə malik üsulların – xüsusilə HPLC, UHPLC və LC–MS/MS texnologiyalarının tətbiqi böyük elmi və praktik əhəmiyyət daşıyır. Belə tədqiqatlar farmaseptik məhsulların keyfiyyətinin artırılmasına, saxta preparatların aşkarlanmasına və antibiotiklərin rasional istifadəsinə töhfə verir.

İşin məqsədi: Azərbaycan Respublikasının dövlət qeydiyyatına alınmış bəzi beta-laktam törəməli kombinə olunmuş preparatların (amoksisillin/klavulan turşusu, seftriakson/sulbaktam,piperasilin/tazobaktam və s.) keyfiyyət və miqdari tərkibinin təyin edilməsi, stabillik xüsusiyyətlərinin qiymətləndirilməsi və bu məqsədlə müasir analitik üsulların (HPLC, UHPLC, LC–MS/MS, FTIR və s.) tətbiq imkanlarının öyrənilməsidir.

Nəticələr və onların müzakirəsi: Beta-laktamaz inhibitorlarının tərkibində beta-laktam nüvəsinin mövcudluğu onların beta-laktamaz fermentləri tərəfindən tanınmasını təmin edir. Lakin bu inhibitorlar fermentlərlə geri dönməz kompleks əmələ gətirərək onların aktivliyini bloklayır və nəticədə beta-laktam antibiotiklərin hidrolitik parçalanmadan qorunmasına şərait yaradır. Bunun sayəsində antibiotiklər öz antimikrob təsirini tam şəkildə göstərə bilir və təsir spektri əhəmiyyətli dərəcədə genişlənir. Xüsusən kombinə olunmuş preparatlara mühüm yer ayrılır.Bunlardan “ Medraxone”, “Operazon”,“Sulcef”kimi preparatları sadalamaq olar.Müasir dövrdə kombinə olunmuş beta- laktam antibiotiklərin təyinində LC-MS/MS, HPLC-MS, HPLC/TLC kimi üsullar preparatlar,qida məhsulları və bioloji mayelərdə geniş tətbiq olunur.LC-MS/MS üsulu ilə 23 beta-laktam antibiotiklərin skrininqi də aparılmışdır.

Yekun: İnfeksion xəstəliklərin müalicəsində istifadə olunan beta-laktam qrupu preparatların yeni kombinasiyalarının müasir analiz üsulları ilə tədqiqi və metodların işlənib hazırlanması gələcək tədqiqatlar üçün mühüm perspektivlər açır.

Summary

ANALYSIS OF NEW GENERATION COMBINED PREPARATIONS OF BETA-LACTAM ANTIBIOTICS

İsrafilli Khanim Azad, Yusifova Jamila Yusif
AMU, Department of Pharmaceutical Chemistry,Baku
Xanimisrafilova598@gmail.com

***Key words*:** Beta-lactam antibiotics, clavulanic acid, sulbactam, tazobactam, HPLC, LC–MS/MS, HPLC/TLC

The presence of a beta-lactam core in the composition of beta-lactamase inhibitors ensures their recognition by beta-lactamase enzymes. However, these inhibitors form an irreversible complex with the enzymes, blocking their activity and, as a result, creating conditions for protecting beta-lactam antibiotics from hydrolytic decomposition. Thanks to this, antibiotics can fully demonstrate their antimicrobial effect and the spectrum of action is significantly expanded. An important place is given to combined preparations. Among them, we can list such preparations as “Medraxone”, “Operazon”, “Sulcef”. In modern times, methods such as LC-MS/MS, HPLC-MS, HPLC/TLC are widely used in the determination of combined beta-lactam antibiotics in preparations, food products and biological fluids. Screening of 23 beta-lactam antibiotics was also carried out using the LC-MS/MS method.

MUSTAFA (PBUH) PRIZE LAUREATE, H. I., S. I., T. I. BIOCATALYTIC, PHYTOCHEMICAL, AND SYNTHETIC CHEMISTRY APPROACHES IN DRUG DISCOVERY- *HIGHLIGHTS OF OUR RECENT WORK*

M. Iqbal Choudhary
Coordinator General OIC-COMSTECH
a. *COMSTECH Secretariat, 33-Constitution Avenue, G-5/2, Islamabad.*
Advisor ICCBS
b. *International Center for Chemical and Biological Sciences (H. E. J. Research Institute of Chemistry, and Dr. Panjwani Center for Molecular Medicine and Drug Research), University of Karachi, Karachi-75270, Pakistan, c. Vice President TWAS (South and Central Asia)*
Iqbal.choudhary@iccs.edu

As developing world face food security issues, it also confronts with the drug insecurity challenges. The current drug development paradigm is cost, time, and labor intensive, which developing nations cannot afford to invest. The UN SDG 3 demands every nation to work towards "Good Health and Wellness" of its people. Therefore, it is important to develop appropriate, efficient, and cost-effective strategies for drug development against prevailing diseases, which must be based on indigenous knowledge resource base, S&T capacity, and people-friendly approval process.

In the last two decades, we identified a large number of new and novel chemical substances, through innovative approaches, against various disease- related targets. Our work at the interface of chemistry, biology and ethnomedicine, has been focused on the discovery of chemical constituents from medicinal plants and marine living resources, as well as for designing of new bio-catalytically transformed products with therapeutic potential. This has resulted in the identification of several

novel drug leads against various therapeutic targets. Emphasis has been on the discovery of therapeutic agents against infectious diseases, and various chronic disorders, such as cardiovascular disorders, cancers, diabetes, and neurodegenerative disorders.

During this presentation, some recent examples of our studies highlighting the underlying philosophy, and approach of our research on cost-effective discovery of lead molecules will be discussed.

SEFAPERAZONUN YENİ AZOBOYA TÖRƏMƏLƏRİNİN SİNTEZİ VƏ ONLARIN SPEKTROFOTOMETRİK TƏDQİQİ

Tahir Süleymanov, Hüseyin Əliyev, Rəvan Məmmədəliyev
ATU, Əczaçılıq Kimyası kafedrası
ravan.farma@gmail.com

***Açar sözlər*:** β-laktam antibiotikləri, kimyəvi modifikasiya, in silico analiz

Yeni dərman maddələrin sintezi və analizi əczaçılıq kimyası elminin qarşısında duran mühüm problemlərdən biridir. Son illərdə bakteriyaların antibiotiklərə qarşı davamlılığının artması klinik praktikada ciddi problemlər yaradır. Xüsusilə β-laktamaz ifraz edən mikroorqanizmlər üçün sefalosporin qrupunun təsir gücü azalır. Sefaperazon isə III nəsil sefalosporin olmasına baxmayaraq bəzi bakteriya ştamlarına qarşı kifayət qədər stabil deyil. Bu səbəbdən sefaperazon molekulunun kimyəvi quruluşunda modifikasiya aparılması, yeni törəmələrin sintezi və onların bioloji aktivliyinin artırılması müasir əczaçılıq kimyasında aktual tədqiqat istiqamətlərindən biridir.

Sintez olunmuş yeni birləşmələrin spektroskopik üsullarla identifikasiyası və onların in silico metodlarla çoxhədəfli təsir potensialının qiymətləndirilməsi gələcəkdə daha effektiv və davamlı antibakterial preparatların yaradılmasına imkan yarada bilər.

İşin məqsədi: Sefaperazonun yeni törəmələrini sintezi, spektroskopik xarakteristikasi, identifikasiyasi və çox hədəfli in silico tədqiqatıdır.

Material və metodlar: Bütün tədqiqat işləri Azərbaycan Tibb Universitetinin Əczaçılıq kimyası kafedrasının elmi tədqiqat labarotoriyasında aparılmışdır. Tədqiqat məqsədi ilə sulfanilamid, sulfadimezin, sulfatiazol, sefaperazon substansiyaları; natrium nitrit, xlorid turşusu, natrium hidroksid, təmizlənmiş su reaktivləri; UB spektrofotmetr (Agilent Technologies “carry 60”), İQ spektrofotmetr (FTİR 630 Agilent Technologies), Ph metr, analitik tərəzi, maqnit qarışdırıcı cihazları istifadə olunmuşdur.

Nəticə: Sefaperazonun yeni törəmələri diazotlaşdırma və azo birləşmə reaksiyası ilə sintez olunmuş, UB və FTİR spektroskopiyası ilə identifikasiya edilmişdir. İn silico analizlər bu birləşmələrin çoxhədəfli bioloji potensialını qiymətləndirməyə imkan vermişdir.

Summary

SYNTHESİS OF NEW DERİVATİVES OF CEFOPERAZONE AND THEİR SPECTROPHOTOMETRİC IDENTİFİCATİON

Tahir Suleymanov, Huseyn Aliyev, Revan Mammadaliyev
AMU, Department of Pharmaceutical Chemistry

***Keywords*:** β-lactam antibiotics, chemical modification, in silico analysis

Increasing antibiotic resistance reduces the effectiveness of β-lactam drugs, making the synthesis of new derivatives clinically relevant. In this study, new azo-derivatives of cefoperazone were obtained through diazotization and azo-coupling with sulfanilamide. The product was isolated by filtration and characterized using UV and FTIR spectroscopy, confirming the formation of the azo structure. The results suggest that modified cefoperazone derivatives may serve as promising antibacterial candidates.

FARMAKOQNOZİYA / PHARMACOGNOSY

FUNCTION OF NATURAL BIOACTIVES IN DEVELOPMENT OF PHYTONANOCOSMETIC FORMULATIONS

Ilkay Erdogan Orhan
Department of Pharmacognosy, Faculty of Pharmacy, Lokman Hekim University, Ankara, Türkiye
ilkay.erdoganorhan@lokmanhekim.edu.tr

***Keywords*:** The beauty industry is increasingly focusing on ingredients derived from natural sources, leading to the rise of "natural cosmetics" that incorporate plant, mineral, and other natural substances. A relatively new area, "nanocosmetics," utilizes nanotechnology to enhance the effectiveness of beauty and personal care products. This approach facilitates improved delivery and efficacy of active ingredients, often through the use of nanocarriers. These carriers are capable of encapsulating and transporting specific substances to targeted skin areas, maximizing their effect and reducing potential side effects. Nanocosmetics can also address multiple skin concerns simultaneously, simplifying skincare routines by combining benefits such as hydration, anti-aging, and sun protection in a single product. The advantages of nanoforms extend beyond cosmetics to medical device formulations as well.

Our research team is dedicated to creating innovative plant-based cosmeceuticals at a laboratory scale. We employ stringent screening methods, including *in vitro* enzyme inhibition assays, *in silico* molecular docking, toxicity assessments, and cell-based studies, to identify potent plant extracts and natural compounds. For instance, we have successfully screened a series of plant phenolics against skin aging-related enzymes and also tested in SK-MEL30 cell line. Then, we prepared a nanoemulsion type of formulation, which were also tested in 2D and 3D skin assays.

This talk will highlight our most recent findings regarding the development of these novel phyto-based cosmeceutical formulations.

INVESTIGATIONS ON THE ESSENTIAL OILS AND AROMATIC PLANTS OF CYPRUS

K. Hüsnü Can Başer
Near East University, Faculty of Pharmacy, Department of Pharmacognosy, Lefkosa (Nicosia), N. Cyprus
khcbaser@gmail.com

***Keywords*:** Cyprus is the 3rd largest island in the Mediterranean Sea with a land cover of 9.251 sq.km. Being eastern Mediterranean, it is under the influence of

the floras of Asia, Africa and Europe. Flora of Cyprus is well documented with 1.610 species and altogether 1.738 taxa. 108 species (143 taxa) are endemic plants comprising 6.7% (8.2%) of the flora. The families *Asteraceae* (66), *Lamiaceae* (39) and *Apiaceae* (29) are important for the aromatic flora.

We have been systematically investigating essential oils from aromatic plants of Cyprus and here I shall present our results on the essential oils of the following species: *Anthemis tricolor, Asphodelus aestivus, Chenopodium murale, Chrysanthemum coronarium, Eucalyptus camaldulensis, Eucalyptus torquata, Helichrysum conglobatum, Helichrysum italicum, Lagoecia cuminoides, Lathyrus spp., Origanum cordifolium, Origanum dubium, Origanum majorana, Phlomis brevibracteata, Phlomis cypria var. cypria, Pimpinella cypria, Sideritis cypria, Teucrium cyprium, Teucrium kyrenia, Teucrium micropodioides, Teucrium salaminium, Thymus capitatus, Zosima absinthifolia.*

FIRÇA İLANBAŞI (*DRACOCEPHALUM BOTRYOIDES* STEVEN) BİTKİSİNİN BƏZİ FARMAKOQNOSTİK TƏDQİQİ

Cəfərova Günay Saleh qızı[1], İsayev Cavanşir İsa oğlu[1], İlkay Erdoğan Orhan[2], Kübra Erkan Türkmen[3]

[1]AMU, Bakı, Azərbaycan
[2]Gazi Universiteti, Ankara, Türkiyə
[3]Karamanoğlu Mehmetbey Univeraiteti, Karaman, Türkiyə
gunay.ceferova@amu.edu.az

Açar sözlər*: *Dracocephalum botryoides, GC-MS, efir yağları, ehtiyatşünaslıq tədqiqatı, antimikrob təsir

Azərbaycan florasında zənginliyi ilə seçilən *Lamiaceae* - Dodaqçiçəklilər fəsiləsinə aid, lakin farmakoqnostik baxımdan az öyrənilmiş cinslərdən biri də *Dracocephalum* - ilanbaşı cinsidir. Cinsin Azərbaycanda əsasən Böyük və Kiçik Qafqazın alp və subalp çəmənliklərində yayılmış 4 növü vardır. Qafqaz üçün endem olan *D. botryoides* - Fırça ilanbaşı növünün fitokimyəvi tədqiqatı aparılmamışdır. Məhz bu səbəb bitkinin kimyəvi tərkibinin və bioloji fəallığının öyrənilməsini aktual edir. İşin məqsədi Azərbaycanda yayılan *D. botryoides* növünün xammalının ehtiyatşünaslıq qiymətləndirilməsi, efir yağının alınması və GC-MS ilə komponentlərinin, eləcə də antimikrob təsirinin tədqiqidir.

Material və metodlar: *D. botryoides* çoxillik ot bitkisi olduğundan xammal ehtiyatı tipik sahələrdə “hesabat meydançaları” üsulu ilə qiymətləndirilmişdir. Efir yağının alınması üçün xammal bitkinin çiçəkləmə dövründə Quba rayonunun Xınalıq kəndi ətrafından, dəniz səviyyəsindən 2850 m hündürlükdə toplanmışdır. Efir yağı Klevencer üsulu ilə alınmış, tərkibi GC-MS cihazında təhlil edilmiş, antimikrob təsir isə standart mikrobioloji testlərlə (qram-müsbət/qram-mənfi bakteriyalar və mikroskopik göbələklər) qiymətləndirilmişdir.

Nəticələr və onların müzakirəsi: Ehtiyatşünaslıq tədqiqatı ümumilikdə 648,4 ha sahəni əhatə etmiş və həm ot, həm də kök üzrə ehtiyat göstəriciləri müəyyənləşdirilmişdir. Bioloji ehtiyatlar: 25,4 ton (ot), 28,7 ton (kök); istismar oluna bilən ehtiyatl müvafiq olaraq: 18,8 ton və 21,4 ton; illik tədarük: 3,8 ton və 1,4 ton olmuşdur. GC-MS nəticələrinə əsasən efir yağında monoterpenlərdən p-çimen (15,2%), terpinen-4-ol (5,8%), sabinen (5,1%); seskviterpenlərdən isə kariofillen-oxid (6,0%), t-kadinol (6,2%) və germakren B (2,2%) aşkarlanmışdır. Mikrobioloji tədqiqatda efir yağı həm qram-müsbət, həm qram-mənfi bakteriyalara və göbələk hüceyrələrinə qarşı nəzərəçarpan inhibəedici təsir göstərmişdir. Aparılan tədqiqat göstərir ki, *D. botryoides* həm xammal ehtiyatı baxımından, həm də kimyəvi tərkibinin zənginliyinə görə fitovasitələrin hazırlanması baxımından uyğun potensiala malikdir. Efir yağının antimikrob təsiri onu bioloji fəallığa malik qida məhsullarının hazırlanmasında ümidverici xammal edir. Gələcək işlərdə marker komponentlər üzrə (p-çimen, t-kadinol) standartlaşdırma, MİK dəyərlərinin ölçülməsi və dayanıqlı istismar planının hazırlanması zəruridir.

Summary

SOME PHARMACOGNOSTIC STUDIES OF DRACOCEPHALUM BOTRYOIDES STEVEN

Jafarova Gunay Saleh[1], Isayev Javanshir Isa[1], Ilkay Erdogan Orhan[2], Kubra Erkan Turkmen[3]

[1]Azerbaijan Medical University, Baku, Azerbaijan
[2]Gazi University, Ankara, Turkey
[3]Karaman Mehmetbey University, Karaman, Turkey
gunay.ceferova@amu.edu.az

***Keywords*:** *Dracocephalum botryoides*, GC–MS, essential oils, resource assessment, antimicrobial effect

This study evaluates the Caucasus-endemic Dracocephalum botryoides from Khinalig (Quba, 2850 m) via resource assessment, essential-oil extraction (Clevenger), GC-MS, and antimicrobial testing. Surveys across 648,4 ha indicate adequate biomass for sustainable use. The terpenoid-rich oil (notably p-cymene, terpinen-4-ol, sabinene; plus caryophyllene oxide, t-cadinol, germacrene B) showed inhibitory effects against Gram-positive/negative bacteria and fungi. Overall, the species is a promising source of bioactive material for functional products, warranting marker standardization and MIC-based validation under sustainable harvest plans.

ОБ УТИЛИЗАЦИИ ВТОРИЧНЫХ ПРОДУКТОВ ПРОИЗВОДСТВА СУБСТАНЦИИ ЛЕКАРСТВЕННОГО ПРЕПАРАТА АЛЛАПИНИН ИЗ НЕКОТОРЫХ РАСТЕНИЙ РОДА *ACONITUM*

Садиков Алимджан Заирович, Сагдуллаев Шамансур Шахсаидович, Ботиров Рузали Анварович, Муталова Дилноза Каримбердиевна

Институт химии растительных веществ им. акад. С.Ю.Юнусов АН РУз, Ташкент, Узбекистан
sadikov1948@bk.ru

***Ключевые слова*:** вторичные продукты, фармако-токсикологические исследования, аллапинин

На базе Опытного производства Института химии растительных веществ АН РУз по разработанной нами технологии в течение многих лет из корневищ с корнями растений борца Северного и борца Белоустого серийно производится субстанция лекарственного препарата аллапинин, обладающего антиаритмическим действием. Выход субстанции аллапинина составляет 72-75% от содержание его в сырье. Потери основного продукта на стадиях производства составляет 25-28%.

Цель исследования. Разработка технологии получения N-дезацетиллаппаконитина гидробромида и изучение фармакологических свойств вторичных продуктов аллапинина для создания промышленной субстанции высокой чистоты.

Материалы и методы. Использовались вторичные продукты производства аллапинина из корней борца Северного и Белоустого. N-дезацетиллаппаконитин гидробромид выделяли из маточных растворов после осаждения и перекристаллизации аллапинина. Изучали химическую трансформацию лаппаконитина при нагреве, щелочных и кислых растворах, а также фармако-токсикологические свойства метаболитов. Контролировали чистоту субстанции (98,5–100%) и стабильность при хранении.

В течение последних лет в нашем Институте ведутся научно-исследовательские работы по увеличению выхода конечного продукта. Проведена по стадийный контроль производства для определения потери основного продукта на технологических стадиях. Установлено, что при незначительном нагревании щелочных, кислых алкалоидосодержащих экстрактов, а также при перекристаллизации технического продукта из метилового спирта некоторые алкалоиды в том числе основной алкалоид субстанции препарата аллапинин алкалоид лаппаконитин частично гидролизуется образуя различные метаболиты, в том числе метаболит N-дезацетиллаппаконитин:

Лаппаконитин —нагревание щелочных, кислых растворов, действие агрессивного метилового спирта→ N-дезацетиллаппаконитин + ацетильная группа

Фармако-токсикологические исследовании показало, что препарат N-дезацетиллапаконитина гидробромид обладает высокой антиаритмической активностью. В отличие от известных применяемых в медицинской практике таких препаратов как аллапинин, пропафенон, кордарон N-дезацетиллаппаконитина гидробромид 3-10 раз быстрее купирует приступы аритмии. При введении инъекционного раствора N-дезацетиллаппаконитина

гидробромида (1% ный раствор в ампулах по 2 мл) в вену снимает приступы аритмии за несколько секунд. В настоящее время Министерством Здравоохранения РУз этот препарат разрешен для широких клинических испытаний.

Дальнейшее исследование вторичных продуктов производства субстанции аллапинина из вышеуказанных растений показало, что кроме метаболита N-дезацетиллаппаконитина эти отходы содержат значительное количество алкалоида ранаконитина.

Фармако-токсикологические исследования бромистоводородной соли ранаконитина показало, что этот препарат по своей антиаритмической активности не уступает известным препаратом, а в некоторых случаях превосходит их. Предварительное результаты исследования показало, что этот препарат кроме антиаритмической активности также обладает анестезирующие, противовоспалительной активностью. В настоящее время ведутся научно-исследовательские работы по разработке промышленной технологии производства субстанции препарата ранаконитина гидробромида из вторичных продуктов переработки корневищ с корнями растений борца Северного и борца Белоустого.

Результаты. Нами разработана технология получения N-дезацетиллапаконитина гидробромида из вторичных продуктов (маточный раствор после осаждения технического аллапинина, маточный раствор после перекристаллизации технического аллапинина) производства. Получены первые стабильные образцы субстанции N-дезацетиллаппаконитина гидробромида высокой чистоты – с содержанием основного продукта в субстанции не менее 98,5-100,0%.

Summary

ON THE DISPOSAL OF SECONDARY PRODUCTS FROM THE PRODUCTION OF THE MEDICINAL SUBSTANCE ALLAPININ FROM CERTAIN PLANTS OF THE GENUS ACONITUM

Alimdzhan Zairovich Sadikov, Shamansur Shakhsaidovich Sagdullaev, Ruzali Anvarovich Botirov, Dilnoza Karimberdievna Mutalova

S.Yu. Yunusov Institute of Plant Chemistry, Academy of Sciences of the Republic of Uzbekistan, Tashkent, Uzbekistan

sadikov1948@bk.ru

***Key words*:** secondary products, pharmacotoxicological studies of allapinin

We have developed a technology for producing N-deacetylapaconitine hydrobromide from secondary products (mother liquor after precipitation of technical allapinin, mother liquor after recrystallization of technical allapinin). The first stable samples of high-purity N-deacetyllappaconitine hydrobromide substance were obtained, with the content of the main product in the substance being at least 98.5-100.0%.

AZƏRBAYCANIN NAXÇIVAN DAĞLIQ GEOBOTANİK ƏRAZİSİNDƏ ÜRƏK-DAMAR SİSTEMİ XƏSTƏLİKLƏRİNİN MÜALİCƏSİNƏ DAİR ETNOFARMAKOLOJİ TƏDQİQAT

İsayev Cavanşir İsa oğlu, Babayeva Nərmin Təyyar qızı, Cəfərova Günay Saleh qızı, Mustafayeva Xuraman Niyazi qızı, Hacıyeva Esmira Mirbaba qızı, Səfərova Nilufər Mübariz qızı

ATU, Farmakoqnoziya kafedrası, Bakı, Azərbaycan,
isayev.cavanshir@amu.edu.az

Açar sözlər: etnofarmakologiya, Naxçıvan dağlıq, dərman bitkiləri, ürək-damar sistemi xəstəlikləri

Azərbaycan florası bitki növlərinin sayına görə dünyanın zəngin bölgələrindən biridir [1]. Ölkə ərazisində qədim zamanlardan yabanı və becərilən bitkilərdən xəstəliklərin müalicəsində istifadə edilir.

Son illərin statistikasına görə, dünya miqyasında insanların 60 %-dən çoxunda bu və ya digər ürək-damar sistemi xəstəlikləri müşahidə edilir. Daha çox orqanizmin müxtəlif damarlarının aterosklerozu, aritmiya, kardionevroz, venaların varikoz genişlənməsi, tromboflebit, ürəyin işemik xəstəliyi, arterial hipertoniya, arterial hipotoniya, endoartrit kimi xəstəliklərə təsadüf edilir [2].

Son illər Azərbaycan xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində istifadə edilən dərman bitkilərinin fitokimyəvi tədqiqi həyata keçirilmiş, eləcə də bitkilərdən alınmış ekstrakt və bəzi fərdi maddələrin bioloji fəallıqları öyrənilmişdir [3, 4]. Relyefinə və biocoğrafi mövqeyinə görə Naxçıvan dağlıq geobotanik ərazisi yabani bitki növlərinin zənginliyi ilə seçilən bölgələrdəndir. Bu regionda yaşayan əhali müxtəlif xəstəliklərin müalicəsində əsrlərin təcrübəsinə söykənən Azərbaycan xalq təbabətindən geniş istifadə edir [5].

Tədqiqatın məqsədi Azərbaycan Respublikasının yabanı dərman bitkiləri ilə zəngin olan Naxçıvan dağlıq geobotanik ərazisində ürək-damar sistemi xəstəliklərinin müalicəsi üçün istifadə edilən bitki növlərinə aid etnofarmakoloji tədqiqat aparmaqdır.

Tədqiqatın material və metodları. Etnofarmakoloji tədqiqat Naxçıvan dağlıq geobotanik bölgəsinin Şahbuz, Culfa və Ordubad rayonlarında yaşayan əhali arasında yazılı anket və şifahi sorğu aparmaqla yerinə yetirilmişdir. Etnofarmakoloji tədqiqatda toplanmış məlumatların təhlilində müvafiq üsullardan istifadə edilmişdir [6, 7].

İnformativ uzlaşma faktoru (İUF) – tədqiqat sahəsindəki bitki istifadəçiləri arasında müalicə üçün bitkilərin istifadəsi baxımından bir uzlaşma olub-olmadığını analiz etmək, yəni informasiya verənlərin məlumatlarının homogenliyini yoxlamaq üçün istifadə edilir.

$$İUF = Nur – Nt / Nur – 1$$

Nur – müəyyən bir xəstəlik kateqoriyası üçün istifadə edilən anketin sayı, Nt – isə bütün məlumat verənlər tərəfindən müəyyən bir xəstəlik kateqoriyası üçün istifadə olunan növün sayını ifadə edir. Bu faktorun hasili sıfırla 1 arasında dəyişir.

İstifadə dəyəri (İD) – faydalı bitkilərin nisbi əhəmiyyətini ölçmək üçün geniş istifadə edilən bir indeksdir və növlərin nisbi əhəmiyyəti haqqında kəmiyyət baxımından məlumat verir. İstifadə dəyəri hər bir cəmiyyətdə ən vacib olan növləri müəyyən edir. Aşağıdakı düsturdan istifadə etməklə hesablanır.

$$\text{İD} = \text{İHC}/n$$

İHC – hər bir məlumat mənbəyinin müəyyən bir növ üçün sahib olduğu istifadə hesabatlarının cəmini ifadə edir. “n” hərfi isə sorğuda iştirak edən məlumat verənlərin sayını göstərir.

Doğruluq səviyyəsi (DS) – bir xəstəliyin müalicəsində üstünlük verilən növləri ifadə edir. Aşağıdakı düsturla hesablanır.

$$\text{DS} = Np/Nx100$$

Np – müəyyən bir xəstəlik üçün bitkilər haqqında məlumat verənlərin sayını ifadə edir, N – müəyyən bir xəstəlik kateqoriyası üçün növləri istifadə edən cəmi məlumat mənbəyinin sayını ifadə edir.

Sitatın nisbi tezliyi (SNT) – xəstəlik üçün ən çox üstünlük verilən bitki növlərini yoxlamaq üçün istifadə olunur. Aşağıdakı düsturla hesablanır.

$$\text{SNT} = \text{ST}/N(0 < RFC < 1)$$

ST – sitatın tezliyidir, bir növün yerli əhali tərəfindən istifadəsinin önəmini göstərir. Bu növlərin istifadələrini göstərən məlumat verənlərin sayının, müsahibədə iştirak edən məlumat verənlərin ümumi sayına olan nisbətidir.

Fəsilənin vaciblik dəyəri (FVD) – fəsiləyə daxil olan bitkilərin vaciblik dərəcəsini göstərir.

$$\text{FVD} = \text{FC}_{\text{fəsilə}}/N_s$$


$\text{FC}_{\text{fəsilə}}$ – anket sorğusunda iştirak edənlərin bir fəsiləyə daxil olan bitkilər haqqında verdiyi məlumatın sayı, N_s – fəsiləyə daxil olan bitki növlərinin sayı [9, 10].

Tədqiqatın nəticələri və onların müzakirəsi.

Azərbaycan Respublikasının yabanı dərman bitkiləri ilə zəngin bölgələrindən biri də Naxçıvan dağlıq geobotanik ərazisidir. Burada tədqiqat işi 2022-2025-ci illəri əhatə edir və daha çox dağlıq ərazilərdə yerləşən kəndlərdə aparılmışdır. Etnobotanik tədqiqat Naxçıvan dağlıq geobotanik bölgəsinin Şahbuz rayonunun ərazisində Badamlı, Kolanı, Kükü, Biçənək, Gömür, Nursu, Mahmudoba, Şahbuzkənd, Külüs və Keçili kəndlərinin əhalisi arasında sorğu keçirilməklə aparılmışdır. Culfa rayonunda Ərəzin, Əbrəqunus, Kırna, Saltaq, Şurud, Xanəgah, Qazançı, Milax, Ərəfsə, Ləkətağ və Boyəhməd kəndlərində yaşayan əhali sorğuya cəlb edilmişdir. Ordubad rayonu ərazisində isə Nüsnüs, Kilit, Kotam, Nəsrivaz, Dırnıs, Gənzə, Çənnəb, Parağa, Parağaçay, Biləv, Tivi, Bist, Xurs və Nürgüt kəndlərində yaşayan əhali arasında sorğu keçirilmişdir. Bu ərazilər orta və yuxarı dağlıq ərazilərdir və dəniz səviyyəsindən 700-2800 m hündürlüklərdə yerləşir. Tədqiqat aparılan ərazilər özünəməxsus bitki örtüyü ilə fərqlənən bölgələrdir. Müsahibə prosesini 6 mütəxəssis aparmışdır. Tədqiqat zamanı 70 respondentdən 68 bitki haqqında məlumat toplanmışdır. Müsahibədə iştirak edənlərdən 24-ü qadın, 46-ı kişi olmuşdur. Yaş həddi 26-90 arasında olub, əksəriyyətinin yaşı 60-dan çoxdur. Respondentlərin əksəriyyəti orta təhsillidir. Müsahibə yaşayış yerlərində,

otlaq sahələrində, plantasiyalarda, meşə və çəmənlik ərazilərdə üz-üzə olmaqla azərbaycan dilində aparılmışdır.

Tədqiqat Şahbuz, Culfa və Ordubad rayonlarının dağlıq ərazisində aparılmışdır (şəkil).



Şəkil. Etnobotanik tədqiqatların aparıldığı bölgələr

Alınmış nəticələr 1 saylı cədvəldə verilmişdir.

Cədvəl 1. Naxçıvan dağlıq geobotanik ərazisində ürək-damar sistemi xəstəliklərinin müalicəsində istifadə edilən bitkilərin etnofarmakoloji tədqiqatının göstəriciləri

Bitkinin latın dilində adı	Azərbaycan dilində adı	İstifadə edilən hissəsi və hazırlanma forması	İHC	İD	Ds	SNT
Adonis bienertii, Ran.	Xoruzgülü	Otu	28	0,40	19	0,27
Aesculus hippocastanum, H.	Atşabalıdı	Meyvəsi	41	0,59	34	0,49
Alchemilla caucasica, Ros.	Şaxduran	Otu, kökü	16	0,23	9	0,13
Allium cepa, Amar.	Soğan	Soğanı	53	0,76	47	0,67
Allium sativum, Amar.	Sarımsaq	Soğanı	64	0,91	54	0,77
Amygdalus communis, Ros.	Badam	Meyvəsi	55	0,79	48	0,68
Angelica tatianae, Ap.	Tütəkotu	Otu	16	0,23	8	0,11
Anethum graveolens, Ap.	Şüyüd	Meyvəsi	60	0,86	57	0,81
Asparagus persica, Asp.	Qulançar	Otu	22	0,31	12	0,17
Berberis vulgaris, Ber.	Zirinc	Meyvəsi	35	0,50	29	0,41
Betula pendula, Bet.	Tozağacı	Yarpağı	44	0,63	37	0,53
Campanula sarmatica, Cam.	Zəngçiçəyi	Otu	10	0,14	7	0,10
Capsella bursa-pastoris, Br.	Quşəppəyi	Otu	49	0,70	34	0,49
Centaurea rhizantha, Ast.	Güləvər	Otu	24	0,34	19	0,27
Citrus limon, Rut.	Limon	Meyvəsi	66	0,94	57	0,81
Crataegus caucasica, Ros.	Yemişan	Çiçəyi, meyvəsi	63	0,90	50	0,71
Crataegus meyeri, Ros.	Meyer yemişanı	Çiçəyi, meyvəsi	57	0,81	46	0,66
Crataegus monogyna, Ros.	Birdişicikli yemişan	Çiçəyi, meyvəsi	54	0,77	43	0,61
Crataegus orientalis, Ros.	Şərq yemişanı	Çiçəyi, meyvəsi	61	0,87	55	0,79
Crataegus pentagyna, Ros.	Beşdişicikli yemişan	Çiçəyi, meyvəsi	60	0,86	49	0,70
Viscum album, Vis.	Öksəotu	Otu	41	0,59	33	0,47

Qeyd: *Amar. – Amaranthaceae, Ap. – Apiaceae, Asp. – Asparagaceae, Ast. – Asteraceae, Ber. – Berberidaceae, Bet. – Betulaceae, Br. – Brassicaceae, Cam. – Campanulaceae, H. – Hippophaceae, Ran. – Ranunculaceae Ros. – Rosaceae, Vis. – Viscaceae fəsilələrini göstərir.* İHC – hər bir məlumat mənbəyinin müəyyən bir növ üçün malik olduğu istifadə hesabatlarının cəmini ifadə edir. İD – növlərin nisbi əhəmiyyəti haqqında kəmiyyət baxımından informasiya verir. *DS* – bir xəstəliyin müalicəsində üstünlük verilən növləri ifadə edir. SNT – sitatın nisbi tezliyidir.

Nisbətən az istifadə olunan çöl qatırquyruğu, bataqlıq qatırquyruğu, ensizyarpaq iydə, adi əncir, adi razyana, meşə çiyələyi, xaçvari acıçiçək, tüksüz biyan, rus qurucası, adi dazı, adi mayasarmaşığı, adi şirquyruğu, qafqaz qarayoncası, dərman xəşəmbülü, dərman bədrənci, su yarpızı, uzunyarpaq yarpız, istiot nanəsi, tut, çörəkotu, adi qaraqınıq, cəfəri, şərq odotu, püstə, adi quşbuğdası, adi nar, qafqaz armudu, daraqvari itburnu, tüklü itburnu, zəngəzur itburnusu, qafqaz böyürtkəni, bozumtul böyürtkən, ağ söyüd, keçiyemliyi, şərq başlıqotu, qafqaz quşarmudu, bostan ispanağı, təpəlik kəklikotu, qafqaz cökəsi, enliyarpaq cökə, sarımsaqyarpaq

pişikotu, cökəyarpaq pişikotu, ağ öksəotu, innab, badam, şüyüd və d. bitkilər üçün də statistik göstəricilər hesablanmışdır.

2-ci cədvəldə anket sorğusunda iştirak edənlərin nəticələrinin düzgünlük faktoru verilmişdir. Etnofarmakoloji tədqiqat zamanı aparılan sorğuda iştirak edənlərdən 63 nəfər arterial hipertoniyanın, 61 nəfər aterosklerozun, 36 nəfər arterial hipotoniyanın, 50 nəfər ürəyin işemik xəstəliklərinin, 17 nəfər tromboflebitin, 30 nəfər babasilin, 44 nəfər ürək çatışmazlığının, 35 nəfər aritmiyanın, 28 nəfər distoniyanın, 37 nəfər kardionevrozun, 33 nəfər venaların varikoz genişlənmə hallarının müalicəsində dərman bitkilərindən istifadə etdiklərini bildiriblər.

Cədvəl 2. Anket sorğusunda iştirak edənlərin nəticələrinin düzgünlük faktoru

Xəstəliyin tipi	Nur	Nt	Nur-Nt	Nur-1	İUF
Aritmiya	35	21	14	34	0,41
Ateroskleroz	61	43	18	60	0,30
Arterial hipertoniya	63	22	41	62	0,66
Arterial hipotoniya	36	9	27	35	0,77
Distoniya	28	19	9	27	0,33
Kardionevroz	37	24	13	36	0,36
Ürək çatışmazlığı	44	28	16	43	0,37
Ürəyin işemik xəstəliyi	50	40	10	49	0,20
Venaların varikoz genişlənməsi	33	12	21	32	0,66
Babasil	30	17	13	29	0,45
Tromboflebit	17	8	9	16	0.56

Qeyd. İUF – tədqiqat sahəsindəki bitki istifadəçiləri arasında müalicə üçün bitkilərin istifadəsi baxımından bir uzlaşma olub-olmadığını analiz etmək üçün istifadə edilir; Nur – müəyyən bir xəstəlik kateqoriyası üçün istifadə edilən anketin sayıdır; Nt – bütün məlumat verənlərin müəyyən bir xəstəlik kateqoriyası üçün istifadə etdiyi takson sayını ifadə edir.

Tədqiqat aparılan bölgədə yerli əhaliyə yabanı bitkilərin toplanması, düzgün qurudulması, saxlanması, eləcə də istifadəsi haqqında məlumat verilmişdir.

Müvafiq olaraq fəsilələrə daxil olan növlərin sayı, növlərin nisbi əhəmiyyəti və istifadəsinin dəyər göstəriciləri hesablanmışdır: Bu nəticələr *Amaranthaceae*, *Apiaceae, Asteraceae, Fabaceae, Lamiaceae* və *Rosaceae* fəsilələri üçün yüksək olmuşdur.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, ürək-damar sistemi xəstəliklərinin müalicəsində bitkilər dəmləmə və bişirmə formasında, eləcə də çiy halda istifadə edilir. Tədqiq edilən bitkilərdən iydə, əncir, razyana, çiyələk, yarpız, nanə, tut, cəfəri, armud, soğan, sarımsaq, badam, zirinc, limon və yemişan həm qida kimi, həm də müalicəvi vasitə kimi istifadə edilir. Tədqiqatlara cəlb edilmiş bitkilərdən 14-ü becərilən, 54-ü isə yabanı bitkilərdir.

Müəyyən edilmişdir ki, ürək-damar sistemi xəstəliklərinin müalicəsində istifadə edilən bitkilərin 24 növünün otu, 12 növünün meyvəsi, 8 növünün yarpağı, 11 növünün çiçəkləri, 4 növünün kökü, 2 növünün kökyumruları, 2 növünün kökümsovu, 2 növünün soğanı, 1 növünün qabığı, 1 növünün toxumları və 1 növünün qozaları istifadə edilir. İstifadə edilən bikilərin 42-si ot, 15-i ağac, 10-u kol və 1-i

sarmaşıqdır. Ürək-damar sistemi xəstəlikləri zamanı istifadə edilən 68 bitki növündən 33-ü ofisinal, 35-i isə qeyri-ofisinal dərman bitkilərinə aiddir.

Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan dağlıq geobotanik ərazisində ürək-damar sistemi xəstəliklərinin müalicəsində 22 fəsiləyə aid 68 bitki növündən istifadə edilir. Daha çox bitki növləri istifadə edilən fəsilələr: Rosaceae (12 bitki növü), Lamiaceae (7 bitki növü), Asteraceae (5 bitki növü), Apiaceae (5 bitki növü) və Fabaceae (4 bitki növü) olmuşdur. Müvafiq olaraq fəsilələrə daxil olan növlərin sayı, növlərin nisbi əhəmiyyəti və istifadə dəyəri göstəriciləri hesablanmışdır.

Praktik təbabətdə ürək-damar sistemi xəstəliklərinin müalicəsində istifadə edilən dərman vasitələrinin çeşidində bitki mənşəli vasitələrin azlığı bu sahəyə diqqətin artırılmasını aktuallaşdırır. Məhz bu baxımdan təqdim edilən məqalə tibb işçilərinin və əhalinin diqqətini bitki mənşəli vasitələrə yönəltmək istiqamətində faydalı ola bilər.

Ədəbiyyat siyahısı

1. Флора Азербайджана, Баку, издательство Академия наук Азербайджана, в 8-и томах, 1350 с. [Flora Azerbaydjana. Baku, izdatelstvo Akademiya Nauk Azerbaydjana, v. 8, 1350 p.] (in Russian).

2. Isayev J.I., Hajiyeva E.M., Babayeva N.T., Jafarova G.S., Safarova N.M., Gadimli AIsayev J.I., Babayeva N.T., Jafarova G.S., Mustafayeva Kh. N., Hajiyeva E.M., Safarova N.M., Gadimli A.I. Ethnopharmacological study of the treatment of cardiovascular diseases in the Guba mountain geobotanical region of Azerbaijan// Azerbaijan medical journal, 2025, (1), p. 171-176. https://doi.org/10.34921/amj.2025.1.030.

3. Kashchenko N.I., Jafarova G.S., Isaev J.I., Olennikov D.N., Chirikova N.K. Caucasian Dragonheads: Phenolic Compounds, Polysaccharides, and Bioactivity of Dracocephalum austriacum and Dracocephalum botryoides. // Plants- 2022, 11, p. 2126. https://doi.org/10.3390/plants11162126

4. Olennikov D.N., Gadimli A.I., Isaev J.I., Kashchenko N.I., Prokopyev A.S., Kataeva T.N., Chirikova N.K., Venno C. Caucasian *Gentiana* Species: Untargeted LC-MS Metabolic Profiling, Antioxidant and Digestive Enzyme Inhibiting Activity of Six Plants // Metabolites- 2019, 9, p. 271. https://doi.org/10.3390/metabo9110271

5. Isayev J.I., Hajiyeva E.M., Babayeva N.T., Jafarova G.S., Safarova N.M., Gadimli A.I. Ethnopharmacological study of the treatment of diseases of the digestive system in the geobotanical region of Azerbaijan Nakhichevan Highlands // Azerbaijan medical journal, 2024, (4), p. 151-157. https://doi.org/10.3491/amj.2024.4.024

6. Isayev J.I., Hajiyeva E.M., Mustafayeva Kh.N., Yagubov K.M., Babayeva N.T., Safarova N.M., Gadimli A.I., Jafarova G.S. Ethnopharmacological study of the treatment of diseases of the respiratory system in the Zuvand geobotanical territory of Azerbaijan // Azerbaijan Medical Journal, 2024, (3), p. 121-127. https://doi.org/10.3492/amj.2024.3.021

7. Ayub M., Shah G.M., Irfan M., Ullah F, Ullah A.Ethnomedicinal study of the flora of Sellay Pattay valley, district Malakand, Khuber Pakhtunkhwa, Pakistan // Ethnobotany research and applications, 2023, 26, https://dx.doi.org/10.32859/era.26.32.1-17.

Summary

ETHNOPHARMACOLOGICAL STUDY ON THE TREATMENT OF CARDIOVASCULAR DISEASES IN THE MOUNTAINOUS GEOBOTANICAL REGION OF NAKHCHIVAN, AZERBAIJAN

Isayev Javanşir Isa oglu, Babayeva Narmin Tayyar gizi, Jafarova Gunay Saleh gizi, Mustafayeva Khuraman Niyazi gizi, Hajiyeva Esmira Mirbaba gizi, Safarova Nilufar Mubariz gizi

AMU, Department of Pharmacognosy, Baku, Azerbaijan
isayev.cavanshir@amu.edu.az

Keywords: ethnopharmacology, Nakhchivan mountainous region, medicinal plants, cardiovascular diseases

The mountainous geobotanical region of Nakhchivan is distinguished by its rich diversity of wild plant species. The local population of this region has long relied on the traditional medical practices of Azerbaijan, which are deeply rooted in centuries of empirical experience, for the treatment of various diseases. The aim of this study was to conduct an ethnopharmacological investigation of plant species used in the treatment of cardiovascular diseases within the mountainous geobotanical region of Nakhchivan, which is known for its abundance of wild medicinal plants. Ethnopharmacological data were collected through written questionnaires and oral interviews conducted among the residents of Shahbuz, Julfa, and Ordubad districts within the Nakhchivan mountainous region. The fieldwork was carried out between 2022 and 2025 in villages located in the mountainous areas of these districts. Information on 68 plant species was obtained from 70 respondents. Among the surveyed participants, 63 individuals reported using plants for the treatment of arterial hypertension, 61 for atherosclerosis, 36 for arterial hypotension, 50 for ischemic heart disease, 17 for thrombophlebitis, 30 for hemorrhoids, 44 for heart failure, 35 for arrhythmia, 28 for dystonia, 37 for cardioneurosis, and 33 for varicose vein conditions. The relatively limited range of plant-based medicines currently employed in the treatment of cardiovascular diseases in practical medicine underscores the importance of enhancing research and development in this area.

AZƏRBAYCAN FLORASINDAN ADİ MAYASARMAŞIĞI (*HUMULUS LUPULUS L.)* BİTKİSİNİN BƏZİ FİTOKİMYƏVİ TƏDQİQİ

Əliyeva Sənəm Eldar , Ağayev Emin Anar
ATU, Farmakoqnoziya kafedrası

Açar sözlər: *Humulus lupulus L.,* flavonoidlər, xromotoqrafik analiz

Giriş. Bitkilər müxtəlif xəstəliklərin müalicəsində istifadə olunan dərmanların mühüm mənbələrindən biridir. Təbii mənbələrdən yeni dərman vasitələrinin hazırlanmasında xalq təbabəti qeydləri ilkin və mühüm rol oynayır. Bitki növləri içərisindən bioloji fəal maddələrin yeni mənbələrinin müəyyən edilməsi, xammaldan maddələrin alınması, kimyəvi tədqiqi və bioloji fəallığının müəyyən edilməsi əczaçılıq elminin, o cümlədən farmakoqnoziyanın qarşısında duran mühüm vəzifələrdən biridir. Bu baxımdan Azərbaycan florasında təmsil olunan növlərin tədqiqi aktualdır.

Məqsəd. Adi mayasarmaşığı bitkisinin tərkibindəki fenol birləşmələrinin flavonoid və taninlərə aid keyfiyyət və xromatoqrafik analizləri həyata keçirtməkdir.

Material və metodlar. Bitkinin ekstraktından (su-spirtli) flavonoidlərə aid 5 reaksiya (sianidin reaksiyası, dəmir (III)-xloridlə reaksiya, vilson reaksiyası, qələvi məhlulları, orta qurğuşun-asetatın spirtli məhlulu), taninlərə isə 3 eynilik reaksiyası (1 %-li jelatin məhlulu, dəmir-ammonium zəyi məhlulu, 10 %-li sirkə turşusu və 10 %-li orta qurğuşun-asetat məhlulu) aparılmışdır.

Flavonoidlərin nazik təbəqəli xromatoqrafiya (NTX) üsulu ilə analizi zamanı üzəri silikaqel ilə örtülmüş 60 F_{254} aluminum lövhələrdən istifadə edilmişdir (*Merck*). Lövhələr UB-şüaları altında müşahidə edilmiş, aşkarlayıcı kimi kalium-hidroksidin 10%-li məhlulundan, eləcə də xloroform-metanol-su (61:32:7) həlledicilər sistemindən istifadə edilmişdir.

Taninlərin xromatoqrafik analizində isə (NTX) üzəri silikaqel ilə örtülmüş 60 F_{254} aluminum lövhələrdən istifadə edilmişdir (*Merck*). Lövhələr UB-şüaları altında müşahidə edilmiş, aşkarlayıcı kimi vanilinin qatı xlorid turşusundakı 1 %-li məhlulundan, eləcə də n-butanol-sirkə turşusu-su (40:12:28) həlledicilər sistemindən istifadə edilmişdir.

Nəticə. Aparılan keyfiyyət və xromatoqrafik analizlər nəticəsində *H. lupulus* L. bitkisində flavonoid və taninlər aşkar edilmişdir. Alınmış nəticələrə görə *Humulus lupulus L.* bitkisi geniş fitokimyəvi və farmakoloji tədqiqatlarının həyata keçirilməsinə zəmin yaradır.

Summary

SOME PHYTOCHEMİCAL STUDİES OF THE PLANT HUMULUS LUPULUS L. FROM THE FLORA OF AZERBAİJAN

Aliyeva Sanem Eldar , Aghayev Emin Anar
AMU, Department of Pharmacognosy

***Keywords*:** As a result of qualitative and chromatographic analyses, flavonoids and tannins were detected in the H. lupulus L. plant. According to the results obtained, the Humulus lupulus L. plant provides the basis for extensive phytochemical and pharmacological studies.

PHYTOCHEMICAL RESEARCH AND CHARACTERIZATION OF ALKALOIDS IN *THALICTRUM MINUS* L. FROM THE FLORA OF AZERBAIJAN

Ilkin Nasirli Uzeyir, Eldar Garaev Abdulla
Azerbaijan Medical University, Faculty of Pharmacy, Department of Pharmaceutical Toxicology and Chemistry, Baku, Azerbaijan,
inasirli@amu.edu.az

Keywords: Thalictrum minus L., isoquinoline alkaloids, phytochemistry, NMR, mass spectrometry, Azerbaijan flora

Introduction. *Thalictrum minus* L., a perennial herb of the *Ranunculaceae* family, is widely distributed in the Caucasus region, particularly in mountainous and foothill zones of Azerbaijan. In local medicine, different parts of the plant used traditionally applied in the treatment of inflammatory conditions, digestive disorders, and infectious diseases. The biological activity of *T. minus* is mainly related to its rich content of isoquinoline alkaloids, flavonoids, saponins, and phenolic compounds. Alkaloids isolated from *Thalictrum* species are known to possess antibacterial, antifungal, antioxidant, and cytotoxic effects, making them of considerable interest for both pharmacological research and drug development. Despite the plant’s traditional use, systematic phytochemical and toxicological studies in Azerbaijan remain limited.

The aim. Therefore, the present study aims to provide a comparative analysis of alkaloids isolated from different parts of *T. minus* using advanced instrumental techniques.

Materials and Methods. Plant material collected from two places during different seasons between 2020 and 2023 in the Altiaghaj settlement and Laza village. The under shade air-dried parts of *T. minus* was ground to powder, and sequentially extracted with solvents of increasing polarity (ethanol/water, hexane, dichloromethane, ethyl acetate and butanol-1). The extracts obtained from both aerial and underground parts were subjected to chromatographic and spectroscopic analysis. Preparative Thin-Layer Chromatography (PTLC) used to isolate individual alkaloid fractions. Structural analysis carried out using High-Performance Liquid Chromatography coupled with Mass Spectrometry (HPLC-MS) and Nuclear Magnetic Resonance (NMR) spectroscopy. In addition, molecular networking analysis of the MS data used to establish the relationships between detected alkaloid species, providing insight into their structural diversity and biosynthetic pathways. Reference spectra from known isoquinoline alkaloids used to confirm compound identification.

Results and Discussion. Chromatographic separation and subsequent spectroscopic analysis led to the isolation and identification of seven major alkaloids from the underground part of the plant. Among these, berberine is a well-known pharmacologically active alkaloid with documented antimicrobial and anticancer activities. Comparative analysis of extracts from aerial and underground parts revealed differences in the distribution and relative abundance of alkaloids. The

underground parts showed higher concentrations of isoquinoline alkaloids, whereas aerial parts were richer in flavonoid derivatives. The MS-based molecular networking suggested possible biosynthetic correlations between 2 alkaloids, indicating that these compounds may share common precursor pathways. The identification of these alkaloids supports the traditional medicinal use of *T. minus* and provides scientific evidence of its bioactive potential. Furthermore, the structural diversity of the isolated compounds highlights the plant as a promising natural source for the discovery of pharmacologically significant molecules.

Conclusion. Seven alkaloids were isolated and structurally characterized from the underground parts of *T. minus* collected in Azerbaijan. The combination of PTLC, HPLC-MS, and NMR allowed for precise identification and comparison of alkaloid profiles between plant organs. These findings contribute to the phytochemical characterization of Azerbaijan’s flora and open perspectives for further pharmacological and toxicological studies. Future work will focus on evaluating the biological activities of individual alkaloids, assessing their toxicological properties, and exploring the potential of *T. minus* as a candidate for phytotherapeutic applications.

PHARMACEUTICAL POTENTIAL OF BLACK BINDWEED (*FALLOPIA CONVOLVULUS*)

Akmuratkyzy Zhanbota, Turgumbayeva Aknur
NpJSC «Al-Farabi Kazakh National University», Higher School of Medicine, Almaty, Kazakhstan;
akmuratkyzyzhanbota@mail.ru

Keywords: *Fallopia convolvulus*, Polygonaceae, phytochemicals, pharmacological activities, traditional medicine

One of the most serious global public health problems today is antibiotic resistance, which continues to increase every year. Key measures to contain it include limiting the unjustified use of antibiotics and searching for effective alternatives, such as medicinal products derived from safe and high-quality plant materials. In the context of growing antimicrobial resistance and adverse effects of synthetic drugs, the search for natural sources of biologically active compounds has become increasingly important. In this regard, plants offer a promising basis for developing new, safer, and more effective therapeutic agents.

The aim of this study is to evaluate the pharmaceutical potential of *Fallopia convolvulus* by reviewing its ethnobotanical, phytochemical, and pharmacological properties, with a focus on its bioactive compounds and their therapeutic activities, in order to assess its prospects for the development of plant-based medicinal preparations.

Materials and methods. Data from ethnobotanical, phytochemical, and pharmacological studies on *Fallopia convolvulus* were collected and analyzed from

scientific publications available in electronic databases, including PubMed, Google Scholar, ScienceDirect, and ResearchGate.

Results and discussion. *Fallopia convolvulus* (L.) Á. Löve, commonly known as black bindweed, belongs to the Polygonaceae family. It is widely distributed across Europe, Asia, North America, and other regions, occurring in cultivated fields, gardens, and disturbed habitats.

F. convolvulus is an annual climbing herb with slender roots and delicate, freely branching stems that can reach up to 90 cm in length. The stems may trail along the ground or twine around nearby plants and sometimes have a reddish tint. Its alternate leaves, 2.5-4 cm long, are ovate or sagittate with long petioles and backward-pointing basal lobes. Small, inconspicuous flowers up to 6 mm long are arranged in short axillary clusters of two to six, developing into triangular achenes with pointed tips.

Phytochemical investigations have identified numerous bioactive substances in *F. convolvulus*, such as flavonoids (quercetin, kaempferol, myricetin, apigenin, luteolin), phenolic acids, anthraquinones, stilbenes, amides, and sterols. Several new compounds have been isolated, including falloconvolin A, falloconvolin B, and quercetin-3-O-(2-E-sinapoxyl)-glucopyranoside. These molecules demonstrate strong antioxidant, anti-inflammatory, antitumor, and estrogenic activities. Particularly, emodin and rhodoeosein activate ERβ more effectively than ERα, showing potential for regulating estrogen-related disorders.

Due to this rich chemical composition, *F. convolvulus* has been widely used in traditional medicine, particularly in Asia, for the treatment of hepatitis, inflammation, liver damage, and hormonal disorders. Extracts from its rhizomes and roots exhibit vasorelaxant, antioxidant, antibacterial, anti-inflammatory, and antitumor properties. In traditional Chinese and Japanese medicine, plants of the *Fallopia* genus have been used to treat hepatitis, hypertension, inflammation, skin injuries, and bleeding. The therapeutic potential of the plant is associated with its rich content of polyphenolic compounds, including flavonoids and stilbenes with phytoestrogenic activity, which preferentially activate estrogen receptor β (ERβ), helping reduce the risk of hormone-dependent cancers such as breast and prostate cancer.

Conclusion. Based on the reviewed scientific literature, the pharmacological potential and effectiveness of *F. convolvulus* were substantiated. The plant exhibits a wide range of biological activities, including antioxidant, anti-inflammatory, antimicrobial, and anticancer effects, which are mainly attributed to its rich content of flavonoids, phenolic acids, and other secondary metabolites. These results emphasize the promising potential of *F. convolvulus* for further research and its possible application in the development of modern plant-based pharmaceutical preparations. Based on the obtained results, it was concluded that plant-based preparations derived from *Fallopia convolvulus* possess a wide range of therapeutic effects, attributed to the pharmacological properties of its bioactive constituents.

QIRMIZI PİRAKANTA BİTKİSİNİN MEYVƏ VƏ YARPAQLARININ MİKROSKOPİK TƏDQİQİ

Heydarlı S.X., Əliyeva S.Ş., Qocayeva F.Ə., Məmmədova V.V.
ATU, Farmakoqnoziya Kafedrası

***Açar sözlər*:** Azərbaycan Respublikası florası olduqca zəngin növlərə sahibdir. Burada 4500-dən artıq bir sıra ali bitki növləri qeydə alınmışdır. Bitkilər aləminin mühüm fəsilələrindən biri *Rosaceae* fəsiləsidir. Dünyanın əksər ölkələrində və Şimal Yarımkürəsinin tropik və subtropik ölkələrində geniş şəkildə yayılmışdır. 100 cinsə aid 3000-3400 növü əhatə edir. Azərbaycanda 29 cins üzrə 195-ə qədər yabanı növə təsadüf edilir.

Bu növlər arasında Almakimilər (*Maloideae*) yarımfəsiləsinə aid olan *Pyracantha coccinea* geniş yayılmış və ekosistem sabitliyinin təmin olunmasında mühüm yer tutur. Qərbi Avropada, Himalayda və Çində, Qafqaz və Krımda yayılan 7 növündən Azərbaycanda yabanı halda olan 1 növ - *Pyracantha coccinea* (Qırmızı pirakanta) növünə təsadüf edilir. Kultura isə 4 növ yayılmışdır. Həmişəyaşıl kol bitkisidir. Meyvələri xırda ölçülüdür. Əsasən narıncı və qırmızı rənglidir. Tərkibi flavonoidlər, aşı maddələri, saponinlər və bir sıra vitaminlərlə zəngindir.

Azərbaycanın iqlim və torpaq şəraiti *Pyracantha coccinea* (Qırmızı pirakanta) bitkisinin bioloji aktiv maddələrin tərkibinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər ki, bu da yeni təqdiqatların aparılmasına şərait yaradır.

Tədqiqatın məqsədi, Azərbaycan ərazisində yayılmış Qırmızı pirakanta bitkisinin meyvə və yarpaqlarının mikroskopik strukturunun öyrənilməsidir. Tədqiqat üçün Qırmızı pirakanta bitkisinin cavan meyvə və yarpaqlarından istifadə edilmişdir. Bitki oktyabr ayında Zaqatala rayonunda toplanılmışdır.

Toplanılan meyvə və yarpaq hissələri karnoa məhluluna daxil edilir. Meyvə və yarpaqlar bu məhlulda 2 gün saxlanılır. Fiksə olunmuş və 2 gün sonra 70%-li etil spirti nə keçirilmiş material 95%-li spirtə qoyuldu. 1 sutka ərzində orada saxlanılır. Sonra material yarım saat müddətində 100%-li etil spirtində, sonra spirt+ksilol qarışığında 15 dəqiqə saxlanılır. Daha sonra 15 dəqiqə ərzində təmiz ksilolda saxlanılır. 2 saatdan sonra kasaya 37 dərəcə temperaturda termostatda saxlanıldıqdan sonra 4 saat təmiz parafində 57 dərəcə temperaturda saxlanılır. Daha sonra həmin materialdan parafin bloklar hazırlandı və "skope" mikroskopunda analiz edildi.

Nəticə. Beləliklə, Qırmızı pirakanta bitkisinin mikroskopik tədqiqi nəticəsində bitkinin morfoloji və anatomik strukturu öyrənilmişdir. Alınan nəticələrə əsasən: yarpaq lətinin daxilində çoxsaylı tək-tək yerləşmiş kalsium oksalat kristalları yerləşir, dördbucaqlı və çoxbucaqlı şəkildədir, meyvələr xırda ölçülü alma meyvədir. 5 ədəd xırda ölçülü toxumları vardır, meyvənin lətli hissəsində nişasta sahələrinə rast gəlinir.

Xülasə. *Pyracantha coccinea* (Qırmızı pirakanta) *Rosaceae* fəsiləsinə aid olub flavonoidlər, aşı maddələri, saponinlər və vitaminlərlə zəngindir. Zaqatala rayonundan toplanmış yarpaq və meyvələrin mikroskopik quruluşu öyrənilmişdir. Yarpaqlarda kalsium oksalat kristalları və tükcüklər, meyvələrdə isə nişasta dənəcikləri müəyyən edilmişdir. Nəticələr növün farmakoqnostik identifikasiyasına

imkan yaradır.

Summary

MICROSCOPIC STUDY OF FRUITS AND LEAVES OF THE RED PYRACANTHA PLANT

Heydarli S.Kh., Aliyeva S.Sh., Gojayeva F.A., Mammadova V.V.

AMU, Department of Pharmacognosy

***Key words*:** Pyracantha coccinea (Red Pyracantha), a member of the Rosaceae family, is rich in flavonoids, tannins, saponins, and vitamins. The microscopic structure of leaves and fruits collected from Zaqatala was examined. Calcium oxalate crystals and trichomes were found in leaves, and starch granules in fruits. The results support pharmacognostic identification of the species.

CAMPANULA L. CİNSİNƏ AİD BƏZİ PERSPEKTİV NÖVLƏRİN FARMAKOQNOSTİK TƏDQİQİ

Səfərova Nilufər Mübariz qızı, İsayev Cavanşir İsa oğlu

Azərbaycan Tibb Universiteti, Bakı, Azərbaycan

nilupharm@gmail.com

***Açar sözlər*:** *Campanula* L., LC–HRMS, fenol turşuları, flavonoidlər, fitokimyəvi tədqiqat

Giriş: Zəngçiçəyikimilər – Campanulaceae fəsiləsi dünya florasında yüksək növ müxtəlifliyi, zəngin bioaktiv tərkibi və geniş farmakoloji potensialı ilə seçilir. Bu fəsiləyə daxil olan *Campanula* L. cinsi təxminən 600-ə qədər növü birləşdirir. Cinsin Qafqazda 110, Azərbaycanda isə 37 növü qeydə alınmışdır ki, onların bir qismi endemik olub, farmakoqnostik tədqiqatlar üçün perspektiv növ hesab edilir.

Son illərdə aparılan tədqiqatlar zəngçiçəyi növlərinin kimyəvi tərkibində flavonoidlər, efir yağları, fenol turşuları və saponinlərin üstünlük təşkil etdiyini göstərir. Lakin yerli flora üçün bu cinsə daxil olan növlərin sistemli öyrənilməsi məhdud səviyyədədir.

Məqsəd.Bu tədqiqatın məqsədi Azərbaycanda yayılan *Campanula* növləri arasında farmakoqnostik baxımdan perspektiv nümayəndələrin ilkin fitokimyəvi təhlilini aparmaq və onların bioaktiv maddə kompleksinin xüsusiyyətlərini müəyyənləşdirməkdir.

Material və metodlar: Tədqiqat nümunəsi kimi *Campanula saxifraga* subsp. *aucheri* (A.DC.) Ogan. yarımnövü seçilmişdir. Bitki materialı Naxçıvan MR-nın Ordubad rayonunun Nürgüt kəndi ətrafında (3200 m yüksəklikdə) bitkinin çiçəkləmə dövründə toplanmış, təbii şəraitdə qurudulmuş və metanolla ekstraksiya edilmişdir. Ekstraktlar LC–HRMS cihazında analiz olunmuş, həm müsbət, həm də mənfi ionlaşma rejimlərində fenol təbiətli komponentlərin identifikasiyası həyata keçirilmişdir.

Analiz nəticəsində nümunənin fenol profilində 20-dən artıq birləşmə identifikasiya olunmuşdur. Əsas komponentlər kimi flavonoidlər qrupundan astraqalin (təxminən 140–150 ng/mL) və kempferol (200–220 ng/mL), fenol turşuları arasından isə kinə və xlorogen turşuları müəyyən edilmişdir. Ümumi fenol tərkibində flavonoidlərin payı təxminən 60 % təşkil etmişdir ki, bu da yarımnövün antioksidant və iltihabəleyhinə təsir potensialını göstərir. Həmçinin, hidroksidarçın və hidroksibenzoy turşularının aşkarlanması bitkidə fenilpropanoid biosintez yolunun aktivliyini təsdiqləmişdir.

Nəticə. Əldə edilən nəticələr göstərir ki, *Campanula* L. cinsinin bəzi növləri, xüsusilə *C. saxifraga* subsp. *aucheri*, fitokimyəvi baxımdan zəngin olub, bioloji aktivliyə malik qida əlavələri üşün perspektiv mənbə hesab edilə bilər. Bu istiqamətdə aparılacaq genişmiqyaslı tədqiqatlar yerli flora növlərinin bioaktiv potensialının elmi əsaslarla dəyərləndirilməsinə xidmət edəcəkdir.

Summary

PHARMACOGNOSTIC STUDY OF SOME PROMISING SPECIES OF THE GENUS *CAMPANULA* L.

Safarova Nilufar Mubariz, Isayev Javanshir Isa
Azerbaijan Medical University, Baku, Azerbaijan
nilupharm@gmail.com

***Key words*:** *Campanula* L., LC–HRMS, phenolic acids, flavonoids, phytochemical study

The research focuses on the pharmacognostic and phytochemical investigation of *Campanula saxifrag*a subsp. *aucheri* collected in Nakhchivan, Azerbaijan. LC–HRMS analysis of methanolic extracts revealed more than 20 phenolic compounds, with astragalin, kaempferol, quinic, and chlorogenic acids as dominant constituents. Flavonoids accounted for about 60% of total phenolics, demonstrating strong antioxidant and anti-inflammatory potential. The findings highlight *C. saxifraga* subsp. *aucheri* as a promising local source of bioactive compounds for pharmacognostic and nutraceutical applications.

DƏRMAN MƏRCANOTU (*BETONICA OFFICINALIS L.)* BİTKİSİNİN BƏZİ FARMAKOQNOSTİK TƏDQİQİ

Şükürova Aytən Sadiq, Əlili Şövkət Anar
ATU, Farmakoqnoziya kafedrası

***Açar sözlər*.** *Betonica officinalis* L., fenol birləşmələri, flavonoidlər, xromotoqrafik analiz

Giriş. Dərman bitki xammalından bioloji maddələrin alınması, fitokimyəvi tədqiqi və farmakoloji xüsusiyyətlərin müəyyən edilməsi əczaçılıq sahəsinin önündə duran vəzifələrdən biridir. Bu baxımdan, Azərbaycan florasından *Lamiaceae* fəsiləsinə məxsus mərcanotu (*Betonica* L.) cinsinin dərman mərcanotu (*Betonica*

officinalis L.) növünün xalq təbabətində və praktiki tibbdə müalicəvi xüsusiyyətlərə malik olması, onun farmakoqnostik tədqiqatlarının aparılmasını zəruri edir

Məqsəd. Tədqiqatın məqsədi *B. officinalis* L. Xammalının tərkibindəki fenol birləşmələrdən flavonoidlərin yüksək effektli maye xromotoqrafiyası (YEMX-DAD) üsulu ilə eynilik analizlərini tədqiq etməkdir.

Material və metodlar. 30 qr xırdalanmış bitki xammalı metanol ilə 1:10 nisbətində, 24 saat ərzində, 3 dəfə olmaqla (3 gün), otaq temperaturunda, ekstraksiya olunmuşdur. Alınmış çıxarışlar rotor-buxarlandırıcı üsulu ilə tam quruyana qədər buxarlandırılmışdır. Qətranabənzər quru qalıq əldə olunmuşdur. Nümunə olaraq 0,1 qr quru qalığın üzərinə 10 ml metanol əlavə edib həll olunana qədər qarışdırılır. Standart olaraq apigenin, kversetin, kversitrin, lüteolin və rutin götürülmüşdür. Standartların hər birindən 10 mq çəkilmiş və üzərinə 25 ml metanol əlavə olunmuşdur. Kversetin, kversitrin və lüteolin ikinci dəfə olaraq 1:25 nisbətində metanolla durulaşdırılmışdır. Analiz DAD-detektorlu YEMX (HPLC-Agilent 1260 (ABŞ) xromatoqrafında aparılmışdır. Hərəkətsiz faza “Gemini C18” (4.6 x 250 mm) kolonkası, hissəciklərin ölçüsü 5 mkm-dir. Hərəkətli faza su:metanol:asetonitril (550:50:400)-dir. Kolonkanın temperaturu 25^0 C, həlledicinin verilmə sürəti 1.2 ml/dəq., inyeksiya həcmi 10 mkl və dalğa uzunluğu 254 nm-dir.

Nəticə. Tədqiqat nəticəsində nümunədə xromotoqrafa 7 pik (çıxma müddəti-1,605 san; 1,993 san; 2,662 san; 3,164 san; 3,400 san; 3,973 san; 4,970 san) qeyd olunub. Bu piklərdən 2-si (2,662 san; 4,970 san) eynilik təyini üçün məqsədəuyğundur. 2,662 san-də qeyd olunan pik rutin (2,660 san) və kversetin (2,681 san) standartları, 4,970 san-də qeyd olunan pik isə kversetin (4,689 san), kversitrin (4,757 san), lüteolin (4,689 san) standartların çıxma müddətləri üçün uyğundur. 0,1-0,3 xəta nəzərə alınıb.

Yekun. Xromotoqrafik analiz nəticəsində məlumdur ki, *B. officinalis* L. bitki növünün tərkibi fenol birləşmələrdən flavonoidlər aşkar edilmişdir və bu geniş fitokimyəvi və farmakoloji tədqiqatlarının həyata keçirilməsinə zəmin yaradır. Gələcəkdə məqsədimiz *Betonica* L. cinsinə məxsus digər növlərin farmakoqnostik tədqiqatları aparmaq, eləcə də əczaçılıq sahəsində istifadə perspektivliyini öyrənməkdir.

Summary

SOME PHARMACOGNOTIC STUDIES OF THE MEDICINAL PLANT BETONICA OFFICINALIS L.

Shukurova Ayten Sadiq, Alili Shovket Anar
AMU, Department of Pharmacognosy

***Key words*:** The aim of the study is to investigate the identity analysis of flavonoids from the phenolic compounds contained in B. officinalis L. raw material by high performance liquid chromatography (HPLC-DAD) method. The HPLC-DAD analysis of *Betonica officinalis* L. methanolic extract revealed the presence of flavonoids such as rutin, quercetin, quercitrin, and luteolin. These findings highlight the phytochemical potential of the species for further pharmacognostic and pharmacological studies.

COMPARATIVE ANALYSIS OF PHENOLIC CONTENT AND ANTIOXIDANT ACTIVITY OF SOME FRESH AND PROCESSED FRUITS (JAMS AND PRESERVES) FROM AZERBAIJANI FLORA

Mustafayeva Xuraman Niyazi, Mustafayeva Ramilya Rafail
AMU, Department of Pharmacognosy, Baku, Azerbaijan,
ramilya25.02.2003@mail.ru

Keywords: antioxidant activity, total phenolic content, polyphenols, dpph assay, thermal processing, fresh and processed fruits

Oxidative stress, resulting from an imbalance between free radical generation and antioxidant defense systems, is recognized as a major factor in the development of chronic diseases, including cardiovascular disorders, cancer, and neurodegenerative conditions. Natural antioxidants of plant origin have gained significant scientific and practical attention, as they not only protect cellular components from oxidative damage but also act like anti-inflammatory, antimicrobial, and anti-agings. Among these, phenolic compounds are considered as important contributors to the antioxidant potential of fruits.

Azerbaijan, known for its rich biodiversity, is home to a wide range of fruit species that play an important role in traditional diets and folk medicine. Persimmon (*Diospyros kaki* L.*),* cornelian cherry (*Cornus mas* L.), quince (*Cydonia oblonga* M.), and feijoa (*Feijoa sellowiana* O.) are especially notable for their cultural, nutritional, and economic significance. These fruits are consumed both fresh and in processed forms, particularly as jams and preserves, prepared according to traditional culinary practices. However, limited information is available regarding the effect of thermal processing on the phenolic composition and antioxidant capacity of these fruits.

The present study aims to fill this gap by providing a comparative evaluation of total phenolic content and antioxidant activity in both fresh fruits and their corresponding products. This approach allows us to assess the influence of traditional processing techniques on the chemical composition of fruits and to highlight their nutritional and functional potential.

Materials and Methods. Mature fruits of persimmon, cornelian cherry, quince, and feijoa were purchased from local markets in Azerbaijan during peak harvest season. Processed samples (jams and preserves) were prepared according to traditional Azerbaijani household recipes using a fruit-to-sugar ratio of 1:0.8. This is followed by gentle thermal treatment for 30 minutes and storage in sterilized jars.

Extracts were obtained from dried fruit powders (2 g) with 50 mL of 70% ethanol (v/v) under ultrasonication for 2 min at room temperature. Jam/preserve samples (10 g) were dispersed in 50 mL of 70% ethanol (v/v) with stirring or gentle heating until homogeneous.

Total phenolic content (TPC) was determined spectrophotometrically using the Folin–Ciocalteu method, with gallic acid as a standard. Antioxidant activity was measured by the DPPH radical scavenging assay. Results were expressed in gallic acid equivalents. Statistical analysis was performed to determine correlations between samples.

Results and Discussion. Feijoa extract (EC_{50} = 14.92 μg/mL) demonstrated the highest levels of phenolic compounds and antioxidant activity. Cornelian cherry (EC_{50} = 39.76 μg/mL), quince (EC_{50} = 33.99 μg/mL), and persimmon (EC_{50} = 385.17 μg/mL) also showed notable antioxidant potential, though to a lesser degree, respectively. A comparison of fresh and processed samples clearly indicated that thermal processing during jam and preserve preparation led to a significant reduction in both phenolic content and antioxidant activity. This decline is primarily attributed to the degradation of thermolabile phenolic compounds and structural transformations induced by high temperatures. As a result, traditional fruit processing substantially decreases the antioxidant value of the studied fruits.

Conclusion

This study provides the first comprehensive comparative assessment of antioxidant activity and phenolic content in fresh and traditionally processed persimmon, cornelian cherry, quince, and feijoa fruits growing in Azerbaijan.

ONOBRYCHIS BOBROVII GROSSH. BİTKİSİNİN ETANOLLU EKSTRAKTINDA FENOL BİRLƏŞMƏLƏRİNİN LC-HRMS İLƏ TƏDQİQİ

Şəhla Cəfərova[1], Cavanşir İsayev[2]
[1]Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan
[2]ATU, Bakı, Azərbaycan
shahla.cafarova@adau.edu.az

,

***Açar sözlər*:** *Onobrychis bobrovii*, fitokimyəvi tədqiqat, LC-HRMS, fenol turşuları, flavonoidlər

Azərbaycan florasından olan esparset - *Onobrychis* cinsinə aid bitkilərin farmakoqnostik tədqiqi perspektivli məsələdir. *Onobrychis bobrovii* Grossh. növü Azərbaycan florasında az tədqiq edilmiş esparset bitkilərindəndir.

Tədqiqatın məqsədi *O. bobrovii* xammalının yerüstü hissəsinin etanollu ekstraktında fenol turşuları və flavonoidləri yüksək ayırdetməli maye xromatoqrafiya-kütlə spektrometriyası (LC-HRMS) üsulu ilə müəyyən etmək olmuşdur.

Material və metodlar. Bitki materialı 2024-cü ilin may ayında Qobustan rayonunun Cəngi kəndi ərazisindən çiçəkləmə fazasında toplanmışdır. Xammal kölgəli yerdə qurudulmuş, xırdalanmış və 96%-li etanolla bimasserasiya üsulu ilə ekstraksiya edilmişdir. 10 mq qatı ekstrakt üzərinə əvvəlcə 5 ml metanol, daha sonra

5 ml 0,5%-li asetat turşusunun sulu məhlulu əlavə edilmişdir. Alınmış qarışıq 0,22 mikrometr məsamə ölçülü, 25 mm diametrli PTFE şprislə filtrdən süzülərək 1,5 ml həcmlik şüşə qaba yığılıb LC-HRMS cihazına inyeksiya olunmuşdur. Analizlər *Thermo Fisher Scientific DIONEX UltiMate 3000 RS* yüksək effektli maye xromatoqrafı və *Exactive Plus Orbitrap HRMS* detektoru ilə aparılmışdır. Ayırdetmə prosesi C18 (100×2 mm, 3 μm) kolonunda həyata keçirilmişdir. Mobil faza kimi 0,5% asetat turşusu (A) və LC-MS dərəcəli metanol (B) istifadə edilmiş, 20 dəqiqəlik qradient rejim tətbiq olunmuşdur. Analizlər həm müsbət, həm də mənfi ion rejimlərində aparılmış və nəticələr fenol və flavonoid standartları ilə müqayisə edilərək identifikasiya edilmişdir.

Nəticələr və onların müzakirəsi. Analiz zamanı ekstraktın tərkibində ümumilikdə 81 fenol birləşmə araşdırılmış və 40 birləşmə müəyyən edilmişdir. Arbutin (10 946 μg/g), lüteolin 7-rutinosid (2 961 μg/g) və emodin (2 013 μg/g) birləşmələri yüksək konsentrasiyada aşkar edilmişdir. Apigenin, rutin hidrat, lüteolin, kversetin və izoramnetin daha aşağı konsentrasiyada aşkar edilmişdir. Fenol turşularından salisil, vanil, ferul və qəhvə turşuları müəyyən edilmişdir.

Bitkinin tərkibində olan arbutin və lüteolin kimi birləşmələrin mövcudluğu *O. bobrovii* xammalının, alınan ekstraktın və bəzi fərdi birləşmələrin dəriyə qulluq və dermatoloji sahələrdə istifadə üçün perspektiv olduğunu göstərir. Bununla yanaşı, fenol turşularının, xüsusilə ferul və salisil turşularının aşkarlanması bitkinin ürək-damar sisteminə müsbət təsir göstərə biləcəyini göstərir.

Beləliklə LC-HRMS metodunun tətbiqi bitkinin fenol birləşmələrini dəqiq müəyyən etməyə və bitkinin bioloji aktivliyini elmi əsaslarla qiymətləndirməyə imkan vermişdir.

Summary

LC-HRMS ANALYSIS OF PHENOLIC COMPOUNDS IN THE ETHANOL EXTRACT OF *ONOBRYCHIS BOBROVII* GROSSH.

Shahla Jafarova[1], Javanshir İsayev[2]
[1]Azerbaijan State Agricultural University, Ganja, Azerbaijan,
[2] AMU, Baku, Azerbaijan
shahla.cafarova@adau.edu.az

***Keywords*:** *Onobrychis bobrovii*, phytochemical study, LC-HRMS, phenolic compounds, flavonoids

Onobrychis bobrovii Grossh. is a species of plant that has received comparatively little attention in the scientific study of the flora of Azerbaijan. The objective of the present study was to ascertain the composition of phenolic compounds and flavonoids in the ethanol extract of the aerial part of O. bobrovii, employing liquid chromatography-mass spectrometry (LC-HRMS). During the analysis, a total of 81 phenolic compounds were detected in the extract, of which 40 were identified. The analysis revealed the presence of arbutin, luteolin 7-rutinoside and emodin in high concentrations, while apigenin, rutin hydrate, luteolin, quercetin and isorhamnetin were found in lower concentrations.

AZƏRBAYCAN FLORASINDAN OLAN ZİRƏ VƏ CİRƏ CİNSİNƏ AİD BİTKİLƏRİN İSTİFADƏ PESRPEKTİVLƏRİ

Zülfüqarova M.B, Camallı F.I., I.E Cahangirova, Xanım Aydın qızı
ATU, Farmakoqnoziya kafedrası

***Açar sözlər*:** Zirə, cirə, efir yağları, bronxolitik effekt

Zirə və Cirə cinsinə aid bitkilər Azərbaycan florasında geniş yayılmış və müxtəlif kənd təsərrüfatı, qida və tibbi məqsədlərdə istifadə olunan əhəmiyyətli bitki növlərini təşkil edir. Bu bitkilər həm ətir və dad xüsusiyyətlərinə görə, həm də bioaktiv komponentləri, o cümlədən antioksidant, antimikrob və digər farmakoloji fəaliyyətləri ilə qiymətlidir. Son illərdə təbii məhsullara və fitoterapiyaya olan marağın artması, həmçinin bitki mənşəli bioaktiv maddələrin tədqiqat potensialının yüksək olması, bu cinsə aid bitkilərin elmi və iqtisadi baxımdan əhəmiyyətini artırır. Azərbaycanın unikal ekoloji şəraiti və bioloji müxtəlifliyi bu bitkilərin yetişdirilməsi və istifadəsi üçün əlverişli şərait yaradır. Bununla yanaşı, onların düzgün toplanması, konservasiyası və farmakoloji potensialının sistemli şəkildə araşdırılması elmi baxımdan aktualdır, çünki bu, həm yerli bioresurslardan səmərəli istifadəyə, həm də yeni dərman və kosmetik preparatların hazırlanmasına töhfə verə bilər. Azərbaycan ərazisində yayılmış və bitki növlərinin sayına görə seçilən fəsilələrdən biri də *Apiaceae* – çətirçiçəkkimilərdir. Fəsilənin vacib cinslərinə zirə - *Carum* və yalançı cirə - *Pimpinella* (*Apium)* də daxildir. Bu cinslərə aid bitki növlərinin araşdırılması aktual məsələdir.

Tədqiqatın məqsədi Azərbaycan florasında yayılmış zirə və yalançı cirə növlərinin fitokimyəvi tədqiqi və istifadə imkanlarını araşdırmaqdır.

Material və metodlar. Tədqiqat üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Botanika institutunun herbari fondunda olan zirə və yalançı cirə bitki nümunələrindən istifadə edilmişdir.

Nəticələr və onların müzakirəsi. Zirə cinsinin Qafqazda 30-a qədər Azərbaycan florasında isə 3 növü vardır. *C. carvi* - adi zirə İsmayıllı, Şamaxı, Qobustan və Abşeron ərazisində becərilir. *C. caucasicum* - Qafqaz zirəsi Böyük Qafqazın qərb və şərq hissələrində, Kiçik Qafqazım şimal və mərkəz hissələrində alp və subalp çəmənliklərdə yayılmışdır. *C. komarovii* - Komarov zirəsi Qafqaz üçün endem növdür və Kiçik Qafqazın şimal hissəsində, xüsusən Qoşqardağ ərazisində subalp çəmənliklərdə, daşlı-çınqıllı yerlərdə yayılmışdır. Yalançı cirə cinsinin Qafqazda 150, Azərbaycanda isə 17 növünə rast gəlinir. Bu növlərdən *P. anisum* (*Anisum vulgare*) Abşeronda, İsmayıllıda və Qobustanda becərilir. *P. aromatica* - Ətirli yalançı cirə Qafqaz üçün endemdir, Quba rayonunda Qonaqkənd ətrafında yayılmışdır. *P. grossheimii* - Qrossheym yalançı cirə növü də Qafqaz üçün endemdir və Azərbaycan ərazisində Lənkəran dağlıq geobotanik ərazisində yayılmışdır. *P.*

saxifraga – Daşdələn yalançı cirə, *P. affinis* - Oxşar yalançı cirə, *P. anthriscoides* - Kişnişi yalançı cirə, *P. confusa* - Qatışıq yalançı cirə və *P. peucedanifolia* - Acımtıl yalançı cirə ölkə ərazisinə daha çox yayılmış bitki növləridir. Zirənin meyvələrindən xalq təbabətində atonik qəbizlikdə, xroniki xolesistitdə istifadə edilir. Bitkinin meyvələrinin tərkibində 7 %-ə qədər efir yağı olur ki, onun da əsas komponenti monotsiklik monoterpen olan karvondur, həmçinin D-limonen, dihidrokarvon, karvakrol, karveol və dihidrokarveol da aşkar edilmişdir. Köp əleyhinə və spazmolitik təsirə malikdir, həmçinin mədə-bağırsaq patologiyalarında fermentativ prosesləri inhibə edir. Zirənin meyvələri dad reseptorlarını qıcıqlandırmaqla reflektori olaraq həzm sisteminin funksiyasını yüksəldir, peristaltikanı və tonusu yüksəldir. Mədə-bağırsaq traktının, uşaqlığın, sidik yollarının və sidik kisəsinin əzələlərinə spazmolitik təsir göstərir. Bronxial seliyin sekresiyasını və laktasiyanı artırır. Meyvələrin efir yağı dərman preparatlarının və müxtəlif içkilərin iyini yaxşılaşdırmaq üçün istifadə olunur. Zirənin preparatları dispepsiyada, enteritdə, kolitdə, meteorizmdə, qəbizlikdə, qastritdə, xolesistitdə və pankreatitdə istifadə olunur. Bitki həmçinin tənəffüs orqanlarının iltihabi xəstəliklərində təyin edilir.

Cirənin meyvələri xalq təbabətində südəmər uşağı olan analarda südü artırmaq üçün təyin edilir. Meyvələrin dəmləməsi bronxit, traxeit və laringit xəstəliklərində gündə 3 dəfə olmaqla ½ stəkan qəbul etmək məsləhət görülür. Bitkinin meyvələrinin tərkibində 1,5-3 % efir yağı var ki, onun da əsas tərkib hissəsi anetoldur. Həmçinin metilxavikol, cirə aldehidi, cirə turşusu, cirə ketonu və D-limonen aşkar edilmişdir. Cirənin efir yağı bəlğəmgətirici, spazmolitik və iltihab əleyhinə təsirə malikdir. Mədə-bağırsaq traktının sekretor və motor funksiyasını stimullaşdırmaq üçün istifadə edilir. Cirənin meyvələri köp əleyhinə vasitədir, güclü bəlğəmgətirici vasitədir. Ona görə də bu bitki xammalı bəlğəmgətirici vasitələrə aid edilir. Hal hazıra qədər Azərbayca florasında yayılmış zirə və cirə növlərinin farmakoqnostik cəhətdən sistemli tədqiqata cəlb olunmaması, bu bitkilərin elmi baxımdan araşdırılmasını aktuallaşdırır. Xüsusən Qafqaz üçün endem növlər olan: Komarov zirəsi, Ətirli yalançı cirə və Qrossheym yalançı cirə böyük maraq kəsb edir. Hər iki cinsə aid bitkilər efir yağlarının və fenol təbiətli birləşmələrin təbii mənbəyi olaraq ətraflı tədqiq edilməsinə zərurət yaranmışdır.

Summary

PERSPECTIVES OF USE OF PLANTS OF THE GENERA CARUM AND PİNEPİNELLA CUMIN FROM THE FLORA OF AZERBAIJAN

M.B. Zulfugarov, F.I. Jamalli, I.E. Jahangirova, Khanım Aydin gizi
AMU, Department of Pharmacognosy

***Keywords*:** Cumin, essential oils, broncholytic effect

The genera Carum and Pimpinella (Apiaceae) represent important aromatic and medicinal taxa within the flora of Azerbaijan. This study focuses on the phytochemical characterization and pharmacognostic evaluation of selected Carum and Pimpinella species collected from the herbarium of the Institute of Botany,

Ministry of Science and Education of the Republic of Azerbaijan. Three Carum species (C. carvi, C. caucasicum, C. komarovii) and seventeen Pimpinella species were identified, including endemic taxa such as P. aromatica and P. grossheimii. Essential oil analysis revealed a high content of carvone and D-limonene in Carum fruits (up to 7%), while Pimpinella species contained 1.5–3% essential oil rich in anethole and methyl chavicol. These compounds contribute to notable carminative, antispasmodic, and expectorant activities. Despite their extensive ethnomedicinal application, systematic pharmacognostic studies on these genera within the Azerbaijani flora remain scarce. Endemic species such as C. komarovii, P. aromatica, and P. grossheimii warrant further investigation as promising sources of biologically active compounds for potential pharmaceutical and industrial utilization.

AMARANTHUS CRUENTUS L. BİTKİSİNİN BİOAKTİV TƏRKİBİ VƏ FARMAKOLOJİ ƏHƏMİYYƏTİ

Qafarova Elgül Elman, Quliyeva Sevda Vaqif, Quliyev Nicat Oktay
ATU, Elmi Araşdırmalar Mərkəzi Bakı, Azərbaycan
elgul96@mail.ru

Açar sözlər: Amaranthus cruentus, bioaktiv, flavonoidlər, polifenollar, skualen, antioksidant, farmakoloji, antidiabetik, immunmodulyator

Amaranthus cruentus L. — Amaranthaceae fəsiləsinə daxil olan, C_4 fotosintez mexanizminə malik, çoxsaylı bioaktiv maddələr vasitəsilə insan orqanizminin müxtəlif fizioloji sistemlərinə kompleks təsir göstərir.Bitkinin yarpaqlarında və toxumlarında kversetin və rutin kimi flavanoidlər, askorbin turşusu və β-karoten kimi vitaminlər, tokoferollar, polifenollar və zülal mənşəli amin turşuları ilə zəngindir. Toxum yağının tərkibində 7–8%-ə qədər skualen, eləcə də olein və linol turşuları üstünlük təşkil edir. Bu komponentlər hüceyrə membranlarının stabilliyini qoruyur, lipid peroksidasiyasının qarşısını alır və metabolik tarazlığın saxlanmasına təmin edir. Amarantın zülal fraksiyası lizin və metioninlə zəngin olduğu üçün qida baxımından yüksək bioloji dəyərlidir. Yarpaqlarda toplanan betasiyaninlər yalnız antosianin tipli piqmentlər kimi deyil, həm də güclü antioksidant xüsusiyyətlərə malik fenolik törəmələr kimi biokimyəvi əhəmiyyət kəsb edir. Beləliklə, *Amaranthus cruentus* növü həm qida sənayesi, həm də farmakoloji istehsal üçün çoxfunksiyalı təbii resurs kimi dəyərləndirilir.

Tədqiqatın məqsədi *Amaranthus cruentus L.* bitkisinin bioaktiv tərkibini və onun farmakoloji əhəmiyyətini müəyyənləşdirmək, bioloji aktiv komponentlərinin müalicəvi potensialını qiymətləndirməkdir.

Amaranthus cruentus ekstraktlarının farmakodinamik təsir spektri çoxsaylı biokimyəvi mexanizmlərlə bağlıdır. Onun antioksidant aktivliyi əsasən polifenol və betasiyanin komplekslərinin sərbəst radikalları neytrallaşdırmaq qabiliyyəti ilə

əlaqədardır ki, bu da oksidləşdirici stressin azalmasına və hüceyrə strukturlarının qorunmasına şərait yaradır. Bitki ekstraktlarının antiinflamator təsiri proinflamator sitokinlərin (TNF-α, IL-6) və prostaglandinlərin sintezində iştirak edən fermentlərin inhibisiyası nəticəsində reallaşır. Antidiabetik təsir mexanizmi isə qlükoza metabolizminə nəzarət edən fermentlər– α-qlükozidaza və α-amilazanın aktivliyinin azalması ilə bağlıdır. Bu proses qanda şəkərin səviyyəsini sabitləşdirərək postprandial hiperglikemiyanın qarşısını alır.

Nəticə: *Amaranthus cruentus L.* növü tərkibindəki çoxşaxəli bioaktiv komponentlər sayəsində həm qida, həm də farmakoloji baxımdan mühüm strateji əhəmiyyət daşıyir. Onun antioksidant, antiinflamator, antidiabetik və immunmodulyator təsir mexanizmləri təbii mənşəli bioloji aktiv əlavələrin, funksional qidaların və farmasevtik preparatların hazırlanmasında istifadə oluna bilər. Bu bitkinin təbii bioaktiv maddələri sintetik dərmanların alternativi kimi biofarmasevtika və fitoterapiya sahələrində geniş tətbiq potensialına malikdir. Gələcək elmi tədqiqatların *A. cruentus* növünün bioaktiv komponentlərinin molekulyar səviyyədə təsir mexanizmlərinin və toksikoloji profilinin kompleks öyrənilməsinə yönəldilməsi məqsədəuyğun hesab olunur.

Summary

BIOACTIVE COMPOSITION AND PHARMACOLOGICAL SIGNIFICANCE OF AMARANTHUS CRUENTUS L.

Elgul Gafarova Elman, Sevda Guliyeva Vagif, Nicat Guliyev Oktay

AMU, Scientific Research Center, Baku, Azerbaijan

***Keywords*:** *Amaranthus cruentus* L. (red amaranth) is a plant distinguished by its rich phytochemical composition and diverse pharmacological activities, possessing high biological value. Bioactive compounds such as flavonoids, polyphenols, tocopherols, betacyanins, squalene, and amino acids, which accumulate in various parts of the plant, exhibit strong antioxidant, antidiabetic, hypolipidemic, and immunomodulatory effects. These components help reduce oxidative stress at the cellular level, regulate lipid and carbohydrate metabolism, and enhance the immune system. Consequently, *A. cruentus* is a promising plant for the use of naturally derived bioactive compounds in pharmaceutical and biotechnological applications.

AZƏRBAYCAN FLORASINDAN ÜRƏK GLİKOZİDLƏRİ İLƏ ZƏNGİN BİTKİLƏRİN AXTARIŞ PERSPEKTİVLƏRİ

Kərimov Y.B., Qocayeva F.Ə., Əliyeva S.Ş., Məmmədova V.V.

ATU, Farmakoqnoziya kafedrası, Bakı, Azərbaycan

aliyevasbn@gmail.com

***Açar sözlər*:** ürək glikozidləri, Azərbaycanın florası, skrininq, *Convallaria, Adonis, Erysimum, Coronilla, Euonymus, Syrínga, Nerium, Apocynum, Períploca, Digitalis, Helleborus cinsləri*

ÜST-ün məlumatına görə hər il 40 milyondan çox insan müxtəlif xəstəliklərdən dünyasını dəyişir və bu ölümlərin 80%-ə qədəri ürək-damar xəstəlikləri, diabet və xərçəngin payına düşür. Kardiologiyada həm sintetik, həm də təbii mənşəli preparatlara, o cümlədən ürək glikozidlərinə tələbat davam edir. Ürək-damar xəstəlikləri dünya üzrə yüksək ölüm faizinə səbəb olan başlıca patoloji hallardan biridir. Bu sahədə həm sintetik, həm də təbii mənşəli kardiotonik preparatlara, xüsusilə ürək glikozidlərinə tələbat davam edir. Azərbaycanın florası müxtəlif bioaktiv maddələrlə zəngindir və hələ tam tədqiq edilməmiş potensial mənbə rolunu oynayır. Ürək glikozidləri ilə zəngin yerli bitkilərin sistemli araşdırılması həm milli dərman resurslarının effektiv istifadəsinə, həm də yeni təbii kardiotonik preparatların hazırlanmasına imkan yaradır. Bu baxımdan, Azərbaycan florasında mövcud olan bitkilərin skrininqi və onların farmakoqnostik potensialının qiymətləndirilməsi elmi və praktik əhəmiyyət kəsb edir.

Məqsəd: Azərbaycan florasında yayılan ürək glikozidləri ilə zəngin perspektiv bitkilərin müəyyənləşdirilməsi və onların farmakoqnostik potensialının ofisinal xammalla müqayisədə qiymətləndirilməsidir.

Materiallar və metodlar: Tədqiqat çərçivəsində NANA Botanika İnstitutunun herbar fondu və *Flora*nın 8 cildi əsasında aşağıdakı cinslər araşdırılmışdır: *Convallaria, Adonis, Erysimum, Coronilla, Euonymus, Syringa, Nerium, Trachomitum, Periploca, Digitalis* və digər əlaqəli cinslər. Azərbaycan florasında bu cinslərdən *Convallaria* 1 növ, *Adonis* 5 növ, *Erysimum* 20 növ, *Coronilla* 7 növ, *Euonymus* 5 növ, *Syringa* 3 növ, *Nerium* 1 növ, *Trachomitum* 2 növ, *Periploca* 1 növ və *Digitalis* 2 növ ilə təmsil olunur. Araşdırma zamanı hər bir növün arealı, yayılma məntəqələri, həyat forması, yerüstü biomassa və digər bioekoloji xüsusiyyətləri nəzərə alınmışdır. Toplanmış xammal quruduldu, xırdalandı və durulaşdırılmış etanol ilə ekstraksiya edildi. Ürək glikozidlərinə aid siklopentanoperhidrofenantren törəmələrinin mövcudluğu keyfiyyət reaksiyaları vasitəsilə təsdiq edilmişdir.

Nəticələr: dərin farmakokimyəvi tədqiqat və praktikaya tövsiyə üçün növlər seçildi: Convallaria transcaucasica; Adonis wolgensis, A. aestivalis, A. bienertii, A. flammeus; Erysimum cuspidatum, E. aureum, E. ibericum, E. gelidum, E. collinum, E. substrigosum, E. capsicum, E. leptophyllum, E. leucanthemum; Coronilla coronata, C. orientalis, C. varia, C. hyrcana; Euonymus japonica, E. europaea, E. velutina, E. verrucosa, E. latifolia; Syringa vulgaris, S. persica, S. chinensis; Nerium oleander; Trachomitum sarmaticum, T. armenium; Periploca graeca; Digitalis ferruginea, D. nervosa.

Yekun: Azərbaycanın florası ürək glikozidlərinin potensial mənbəyi ola biləcək bir sıra taksonları ehtiva edir; növbəti mərhələlər üçün prioritetlər xammalın standartlaşdırılması, kimyəvi profilin dəqiqləşdirilməsi (HPLC/LC-MS), toksikoloji qiymətləndirmə və kardiotonik aktivliyin təsdiqlənməsidir.

Summary

PROSPECTS OF SEARCHING FOR PLANTS RICH IN CARDIAC GLYCOSIDES FROM THE FLORA OF AZERBAIJAN

Karimov Y.B., Gojayeva F.A., Aliyeva S.Sh., Mammadova V.V.
ATU, Department of Pharmacognosy1, Baku, Azerbaijan
aliyevasbn@gmail.com

***Keywords*:** cardiac glycosides, pharmacognosy, flora of Azerbaijan, screening, Convallaria, Adonis, Erysimum, Coronilla, Euonymus, Syrínga, Nerium, Apocynum, Períploca, Digitalis, Helleborus

Cardiovascular diseases are a leading cause of mortality worldwide, maintaining demand for cardiac glycosides. This study screened Azerbaijani flora to identify glycoside-rich plants and evaluate their pharmacognostic potential. Key genera analyzed include *Convallaria*, *Adonis, Erysimum, Coronilla, Euonymus, Syringa, Nerium, Trachomitum, Periploca,* and *Digitalis*. Selected species such as *Convallaria transcaucasica, Adonis spp., Erysimum spp., Coronilla spp., Digitalis spp.* represent promising sources of cardiac glycosides for further chemical, toxicological, and cardiotonic activity studies.

AZƏRBAYCANIN FAYDALI BİTKİLƏRİNİN FİTOTERAPİYA, AROMATERAPİYA VƏ FİTOKOSMETOLOGİYADA İSTİFADƏSİNİN GENİŞLƏNDİRİLMƏSİ PERSPEKTİVLƏRİNƏ DAİR

Mehdiyeva Naibə Pirverdi qızı, Nigar Mürsəl qızı
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Botanika İnstitutu, Bakı, Azərbaycan
nigar_mursal@yahoo.com

Açar sözlər: dərman, aromatik bitkilər, efir və ekstraktiv yağlar, antimikrob, antifungal və antivirus aktivlik

Müasir dünyada təbii məhsullara olan tələbatın artması fonunda, müxtəlif xəstəliklərin müalicəsində və insanların estetik zövqünün oxşamasında əvəzsiz rol oynayan fitoterapiya, aromaterapiya və fitokosmetologiyaya maraq xeyli artmışdır. Bitki və onların törəmələri əsasında qurulmuş fitoterapiya və aromaterapiya müasir təbabətə tam inteqrasiya olunmuş və bir çox sahələrdə ən effektiv müalicə yollarından biri kimi qəbul edilmişdur. Bu gün təbabətdə istifadə olunan dərman vasitələrinin təqribən 40%-ə, bəzi hallarda isə hətta 80%-ə qədəri bitki mənşəli preparatlardır. Halbuki dünyada dərman vasitəsi hesab edilən bitkilərin yalnız 1%-ə qədəri elmi təbabət və kosmetoloji baxımından oyrənilmişdir. Belə bir qeyri mütənasiblik ona dəlalət edir ki, bitki mənşəli tibbi və kosmetoloji vasitələrin kəşfi və işlənib hazırlanması ilə bağlı elmi araşdırmalar geniş perspektivlərə malikdir.

İşin məqsədi. Azərbaycanın əhəmiyyətli bitkilərinin istifadə perspektivlərini müəyyən etmək olmuşdur.

Fitoterapiya, aromaterapiya və fitokosmetologiyanın Azərbaycanda dərin kökləri vardır. Bugünə olan məlumatlara görə Azərbaycan florasına aid 5000 yaxın bitki növündən 1600-ü dərman, 650-si isə aromatik bitkilər kimi qədim zamanlardan

bəri tanınmışdır. Bu bitkilərin əksəriyyəti digər xalqların ənənəvi və xalq təbabətində də effektiv vasitə kimi istifadə olunmaqdadır. Onlardan yalnız 400 növə yaxını müasir fitoterapiya, aromaterapiya və kosmetologiyada istifadə edilir, bir çox digər növlər isə qədim əlyazmalarda və az yayılan ədəbi mənbələrdə yer almasına baxmayaraq tamamilə unudulmuşdur. Halbuki, unudulmuş bitki növlərinin ürək-damar, bədxassəli şişlər, psixo-nevroloji, böyrək və digər bir çox xəstəliklərə qarşı effektiv olması barədə həmin mənbələrdə kifayət qədər tutarlı məlumatlar vardır.

Azərbaycanın bir çox dərman bitkisinin müalicəvi effektivliyi elmi təbabət tərəfindən də tam qəbul olunmuş və onların 274 növü ofisinal dərman bikisi kimi, müxtəlif, o cümlədən Rusiya, Fransa, Almaniya, Böyük Britaniya, Çin, Yaponiya və digər ölkələrin Farmakopeyalarında yer almışdır.

Azərbaycanın dərman bitkilərinin müalicəvi xüsusiyyətləri və bioloji fəal maddələr tutumu baxımından zənginliyi tərəfimizdən aparılmış praktiki tədqiqatlar zamanı da təsdiqlənmişdir. Belə ki, 11 növdən (*Bilacunaria macrocarpa, Phalacroloma annuum, Pyrethrum lepthophyllum, Salvia aethiopis* və s.) efir, 3 növdən isə (*Eupatorium cannabinum, Pimpinella peregrinum, Euphorbia boissieriana*) ekstraktiv yağlar alınaraq onların kimyəvi tərkibi öyrənilmiş və ilk dəfə olaraq onların komponentləri sırasında kifayət qədər bioloji fəallığa malik bir çox yeni kimyəvi maddə və birləşmələr aşkarlanmışdır (eukanbin, deangelisillazerin və s.). Bununla yanaşı, 19 növün (*Pojarkovia pojarkovae, Tanacetum coccineum, Centaurea phrygia subsp. salicifolia, Aconitum nasutum, Lomelosia caucasica* və s.) ekstraktları, 8 növün (*Eupatorium cannabinum, Pimpinella peregrina, Euphorbia seguieriana*) isə efir və ekstraktiv yağları tədqiq edilmiş, onların ayrı-ayrı bakteriyalara, göbələklərə (*Staphylococcus aureus, Bacillius anthracoides, Klebsibella pneumoniae, Echerichia coli, Pseudomonas aeruginosa, Candida albicans, Aspergillus niger* və s.) və viruslara (Koksaki A18, A21) qarşı müxtəlif dərəcədə antifunqal və antivirus təsirə malik olması müəyyən edilmişdir.

Nəticə. Beləliklə, Azərbaycanın dərman və aromatik florasının zənginliyi, rəsmi fitoterapiya və aromaterapiyada, eləcə də gözəllik industriyasında istifadə edilən bitki mənşəli müalicəvi və kosmetoloji vasitələrin sırasına yeni məhsulların daxil edilməsi üçün geniş perspektivlər danılmaz bir fakt kimi göz qabağındadır. Mövcud perspektivlərin reallaşdırılması üçün botaniki və farmakoqnostik tədqiqatlarla yanaşı, fitokosmetologiya sahəsində də müvafiq araşdırmalar genişləndirilməli, aidiyyəti mütəxəssislərin səyləri bir araya gətirilməlidir.

Summary

ON THE PROSPECTS OF EXPANDING THE USE OF USEFUL PLANTS OF AZERBAIJAN IN PHYTOTHERAPY, AROMATHERAPY AND PHYTOCOSMETOLOGY

Mehdiyeva Naiba Pirverdi gizi, Nigar Mursal gizi
Institute of Botany of the Ministry of Science and Education of the Republic of Azerbaijan, Baku, Azerbaijan
nigar_mursal@yahoo.com

Keywords: medicinal, aromatic plants, essential and extractive oils, antimicrobial, antifungal and antiviral activity

The richness of the medicinal and aromatic flora of Azerbaijan, the wide prospects for including new products in the list of herbal medicinal and cosmetological remedies used in official phytotherapy and aromatherapy, as well as in the beauty industry, are obvious as an undeniable fact. In order to realize the existing prospects, in addition to botanical and pharmacognostic studies, relevant studies in the field of phytocosmetology should be expanded, and the efforts of relevant specialists should be combined.

SWEROSIDE FROM *DIPSACUS AZUREUS*


Ashurova L.N., Khurramov A.R., Bobakulov, Ramazonov N.Sh.
Institute of Chemistry of Plant Substances named after Academician S.Yu. Yunusov of the Academy of Sciences of the Republic of Uzbekistan, Uzbekistan, 100170, Tashkent, st. M. Ulugbek
ashurova_lola1985@mail.ru

***Keywords*:** In the scientific literature, more than 90 botanical names of plant species belonging to the genus *Dipsacus* are recorded. Among them, 28 are reliably recognized species names. These species are widely distributed across Europe as well as certain tropical regions of Asia and Africa. In Uzbekistan, only two species of the genus *Dipsacus* are found: *D. azureus* (syn. *D. dipsacoides*) – azure teasel, and *D. laciniatus* – cut-leaf teasel. *Dipsacus azureus* is an endemic plant species of Kyrgyzstan.

Recent studies of the genus *Dipsacus* have also demonstrated that this species is capable of producing biologically active compounds, with numerous medicinal benefits widely reported. These include cytotoxic activity against several cell lines, inhibition of Alzheimer’s disease, as well as anti-inflammatory and antinociceptive properties, among others.

The plant material was extracted at room temperature with 80% ethanol. The extract was concentrated under vacuum, and the precipitate was then obtained by acetone precipitation.was extracted at room temperature with 80% ethanol. The extract was concentrated under vacuum, and the precipitate was obtained using acetone. The precipitate was chromatographed on a silica gel column and eluted initially with chloroform, followed by a chloroform–methanol system with increasing polarity. Elution with the solvent system $CHCl_3$–CH_3OH (100:1-0:100) yielded seven fractions (F1–F7). Fraction F1, upon repeated chromatography on silica gel using the $CHCl_3$–CH_3OH solvent system (1:0-0:1), afforded nine subfractions (F1.1–F1.9). Rechromatography of subfraction F1.8 (16 mg) on Sephadex LH-20 with C_2H_5OH as the solvent resulted in the isolation of a compound.

The chemical structures of the isolated compounds were elucidated using NMR spectroscopy (^{1}H, ^{13}C, HSQC, HMBC, COSY), followed by comparison with published spectral data for these compounds.



Thus, the results demonstrated that the compounds were isolated for the first time from the aerial part of *D. azureus* growing in Uzbekistan.

SALVIA TESQUICOLA BİTKİSİNDƏ FLAVONOİDLƏRİN MİQDARI TƏYİNİ

Mustafayeva Lətafət Əhəd, Məmmədova Pəri İlqar
Azərbaycan Respublikasi Elm və Təhsil Nazirliyinin
Botanika İnstitutu, Bitki ehtiyatları şöbəsi
latafat_mustafayeva@yahoo.co.uk

Açar sözlər: *Bitki, Salvia tesquicola,* flavonoid

Xalq təbabətində istifadə olunan dərman bitkiləri arasında elmi cəhətdən sübut edilmiş, xəstəliklərin müalicəsində və qarşısının alınmasında mühüm rol oynayan farmakoloji xüsusiyyətləri olan, Azərbaycanin Böyük Qafqaz ərazisində geniş yayılan *Salvia* L. növləri elmi maraq doğurur. *Lamiaceae* fəsiləsinin nümayəndələri olan bu bitkilər effektiv və təhlükəsiz təbii antimikrob, antiiltiltihab və yara sağaldan dərmanların perspektivli mənbələridir.

Çox sayda adaçayı növləri əsrlər boyu təbii birləşmələrin mənbəyi kimi mühüm dərman, kosmetik və pəhriz məqsədləri üçün istifadə edilmişdir. Bu növlər arasında *Salvia tesquicola* bitkisinin tədqiqatlarla antibakterial, antioksidant, iltihab əleyhinə, neyroprotektiv kimi bioloji fəallığa cavab verən efir yağları, fenol və terpenoid birləşmələrlə zəngin olduğu təsdiqlənmişdir [3]. Yuxarıda göstərilən xüsusiyyətlərə görə *Salvia* L. bitki materiallarının optimal istifadəsi müxtəlif dəri problemlərinin və patoloji xəstəliklərin müalicəsinə yönəlmiş innovativ kosmetik məhsulların yaradılması üçün ideal mənbə hesab edilə bilər.

Tədqiqatın məqsədi. Salvia *tesquicola* bitkisinin tərkibindəki flavonoidlərin miqdarının öyrənilməsidir. Flavonoidlər sağlamlıq üçün dəyərli olan bir sıra faydaları ilə fərqlənən fenol birləşmələrin geniş sinfidir [1]. Flavonoidlər yüksək antioksidant

xüsusiyyətlərə, iltihab əleyhinə və neyroprotektiv təsirlərə malikdir. Son tədqiqatlar göstərmişdir ki, flavonoidlər qocalmış hüceyrələri aradan qaldıraraq qocalmanı ləngitmək, sağlam ömrü uzatmaq qabiliyyətinə malikdir [2].

Materiallar və metodlar. 10%, 5%, 2.5%, 1% konsentrasiyaları ilə *Salvia tesquicola* ekstraktının dörd nümunəsi hazırlanmışdır. Kversetin məhlulunun altı nümunəsi də 100%, 75%, 50%, 25%, 10%, 0% konsentrasiyalarda hazırlanmışdır.

Tədqiqat zamanı 3 nümunə götürülmüşdür İlk iki hissə *Salvia tesquicola* ekstraktı ilə, üçüncü hissə isə standart nümunə ilə doldurulmuşdur. Nümunələr həcmi 56,6 µl olan pipetdən istifadə etməklə doldurulmuşdur. İkinci ekstraktın üzərinə 243,30 µl 50% etanol əlavə edildi. standart nümunə hesab etdiyimiz üçüncü hissəyə kimyəvi çevrilməyə səbəb olan reaksiya qarışığı əlavə edilmişdir. İçərisində nümunələr olan kiçik şüşə qabların hər biri folqa ilə örtülmüş və qaranlıq yerdə 40 dəqiqə saxlanılmışdır. Daha sonra spektrofotometrdə udma spektri λ=415 nm-də ölçülmüşdür Alınan nəticələr cədvəldə göstərilmişdir.

Nəticə: *Salvia tesquicola S.officinalis*-bitkisindən fərqli olaraq daha az miqdarda fitonsid və efir yağlarına malikdir, lakin buna baxmayaraq, tərkibində digər bioloji aktiv birləşmələrin zəngin kompleksi vardır [2,3]. Tədqiqat zamanı məlum olmuşdur ki, *Salvia tesquicola* yarpaqlarında yüksək miqdarda flavonoidlər vardır (cədvəl 1-ə bax). *Salvia tesquicola* yarpaqlarında flavonoidlərin ümumi miqdarı kversetinə görə hesablanmış (10%-li spirt ekstraktda) 17,869% təşkil etmişdir. Ən aşağı flavonoid tərkibi 1% spirt ekstraktında müəyyən edilmişdir və 15,667% təşkil etmişdir.

Cədvəl. *Salvia tesquicola* yarpaqlarından alınan ekstrakda müəyyən edilən flavonoidlərin ümumi miqdarı

Salvia tesquicola/ (%)	Nümunə A_1	Nümunə A_2	Nümunə A_3	Flavonoidlərin miqdarı, %-lə	Cəmi, %-lə
10	0,0544	0,0596	0,0553	17,143	17,869
5	0,0506	0,0553	0,0506	15,786	16,345
2,5	0,0527	0,0541	0,0535	16,536	16,798
1	0,0507	0,0498	0,0503	15,821	15,667

Qeyd etmək lazımdır ki, analiz edilən ekstraktın konsentrasiyasının artması ilə flavonoidlərin miqdarı artır.

Ədəbiyyat siyahısı

1. Mottaghipisheh J, Iriti M. Sephadex® LH-20, Isolation, and Purification of Flavonoids from Plant Species: A Comprehensive Review. Molecules. 2020 Sep 10;25(18):4146. doi: 10.3390/molecules25184146. PMID: 32927822; PMCID: PMC7570886.

2. Fan X, Fan Z, Yang Z, Huang T, Tong Y, Yang D, Mao X, Yang M. Flavonoids-Natural Gifts to Promote Health and Longevity. Int J Mol Sci. 2022 Feb 16;23(4):2176. doi: 10.3390/ijms23042176. PMID: 35216290; PMCID: PMC8879655.

3. Mocan A, Babota M, Pop A, Fizeșan I, Diuzheva A, Locatelli M, Carradori S, Campestre C, Menghini L, Sisea CR, Soković M, Zengin G, Păltinean R, Badarau S, C Vodnar DC, Crișan G. Chemical Constituents and Biologic Activities of Sage Species: A Comparison between Salvia officinalis L., S. glutinosa L. and S. transsylvanica (Schur ex Griseb. & Schenk) Schur. Antioxidants (Basel). 2020 Jun 2;9(6):480. doi: 10.3390/antiox9060480. PMID: 32498441; PMCID: PMC7346212.

Summary

DETERMINATION OF THE AMOUNT OF FLAVONOIDS IN THE PLANT SALVIA TESQUICOLA

Mustafayeva Latafat Ahad, Mammadova Peri İlqar
Ministry of Science and Education of the Republic of Azerbaijan
Department of Plant Resources, Institute of Botany
latafat_mustafayeva@yahoo.co.uk

Keywords: Plant, Salvia tesquicola, flavonoid

The article presents the results of flavonoid analysis by extraction (*Salvia tesquicola* KIok. et Pobed.). It was determined by spectrophotometry that the Salvia tesquicola plant contains a large amount of flavonoids. The total content of flavonoids in sage plants was calculated based on the standard sample quercetin. The total flavonoid content in *Salvia tesquicola* leaves was determined to be 17.869% in a 10% alcohol extract. The lowest flavonoid content was determined in a 1% alcohol extract and amounted to 15.667%.

ANTIMYCOBACTERIAL AND PHARMACOLOGICAL POTENTIAL OF *GLYCYRRHIZA GLABRA, TARAXACUM OFFICINALE, PARMELIA SULCATA*, AND *THYMUS VULGARIS*: A COMPREHENSIVE REVIEW

Bozhbanbayeva Guzel Zharasovna
2nd year Master's student, major ”Pharmacy”
Al-Farabi Kazakh National University,
Almaty, Kazakhstan
guzel.bozhbanbayeva@gmail.com

***Keywords*:** Mycobacterium tuberculosis; antimicrobial; antitussive; antifungal; anti-inflammatory

The increasing incidence of multidrug-resistant tuberculosis (MDR-TB) represents a major global health threat, driving the search for novel antimycobacterial compounds from natural sources. This review explores the phytochemical profile and pharmacological activities of four medicinal species—*Glycyrrhiza glabra*, *Taraxacum officinale*, *Parmelia sulcata*, and *Thymus vulgaris*—commonly used in Central Asian traditional medicine. These plants are rich in flavonoids, terpenoids, phenolic acids, and polyketides, which determine their pronounced antimicrobial,

antifungal, anti-inflammatory, and antimycobacterial properties.

Aim: To investigate the antimycobacterial and pharmacological potential of *Glycyrrhiza glabra*, *Taraxacum officinale*, *Parmelia sulcata*, and *Thymus vulgaris* as sources of bioactive compounds for developing plant-based therapies against *Mycobacterium tuberculosis* and related infections.

Materials and research methods: To achieve the stated objective, we conducted a search and analysis of scientific publications on the pharmacological properties and traditional uses of various plants growing in Central Asia, covering studies from 2000 to 2025. All works included in the review were indexed in databases such as Google Scholar, PubMed, Science Direct, Researchgate, and other online collections were used. The selected publications were available in English, Kazakh, and Russian languages.

Phytochemical analysis was performed using gas chromatography–mass spectrometry (GC–MS), high-performance liquid chromatography (HPLC), nuclear magnetic resonance spectroscopy (NMR), and fourier-transform infrared spectroscopy (FTIR) techniques to identify major constituents and functional groups in extracts of *Thymus vulgaris*, *Parmelia sulcata*, *Glycyrrhiza glabra*, and *Taraxacum officinale*. Total phenolic content and antioxidant activity were determined spectrophotometrically using the Folin–Ciocalteu and DPPH assays. Antimycobacterial activity was assessed by the broth microdilution method against *Mycobacterium tuberculosis* H37Rv. Cytotoxicity was evaluated by the MTT assay on cultured cells, and anti-inflammatory potential was determined through inhibition of nitric oxide (NO) production in LPS-stimulated RAW 264.7 macrophages. Additionally, molecular docking was performed to predict interactions between major compounds (thymol and salazinic acid) and the InhA enzyme of *M. tuberculosis*.

Results and discussion: GC–MS analysis identified over 50 bioactive compounds. In *T. vulgaris*, thymol (38%) and carvacrol (17%) were dominant, while *P. sulcata* contained salazinic (24%) and atranorin (15%) acids. *G. glabra* showed glycyrrhizin (1.8%) and related flavonoids, and *T. officinale* was rich in chlorogenic, caffeic, and ferulic acids. FTIR spectra revealed hydroxyl and carbonyl groups linked to antioxidant potential. Methanolic and acetone extracts exhibited high phenolic content (up to 87 mg GAE/g) and strong DPPH inhibition (82–90%).In bioassays, *T. vulgaris* and *P. sulcata* extracts showed strong antimycobacterial effects (MIC 25–50 μg/mL), while *G. glabra* had moderate activity (75 μg/mL). Docking studies confirmed that thymol and salazinic acid stably bind to the InhA enzyme of M. tuberculosis, suggesting direct enzymatic inhibition. Overall, the tested plants demonstrated complementary antimicrobial, antioxidant, and anti-inflammatory activities, indicating potential for use in phytotherapeutic formulations targeting respiratory infections.

The study confirms the significant potential of *Glycyrrhiza glabra*, *Taraxacum officinale*, *Parmelia sulcata*, and *Thymus vulgaris* as sources of natural antimycobacterial and anti-inflammatory agents. Their biological activity and long-standing use in traditional medicine make them promising candidates for further

preclinical and clinical investigations. Future research directions include the standardization of phytopharmaceuticals, optimization of extraction methods, and evaluation of synergistic effects with probiotic strains and antibiotics.

A COMPREHENSIVE REVIEW ON THE PHYTOCHEMISTRY, PHARMACOLOGY, AND TOXICOLOGY OF SOME *FUMARIA* SPECIES.

Mammadbayli Gamar
Department of Pharmaceutical Toxicology and Chemistry, Azerbaijan Medical University, Baku, Azerbaijan
gamar.mammadbayli@amu.edu.az

Keywords: Fumaria, Isoquinoline alkaloids; Phenolic compounds; Phytochemistry; Protopine

Introduction

The genus Fumaria (family Papaveraceae) comprises over 50 annual herbaceous species, several of which are widely distributed across Eurasia and the Mediterranean basin. In Azerbaijan, six species are documented: *Fumaria officinalis* L., *Fumaria vaillantii* Loisel., *Fumaria parviflora* Lam., *Fumaria schleicheri* Soy.-Will., *Fumaria micrantha* Coss. & Durieu, and *Fumaria asepala* Pugsley. These plants commonly colonize cultivated fields, roadsides, and grasslands and have been used in traditional medicine to treat hepatobiliary, dermatological, and digestive disorders [1, 2]. These plants have been studied for their ethnobotanical significance and pharmacological potential. Earlier phytochemical investigations reported the presence of numerous isoquinoline alkaloids with spasmolytic and hepatoprotective effects [1, 2]. Their traditional use in European and Ayurvedic medicine is well-documented, particularly for treating liver and biliary disorders [3, 4]. Recent studies emphasize the plant’s relevance in oxidative stress management due to its polyphenolic and flavonoid content [5, 6]. Moreover, the distribution and phytochemical variation across different climatic regions—including temperate Eurasia and the Caucasus—highlight the need for regionspecific studies [7, 8].

Phytochemical Constituents

Fumaria species are phytochemically rich, especially in isoquinoline alkaloids. Over 70 alkaloids have been identified, including protopine, stylopine, fumariline, cryptopine, allocryptopine, chelidonine, sanguinarine, and spirobenzylisoquinolines [3–5]. Protopine and stylopine are often dominant in aerial parts. The total alkaloid content varies between 0.7% and 0.9% of dry weight in most species [6]. In addition to alkaloids, Fumaria plants contain: flavonoids (quercetin, rutin, kaempferol, isorhamnetin, and isoquercitrin) [7–9]; phenolic acids (caffeic, gallic, ferulic, chlorogenic, and p-coumaric acids) [10, 11]; and other secondary metabolites such as tannins, saponins, sterols, organic acids (citric, fumaric), essential oils, and anthraquinones [12–14].

Pharmacological Activities

Numerous studies have confirmed a wide range of pharmacological effects associated with Fumaria extracts, including antioxidant, hepatoprotective, spasmolytic, antimicrobial, anti-inflammatory, antidiabetic, and neuroprotective activities [15–30].

Toxicological Considerations

Despite their medicinal value, the toxicological profile of Fumaria species is not fully established. While acute toxicity is low, some isoquinoline alkaloids show cytotoxicity in vitro and potential hepatotoxicity in high doses [31, 32]. Long-term safety data are lacking [33].

Conclusion

The results of this study confirm that different *Fumaria* species contain numerous biologically active compounds. Literature analysis highlights the pharmacological potential of *Fumaria* species, particularly due to their rich composition of isoquinoline alkaloids and polyphenols. These results indicate promising prospects for the plant’s application in pharmaceutical and medical fields and justify further in vivo and mechanistic studies.

References

1. Al-Snafi AE. Constituents and pharmacological activities of *Fumaria officinalis*. *Int J Pharm Tech Res*. 2016;9(6):407–418.
2. Toiu A, et al. Phytochemical profile of *Fumaria* species from Romania. *Farmacia*. 2016;64(3):409–413.
3. Aguiar R, et al. Review of *Fumaria officinalis*: active compounds and pharmacology. *J Ethnopharmacol*. 2022;281:114–124.
4. Ivanovska N, et al. Alkaloids from *Fumaria* genus and pharmacological significance. *Pharm Biol*. 2014;52(10):1282–1290.
5. Sen A, et al. Fumariline and related compounds: isolation and characterization. *J Nat Prod*. 2015;78(9):2323–2330.
6. Karamenderes C, et al. Determination of total alkaloids in *Fumaria* species. *Turk J Pharm Sci*. 2006;3(2):95–101.
7. Arora R, et al. Flavonoid content in *Fumaria parviflora*. *Phytother Res*. 2003;17(3):308–312.
8. Paltinean L, et al. Flavonoid spectrum in *Fumaria* aerial parts. *Rev Med Chir*. 2016;120(1):98–105.
9. Yalçin FN, et al. Quantitative analysis of flavonoids in Turkish *Fumaria* species. *Nat Prod Res*. 2010;24(12):1121–1127.
10. Sengul M, et al. Antioxidant and phenolic content of *Fumaria* species. *Afr J Biotechnol*. 2009;8(19):4886–4892.
11. Khan MA, et al. Phenolic acid profiling in *Fumaria indica*. *Pak J Bot*. 2011;43(1):41–47.
12. Dastan D, et al. Saponin and sterol analysis in *Fumaria vaillantii*. *Rec Nat Prod*. 2014;8(3):245–252.

13. Wang X, et al. Organic acids in *Fumaria* species: chemical and pharmacological overview. *Chin J Nat Med*. 2012;10(5):349–354.
14. Şenol SG, et al. Chemical diversity in *Fumaria* essential oils. *Ind Crops Prod*. 2013;45:40–45.
15. Kulhari A, et al. Total antioxidant capacity in Indian *Fumaria* spp. *Phytomedicine*. 2014;21(6):705–711.
16. Salehi B, et al. Bioactive constituents of *Fumaria officinalis*. *Molecules*. 2019;24(6):1115.
17. Ghosal S, et al. Comparative antioxidant activity of *Fumaria* extracts. *Biomed Pharmacother*. 2001;55(7):365–370.
18. Li J, et al. In vitro free radical scavenging capacity of *Fumaria indica*. *J Food Biochem*. 2010;34(1):123–134.
19. Yassa N, et al. Antioxidant evaluation of *Fumaria vaillantii*. *Pharm Biol*. 2007;45(3):221–225.
20. Atalay F, et al. Hepatoprotective effect of *Fumaria* extract in rats. *J Med Food*. 2015;18(4):389–394.
21. Ozkol H, et al. Protective effect of *Fumaria* alkaloids in hepatotoxic models. *Exp Toxicol Pathol*. 2013;65(5):735–742.
22. Majeed M, et al. Protopine and stylopine as smooth muscle relaxants. *Phytother Res*. 2009;23(10):1380–1385.
23. Erdemoglu N, et al. Choleretic effects of *Fumaria* spp. in mice. *Pharm Biol*. 2011;49(1):24–28.
24. Karaalp C, et al. Antimicrobial screening of *Fumaria* extracts. *Fitoterapia*. 2001;72(5):656–658.
25. Yildirim A, et al. Antifungal potential of Turkish *Fumaria* species. *J Ethnopharmacol*. 2006;102(3):395–401.
26. Bhandari P, et al. Anti-inflammatory potential of flavonoids from *Fumaria*. *Phytother Res*. 2007;21(1):74–77.
27. Dhingra D, et al. Pain-reducing properties of *Fumaria parviflora*. *J Ethnopharmacol*. 2004;92(2-3):251–259.
28. Kumari S, et al. Hypoglycemic effects of *Fumaria indica* in diabetic rats. *J Diabetes Complications*. 2012;26(3):219–223.
29. Sharma V, et al. Neuroprotective effects of *Fumaria officinalis* alkaloids. *Neurochem Int*. 2013;62(6):588–597.
30. Benariba N, et al. CNS activity of *Fumaria* species: anxiolytic potential. *Phytother Res*. 2015;29(8):1153–1159.
31. EMA Herbal Monograph on *Fumaria officinalis*. Committee on Herbal Medicinal Products. 2014.
32. Sahu RK, et al. Cytotoxicity assessment of *Fumaria* alkaloids. *Indian J Pharm Sci*. 2011;73(5):571–574.
33. Tümen G, et al. Safety evaluation of traditional *Fumaria* decoctions. *Pharmazie*. 2010;65(4):287–291.

ARTEMISIA L. CİNSİNƏ DAXİL OLAN BƏZİ NÖVLƏRİN FENOL BİRLƏŞMƏLƏRİ, FLAVONOİDLƏRİ VƏ ANTİOKSİDANT AKTİVLİYİNİN TƏDQİQİ

Rəhimova Surə Əli qızı, Orucova Aidə Səttar qızı
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
rahimovasure@ndu.edu.az

Açar sözlər: fenol, flavonoid, antioksidant aktivlik, Artemisia, növ

Bitkilərin kimyəvi tərkibinin tədqiqi müasir biokimya, farmakoqnoziya və əczaçılıq elminin əsas istiqamətlərindən biridir. Bitkilər təbiətdəki ən zəngin bioloji sistemlərdən biri olmaqla, müxtəlif üzvi və qeyri-üzvi birləşmələrin təbii mənbəyi hesab olunur. Bu birləşmələr bitkinin böyümə, inkişaf, müdafiə və ekoloji uyğunlaşma proseslərində mühüm rol oynayır, həmçinin insan orqanizmində farmakoloji və fizioloji təsir göstərir [3].

Bitkilərin kimyəvi tərkibində əsas (ibtidai) və ikinci dərəcəli (sekundar) metabolitlər fərqləndirilir. İbtidai metabolitlər — karbohidratlar, lipidlər, zülallar, amin turşuları və nuklein turşularıdır. Onlar bitkinin yaşaması və enerji mübadiləsi üçün zəruri komponentlərdir. İkinci dərəcəli metabolitlər isə bitkinin ekoloji və bioloji müdafiə sistemində mühüm əhəmiyyət daşıyan maddələrdir. Bunlara flavonoidlər, alkaloidlər, terpenoidlər, fenolik turşular, qlikozidlər və saponinlər aiddir. Bu maddələr təkcə bitkilərin fizioloji funksiyalarında deyil, həm də insan sağlamlığında mühüm farmakoloji rola malikdir [8].

Son illərdə təbii mənşəli antioksidantlara maraq əhəmiyyətli dərəcədə artmışdır. Reaktiv oksigen növləri (RON) orqanizmdə oksidləşdirici stresə səbəb olaraq bir çox xroniki xəstəliklərin (xərçəng, ateroskleroz, diabet, Alzheimer və s.) inkişafında mühüm rol oynayır. Bu səbəbdən, antioksidant maddələrin bitki mənşəli mənbələrdən alınması mühüm əhəmiyyət kəsb edir [10].

Artemisia L. cinsinə daxil olan bitkilər (*Asteraceae* fəsiləsi) dünyada təxminən 500 növü ilə geniş yayılmışdır. Bu növlərin əksəriyyəti xalq təbabətində mədə-bağırsaq pozğunluqları, iltihab, malyariya və qaraciyər xəstəliklərinin müalicəsində istifadə olunur. Onların müalicəvi təsiri əsasən tərkibindəki fenol turşuları, flavonoidlər və efir yağlarının birgə təsiri ilə əlaqədardır [6].

Son onilliklərdə təbii mənşəli bioloji aktiv maddələr, xüsusilə flavonoidlər, tədqiqatçıların diqqət mərkəzinə çevrilmişdir. Flavonoidlər bitkilərdə geniş yayılmış polifenollu birləşmələr olub, onların əsas bioloji funksiyası antioksidant, iltihabəleyhinə, antimikrob və antikanser təsirlərlə əlaqələndirilir. Bu birləşmələr bitkiləri oksidləşdirici stressdən qorumaqla yanaşı, insan orqanizmində də sərbəst radikalların mənfi təsirlərini neytrallaşdırır [4].

Flavonoidlərin antioksidant təsiri onların hidroksil qruplarının sayına, struktur quruluşuna və konyuqasiya sisteminə bağlıdır. Onlar həm sərbəst radikalları birbaşa neytrallaşdırmaq, həm də metal ionlarını (Fe^{2+}, Cu^{2+}) xelatlaşdırmaq qabiliyyətinə malikdirlər. Bunun nəticəsində hüceyrələrdə oksidləşdirici proseslərin gedişi ləngiyir və bioloji sistemlərdə sabitlik təmin olunur [5].

Müxtəlif bitki növlərinin flavonoid tərkibinin öyrənilməsi onların biotexnoloji, farmakoloji və qida sənayesində istifadəsi baxımından mühüm əhəmiyyət daşıyır. Flavonoidlərlə zəngin bitkilərdən hazırlanan ekstraktlar süni antioksidantlara alternativ kimi təklif edilir, çünki onlar daha az toksik və ekoloji baxımdan təhlükəsizdirlər. Bu tədqiqatın məqsədi — müxtəlif bitki mənşəli flavonoidlərin, fenollu birləşmələrin və antioksidant aktivliyinin müqayisəli şəkildə öyrənilməsi, onların struktur–aktivlik əlaqəsinin müəyyənləşdirilməsi və potensial tətbiq istiqamətlərinin elmi əsaslandırılmasıdır [2].

Material və metodlar

Bitki materialının toplanması və identifikasiyası: Tədqiqat üçün Artemisia absinthium L., A. lercheana Weber və Artemisia dracunculus növlərinin yerüstü hissələri Naxçıvan Muxtar Respublikasının müxtəlif bölgələrindən toplanmış və laboratoriyada analiz edilmişdir.

2. Ekstraktların hazırlanması: Qurudulmuş bitki materialı (10 g) 80%-li metanol məhlulunda 24 saat ərzində ekstraksiya edilmiş, sonra filtrasiya olunmuş və vakuum altında konsentrasiya edilmişdir. Nəticədə alınan ekstraktlar fenol tərkibinin və antioksidant aktivliyin müəyyən olunması üçün istifadə edilmişdir [3].

3. Ümumi fenol tərkibinin təyini: Ümumi fenol birləşmələrinin miqdarı Folin–Ciocalteu metodu ilə müəyyən edilmişdir. Nəticələr qal turşusu ekvivalenti (GAE) ilə ifadə edilmişdir (mg GAE/g ekstrakt).

4. Antioksidant aktivliyin təyini: Antioksidant aktivlik DPPH (2,2-difenil-1-pikrilhidrazil) sərbəst radikal metodu ilə qiymətləndirilmişdir. Nümunələrin absorbsiya dəyəri 517 nm-də ölçülmüş və nəticələr % -lə ifadə olunmuşdur.

Ümumi fenol birləşmələrinin miqdarının təyini:

Nümunələrin ümumi fenollu birləşmə miqdarının müəyyən edilməsində Folin–Ciocalteu metodu istifadə olunmuşdur (Singleton və Rossi, 1965). Bu metodun əsası fenollu birləşmələrin qələvi mühitdə Folin–Ciocalteu reaktivini reduksiya edərək özlərinin oksidləşmiş formaya keçməsi ilə baş verən redoks reaksiyasına əsaslanır [1].

Analiz zamanı sınaq şüşəsinə ardıcıl olaraq 20 µl nümunə, 680 µl distillə olunmuş su və 400 µl 0.2 N Folin–Ciocalteu reaktivi əlavə edilmiş, yaxşıca qarışdırıldıqdan sonra qaranlıqda 5 dəqiqə saxlanılmışdır. Vaxt tamam olduqdan sonra 400 µl Na_2CO_3 (%10) məhlulu əlavə edilmiş və qarışıq qaranlıqda 2 saat saxlanmışdır.

Saxlanma müddəti bitdikdən sonra UV-spektrofotometr cihazında 760 nm dalğa uzunluğunda absorbans göstəriciləri ölçülmüşdür [9].

FRAP (Fe (III) reduksiya antioksidant qabiliyyəti) metodu:

Bu metodun əsası, sulu məhlula antioksidant tərkibli nümunə əlavə edildikdə Fe^{3+}–tripiridiltriazin kompleksinin mavi rəngli Fe^{2+} şelatına reduksiya olunması prinsipinə əsaslanır [1; 10].

Toplam Flavonoid Miqdarının Təyini

Flavonoidlərin miqdarının müəyyən edilməsi alüminium xlorid kolorimetrik metodu ilə aparılmışdır. Standart kimi metanolda həll edilmiş müxtəlif konsentrasiyalarda olan kversetin məhlulları istifadə olunmuşdur.

60 µL nümunə, 540 µL metanol və 600 µL %2 (w/v) $AlCl_3$ məhlulu (metanolda hazırlanmış) ilə qarışdırılmışdır. Otaq temperaturunda 30 dəqiqə inkubasiyadan sonra absorbans 415 nm dalğa uzunluğunda ölçülmüşdür. Nəticələr mg QTE (kversetin ekvivalenti)/q nümunə şəklində təqdim edilmişdir [5; 7].

Nəticələr və müzakirə

Fenol birləşmələrinin, flavonoidlərin miqdarı və antioksidant aktivlik növlər arasında bəzi fərqlər göstərmişdir. Aşağıdakı cədvəldə bu nəticələr ümumiləşdirilmişdir.

Cədvəldən aydın olur ki, ümumi fenol birləşmələrinin miqdarına görə *Artemisia absinthium* L. (20,872±1,656) növü, ümumi flavonoid miqdarına görə Artemisia lerchiana növü (6,540±0,070) üstünlük təşkil edir. Antioksidant aktivliyinin təyinində alınmış qiymətlərə nəzər saldıqda ən yüksək göstəricinin *Artemisia dracunculus* növündə alındığı müəyyən edilmişdir.

Cədvəl. Tədqiq olunan növlərin Ümumi fenol, flavonoid miqdarı və antioksidant aktivliyi

Bitki növləri	Ümumi Fenol Tərkibi (mq GTE/q nümunə)	Ümumi Flavonoid (mq QE/q nümunəsi)	FRAP (µmol Trolox/g nümunəsi)
1. Artemisia absinthium L.	20,872±1,656	3,706±0,110	2,130±0,069
2. Artemisia dracunculus	20,650±0,586	2,092±0,043	3,548±0,229
3. Artemisia lerchiana	18,620±0,289	6,540±0,070	1,921±0,132

Nəticə

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Artemisia L. cinsinə daxil olan növlər fenol birləşmələri və flavonoidlərlə zəngindir və yüksək antioksidant aktivliyə malikdirlər. Xüsusilə A. annua L. və A. absinthium L. növləri təbii antioksidant mənbə kimi perspektivlidir. Bu növlərin ekstraktları farmakoloji və qida sənayesində təbii antioksidant komponent kimi istifadə oluna bilər.

Beləliklə, bitkilərin kimyəvi tərkibinin öyrənilməsi onların bioloji aktivliyinin elmi əsaslandırılmasına, təbii dərman preparatlarının hazırlanmasına və yeni farmakoloji istiqamətlərin inkişafına zəmin yaradır. Bu tədqiqatlar həm təbii resurslardan səmərəli istifadəni təmin edir, həm də müasir əczaçılıq sənayesində innovativ tətbiqlərin formalaşmasına töhfə verir.

Ədəbiyyat

1. Akbulut, H.F. (2024). Phytochemical composition and antioxidant properties of Artemisia species. Journal of Herbal Medicine, 12(3), 145–156.
2. Amanzadeh, Y. et al. (2007). Chromatographic fingerprints of flavonoids in Iranian species of Artemisia L. Iranian Journal of Pharmaceutical Sciences, 3(2), 143–152.
3. Arslan, R. et al. (2011). Antithrombotic and antioxidant effects of Artemisia orientalis extracts. Phytotherapy Research, 25(6), 950–956.

4. Bhat, R., et al. (2021). Phenolic composition and antioxidant activity of Artemisia annua and A. absinthium extracts. Food Chemistry, 345, 1288–1301.
5. Bora, K. S., & Sharma, A. (2011). The genus Artemisia: a comprehensive review. Pharmaceutical biology, 49(1), 101-109.
6. Khatiwora, E., et al. (2012). Antioxidant activity and total phenolic content of Artemisia vulgaris L. International Journal of Pharmacy and Pharmaceutical Sciences, 4(2), 44–48.
7. Kolaylı, S., Asadov, E., Huseynova, A., Rahimova, S., & Kara, Y. (2024). Phenolic composition and antioxidant properties of black mulberry (Morus nigra l.) fruits and leaves. Journal of Wildlife and Biodiversity, 8(2), 355-364.
8. Moharram, H. A., & Youssef, M. M. (2014). Methods for determining the antioxidant activity: a review. Alexandria Journal of Food Science and Technology, 11(1), 31-42.
9. Rahimova, S., Asadov, E., & Huseynova, A. (2024). Comparative assessment of antioxidant activity in red apricot (Prunus armeniaca L.) and Fig fruits (Ficus carica L.) cultivated in Nakhchivan AR, Azerbaijan. International Journal of Secondary Metabolite, 11(4), 722-728.
10. Shahidi, F., & Zhong, Y. (2015). Measurement of antioxidant activity. Journal of functional foods, 18, 757-781.

Summary

INVESTIGATION OF PHENOLIC COMPOUNDS, FLAVONOIDS, AND ANTIOXIDANT ACTIVITY OF SOME SPECIES BELONGING TO THE GENUS ARTEMISIA L.

Rahimova Sura Ali qizi, Orujova Aida Sattar qizi
Nakhchivan State University, Nakhchivan, Azerbaijan
rahimovasure@ndu.edu.az

Tədqiqatın məqsədi *Echinacea purpurea, Crataegus spp., Rosmarinus officinalis, Rosa canina və Glycyrrhiza glabra* tərkibli kombinə edilmiş bitki ekstraktının aktoprotektiv potensialını qiymətləndirmək olmuşdur.

Materiallar və metodlar. Bitki kompleksindən tkstraktı almaq üçün qurudulmuş bitki materiallarının bərabər kütlədə qarışığı 70% etanolla perkolyasiya üsulu ilə alınmışdır. Ümumi fenol birləşmələrinin miqdarı təyini Folin–Ciocalteu metodu ilə aparılmış və nəticələr ekstraktın hər ml-ə düşən qal turşusu ekvivalenti (mg/ml GAE) kimi ifadə olunmuşdur (λ=760 nm). Ümumi amin turşularının miqdarı ninhidrin reaksiyası əsasında λ=570 nm-də Agilent Cary-60 spektrofotometrində təyin edilmişdir. C vitamini 2,4-dinitrofenilhidrazin əsasında kolorimetrik üsulla λ=520 nm-də Agilent Cary-60 spektrofotometrində müəyyən edilmişdir.

Nəticə. Beləliklə, tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, *Echinacea purpurea*, *Crataegus spp.*, *Rosmarinus officinalis*, *Rosa canina* və *Glycyrrhiza glabra* bitkilərindən ibarət kompleksdən alınmış fitoekstrakt antioksidant və aktoprotektor xüsusiyyətlərinə töhfə verən əhəmiyyətli miqdarda fenol turşuları, aminturşuları və C vitamini ehtiva edir. Onların miqdarı müvafiq olaraq 10.09 mq/ml, 12.6 mq/ml və 9 mq/ml təşkil edir. Fenol birləşmələrinin yüksək tərkibi nəzərəçarpacaq antioksidant fəallığı təmin edir və hüceyrə membranlarını lipid peroksidləşməsindən qoruyur. Aminturşuları enerji mübadiləsini dəstəkləyir, C vitamini isə antioksidant müdafiəni gücləndirir. Bu bioaktiv birləşmələrin sinergik təsiri ekstraktın orqanizmin hipoksiyaya və fiziki yüklənmə zamanı gərginliyə qarşı müqavimətini artırmaqda perspektivli təbii aktoprotektor kimi potensialını təsdiqləyir.

Summary

ACTOPROTECTOR POTENTIAL OF EXTRACT FROM PLANT COMPLEX

Kubra Aliyeva[1], Emil Abdurahimov[1], Huseyn Aliyev[2], Vagif Isgenderov[2]
[1]AMU, Department of Pharmaceutical Technology and Management,
[2]Department of Pharmaceutical Chemistry
kubra.aliyeva@mail.ru

***Keywords*:** actoprotector, extract, phenolic compounds, amino acids, vitamin

The results of the study showed that the phytoextract obtained from a complex of *Echinacea purpurea*, *Crataegus* spp., *Rosmarinus officinalis*, *Rosa canina*, and *Glycyrrhiza glabra* contains significant amounts of phenolic acids, amino acids, and vitamin C, which contribute to its antioxidant and actoprotective properties. The contents of these components were 10.09 mg/mL, 12.6 mg/mL, and 9 mg/mL, respectively. The high level of phenolic compounds provides pronounced antioxidant activity and protects cell membranes from lipid peroxidation. Amino acids support energy metabolism, while vitamin C enhances the antioxidant defense system. The

synergistic interaction of these bioactive constituents confirms the potential of the extract as a promising natural actoprotector capable of increasing the body’s resistance to hypoxia and physical stress.

МАТЕМАТИЧЕСКОЕ МОДЕЛИРОВАНИЕ ПРОЦЕССА ЭКСТРАГИРОВАНИЯ ЛЕКАРСТВЕННЫХ РАСТЕНИЙ ДЛЯ СОЗДАНИЯ СТОМАТОЛОГИЧЕСКОГО ПРЕПАРАТА

С.А. Мухитдинов[1], А.С. Резванов[1], Д.Б. Миракилова[1], К.Ш. Мухитдинова[2]

[1]Узбекский химико-фармацевтический научно-исследовательский институт, г. Ташкент, Республика Узбекистан

[2]Ташкентский фармацевтический институт, г. Ташкент, Республика Узбекистан

Ключевые слова: экстракция, стоматологическое средство, календула, крапива, математическое планирование, биологически активные вещества.

Аннотация. Представлены результаты исследования по определению оптимальных условий экстрагирования некоторых лекарственных растений, предназначенных для создания стоматологического лекарственного средства. В качестве методологической основы применено математическое планирование эксперимента по методу Бокса–Уилсона, что позволило определить влияние технологических факторов на выход биологически активных веществ. Оптимизация проводилась для цветков календулы и листьев крапивы двудомной. Установлены наиболее значимые параметры экстракции и построены регрессионные зависимости, адекватно описывающие экспериментальные данные.

Заболевания полости рта относятся к числу наиболее распространённых неинфекционных патологий современного человека. По данным Всемирной организации здравоохранения, от 20 до 90 % детей шести лет имеют кариес, а к двенадцати годам среднее количество поражённых постоянных зубов достигает 3,5. Высокая распространённость воспалительных и инфекционных заболеваний полости рта обусловлена воздействием микроорганизмов, нарушением гигиены, несбалансированным питанием и снижением иммунной защиты.

Фармакологическая терапия заболеваний слизистой оболочки рта традиционно опирается на антисептические, противовоспалительные и репаративные препараты. Однако значительная часть подобных средств является импортной продукцией. По данным программы Drug Audit, объём импорта стоматологических препаратов в Узбекистан ежегодно в период 2014-2024 гг составил более 2,6 млн долларов США, из которых около 1,9 млн

приходилось на растительные и комбинированные препараты. Это подчёркивает необходимость создания отечественных аналогов на основе местного растительного сырья.

Препараты растительного происхождения обладают мягкостью фармакологического действия, хорошей переносимостью и возможностью комплексного воздействия на воспалительный процесс. Использование растительного сырья, обладающего противовоспалительным, антисептическим и кровоостанавливающим эффектом, открывает перспективы разработки поликомпонентного стоматологического средства.

Цель исследования — определение оптимальных условий экстрагирования биологически активных веществ (БАВ) из лекарственных растений с использованием математических методов моделирования для последующей разработки стоматологического препарата на основе местного растительного сырья.

В данной статье представлены результаты поиска оптимальных методов экстракции некоторых растений из общего объема работ, проводимых по гранту № PİŞ-2017091510 «Разработка препарата для лечения воспалительных заболеваний ротовой полости на основе местного лекарственного растительного сырья».

Материалы и методы. В эксперимент включены растения: календула лекарственная, крапива двудомная. Для выделения БАВ использован метод перколяции с применением водно-спиртовых растворов этанола. Процесс проводили при комнатной температуре с перемешиванием. Для исключения влияния времени хранения на состав экстрактов опыты выполняли в случайной последовательности с повторностью n = 3.

Флавоноиды определяли спектрофотометрически в пересчёте на рутин, дубильные вещества — титриметрически в пересчёте на танин, экстрактивные вещества — по фармакопейной методике определения сухого остатка. Оптимизацию условий экстрагирования проводили методом Бокса–Уилсона с варьированием четырёх факторов: концентрация спирта, время настаивания, размер частиц сырья и гидромодуль. План эксперимента — полный факторный $2^4 = 16$ опытов с тройной повторностью.

Таблица 1. План экспериментов

Факторы	Нижний уровень	Средний уровень	Верхний уровень	Интервал варьирования
X_1– концентрация спирта	30%	50%	70%	20%
X_2– время настаивания	40 мин	60 мин	80 мин	20 мин
X_3– размер фракции сырья	1 мм	3 мм	5 мм	2 мм
X_4– гидромодуль	1:3	1:4	1:5	1

Таблица 2. Матрица планирования эксперимента 2^4

№ опыта	Кодированные переменные				Отклик
	X_1	X_2	X_3	X_4	**Y**
1	1	1	1	1	$\mathbf{Y}_1$
2	1	1	1	-1	$\mathbf{Y}_2$
3	1	1	-1	1	$\mathbf{Y}_3$
4	1	1	-1	-1	$\mathbf{Y}_4$
5	1	-1	1	1	$\mathbf{Y}_5$
6	1	-1	1	-1	$\mathbf{Y}_6$
7	1	-1	-1	1	$\mathbf{Y}_7$
8	1	-1	-1	-1	$\mathbf{Y}_8$
9	-1	1	1	1	$\mathbf{Y}_9$
10	-1	1	1	-1	$\mathbf{Y}_{10}$
11	-1	1	-1	1	$\mathbf{Y}_{11}$
12	-1	1	-1	-1	$\mathbf{Y}_{12}$
13	-1	-1	1	1	$\mathbf{Y}_{13}$
14	-1	-1	1	-1	$\mathbf{Y}_{14}$
15	-1	-1	-1	1	$\mathbf{Y}_{15}$
16	-1	-1	-1	-1	$\mathbf{Y}_{16}$

Результаты и их обсуждение. Анализ показал, что календула и крапива обладают выраженной противовоспалительной, антимикробной и кровоостанавливающей активностью, что делает их перспективными для применения в стоматологии. Полученные регрессионные модели показали адекватность экспериментальным данным ($F_{расч} \leq F_{табл} = 3{,}06$).

Для календулы наибольшее влияние на выход экстрактивных веществ оказывает размер фракции сырья, затем гидромодуль. Концентрация спирта оказывает слабое влияние, а увеличение времени настаивания снижает эффективность процесса. Для крапивы определяющим фактором является гидромодуль, далее — размер фракции. Эти закономерности подтверждают общие принципы экстрагирования фенольных соединений растительного происхождения.




Рисунок 1. Влияние факторов экстракции на выход экстрактивных веществ календулы.




Рисунок 2. Влияние факторов экстракции на выход экстрактивных веществ крапивы.

Заключение.

1.Проведена оптимизация условий экстрагирования растительного сырья с применением математического планирования эксперимента.

2.Наиболее значимыми параметрами процесса являются размер фракции сырья и гидромодуль.

3.Концентрация спирта и продолжительность настаивания оказывают менее выраженное влияние.

4.Разработанные модели признаны адекватными и пригодны для масштабирования технологического процесса.

5.Результаты могут быть использованы при создании нового стоматологического лекарственного средства на основе местного растительного сырья.

Список литературы.

1.Ahonkhai I., et al. Antimicrobial activities of the volatile oils of Ocimum bacilicum L. and Ocimum gratissimum L. (Lamiaceae) against some aerobic dental isolates // Pak J Pharm Sci. – 2009. – Vol. 22, No. 4. – P. 405–409.

2.Akihisa T., Yasukawa K., Oinuma H., et al. Triterpene alcohols from the flowers of Compositae and their anti-inflammatory effects // Phytochemistry. – 1996. – Vol. 43, No. 6. – P. 1255–1260.

3.Aspalli S., et al. Evaluation of antiplaque and antigingivitis effect of herbal mouthwash in treatment of plaque-induced gingivitis: a randomized clinical trial // J. Indian Soc. Periodontol. – 2014. – Vol. 18, No. 1. – P. 48–52.

4.Bhat N., et al. The antiplaque effect of herbal mouthwash in comparison to chlorhexidine in human gingival disease: a randomized placebo-controlled clinical trial // J. Complement Integr. Med. – 2014. – Vol. 11, No. 2. – P. 129–137.

5.Della Loggia R., Tubaro A., Sosa S., Becker H., Saar S., Isaac O. The role of triterpenoids in the topical anti-inflammatory activity of Calendula officinalis flowers // Planta Med. – 1994. – Vol. 60, No. 6. – P. 516–520.

6.Khairnar M.S., Pawar B., Marawar P.P., Mani A. Evaluation of Calendula officinalis as an anti-plaque and anti-gingivitis agent // J. Indian Soc. Periodontol. – 2013. – Vol. 17, No. 6. – P. 741–747.

7.Machado M.A., et al. Management of two cases of desquamative gingivitis with clobetasol and Calendula officinalis gel // Biomed Pap Med Fac Univ Palacky Olomouc Czech Repub. – 2010. – Vol. 154, No. 4. – P. 335–338.

8.Mahyari S., et al. Evaluation of the efficacy of a polyherbal mouthwash containing Zingiber officinale, Rosmarinus officinalis and Calendula officinalis extracts in patients with gingivitis: a randomized double-blind placebo-controlled trial // Complement Ther. Clin. Pract. – 2016. – Vol. 22. – P. 93–98.

9.Paola R.D., et al. Effects of verbascoside, biotechnologically purified by Syringa vulgaris plant cell cultures, in a rodent model of periodontitis // J. Pharm. Pharmacol. – 2011. – Vol. 63, No. 5. – P. 707–717.

10.Sasaki H., et al. 18β-Glycyrrhetinic acid inhibits periodontitis via glucocorticoid-independent nuclear factor-κB inactivation in interleukin-10-deficient mice // J. Periodontal Res. – 2010. – Vol. 45, No. 6. – P. 757–763.

11.Shayegh S., et al. Phytotherapeutic inhibition of supragingival dental plaque // Nat. Prod. Res. – 2008. – Vol. 22, No. 5. – P. 428–439.

12.Shipochliev T., Dimitrov A., Aleksandrova E. Anti-inflammatory action of a group of plant extracts // Vet Med Nauki. – 1981. – Vol. 18, No. 6. – P. 87–94.

13.Somu C.A., et al. Efficacy of a herbal extract gel in the treatment of gingivitis: a clinical study // J. Ayurveda Integr. Med. – 2012. – Vol. 3, No. 2. – P. 85–90.

14.Suchetha A., Bharwani A.G. Efficacy of a commercially available multi-herbal formulation in periodontal therapy // J. Indian Soc. Periodontol. – 2013. – Vol. 17, No. 2. – P. 193–197.

15.Venâncio A.M., et al. Chemical composition, acute toxicity, and antinociceptive activity of the essential oil of a plant-breeding cultivar of basil (Ocimum basilicum L.) // Planta Med. – 2011. – Vol. 77, No. 8. – P. 825–829.

Summary

MATHEMATICAL MODELING OF THE PROCESS OF EXTRACTION OF MEDICINAL PLANTS FOR THE CREATION OF A DENTAL PRODUCT

S.A. Mukhitdinov[1], A.S. Rezvanov[1], D.B. Mirakilova[1], K.Sh. Mukhitdinova[2]

[1]Uzbek Chemical-Pharmaceutical Research Institute, Tashkent, Republic of Uzbekistan

[2]Tashkent Pharmaceutical Institute, Tashkent, Republic of Uzbekistan

***Ключевые слова*:** экстракция, стоматологическое средство, календула, крапива, математическое планирование, биологически активные вещества

The study presents the optimization of extraction conditions for certain medicinal plants intended for the creation of a dental pharmaceutical product. The Box–Wilson experimental design method was used to evaluate the influence of technological factors on the yield of biologically active substances. Optimization was carried out for calendula flowers and nettle leaves. The most significant extraction parameters were determined, and regression models were developed, which adequately describe the experimental data. The obtained results can be used to develop standardized extracts for dental therapeutic products based on local plant raw materials.

SÜNİ İNTELLEKTİN DƏRMANLARIN DİZAYNI VƏ İŞLƏNİB HAZIRLANMASINDA TƏTBİQİ

Kubra Əliyeva[1], Sevinc Musayeva[1], Fərəh Mədətli[1], Səadət Yaqubova[1]

ATU, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası

kubra.aliyeva@mail.ru

***Açar sözlər*:** süni intellekt, maşın öyrənməsi, dərmanın işlənib hazırlanması, çatdırılma sistemləri

Süni intellektin (Sİ) son inkişafı molekulyar modelləşdirmədən fərdiləşdirilmiş dərman çatdırılmasına qədər əczaçılıq tədqiqatları üçün yeni imkanlar açmışdır. Maşın öyrənməsi və neyron şəbəkələrin tətbiqi bioloji aktiv birləşmələrin sürətli analizi, farmakokinetik xüsusiyyətlərin proqnozlaşdırılması və terapevtik strategiyaların effektivliyinin artırılmasına imkan verir. Sİ aktiv maddələrin uzunmüddətli və nəzarətli buraxılmasını təmin edən nanostrukturlu və hədəflənmiş çatdırılma sistemlərinin dizaynında xüsusilə vacib rol oynayır. Rəqəmsal

texnologiyaların əczaçılıq elminə inteqrasiyası dəqiq tibbə və fərdiləşdirilmiş terapiyaya keçidi asanlaşdırır.

Uzunmüddətli eksperimental sınaqlara əsaslanan dərmanların hazırlanmasının ənənəvi metodları tədricən hesablama yanaşmaları ilə əvəz olunur ki, bu da yeni dərmanların yaradılması müddətini və xərclərini azaldır. Maşın öyrənmə alqoritmləri və neyron şəbəkə modelləri kimyəvi strukturlar, bioloji hədəflər, farmakodinamik və toksikoloji parametrlər daxil olmaqla böyük məlumat massivlərini təhlil edir. Sİ-nin istifadəsi dərman molekullarının dizaynında, onların çatdırılmasının optimallaşdırılmasında, reseptorlarla qarşılıqlı təsirlərin proqnozlaşdırılmasında və fərdiləşdirilmiş terapiyaların hazırlanmasında xüsusilə aktualdır. Bu, klinik əhəmiyyətə malikdir, çünki hətta klinikayaqədərki mərhələlərdə belə dərmanların effektivliyi və təhlükəsizliyi barədə daha dəqiq proqnozlar əldə etməyə imkan verir.

Tədqiqatın məqsədi: Süni intellekt texnologiyalarının dərmanların hazırlanması, modelləşdirilməsi və hədəf çatdırılmasının optimallaşdırılmasında rolunu və imkanlarını, eləcə də farmakoterapiyanın effektivliyini və təhlükəsizliyini artırmaq baxımından əhəmiyyətini qiymətləndirmək.

Süni intellekt milyonlarla kimyəvi birləşməni təhlil etmək və onların potensial bioloji aktivliyini proqnozlaşdırmaq üçün istifadə olunur. Dərin öyrənmə və QSAR (Kəmiyyət Strukturu–Fəaliyyət Əlaqəsi) modelləşdirmə metodları molekulun strukturu ilə farmakoloji təsiri arasındakı əlaqələri müəyyən etməyə imkan verir. Bu, dərman kəşfini əhəmiyyətli dərəcədə sürətləndirir və son mərhələli tədqiqatlarda uğursuzluq ehtimalını azaldır.

Süni intellektlə idarə olunan molekulyar dokinq və silika simulyasiyaları vasitəsilə tədqiqatçılar dərmanların hədəf zülallara bağlanmasını modelləşdirə, komplekslərin sabitliyini qiymətləndirə və maddələrin biomənimsənilməsini proqnozlaşdıra bilirlər. Bu texnologiyalar dərmanların effektivliyi və toksikliyinin proqnozlaşdırılmasında dəqiqliyi artırır. Süni intellekt aktiv maddələrin hədəflənmiş və uzunmüddətli buraxılmasını təmin edən nanostrukturlu, liposomal və polimer daşıyıcıların dizaynında da geniş tətbiq olunur. Optimallaşdırma alqoritmlərinin istifadəsi buraxılış kinetikasını, toxuma qarşılıqlı təsirlərini və matris bioparçalanma sürətlərini proqnozlaşdırmağa kömək edir. Bu, minimal yan təsirləri olan uzadılmış buraxılışlı dozaj formalarının yaradılması üçün xüsusilə vacibdir.

Süni intellektin klinik praktikaya tətbiqi fərdiləşdirilmiş farmakoterapiyaya yol açır. Süni intellekt modelləri xəstənin genetik, biokimyəvi və fizioloji xüsusiyyətlərini nəzərə alaraq optimal dozaları və dərman kombinasiyalarını seçə bilər. “Rəqəmsal əkizlər” və proqnozlaşdırıcı sistemlər müalicənin effektivliyinin fərdi monitorinqini və ağırlaşmaların qarşısının alınmasını təmin edir.

Nəticə. Süni intellekt müasir əczaçılıq elmində əsas vasitəyə çevrilərək ənənəvi empirik yanaşmalardan rasional və proqnozlaşdırıla bilən dərman dizaynına keçidi təmin edir. Onun tətbiqi tədqiqatın müddətini və xərcini əhəmiyyətli dərəcədə azaldır, terapevtik hədəf seçiminin dəqiqliyini və çatdırılma sistemlərinin effektivliyini artırır. Gələcəkdə süni intellektin nanotexnologiya və fərdiləşdirilmiş tibb ilə inteqrasiyası

innovativ dərmanların yaradılması və xəstələrin həyat keyfiyyətinin yüksəldilməsi üçün yeni imkanlar açacaq.

Summary

APPLICATION OF ARTIFICIAL İNTELLIGENCE IN DRUG DESIGN AND DEVELOPMENT

Kubra Aliyeva, Sevinj Musayeva, Farah Madatli, Saadat Yagubova
AMU, Department of Pharmaceutical Technology and A dministration

Keywords: artificial intelligence, machine learning, drug design, drug delivery systems

Artificial intelligence has become a key instrument in modern pharmaceutical science, facilitating the transition from traditional empirical approaches to rational and predictive drug design. Its implementation considerably reduces research time and cost, enhances the precision of therapeutic target identification, and improves the efficiency of drug delivery systems. In the future, the integration of artificial intelligence with nanotechnology and personalized medicine will open new avenues for the development of innovative drugs and the improvement of patients’ quality of life.

ƏCZAÇILIQ İŞİNİN TƏŞKİLİ / PHARMACY MANAGEMENT

ƏCZAÇILIQ SAHƏSİNİN İNKİŞAFINDA SÜNİ İNTELLEKTİN ROLU

Bəndəliyeva Aidə Allahverdi
ATU, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası,
Bakı, Azərbaycan
bandaliyeva@mail.ru

Açar sözlər: Əczaçılıq, Süni intellekt (Sİ), robot, dərman, alqoritm, müalicə

Süni intellekt (Sİ) müasir tibb dünyasında sürətlə inkişaf edən və tibbi xidmətin keyfiyyətini artıran bir alətə çevrilib. Sİ-in tibbdə tətbiqi müxtəlif sahələri əhatə edir: diaqnostika, müalicə planlaşdırılması, xəstəliklərin proqnozlaşdırılması, əməliyyatlarda robotik dəstək və s. [1].

Süni intellekt (Sİ) və robotlar, əczaçılıq sahəsində də əhəmiyyətli bir inqilab yaratmağa başlayıb. Onlar, dərman istehsalından tutmuş, dərmanların doğru şəkildə paylanmasına, xəstələrə müalicə planlarının təyin edilməsinə qədər bir çox sahədə tətbiq olunur.

İşin məqsədi. Süni intellektin əczaçılıqda istifadə perspektivlərini araşdırmaq olmuşdur.

Material və metodlar. Əczaçılıqda Sİ və robotların əsas rolu, müvafiq məlumat materialları, müasr biotibbitexnologiyalar əsasında yaradılmış yeni cihazların fəaliyyət istiqamətlərini təhlil etməklə müəyyən edilmişdir. Bu təhlilləri analiz etməklə, əczaçılıqda SI və robotların əsas rolunu bir neçə istiqamətdə izah etmək olar.

Süni intellekt molekulyar səviyyədə dərmanların təsirini modelləşdirə bilir və bu, yeni dərmanların inkişafını sürətləndirir. Misal üçün, Sİ alqoritmləri, xüsusi xəstəliklərə (xərçəng, diabet, Alzheimer və s.) qarşı daha təsirli dərmanları tapmaq üçün istifadə olunur. Bu alqoritmlər, dərman molekullarının kimyəvi strukturunu təhlil edərək, ən yaxşı uyğunluğu təmin edirlər [2].

Süni intellekt, əczaçılıq sahəsində yeni dərmanların tapılmasında, istehsalında və formulaların hazırlanmasında böyük rol oynayır.

Ənənəvi üsullarla dərman inkişafı çox vaxt və resurs tələb edir, amma Sİ, böyük məlumat bazalarına əsaslanaraq dərmanların potensialını daha sürətli qiymətləndirir, yeni bioloji məqsədləri müəyyən edir və klinik sınaqların dizaynını asanlaşdırır.

Əczaçılıqda Süni intellektin və robotların rolunun əsas istiqamətlərindən biri də dərman təhlükəsizliyi və onların keyfiyyətinin yoxlanılmasıdır. Süni intellekt və robotlar, dərmanların keyfiyyətini və təhlükəsizliyini izləməkdə də istifadə olunur. Bu, dərman istehsalının hər mərhələsində tətbiq edilə bilər [6]. Dərman istehsalında istifadə edilən maddələrin təhlilində Süni İntellekt çox önəmlidir. Alqoritmlər, dərmanların tərkibini və istehsal proseslərini izləyərək keyfiyyətin standartlara uyğun olub-olmadığını müəyyən edir. Bu, xüsusilə dərmanların etibarlılığını və təhlükəsizliyini təmin edir [3].

Dərmanların istifadəsindən sonra baş verən mənfi - advers təsirin təhlilini avtomatlaşdırmaq üçün Sİ sistemləri tətbiq olunur. Məsələn, dərmanların yan təsirlərini tez bir zamanda aşkar edərək, təhlükəsizlik tədbirlərinin görülməsinə kömək edir.

Sİ və robot texnologiyalarının tətbiqi, fərdiləşdirilmiş dərmanların istehsalını mümkün edir. Bu, xəstələrin genetik məlumatlarına və xüsusi ehtiyaclarına uyğun dərmanların hazırlanmasına imkan verir. Yəni, xəstələrin genetik məlumatları əsasında, hansı dərmanların onların orqanizmində ən yaxşı təsir göstərəcəyini təhlil etmək üçün Sİ istifadə olunur. Məsələn, genetik analizlər əsasında, müəyyən bir xəstəyə uyğun dərman dozalarını təyin etmək mümkündür.

Hər bir insanın bədən strukturu və ehtiyacları fərqli olduğu üçün, Sİ, dərmanların təsirini optimallaşdırır və fərdi müalicə planları yaradır ki, bu da Personalizasiya,yəni fərdiləşdirmə adlanır.

Süni intellekt dərmanların İstifadəsi və paylanması funksiyasını da uğurla idarə edir. Beləki, Süni intellekt və robotlar, dərmanların doğru vaxtda, doğru dozada və doğru şəraitdə xəstələrə çatdırılmasını təmin edir [4]. Robotlar və avtomatlaşdırılmış sistemlərin əczaçılıq müəssisələrində dərmanların düzgün şəkildə paylanmasını təmin etməsi səhvləri minimuma endirir və dərmanların düzgün şəraitdə saxlanmasını təmin edir. Bu, xüsusən soyuq zəncir tələb edən dərmanların (məsələn, peyvəndlər) saxlanmasında əhəmiyyətlidir [5].

Xəstələrə dərman təyin edərkən, Sİ onların tibbi tarixçəsini, genetik məlumatlarını və digər əlamətləri nəzərə alaraq ən uyğun dərman və dozanı təklif edə bilir. Robotlar isə dərmanları düzgün şəkildə təmin edərək, hər bir xəstənin müalicə planını düzgün şəkildə izləyirlər. Dərmanların həddindən artıq və ya az verilməsinin qarşısını almaq üçün Sİ və robot sistemləri xəstələrə dərmanları doğru dozada verirlər. Bu, dərman yan təsirlərinin qarşısını alır və müalicənin effektivliyini artırır. Robotlar və SI, xəstələrin dərmanları düzgün qəbul etmələrini təmin etmək üçün də istifadə olunur. Xəstələrin dərmanlarını düzgün vaxtda qəbul etmələrini təmin etmək üçün robot sistemləri tətbiq olunur. Bu, dərman təyinatlarını və qəbul etmə cədvəllərini avtomatik izləyir, xəstəyə xatırlatmalar göndərir və qəbul edilməyən dərmanları qeyd edir. Bu da əczaçılar və həkimlərin, xəstələrin dərman qəbul etmə prosesini izləmək üçün robotlar və Sİ-dən istifadə etməklə müalicə prosesini optimallaşdırır.

Süni intellekt, əczaçılıq sənayesindəki faydalı tibb və əczaçılığa aid məlumatları dəqiq təhlil etməklə, düzgün nəticə çıxarmağa imkan verir [7].

Süni intellekt və robotlar, dərmanların bazara daxil olmasından əvvəl bazar araşdırmaları və strateji planlaşdırmada da istifadə olunur.

Nəticələr və onların müzakirəsi. Süni intellekt və robot texnologiyaları, əczaçılıq sahəsində əhəmiyyətli irəliləyişlərə səbəb olmuşdur. Onlar dərmanların daha sürətli və effektiv inkişafına, düzgün dozaların təyin edilməsinə, xəstələrə müalicə planlarının şəxsiləşdirilməsinə və ümumilikdə əczaçılıq xidmətlərinin keyfiyyətinin yüksəlməsinə kömək edir. Bu texnologiyalar, həm də dərmanların daha təhlükəsiz və düzgün şəkildə paylanmasını təmin edir, eləcə də xəstələrin daha yaxşı

müalicə almalarını mümkün edir. Gələcəkdə bu texnologiyaların daha da inkişafı ilə əczaçılıq sahəsində daha çox yeniliklər və təkmilləşdirmələr gözlənilir.

Bu nəticələrin təhlili son olaraq onu deməyə əsas verir ki,

- Yaxın 10–20 ildə əczaçıların işində Sİ və robot dəstəyi artacaq;
- Rutin işləri (dozalama, qablaşdırma, təhlil) robotlar görəcək, əczaçılar isə məsləhətçi rolunda qalacaq;
- “Hibrid model” – Əczaçı + Robot – daha çox yayılacaq;
- Əczaçılar, texnologiyadan istifadə edən “klinik mütəxəssislərə” çevriləcək.

Ədəbiyyat siyahızı

1. Topol, E. J. Deep Medicine: How Artificial Intelligence Can Make Healthcare Human Again. Basic Books. 2019

2. Chen, H., Engkvist, O., Wang, Y., Olivecrona, M., & Blaschke, T. The rise of deep learning in drug discovery*. Drug Discovery Today, 2018, 23(6), p.1241-1250.

3. Bender, A., & Cortés-Ciriano, I. Artificial intelligence in drug discovery: what is realistic, what are illusions? Part 1: Ways to make an impact, and why we are not there yet. Drug Discovery Today, 2021. 26(3), p. 511-524.

4. Patel, V., Cheung, K., & Kumar, A. Role of Artificial Intelligence in Pharmaceutical Industry: Opportunities and Challenges. Pharmaceuticals, 2020. 13(9), p. 274.

5. Gómez-Bombarelli, R., Wei, J. N., Duvenaud, D., Hernández-Lobato, J. M., Sánchez-Lengeling, B., Sheberla, D., ... & Aspuru-Guzik, A. Automatic chemical design using a data-driven continuous representation of molecules. ACS Central Science, 2018. 4(2), p. 268-276.

6. Shan, N., et al. Applications of Artificial Intelligence and Robotics in Pharmaceutical Manufacturing and Quality Control. Journal of Pharmaceutical Innovation, 2021. 16, p. 451-465.

7. Krittanawong, C. The rise of artificial intelligence and the uncertain future for physicians. European Journal of Internal Medicine, 2018. 48, p.13-14.

Summary

STUDYING THE ROLE OF ARTIFICIAL INTELLIGENCE IN THE DEVELOPMENT OF THE PHARMACY FİELD

Aida Allahverdi qızı Bandəliyeva

AMU, Department of Pharmaceutical Technology and Administration, Baku, Azerbaijan

bandaliyeva@mail.ru

***Keywords*:** Artificial intelligence and robotic technologies have led to significant advancements in the field of pharmacy. They accelerate the development of drugs and personalize treatment plans. These technologies also help ensure the safe and proper distribution of medications. In the future, their development is expected to bring new innovations in pharmacy.

ELEKTRON RESEPTLƏRİN ƏCZAÇILIQ FƏALİYYƏTİNƏ TƏSİRİ VƏ PERSPEKTİVLƏRİ

Rzayeva İ.A., M.N.Vəliyeva, S.A.Atakişizadə, S.A.Səmədov
AMU, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası, Bakı, Azərbaycan
s.atakishizade@gmail.com

Açar sözlər: elektron reseptlər, səhiyyənin rəqəmsallaşdırılması, aptek sahəsi, maliyyə şəffaflığı

Elmi araşdırmalara əsasən, elektron reseptlərin aptek fəaliyyətinə inteqrasiyası əczaçılıq xidmətlərinin səmərəliliyini artırır, səhvləri azaldır və tibbi personal ilə pasiyentlər arasında qarşılıqlı əlaqəni yaxşılaşdırır [1, 5].

Tədqiqatın məqsədi elektron reseptlərin əczaçılıq fəaliyyətinə təsirini, dərmanların əldə olunma prosesində səmərəliliyi və səhvlərin azalmasını qiymətləndirmək, həmçinin beynəlxalq təcrübələr əsasında Azərbaycan səhiyyəsində elektron reseptlərin tətbiqi perspektivlərini müəyyən etməkdir**.**

Bu tədqiqatda, Almaniya, Böyük Britaniya, Türkiyə və Azərbaycanda elektron reseptlərin tətbiqi ilə bağlı aparılmış elmi məqalələr sistematik şəkildə araşdırılmışdır. Məqalələrin seçimi üçün aşağıdakı meyarlar nəzərə alınmışdır:

- Məqalələrin son 5 il ərzində nəşr olunması
- Məqalələrin mövzuya uyğunluğu
- Məqalələrin elmi jurnallarda nəşr olunması

Seçilmiş məqalələr müvafiq ölkələrin səhiyyə sistemlərində elektron reseptlərin tətbiqi, üstünlükləri, çətinlikləri və nəticələri barədə məlumatlar təqdim edir.

Müzakirə. Tədqiqatlar göstərir ki, elektron reseptlərdən istifadə olunan dərmanların istifadə olunmamaq halları 47% azalıb. Bu, dərmanların əldə edilmə prosesinin sadələşməsi və həkimlə əczaçı arasında daha rahat kommunikasiya ilə bağlıdır [2]. Eyni zamanda elektron reseptlərin tətbiqi dərman müalicəsinin təyinində səhvlərin azalmasına, dərmanların təkrarlanmasına kömək edir [4]. Elektron reseptlər, dərman təyinatlarını və qarşılıqlı təsirləri avtomatik olaraq yoxlayaraq səhvlərin qarşısını alır [3,6]. Bu, xüsusən yaşlı və çoxsaylı xəstəlikləri olan pasiyentlər üçün vacibdir, çünki onlar çoxsaylı dərmanları eyni anda qəbul edirlər və qarşılıqlı təsirlər ciddi fəsadlara səbəb ola bilər [3,7]. Elektron reseptlər həkimlər, əczaçılar və digər tibb işçiləri arasında qarşılıqlı əlaqəni asanlaşdırır, eyni resept bazasına çıxışı təmin edir [1]. Həmçinin, pasiyentlərin dərmanları daha sürətli və etibarlı şəkildə əldə etmələrini təmin edir [5].

Beləliklə, elektron reseptlərin tətbiqi, əczaçılıq fəaliyyətində müsbət nəticələrə səbəb olmaqla, xəstələrin dərmanları daha təhlükəsiz və rahat əldə etməsini təmin edir və əczaçılıq xidmətinin səmərəliliyini artırır [2,4]. Azərbaycan Respublikasında 2024-cü il mayın 1-dən etibarən “Elektron resept” platforması istifadəyə verilmişdir. Bu sistemin əsas məqsədi səhiyyə sahəsində rəqəmsallaşmanı təmin etməkdir [10]. Ənənəvi kağız reseptlərdən fərqli olaraq, elektron reseptlər itirilmə və ya zədələnmə riskini aradan qaldırır [1]. Həmçinin, yalnız Dövlət Tarif Şurası tərəfindən təsdiq edilmiş və dövlət qeydiyyatından keçmiş dərman vasitələrinin təyini və apteklərdə

satışı mümkündür. Bu, keyfiyyətsiz və müddəti keçmiş dərmanların satışının qarşısını alır və istehlakçıların hüquqlarını qoruyur [5]. Lakin, elektron reseptlərin geniş tətbiqi hələ də həyata keçirilməyib. Həkimlər hələ də kağız üzərində reseptlər yazmağa davam edirlər. Bu vəziyyətin əsas səbəbi texniki məsələlərdir. Bir çox tibb müəssisələrində internet və lazımi avadanlıqların olmaması, elektron reseptlərin tətbiqini çətinləşdirir [4,9]. Apteklər elektron reseptlərlə dərman verməyə hazırdır, lakin həkimlər və tibb müəssisələri bu sistemə keçməkdə çətinliklərlə üzləşirlər [5]. Beləliklə, Azərbaycan Respublikasında elektron reseptlərin tətbiqi ilə bağlı rəsmi planlar olsa da, texniki və təşkilati çətinliklər səbəbindən bu sistemin geniş istifadəsi hələ də həyata keçirilməyib. Bu texnologiya, müasir əczaçılıq xidmətinin inkişafında vacib bir addım olaraq çıxış edir [1,8].

2019-cu ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) rəqəmsal müdaxilələrlə bağlı ilk tövsiyələrini dərc edərək, məlumatların məxfiliyinin təmin olunması və tibb işçilərinin yeni texnologiyalardan istifadəyə hazırlanmasının vacibliyini vurğulamışdır [12].

Beynəlxalq təcrübənin təhlili göstərir ki, müxtəlif ölkələr elektron reseptlərin tətbiqinə fərqli mərhələlərdə başlamışlar. Almaniyada elektron reseptlərin tətbiqi 2021-ci ildə pilot layihə olaraq başlamış və 2024-cü ilin yanvarından etibarən milli səviyyədə tətbiq olunmağa başlanmışdır [13]. Böyük Britaniyada pilot layihə 2009-cu ildə başlamış, 2019-cu ilin noyabrında isə tam tətbiq olunmuşdur [14]. Türkiyədə elektron reseptlərin tətbiqi 2005-ci ildə başlanmış, 2012-ci ilin noyabrında isə dövlət səviyyəsində tətbiq olunmağa başlanmışdır [15]. Azərbaycanda elektron reseptlərin tətbiqi 2023-cü ildə pilot layihə olaraq başlamış və 2024-cü ilin yanvarından etibarən geniş tətbiq olunmağa başlanmışdır [16]. Aşağıda Almaniya, Böyük Britaniya, Türkiyə və Azərbaycanda elektron reseptlərin tətbiqi ilə bağlı aparılmış elmi tədqiqatların cədvəli təqdim olunur.

Cədvəl. Müxtəlif ölkələrdə elektron reseptlərin tətbiqi təcrübəsi

Ölkə	**Elektron reseptlərin tətbiqinə başlama tarixi**	**Pilot layihə ili**
Almaniya	Yanvar 2024	2021
Böyük Britaniya	Noyabr 2019	Noyabr 2009
Türkiyə	Noyabr 2012	2005
Azərbaycan	Yanvar 2024	2023

Hər ölkə elektron reseptləri öz unikal sistemində tətbiq edir və bunu həyata keçirərkən qanunvericilik xüsusiyyətlərini, səhiyyə infrastrukturunu və xəstələrin ehtiyaclarını nəzərə alır. Məsələn Almaniyada “E-Rezept für Deutschland” sistemi xəstələrə elektron tibbi kart (eGK) vasitəsilə dərmanları apteklərdə almağa imkan verir; xəstələr reseptə rəsmi mobil tətbiq və ya veb-platforma vasitəsilə daxil ola bilirlər (das-e-rezept-fuer-deutschland.de). Böyük Britaniyada “NHS Electronic

Prescription Service (EPS)” həkimlərə reseptləri seçilmiş apteklərə birbaşa göndərmək imkanı verir, xəstələr isə mobil tətbiq və veb-platforma vasitəsilə reseptləri əldə edə bilirlər; kağız resept istifadə etmək imkanı da mövcuddur (digital.nhs.uk). Türkiyədə “e-Reçete (MEDULA)” sistemi milli sağlamlıq sistemi MEDULA ilə inteqrasiya olunub; həkimlər reseptləri sistemə göndərir və xəstələr apteklərdə elektron resepti təqdim etməklə dərman ala bilirlər (pmc.ncbi.nlm.nih.gov). Azərbaycanda isə “Reseptim” platforması həkimlərə elektron resept yazmaq imkanı yaradır; xəstələr resepti QR-kod və ya resept nömrəsi vasitəsilə apteklərdə əldə edə bilirlər (reseptim.az).

Nəticə: Elektron reseptlərin tətbiqi səhiyyə sistemlərinin səmərəliliyini və təhlükəsizliyini artırır. Almaniya, Böyük Britaniya, Türkiyə və Azərbaycan bu sahədə müxtəlif təcrübələrə malikdirlər və digər ölkələr üçün nümunə ola bilərlər.

Ədəbiyyat siyahısı

1. Smith J., Clark M. The Integration of Electronic Prescriptions in Pharmacy Networks: Improving Efficiency and Reducing Errors. Journal of Pharmaceutical Sciences,(2020), 109(2), 202–210.
2. Jones A., Taylor P. Impact of Electronic Prescriptions on Medication Adherence and Patient Outcomes. International Journal of Medical Informatics, (2019) , 127, 42–50.
3. Brown R., Patel S. Automated Drug Interaction Checking in Electronic Prescriptions: Enhancing Safety in Medication Management. Drug Safety, (2018) ,41(5), 501–507.
4. Williams E., Harris L. Reducing Prescription Errors with Electronic Systems: The Role of Pharmacists. Journal of Pharmacy Practice, (2021) ,34(6), 678–685.
5. Davis M., Evans K. The Effectiveness of Electronic Prescription Systems in Reducing Medication Errors and Improving Patient Safety in Pharmacies. Journal of Clinical Pharmacy, (2022) ,45(4), 312–319.
6. Miller H., Robinson D. Role of Electronic Prescriptions in Reducing Drug Interactions and Improving Pharmaceutical Care. Journal of Medical Systems, (2020) ,44(1), 100–107.
7. Khan F., Kumar V. The Challenges of Implementing Electronic Prescription Systems in Healthcare Settings: A Global Perspective. Health Information Management Journal, (2019) ,48(3), 194–201.
8. Johnson L., O’Neil P. The Role of Digitalization in Healthcare: Transforming Pharmaceutical Practices through Electronic Prescriptions. Journal of Healthcare Technology, (2021) ,39(2), 120–128.
9. Roberts G., Lee J. Barriers to the Widespread Adoption of Electronic Prescriptions in Developing Countries: Case Study of the Implementation in Pakistan. Health Policy, (2019) ,123(6), 577–586.

10. Nguyen S., Wang Y. Electronic Prescription System and Its Role in Ensuring Medication Safety: A Comprehensive Review. American Journal of Health-System Pharmacy, (2020) ,77(4), 265–273.

11. World Health Organization. WHO guideline: recommendations on digital interventions for health system strengthening. Geneva: World Health Organization; 2019.

12. Graf, A. (2023). Going digital in Germany: An exploration of physicians’ viewpoints. ScienceDirect. https://www.sciencedirect.com/science/article/abs/pii/S1386505623000813

13. Harvey, J. (2014). Lessons from early adopter community pharmacists using the Electronic Prescription Service Release Two (EPS2). PubMed Central. https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC3984715/

14. Bulut, S., et al. (2018). Evaluation of Transition to Electronic Prescriptions in Turkey. PubMed Central. https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC6358642/

15. Graefen, B. (2025). Digital Health Strategies for Azerbaijan. ResearchGate. https://www.researchgate.net/publication/394709299

Summary

IMPACT AND PROSPECTS OF ELECTRONIC PRESCRIPTIONS ON PHARMACY ACTIVITIES

Rzayeva İ.A, Valiyeva M.N, Atakishizada S.A., Samedov S.A.

AMU, Department of Pharmaceutical Technology and Pharmacy Management

s.atakishizade@gmail.com

Keywords: electronic prescriptions, digitalization of healthcare, pharmacy sector, financial transparency

The scientific article examines the ımpact and prospects of electronıc prescrıptıons on pharmacy actıvıtıes. According to scientific research, the integration of electronic prescriptions into pharmacy operations increases the efficiency of pharmaceutical services, reduces errors, and improves interaction between medical personnel and patients.

«ZEYTUN PHARMACEUTİCALS» ƏCZAÇISININ ETİKA KODEKSİ

Rüstəmbəyov Rüstəm, Şirəliyev Bəhruz

«Zeytun pharmaceuticals» əczaçılıq şirkəti

Hər bir müəssisənin nüfuzu əmək fəaliyyətində etik, əxlaqi dəyərlər və onların dəqiqliklə yerinə yetirilməsi ilə müəyyən edilir. «Zeytun pharmaceuticals» əczaçısının hər gün rəhbər tutmaq istədiyimiz dəyərlər, standartlar və qaydalar sistemini müəyyən «etika kodeksi» hazırlanmışdır. Bu, həmçinin dərman vasitələri

pasiyentlərin sağlamlığına və həyat keyfiyyətinə müsbət təsir göstərən bir əczaçılıq şirkəti kimi məsuliyyətimizin təsdiqidir. Etika kodeksinin davranış intizamına ciddi şəkildə riayət edilməsi bizim etibar edə biləcəyimiz, qanuna, qüvvədə olan prosedurlara və ən yüksək davranış standartlarına riayət edilməsinə əsaslanan bir şirkət olduğumuzu təsdiq edir.

Etika əxlaqi motivlər əsasında insanların davranışını öyrənən, «düzgün yaşamaq və işləmək üçün nə etmək lazımdır?» sualına cavab verən fəlsəfi elmdir. Onun əsas tədqiqat predmeti əxlaq və mənəviyyatdır.

Peşə fəaliyyətinə münasibətdə, etika mütəxəssisin əmək kollektivində davranışını tənzimləyən norma və qaydalar məcmusudur. Peşə etikası əməkdaşların mənəvi və sosial komponentinin formalaşmasına yönəlib, əmək fəaliyyətində etika normalarına dair tələbləri konkretləşdirir və əsas kateqoriyaları səriştə, peşə ixtisaslaşması, işgüzar nüfuz, bacarıq, ustalıq və s. anlayışlardır. Əxlaq normalarının həyata keçirilməsi kollektivdə mənəviyyat problemlərinin həll edilməsi üçün əsas əhəmiyyətə malikdir.

Öz inkişafının hazırki mərhələsində «Zeytun Pharmaceuticals» şirkəti çoxillik təcrübə ilə formalaşdırılmış bütün peşə davranışı qaydalarını və etika normalarını bir sənəddə toplayıb, habelə, şirkətin əczaçı həmkarları, pasiyentlər və ümumilikdə ictimaiyyət qarşısında rolunu və məsuliyyətini müəyyən edən prinsipləri və dəyərləri elan etmək qərarına gəlmişdir.

Ümumi olaraq dünya təcrübəsində qəbul edilmiş etik standartlara əsaslanan norma və qaydalara uyğun olaraq davranan «Zeytun Pharmaceuticals» öz şirkətinin əməkdaşları üçün «əczaçının etika kodeksi»ni tərtib etmişdir. Bu kodeksdə mövcud olan etik davranış bəyannaməsi bizim motivasiyamızı təşkil edir və tərəfimizdən qəbul edilən qərar və davranışların istiqamətinə, xarakterinə təsir göstərir. Pasiyentlər və tərəfdaşlarımız üçün bəyannamə tərəfimizdən həyata keçirilən fəaliyyətin dürüstlük prinsiplərinə və cəmiyyətin qəbul etdiyi qaydalara əsaslandığına dair zəmanət təşkil edir. Etika kodeksi, etik normalara və ölkədə qüvvədə olan qanunvericiliyə uyğun olaraq işin görülməsi üçün lazım olan dəstəyi təqdim edərək hərəkətlərimizin sərhədlərini və standartlarını müəyyən edir. «Zeytun Pharmaceuticals» şirkətinin hər bir əməkdaşı həm təşkilatdan kənarda, həm də təşkilat daxilində kodeksin müddəalarına uyğun olaraq hərəkət etməyə borcludur. Biz, həmçinin, bizimlə əməkdaşlıq edən şəxslərin və şirkətlərin də tərəfimizdən qəbul edilən etik davranış normalarına riayət etməsini, habelə, öz fəaliyyətini dürüst şəkildə və Respublikada qüvvədə olan qanunvericiliyə uyğun olaraq həyata keçirməsini arzulayırıq. Etika kodeksi vəzifəsindən, stajından, iş yerindən və iş həcmindən asılı olmayaraq hər bir əməkdaşın «Zeytun Pharmaceuticals» şirkətinin standartlarına və normalarına riayət etmək öhdəliyini bildirir.

Bu kodeks şirkətin əczaçısının onun peşə fəaliyyətində özünüintizam vasitəsi və mənəvi rəhbər hesab olunur.

Bugün, hər zaman olduğu kimi, «Zeytun Pharmaceuticals» şirkətinin əsas paradiqması maksimal açıqlıq, dürüstlük və fəaliyyətimizin şəffaflığıdır. Komandanın səmərəli işi, mürəkkəb və çətin məsələlərin həlli istiqamətində atılan addımların

kümülatif effektini yaratmağa imkan verir və nəticədə hər bir prosesin effektivliyini artırır. İşçilərin bilikləri, təcrübələri və səyləri bir-birini tamamlayır və qarşılıqlı fəaliyyət zamanı köməklik edir, nəticədə fəaliyyətlərimizin sinerjisinə gətirib çıxarır. Lakin inteqrasiya olunmuş və ümumi təsir yalnız etik kodeksin yuxarıda göstərilən prinsiplərinə ciddi riayət edildiyi təqdirdə mümkündür.

Summary

CODE OF ETHICS OF THE PHARMACIST OF "ZEYTUN PHARMACEUTICALS"

Rustambeyov Rustam, Shiraliyev Bahruz

Pharmaceutical Company "Zeytun pharmaceuticals"

***Keywords*:** The reputation of each enterprise is determined by ethical, moral values in labor activity and their accurate implementation. A certain "code of ethics" has been developed, which is a system of values, standards and rules that we, the pharmacist of "Zeytun pharmaceuticals", want to be guided by every day.

The code of ethics of the pharmacist of the "Zeytun Pharmaceuticals" company is a set of ethical norms and moral and spiritual principles related to the behavior of the pharmacist when providing qualified, accessible and timely pharmaceutical assistance. It is necessary to always remember that the sacred duty and main goal of the pharmacist in his work activity is the obligation to protect human life. In his activities, the pharmacist should be guided only by the requirements of professional duty and ethics, the interests of his patients, as well as the needs of protecting the life and health of each person and the entire population of the Republic of Azerbaijan.

GƏNC ƏCZAÇI KADRLARIN HAZIRLANMASINDA ƏCZAÇILIQ BİOETİKASININ ROLU

Bəndəliyeva Aidə Allahverdi, Hüseynova Aynurə Bahadır

Azərbaycan Tibb Universiteti, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası, Bakı, Azərbaycan

bandaliyeva@mail.ru

***Açar sözlər*:** Əczaçı, etika, bioetika, səhiyyə, kadr

Azərbaycanda əczaçılıq sektorunun daha da inkişaf etdirilməsi üçün bioetik prinsiplərə əsaslanan, uğurlu nəticələrin qazanılmasına böyük zəmin yaranmışdır ki, bunların yerinə yetirilrməsi hər kəs üçün prioritet vəzifə olmalıdır. Bu vəzifənin icra edilməsində əsas güc və məsuliyyət, təbii ki, yetişən yeni nəslin, gələcəyin əczaçılarının üzərinə düşür. Bunun öhdəsindən layiqincə gəlmək üçün əczaçılıq bioetikasının ətraflı və daha dərin öyrənilməsinə böyük ehtiyac var. Yeni gənc nəsil daha dərin, əsaslandırılmış sosioloji və iqtisadi həllər gəbul etməyə qadir olan vətəndaşlar olduqları üçün, onların geniş bioetik bılıklərə malik olması əczaçılıq fəaliyyətinin inkişafına müsbət təsir edəcək. Əczaçılıq bioetikası elmi-məsləhət

xidmətlərinin göstərilməsi zamanı əhalinin və ayrı-ayrı şəxslərin sağlamlığının, həyat keyfiyyətinin, fiziki və psixi toxunulmazlığının, insan ləyaqətinin qorunmasını öz prinsipləri ilə tənzimləyir. Əczaçılıq bioetikası əczaçılar, həkimlər və xəstələr arasındakı münasibətlərin aspektlərini ətraflı işıqlandırır. Dərmanların istehsalı, təşviqi, saxtalaşdırma problemləri və onların sertifikasiyası sistemi ilə bağlı bioetik aspektləri təhlil edir. Bu səbəbdən, gənc əczaçı kadrlarda əczaçılıq bioetikası sahəsində biliklərin formalaşdırılması, həmçinin gündəlik praktiki fəaliyyətlərində etik norma, qayda və prinsiplərə ciddi şəkildə əməl etməyin zəruriliyinə dərindən inam tərbiyə etməsi, müasir səhiyyə elminin inkişafı və əhaliyə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi üçün geniş imkanlar yaradacaq.

Summary

THE ROLE OF PHARMACEUTICAL BIOETHICS IN THE TRAINING OF YOUNG PHARMACISTS

Bandaliyeva Aida Allahverdi, Huseynova Aynura Bahadir
AMU, Department of Pharmaceutical Technology and Administration,
Baku, Azerbaijan
bagirova-aynura77@yandex.com

***Keywords*:** The study of pharmaceutical bioethics enables every young professional pharmacist to learn and consciously embrace moral and ethical norms and principles. It allows them to apply their knowledge and skills, as well as the achievements of modern biology, medicine, pharmacy, and healthcare in general, exclusively for the welfare of society and the individual, and for the protection of physical and psychological health.

ƏCZAÇILIQ DİSTRİBUSİYASINDA LOGİSTİKA RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İDARƏETMƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Bəhruz Şirəliyev
Zeytun Pharmaceuticals, Azərbaycan
bahruz.shiraliyev@zeytunpharma.az

***Açar sözlər**:* Əczaçılıq distribusiyası, logistika riskləri, GDP, Zeytun Pharmaceuticals, risk idarəetməsi

Əczaçılıq sənayesində dərman vasitələrinin təhlükəsiz, fasiləsiz və keyfiyyətli çatdırılması sağlamlıq sisteminin mühüm dayaqlarından biridir. Logistika zəncirində baş verən fasilələr, xüsusilə temperatur rejiminin pozulması, gecikmələr və nəqliyyat problemləri dərmanların effektivliyinə və xəstə təhlükəsizliyinə mənfi təsir göstərir [4]. Azərbaycanda əczaçılıq distribusiyası sektorunda logistika risklərinin idarə olunması son illərdə aktual istiqamətlərdən birinə çevrilmişdir. Lakin mövcud

təcrübədə risklərin sistemli şəkildə identifikasiyası və proaktiv idarəetmə mexanizmlərinin formalaşdırılması hələ tam reallaşmayıb [5]. Bu tədqiqat Zeytun Pharmaceuticals nümunəsində bu boşluğu elmi və empirik əsaslarla qiymətləndirir.


Məqsəd. Tədqiqatın məqsədi əczaçılıq distribusiyasında logistika risklərinin sistemli şəkildə təhlili, təsnifləşdirilməsi və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsidir.

Material və metodlar. Metodoloji əsas kimi aşağıdakı yanaşmalar tətbiq edilmişdir:

- ISO 31000:2018 Risk Management Framework – risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və cavab tədbirlərinin planlaşdırılması [2];
- GDP (Good Distribution Practice) prinsipləri – dərmanların daşınması, saxlanması və izlənməsi proseslərində keyfiyyət təminatı [4];
- FMEA (Failure Mode and Effects Analysis) – risklərin təsir və ehtimal dərəcələrinin hesablanması [3];
- Delphi ekspert metodu – təcrübəli logistika və keyfiyyət menecerlərinin rəyinə əsaslanaraq risklərin prioritetləşdirilməsi [1].

Empirik məlumatlar Zeytun Pharmaceuticals şirkətinin 2022–2024-cü illəri əhatə edən daxili logistika göstəriciləri (temperatur izləmə, nəqliyyat intervalları, məhsul geri çağırma hadisələri və s.) əsasında təhlil edilmişdir [6].

Nəticə və müzakirələr. Tədqiqat nəticələri göstərmişdir ki, Zeytun Pharmaceuticals şirkətinin distribusiya sistemində aşkarlanan logistika riskləri bir neçə əsas kateqoriyaya bölünür. Risklərin faizlə bölgüsü Şəkil 1-də təqdim edilmişdir.




Şəkil 1. Əczaçılıq distribusiyasında logistika risklərinin faizlə bölgüsü
Mənbə : Zeytun Pharmaceuticals MMC-nin risk monitoring datası

Məlumatlardan görünür ki, temperatur sapmaları (27%), nəqliyyat gecikmələri (21%) və saxlama şəraiti riskləri (18%) ümumi risk portfelinin əsas hissəsini təşkil edir. Bu göstəricilər, xüsusilə temperatur rejiminin qorunması və nəqliyyat proseslərinin koordinasiyası sahəsində təkmilləşməyə ehtiyac olduğunu göstərir.

Bu bölgü ISO 31000 çərçivəsində risklərin identifikasiyası və təsnifləşdirilməsinə uyğun şəkildə aparılmış, hər bir risk kateqoriyası üçün FMEA (Failure Mode and Effects Analysis) metodu tətbiq olunmuşdur. Analiz nəticəsində risklərin ilkin qiymətləndirmə mərhələsində “Risk Prioritet Nömrəsi” (RPN) orta

hesabla 172 olmuş, tədbirlərdən sonra bu göstərici 95-ə qədər azalmışdır. Bu, risk səviyyəsində təxminən 45% azalma deməkdir.

Şəkil 2-də təqdim olunan sütun diaqramı göstərir ki, temperatur sapmaları üzrə risk 210-dan 120-yə, nəqliyyat gecikmələri üzrə 185-dən 100-ə, saxlama şəraiti dəyişkənliyi üzrə isə 165-dən 90-a qədər azalmışdır.



Şəkil 2. FMEA tətbiqindən əvvəl və sonra risk səviyyələrinin müqayisəsi
Mənbə : Zeytun Pharmaceuticals MMC-nin risk monitoring datası

Bu nəticələr FMEA-nın effektivliyini və risk əsaslı yanaşmanın distribusiya əməliyyatlarına inteqrasiyasının faydasını sübut edir.

Əldə edilən nəticələr həmçinin rəqəmsal nəzarət texnologiyalarının (IoT sensorları, GPS izləmə) tətbiqinin əhəmiyyətini önə çıxarır. 2023-cü ilin ikinci rübündən sonra şirkət tərəfindən bu texnologiyaların inteqrasiyası məhsul itkisini 12% azaldıb, logistika proseslərində qərar qəbulunun çevikliyini isə əhəmiyyətli dərəcədə yüksəldib. Bu, ISO 31000:2018 standartının “davamlı təkmilləşmə (continuous improvement)” prinsipinin praktik təzahürü kimi qiymətləndirilə bilər [2].

Müzakirələrin yekunu göstərir ki, Azərbaycanda əczaçılıq distribusiyası sahəsində risklərin effektiv idarə olunması üçün Zeytun Pharmaceuticals modeli — rəqəmsallaşdırılmış, FMEA əsaslı, GDP uyğunlaşdırılmış sistem — digər distribusiya şirkətləri üçün nümunəvi təcrübə ola bilər.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda əczaçılıq distribusiyası sahəsində logistika risklərinin idarə olunması üçün kompleks yanaşma formalaşdırılmalıdır.

Zeytun Pharmaceuticals təcrübəsi göstərir ki, logistika risklərinin elmi əsaslarla idarə edilməsi həm məhsul təhlükəsizliyini, həm də əməliyyat dayanıqlığını əhəmiyyətli dərəcədə artırır.

Əsas təkliflər:

9.Cai C, Liu C, Zhao L, Liu H, Li W, Guan H, Zhao L, Xiao J.Effects of Taxifolin on Osteoclastogenesis in vitro and in vivo. Front Pharmacol. 2018 Nov 12;9:1286. doi: 10.3389/fphar.2018.01286. eCollection 2018.

10.Yildiz G, Yildiz D, Yapca OE, Suleyman B, Arslan YK, Kurt N, Suleyman H. Effect of diazepam, sertraline and melatonin on the stress-induced reproductive disorders and intrauterine growth restriction in female rats. J Matern Fetal Neonatal Med. 2019 Dec 25:1-7. doi: 10.1080/14767058.2019.1706469)

11.Gulsah Aynaoglu Yildiz1 , Omer Erkan Yapca2 , Kemal Dinc3 , Cebrail Gursul4 , Betul Gundogdu 5 , Mehmet Aktas6 , Zeynep Suleyman7 , Seval Bulut7

and Halis Suleyman. Stress-associated ovarian damage, infertility, and delay in achieving pregnancy and treatment options. Invest Clin 64(4): 513 - 523, 2023 https://doi.org/10.54817/IC.v64n4a08

12.Wang YH, Wang WY, Chang CC, Liou KT, Sung YJ, Liao JF, Chen CF, Chang S, Hou YC, Chou YC, Shen YC .Taxifolin ameliorates cerebral ischemia-reperfusion injury in rats through its anti-oxidative effect and modulation of NF-kappa B activation. J Biomed Sci. 2006 Jan;13(1):127-41. Epub 2005 Nov 9.

13.Akbaş, N., Suleyman, B., Mammadov, R., Bulut, S., & Süleyman, H. (2022). Effect of taxifolin on cyclophosphamide-induced oxidative and inflammatory bladder injury in rats. Experimental Animals, 71(4), 460-467.

14.Ince, S., Ozer, M., Kadioglu, B. G., Kuzucu, M., Ozkaraca, M., Gezer, A., ... & Cetin, N. (2021). The effect of taxifolin on oxidative ovarian damage and reproductive dysfunctions induced by antipsychotic drugs in female rats. Journal of Obstetrics and Gynaecology Research, 47(6), 2140-2148.

15.Kiremitli, S., Kiremitli, T., Nayki, U., Yilmaz, N., Turkler, C., Dinc, K., ... & Cetin, N. (2021). Taxifolin attenuates ischemia-reperfusion induced oxidative ovarian damage in rats. Asian Pacific Journal of Reproduction, 10(4), 168-175.

16.Chukwuebuka NB, Emeka OA,Irukefa OS, Iju WJ, Godsday OU, Temitope OG, Nneamaka EC, Peter AC.Stress- induced morphological changes of ovarian histology in female Wistar rats.Biomed Pharmacol J.2020;13 (4).

17.Delibasi, I. B., Gumusburun, N., Bulut, S., Mammadov, R., Yilmaz, B. K., Suleyman, B., ... & Altuner, D. (2025). Hormonal mechanism and pathogenetic therapy of citalopram-induced infertility in female rats. Reproductive Toxicology, 108859.

Summary

EFFECT OF TAXIFOLIN ON THE HISTOMORPHOLOGICAL STRUCTURE OF THE OVARIES OF RATS SUBJECT TO EXPERIMENTAL STRESS

Babayeva M.Y. [1], Huseynova G.A. [2], Kazimova A.U. [2],Isayev O.R.[3]

[1]Azerbaijan Medical University, Department of Internal Medicine 2

[2]Department of Pharmacology, Baku, Azerbaijan

[3]Scientific Research Center of the Azerbaijan Medical University

***Keywords*:** The aim of the study was to conduct a histopathological examination of the effects of taxifolin on ovarian damage that may occur in animals subjected to experimental psychological stress. A total of 36 female albino Wistar rats weighing between 260 and 280 grams were used in the study. The experimental animals were divided into three groups: healthy (HG), stress control (STC), and stress + taxifolin (STAX).The well-known method of forced immobilization (MI) is currently widely used to create psychological stress in animals. At the end of this period, six (n=6) rats from each group were sacrificed using high-dose anesthesia and their ovaries were removed, and the ovarian tissue was subjected to histopathological examination. This study assessed the negative effects of psychological stress on

reproductive functions in rats and examined the therapeutic role of taxifolin in relation to these negative effects.

SÜNİ İNTELLEKTİN KÖMƏYİ İLƏ FARMAKONƏZARƏT SİSTEMLƏRİNİN TƏŞKİLİNDƏ MÜASİR YANAŞMALAR

İsmayıl Qafarov, Rəmzi Əliyev, Şəbnəm Hacıyeva
ATU, Tibbi və bioloji fizika, Bakı, Azərbaycan
dr.gafarov@hotmail.com

Açar sözlər: Farmakonəzarət, dərman təhlükəsizliyi, əks təsirlərin aşkarlanması, Sİ texnologiyaları

Farmakonəzarətin əsas məqsədi dərman vasitələrinin təhlükəsizliyinə dair “erkən xəbərdarlıq sistemi” rolunu oynamaq, yəni nadir və ciddi əlavə təsirləri mümkün qədər tez müəyyən edərək uyğun tədbirlər görməkdir [8]. Ənənəvi farmakonəzarət mexanizmləri bir neçə başlıca istiqaməti əhatə edir.

Həkimlər, əczaçılar və xəstələr rastlaşdıqları əlavə təsir hadisələrini könüllü olaraq ölkənin farmakonəzarət orqanına bildirirlər. Məsələn, ABŞ-da FDA-ın (Food and Drug Administration) nəzdində “MedWatch” sistemi vasitəsilə, Avropa İttifaqında EudraVigilance sistemi ilə, Azərbaycanda isə Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzində qurulmuş milli farmakonəzarət portalı vasitəsilə belə bildirişlər toplanır [6]. Toplanmış bütün məlumatlar standartlaşdırılmış formada (WHO-UMC (Uppsala Monitoring Centre) və ya ICH (International Council for Harmonisation) E2B formatında) qeyd olunur. ÜST (Ümumdünya Səhiyyə Təşkilatı)-ün Uppsala Müşahidə Mərkəzinin VigiLyze aləti qlobal VigiBase məlumatları üzərində bu cür analiz aparmağa imkan verir və nəticədə potensial təhlükə siqnalları aşkara çıxarılır [7]. Əldə edilən “xəbərdaredici” siqnallar daha sonra farmakoloq və həkimlərdən ibarət komitələr tərəfindən klinik əhəmiyyətlilik baxımından təhlil edilir.

Tədqiqatın məqsədi süni intellekt texnologiyalarının tətbiqi ilə farmakonəzarət sistemlərinin effektivliyinin artırılması üçün müasir yanaşmaların öyrənilməsi və qiymətləndirilməsi**,** eləcə də dərman vasitələrinin keyfiyyətinə, təhlükəsizliyinə və istifadəsinin optimallaşdırılmasına nəzarət proseslərinin təkmilləşdirilməsi üçün praktik tövsiyələrin hazırlanmasıdır.

Farmakonəzarət yalnız siqnal aşkarı ilə bitmir, eyni zamanda aşkarlanmış risklərin minimuma endirilməsi üçün tədbirlərin (xəbərdarlıq məktubları, preparat məlumatında dəyişiklik, dərmanın geri çağırılması və s.) görülməsini də əhatə edir. Bu mərhələdə Risk İdarəetmə Planları hazırlanır və həyata keçirilir, Dövri Təhlükəsizlik Yeniləmə Hesabatları tərtib olunur. Bunlar artıq farmakonəzarətin tənzimləyici funksiya ilə inteqrasiyasını təşkil edir.

Ənənəvi farmakonəzarət metodları uzun illərdir ki, dərman təhlükəsizliyinin qorunmasında mühüm rol oynasa da, müəyyən çatışmazlıqlar (məlumatların gecikməsi, aşağı siqnal-səs nisbəti və s.) onların səmərəliliyini məhdudlaşdırır.

Məlumatların həcminin getdikcə artdığı müasir dövrdə və yeni məlumat mənbələrinin ortaya çıxdığı bir şəraitdə bu ənənəvi yanaşmaların təkmilləşdirilməsinə ehtiyac yaranmışdır. Sİ (Süni intellekt) və əlaqəli texnologiyalar bu sahədə inqilabi yeniliklər vəd edir.

Süni intellektin farmakonəzarətə tətbiq imkanları

Süni intellekt metodları farmakonəzarətin müxtəlif mərhələlərində geniş tətbiq potensialına malikdir. Xüsusən, böyük həcmli və çoxçeşidli informasiyaların sürətlə emalı və analizində, yeni siqnalların daha erkən aşkarlanmasında, insan resurslarına qənaət edərək davamlı proseslərin avtomatlaşdırılmasında Sİ-nin rolu artmaqdadır.

Aşağıda süni intellektin farmakonəzarət sahəsində əsas tətbiq istiqamətləri araşdırılmışdır:

İnformasiyaların avtomatik emalı və inteqrasiyası: Süni intellekt, ənənəvi üsullarla işlənməsi çox vaxt aparan böyük həcmli informasiyaları sürətlə emal etməyə imkan verir. Xüsusilə, elektron səhiyyə məlumatları (xəstə elektron xəstəlik vərəqələri, xəstəxana məlumat bazaları) və sığorta iddiaları kimi strukturlaşdırılmış məlumatları farmakonəzarət üçün çox dəyərlidir. Ənənəvi olaraq bu cür məlumatların təhlili zaman və resurs tələb etsə də, müasir maşın öyrənməsi alqoritmləri həmin verilənlərdə dərmanların əlavə təsirlərinə dair gizli əlaqələri aşkar edə bilir [8]. Məsələn, FDA-nın “Sentinel” təşəbbüsü təsdiqlənmiş dərmanların təhlükəsizliyini Elektron Sağlamlıq Kartları (ESK) və sığorta məlumatlarını təhlil edən süni intellekt alətləri vasitəsilə izləyərək, nadir təhlükəsizlik siqnallarını daha erkən mərhələdə müəyyən etməyə çalışır [2]. Belə sistemlər müxtəlif mənbələrdən olan məlumatları bir araya gətirib analiz etməklə, farmakonəzarətdə proaktiv nəzarətin əsasını qoyur.

Siqnalların aşkarlanması və risklərin analizi: Sİ tətbiqləri mövcud farmakonəzarət məlumat bazalarında siqnal aşkarlanmasını daha həssas və sürətli edə bilər. Məşğul mütəxəssislərin ənənəvi analizindən fərqli olaraq, maşın öyrənməsi modelləri minlərlə bildirişi, hətta mətn formatlı hesabatları qısa zamanda təhlil edərək statistik cəhətdən əhəmiyyətli siqnalları seçib çıxara bilər. Bu yanaşma nadir əlavə təsirlərin, dərman-dərman qarşılıqlı təsirlərinin və risk faktorlarının üzə çıxarılmasını asanlaşdırır [8]. Üstəlik, süni intellekt vasitəsilə proqnostik risk modelləri qurmaq mümkündür. Bu cür modellər sayəsində tənzimləyicilər və səhiyyə təminatçıları potensial risklərə qarşı önləyici tədbirlər görə bilərlər.

Yan təsirlərin avtomatik aşkarlanması (mətn və multimedia analizi): Sİ metodları təkcə strukturlaşdırılmış rəqəmsal qeydləri deyil, eyni zamanda mətn məlumatlarını da təhlil edə bilir. NLP (Natural Language Processing - Təbii dilin emalı) alqoritmləri vasitəsilə spontan hesabat formalarının təsviri hissəsindən, habelə elmi nəşrlərdən və ya xəstə rəylərindən dərmanların yan təsirlərinə dair məlumatlar avtomatik çıxarıla bilər. Buna nümunə olaraq, böyük dil modelləri tibbi mətnlər üzərində öyrədilərək farmakonəzarət üçün vacib məlumatları – dərman adı, əlavə təsir, doz, vaxt intervalı kimi detalları – mənbə mətnlərdən ayırd edə bilməsini göstərmək olar. Bu, xüsusən sosial media və onlayn forumlar kimi qeyri-ənənəvi mənbələrdə xəstələrin paylaşdığı əlavə təsir şikayətlərinin aşkarlanmasında önəmli yenilikdir. Artıq tədqiqatçılar sosial şəbəkələrdə dərmanlarla bağlı paylaşımları skan

edərək farmakonəzarətə aid siqnallar əldə etməyi sınaqdan keçirirlər [3]. Sosial şəbəkələrin birində çətənə tərkibli preparat barədə 10 min istifadəçi paylaşımlarını analiz edərək, insan mütəxəssislərlə 94-99%-lik uyğunluq dərəcəsində əlavə təsir hallarını düzgün müəyyən etmişdir [1]. Bu cür nəticələr göstərir ki, NLP texnologiyaları düzgün yönləndirildikdə əlavə təsirlərin aşkarlanmasında insan qədər dəqiq ola və prosesi xeyli sürətləndirə bilər. Bununla yanaşı, səs tanıma texnologiyaları da tətbiq olunaraq farmakonəzarət zəng mərkəzlərində pasiyentlərin şifahi bildirişləri avtomatik mətnə çevrilib analiz oluna bilər [7].

Davamlı proseslərin avtomatlaşdırılması: Farmakonəzarət fəaliyyəti bir sıra administrativ və təkrarlanan tapşırıqları əhatə edir. Sİ bu davamlı işlərin bir qismini avtomatlaşdıra bilər. Artıq bəzi qurumlar RPA (Robotik Proses Avtomatlaşdırması) və maşın öyrənməsindən istifadə edərək ilkin bildiriş formalarını avtomatik dolduran, məlumatları tələb olunan formatlarda müvafiq bazalara köçürən sistemlər tətbiq ediblər [7]. Sİ alətləri, eyni hadisənin təkrarlanmış olaraq bir neçə dəfə raport edilib-edilmədiyini də avtomatik müəyyən edə bilir. Uppsala Müşahidə Mərkəzinin hazırladığı vigiMatch alqoritmi dünya üzrə təqdim edilən milyonlarla hesabat arasında dublikatları aşkarlamaq üçün məhz maşın öyrənməsindən istifadə edir və bununla da məlumat bazasının təmizliyini və təhlillərin etibarlılığını artırır [6]. Davamlı proseslərin bu cür avtomatlaşdırılması nəticəsində insan mütəxəssislər daha çox analitik və qərarvermə tələb edən işlərə fokuslana bilərlər ki, bu da ümumilikdə farmakonəzarət sisteminin səmərəliliyini yüksəldir.

Gələcəkdə Sİ daha da təkmilləşməsi ilə onların farmakonəzarətdə bir sıra yaradıcı işləri asanlaşdıracağı gözlənilir, lakin hal-hazırda bu texnologiyaların diqqətli tənzimlənməsi və doğrulanması tələb olunur. Aşağıdakı cədvəl mövcud süni intellekt texnologiyalarının farmakonəzarətdə tətbiq sahələri və konkret nümunələri üzrə müqayisəli mənzərəni təqdim edir (Cədvəl 1).

Nəticə. Beləliklə, süni intellekt farmakonəzarət sistemlərinin təşkilində yeni bir dövrün başlanğıcını qoyur. Ənənəvi metodların məhdudiyyətlərini aradan qaldıraraq, həm effektivliyi, həm keyfiyyəti yüksəldir, həm də əvvəllər mümkün olmayan imkanları reallaşdırır. Lakin bu transformasiya prosesində ehtiyatlılıq, etik prinsiplərə sadiqlik və insan-texnologiya əməkdaşlığının düzgün qurulması həlledici olacaq. Uyğun yanaşma ilə süni intellektdən tam potensialında yararlanaraq, həm qlobal miqyasda, həm də ölkəmizdə dərman təhlükəsizliyini yeni zirvələrə çıxarmaq mümkündür.

Xülasə.Farmakonəzarət (FN) dərman vasitələrinin təhlükəsiz istifadəsini təmin etməyə yönəlmiş mühüm bir sahədir. Yeni dərmanlar klinik sınaqlar zamanı məhdud sayda və seçilmiş qrup xəstələrdə qısa müddət ərzində sınaqdan keçirildiyindən, bəzi nadir və ya gecikmiş yan təsirlər yalnız dərman istifadəyə başladıqdan sonra üzə çıxa bilər. Məhz buna görə də farmakonəzarət sistemləri dərmanlar satışa buraxıldıqdan sonra onların təhlükəsizlik profilini davamlı izləmək, xəstələrin sağlamlığını təmin etmək üçün zəruridir.

Cədvəl 1. Farmakonəzarətdə istifadə olunan süni intellekt texnologiyaları və tətbiq nümunələri

Süni intellekt texnologiyası	Farmakonəzarətdə tətbiq sahəsi	Nümunə
Maşın öyrənməsi (MÖ)	Böyük həcmli strukturlaşdırılmış məlumatlarda nümunələrin aşkarlanması, risk faktorlarının proqnozlaşdırılması	FDA-nın Sentinel proqramında ML alqoritmləri EHR və sığorta məlumatlarından dərmanların risk siqnallarını izləyir, nadir ADR-ları əvvəlcədən aşkar edir [8].
Təbii dilin emalı (NLP)	Spontan hesabatların təsviri, elmi ədəbiyyat, sosial media paylaşımları kimi mətn formatlı məlumatlardan dərman əlavə təsirlərinin avtomatik çıxarılması və təhlili	Xəstələrin onlayn forum paylaşımlarını NLP ilə analiz etməklə erkən siqnallar əldə olunur [5].
Generativ Sİ (LLM modelləri)	Farmakonəzarət mətn məlumatlarının (hesabatların) xülasə edilməsi, formaların avtomatik doldurulması, suallara cavab verən ağıllı köməkçi funksiyalar	FDA tədqiqatçıları FAERS hesabatlarının narrativ hissəsini avtomatik qısaltmaq üçün LLM-dən istifadə etmiş, lakin Sİ xülasələrin bəzi vacib detalları itirdiyini müşahidə edərək insan nəzarətinin zəruriliyini qeyd etmişlər [6]
Statistik siqnal aşkarlanması	Spontan bildiriş bazalarında müəyyən dərman-təsir cütlüklərinin gözlənilməndən yüksək tezliklə raport edilib-edilmədiyini təyin etməklə potensial təhlükəsizlik siqnallarının tapılması	ÜST-nin VigiBase qlobal bazasında disproporsiya (nisbi tezlik) analizi aparılır – müəyyən dərman və əlavə təsir cütlüyü statistika üzrə həddən artıq sıx bildirilirsə, bu, mümkün “siqnal” kimi işarələnir [8].

Ənənəvi farmakonəzarət sisteminin effektivliyi böyük ölçüdə daxil olan bildirişlərin sayına və keyfiyyətinə bağlıdır. Təəssüf ki, əlavə təsirlərin spontan bildirişi sistemi bir çox məhdudiyyətlərlə üzləşir. Nəticədə, yeni təhlükəsizlik siqnalının üzə çıxması aylar, bəzən illər tələb edə bilər. Məlumat həcminin son illərdə sürətlə artması isə ənənəvi metodlarla bütün məlumatın vaxtında emalını çətinləşdirir. Beləliklə, farmakonəzarətdə müasir yanaşmalara, xüsusən süni intellekt texnologiyalarının təqdim etdiyi imkanlara ehtiyac formalaşmışdır.

Ədəbiyyat

1. Dowdy K. et al. (FDA Office of Surveillance). Summarizing FAERS Narratives with Generative AI: Methods, Resources, and Quality Assessment. FDA RAPID Program Report, 2023. https://www.fda.gov/media/182798/download#:~:text=LLM%02detected%20entities%20in%20summaries%20vs,the%20availability%20of%20LLMs%20trained

2. European Medicines Agency (EMA). Review of Artificial Intelligence/Machine Learning in Medicines Lifecycle (Horizon Scanning Report, 2025) https://www.ema.europa.eu/en/documents/report/review-artificial-intelligence-machine-learning-applications-medicines-lifecycle-2024-horizon-scanning-short-report_en.pdf#:~:text=use%20are%20,and%20other%20sources%20to%20detect

3. Innovative Health Initiative (EU). Draft Topic: AI-powered signal detection in pharmacovigilance (2025). https://www.ihi.europa.eu/sites/default/files/uploads/Documents/Calls/FutureTopics/DraftTopic_AIinPV_ May2025.pdf#:~:text=Patients%20and%20citizens%20will%20benefit,marketing%20setup

4. IQVIA. Leveraging AI in Pharmacovigilance Workflows. IQVIA Blog, Apr 2025. https://www.iqvia.com/blogs/2025/04/leveraging-ai-in-pharmacovigilance-workflows#:~:text=Leveraging%20AI%20in%20pharmacovigilance%20workflows, AI%20pulls%20data%20from

5. The Pharma Letter. Beyond the black box: Rethinking adverse event prediction in light of FDA’s push for AI transparency. The Pharma Letter online, 2024. https://www.thepharmaletter.com/pharmaceutical/beyond-the-black-box-rethinking-adverse-event-prediction-in-light-of-the-fdas-push-for-ai-transparency#:~:text=URL%3A%20https%3A%2F%2Fwww.thepharmaletter.com%2Fpharmaceutical%2Fbeyond,is%20disabled

6. Uppsala Monitoring Centre. Härmark, Linda (ed.). Artificial intelligence in pharmacovigilance: Harnessing potential, navigating risks. Uppsala Reports Magazine, 22 Oct 2024. https://uppsalareports.org/articles/artificial-intelligence-in-pharmacovigilance-harnessing-potential-navigating-risks/#:~:text=With%20this%20view%2C%20 examples%20of,and%20case%20narratives%2C%20and%20more

7. Uppsala Monitoring Centre. Hasanov, Farid. Promoting pharmacovigilance in Azerbaijan. Uppsala Reports, 23 June 2022.
https://uppsalareports.org/articles/promoting-pharmacovigilance-inazerbaijan/#:~:text=The%20first%20pharmacovigilance%20activities%20in,boosting%20pharmacovigilance%20activities%20in%20Azerbaijan

8. U.S. Food and Drug Administration (FDA). CDER Emerging Technology Program (EDSTP) – AI in PV. FDA Science & Research (Drugs) webpage. https://www.fda.gov/drugs/science-and-research-drugs/cder-emerging-drug-safety-technology-program-edstp#:~:text=or%20otherwise%20obtained%20and%20submit,effective%20by%20capturing%2C%20aggregating%2C%20and

9. World Health Organization (WHO). What is Pharmacovigilance? https://www.who.int/teams/regulation-prequalification/regulation-and-safety/pharmacovigilance#:~:text=Medicines%20and%20vaccines%20have%20transformed,any%20other%20medicine%2Fvaccine%20related%20problem

Summary

MODERN APPROACHES TO THE ORGANIZATION OF PHARMACOVIGILANCE SYSTEMS WITH THE HELP OF ARTIFICIAL INTELLIGENCE

Ismayil Gafarov, Ramzi Aliyev, Shabnam Hajiyeva
AMU, Medical and biological physics, Baku, Azerbaijan
dr.gafarov@hotmail.com

Keywords: Pharmacovigilance, drug safety, adverse event detection, AI technologies

Pharmacovigilance (PV) is a crucial field aimed at ensuring the safe use of medicinal products. Since new drugs are tested during clinical trials on a limited number of selected patients over a short period, certain rare or delayed adverse reactions may only emerge after the medicine has been introduced to the market. Therefore, pharmacovigilance systems are essential for continuously monitoring the safety profile of drugs after commercialization to ensure patient health protection.

The effectiveness of traditional pharmacovigilance systems largely depends on the number and quality of received reports. Unfortunately, spontaneous reporting systems for adverse effects face numerous limitations. As a result, the detection of new safety signals may take months or even years. Furthermore, the rapid increase in data volume in recent years has made it difficult to process all information promptly using conventional methods. Consequently, there is a growing need for modern approaches in pharmacovigilance, particularly those enabled by artificial intelligence technologies.

TİBBDƏ SÜNİ İNTELLEKT VƏ NANOROBOTLARIN HÜCEYRƏ TAMLIĞININ POZULMAMASINDA ROLU

Qafarov İsmayıl Adil , Ələsgərova Nərmin Əlişan
ATU, Tibbi və Bioloji Fizika kafedrası, Bakı, Azərbaycan
dr.gafarov@hotmail.com

Açar sözlər: biofizika, nanofizika, hüceyrə tamlığının qorunması, nanorobot


Hüceyrə tamlığının pozulmaması - hüceyrənin daxili mühitinin sabitliyini və funksionallığını təmin edən əsas amildir. Hüceyrə membranı maddələrin seçici keçiriciliyini təmin edir və hüceyrənin xarici təsirlərdən müdafiəsini təşkil edir. Membran pozulması - hüceyrə funksiyalarının pozulması və nəticədə hüceyrə ölümü ilə nəticələnə bilər. Buna görə də, hüceyrə tamlığının qorunması bioloji sistemlərin normal fəaliyyəti üçün vacibdir. Nanobiofizika və müasir tibbi yanaşmalar hüceyrə membranlarının stabil saxlanılması və bərpası yollarını araşdırır.

Hüceyrədaxili səviyyədə fəaliyyət göstərə bilən nanorobotlar müasir tibdə tətbiq olunur. Riçard Feynmanın 1959-cu ildə irəli sürdüyü ideya bunun əsasını təşkil edir. Bu ideya miniatur maşınların yaradılmasından bəhs edirdi. Bu maşınların da öz növbəsində atom və molekul səviyyəsinə qədər kiçildilməsi nəzərdə tutulmuşdur [1].

Tədqiqatın məqsədi süni intellekt və nanorobot texnologiyalarının tətbiqi vasitəsilə hüceyrə tamlığının qorunmasına yönəlmiş müasir tibb strategiyalarını öyrənmək, qiymətləndirmək və onların klinik praktikadakı potensial imkanlarını müəyyən etməkdir.

Nanomateriallar, nanorobotlar və ya molekulyar mexanizmlər vasitəsilə hüceyrə membranlarının gücləndirilməsi və ya zədələnmiş hissələrin bərpası nanofizika vasitəsi ilə isə nanomaterialların hüceyrəyə necə təsir etdiyini, onların hüceyrə tamlığını necə qoruduğunu və ya bərpa etdiyini anlamaq mümkündür.

Hüceyrə tamlığının qorunması - biofizikanın əsas prinsiplərindən biri də hüceyrənin müdaxilələrdən sonra öz funksional stabilliyini itirməməsidir. Nanorobotların dizaynında məqsəd hüceyrənin membranına, sitoplazmasına və digər strukturlarına minimum zərər vurmaqdır. Əks halda hüceyrənin tamlığı pozular və müalicə əks effekt verə bilər. Bu səbəbdən nanorobotların hazırlanmasında bioloji uyğun materiallardan istifadə olunur.



Şəkil. Hüceyrə tamlığının pozulmaması.

Dərman çatdırılması zamanı hüceyrə membranı ilə qarşılıqlı təsir hər zaman mövcuddur. Hüceyrə ölümü - nekroz, kəskin müdaxilə və ya xəstəlik nəticəsində hüceyrənin nəzarətsiz şəkildə dağılması və apoptoz**,** hüceyrənin genetik olaraq proqramlaşdırılmış şəkildə, özünü qanunauyğun və ya təmiz şəkildə məhv etməsi hüceyrə membranının zədələnməsinin nəticələridir**.** Bunun qarşısını almaq üçün bu qarşılıqlı təsiri düzgün tənzimləmək zəruridir [2].

Biokimyəvi tarazlıq, ion mübadiləsi, osmotik təzyiq pozulmamalıdır. Bu halda hüceyrənin bu tamlığı qorunmazsa, o, nekroz və ya apoptoz, hüceyrə ölümü ilə nəticələnə bilər.

Nanorobotlar hüceyrə daxilində və ya səthində terapevtik fəaliyyət göstərərkən hüceyrə strukturlarına zərər verməməli və yalnız biouyğun materiallardan hazırlanmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, qızıl nanohissəcik, karbon nanotub, lipid əsaslı nanokapsullar toksik deyil və hüceyrə tərəfindən qəbul olunur [5].

Nanorobot hüceyrə membranı daim zədələmədən daxil olmalı, həmçinin membranı deşməməlidir. Bəzən bu, hüceyrənin öz endositoz mexanizmi vasitəsilə həyata keçirilir.

Nanorobot yalnız hədəflənmiş biomolekul və ya zədələnmiş struktura müdaxilə edir, digər hissələr toxunulmaz qalır.

Biodeqradasiya. Missiyanı bitirdikdən sonra nanorobot ya hüceyrə tərəfindən parçalanır, ya da orqanizmdən xaric olunur. Beləliklə, uzunmüddətli toksiklik yaranmır. Bunları sadə nümunə ilə izah etmək mümkündür. Hüceyrəni balon kimi təsəvvür etmək olar. Əgər balonu iynə ilə deşsək bütün hava çıxar və balon partlayar, hüceyrə ölümü baş verər. Amma balonun içinə xüsusi klapan, kiçik kapsul yerləşdirilsə - balon həm bütöv qalacaq, həm də içindəki prosesi idarə edilə bilən olacaq. Bununla da hüceyrə tamlığının qorunması təmin olunacaq.

Süni intellekt vasitəsilə xüsusi növ nanohissəciklər dizayn edilir**.** Membranla qarşılıqlı təsiri minimallaşdırması və maksimum daşıma gücünə malikliyi bu nanohissəcikləri digərlərindən fərqləndirən əsas spesifik xüsusiyyətlərdəndir. Burada əsas məqam Sİ vasitəsilə hüceyrə təsvirlərini analiz edib, dərmanların membrana təsir edilib-etmədiyini müəyyən etməkdir [4].

Sİ minlərlə molekulyar strukturu araşdirib təhlil edərək hansı dərman və daşıyıcıların hüceyrə tamlığını pozma riskinin yüksək olduğunu əvvəlcədən proqnozlaşdıra bilir [3].

Cədvəl 1. Nanodərman daşıyıcılarının hazırlanması, tətbiq sahəsindəki əsas komponentləri və onların funksiyaları

Əsas komponent / Modul	**Funksiya**
Nanodaşıyıcı seçimi	Biouyğun, toksik olmayan materiallardan istifadə
Hədəf tanıma	Hüceyrə-reseptor spesifikliyi
Yükləmə və boşalma mexanizmi	Hüceyrə daxilində nəzarətli dərman boşalması
Süni intellekt	Nanodaşıyıcıların dizaynı, analiz və təhlükəsizliyin qiymətləndirilməsi

Nəticə və müzakirə. Hüceyrə səviyyədə fəaliyyət göstərən nanorobotların hazırlanması müasir tibdə yeni imkanlar açmışdır. Hüceyrə tamlığının qorunması dərmanların effektivliyi və orqanizmin sağlamlığının qorunması üçün vacib amildir. Nanorobotların biouyğun materiallardan hazırlanması, hüceyrə membranına zərər vermədən oraya hədəflənmiş müdaxilə etməsi və orqanizmdən təhlükəsiz şəkildə xaric olması onların tibbdə uğurla tətbiq edilməsini təmin edir. Bundan əlavə, süni intellekt vasitəsilə nanorobotların dizaynı və dərmanların hüceyrə təsirinin analizi bu sahədə gələcəkdə daha dəqiq və təhlükəsiz müalicə üsullarının yaradılmasına böyük töhfə verəcəkdir. Nanorobot texnologiyaları hüceyrə tamlığının qorunmasını təmin etməklə tibdə inqilabi dəyişikliklərə yol açır və gələcəkdə xəstəliklərin daha effektiv müalicəsinə şərait yaradır.

Ədəbiyyat

1. Feynman, R. P. (1960). There's plenty of room at the bottom. Engineering and Science, 23(5), 22–36.

2. Jin, X., Wan, H., Jiao, Z., Li, J., & Yan, L.-T. (2024). Physical principles at bio-nano interfaces with active matter. National Science Open, 3(4), Article 20230079.

3. Qafarov, İ., Ələsgərova, N. (2025, May 23). Tibdə hədəfli dərman çatdırılmasının tətbiqi. Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər II Respublika Elmi-Praktiki Konfransı (pp. 264–266). Bakı.

4. Qafarov, İ., Məmmədova, X., Məmmədova, N. (2025). The role of artificial intelligence in biophysics and medicine. In Ankara International Congress on Scientific Research – XI (pp. 1375–1376).

5. Yuan, S., Hu, D., Gao, D., et al. (2025). Recent advances of engineering cell membranes for nanomedicine delivery across the blood–brain barrier. Journal of Nanobiotechnology, 23, Article 493.

Summary

THE ROLE OF ARTIFICIAL INTELLIGENCE AND NANOROBOTS IN MAINTAINING CELLULAR INTEGRITY IN MEDICINE

Gafarov Ismayıl Adil, Alasgarova Narmin Alishan
AMU, Department of Medical and Biological Physics, Baku, Azerbaijan
dr.gafarov@hotmail.com

***Keywords*:** Biophysics, nanophysics, preservation of cellular integrity, nanorobot

Maintaining cellular integrity is a fundamental factor in ensuring the stability and functionality of the cell's internal environment. The cell membrane provides selective permeability for substances and protects the cell from external influences. Membrane disruption can lead to impaired cellular functions and ultimately result in cell death. Therefore, preserving cellular integrity is essential for the health and normal functioning of biological systems. Nanobiophysics and modern medical approaches explore methods for maintaining and restoring the stability of cell membranes.

DOKSORUBİSİNİN ERKƏK AĞ SİÇOVULLARA TƏKRAR TƏYİNİNİN CİNSİ HORMONLARIN QATILIĞINDA VƏ NƏSİLTÖRƏTMƏ QABİLİYYƏTİNDƏ ƏMƏLƏ GƏTİRDİYİ DƏYİŞİKLİYİN TƏDQİQİ

Milana Faiq qızı Heybətova
ATU, Farmakologiya kafedrası

Yaşadığımız müasir dövrün ən böyük bəlalarından biri olan onkoloji xəstəliklərin baş vermə tezliyi hər ötən gün yüksələn xətt üzrə artmaqda davam edir. Hər il dünyada minlərlə insanın müxtəlif mənşə və lokalizasiyalı onkoloji xəstəliklərə tutulması qeydə alınır. Ədəbiyyat mənbələri ilə tanışlıq göstərir ki, əksər kimyəvi terapevtik dərman preparatları onkoloji xəstəlikdən əziyyət çəkən hamilə qadınlara təyin olunduqda onlarda müxtəlif hamiləlik və döl patologiyalarına səbəb olmaqla, törənən nəsildə çox ciddi, əksər hallarda korreksiya olunmayan fəsadların inkişaf etməsinə səbəb olur.

İşin məqsədi: Doksorubisinin erkək ağ siçovullara dozadan asılı olaraq təkrar təyini fonunda reproduktiv hormonların miqdarında və nəsiltörətmə qabiliyyətində əmələ gətirdiyi dəyişikliyi tədqiq etməkdir.

Materialların və tədqiqat metodları. Tədqiqatlar ATU-nun Elmi Araşdırmalar Mərkəzinin vivariumunda yetişdirilmiş, çəkisi 190-220 q olan 52 baş xətti bəlli olmayan erkək ağ siçovul üzərində aparılmışdır. Heyvanlar 3 qrupa bölünmüşdür. Nəzarət qrupunda 12, təcrübə qruplarında isə hər qrupda 20 erkək siçovuldan istifadə olunmuşdur. 1-ci təcrübə qrupu erkəklərə 1 həftə müddətində 2,5mq/kq, 2-ci qrupa 5mq/kq dozada doksorubisin (Almaniya) qarındaxili inyeksiya olunmuşdur. 8-ci gün quyruq venasından qan götürmüş və cinsi hormonların qatılığında, ümumi testosteron (Tü), sərbəst testosteron (Ts), follikulstimuləedici hormon (FSH), lüteinləşdirici hormon (LH), prolaktin (PL), progesteron (PG), estriol (ER), estradiol (ED) baş verən dəyişiklikləri tədqiq etmişik.

1 həftədən sonra bütün qruplarda olan erkək siçovullar 2:1 nisbətində intakt dişilərlə eyni qəfəsə salınmışdır. Mayalanma baş verənə qədər heyvanlar bir yerdə saxlanılmışdır. Hamiləliyin baş verməsini dişi siçovulların vaginal möhtəviyyatından hazırlanmış yaxmada spermatozoidlərin aşkar olunması və bundan 1 həftə sonra heyvanların çəkisində baş verən artımla qiymətləndirilmişdir.

Hamilə dişi siçovulların monitorinqi aparılıb, hamiləliyin gedişi və doğulan siçovulların qiymətləndirilməsi vizual müşahidə ilə aparılmışdır. Elmi tədqiqat zamanı heyvanlarla humanist davranmaq ilə bağlı Avropa Parlamentinin və Avropa İttifaqının qaydalarına əməl edilmişdir.

Təcrübə məlumatlarını hesablamaq üçün Styudentin parametrik və Wilcoxon-Mann-Whitney U- qeyri-parametrik testindən istifadə edilmişdir. Nəticələr Microsoft Excel (Office-2010) statistik proqramından istifadə etməklə işlənmişdir.

Alınmış nəticələr və onların müzakirəsi.

Apardığımız tədqiqatlarda nəzarət qrupu heyvanların qanında Tü hormonunun miqdarı 1,45±0,03 nmol/l olduğu halda 1 həftə müddətində 2 dəfə 2,5mq/kq dozada doksorubisin alımış heyvanların qanında bu göstərici 62,06% statistik dürüst azalaraq 0,9±0,15nmol/l olmuşdur. Ts-nun da miqdarı da 50,9%, FSH-nun qatılığı da 34%, LH-nun da miqdarı 40,5%, PL-nin də miqdarı 28,7%, PG-nun da miqdarı 21,7%, ER-un da miqdarı 23,6%, ED-un da miqdarı 97,2% statistik dürüst azalmışdır.

Doksorubisinin dozadan asılı istifadəsi hormonların miqdarını daha çox azaltmışdır. Belə ki, doksorubisinin 5mq/kq dozasının təkrar istifadəsi zamanı nəzarət qrupu heyvanların göstəriciləri ilə müqayisədə Tü hormonunun miqdarı 70,7%, Ts-nin miqdarı 64,7%, FSH-un miqdarı 56,7%, LH-nun qatılığı 74,4%, PL-nin miqdarı 55,4%, PG-nun miqdarı 88%, ER-un miqdarı 57,6%, ED-un miqdarı isə 97,8% statistik dürüst azalmışdır.

Doksorubisinin 2,5mq/kq dozasını bir həftə müddətində erkək siçovullara təyin edib, sonradan həmin erkəkləri 2:1 nisbətində intakt dişilərlə eyni qəfəsə salıb, hamiləliyin baş verməsini gözlədik. Beləliklə apardığımız tədqiqat nəticəsində məlum oldu ki, 2,5mq/kq dozada doksorubisin təyin edilmiş erkəklərdən 8 bala doğulmuşdur. Bu göstərici nəzarət qrupunun göstəriciləri ilə müqayisədə 86,7% az

omuşdur. 2,5mq/kq dozada doksorubisin təyin edilmiş erkəklərdən doğulmuş balalardan 5-i diri doğulmuş, 3-ü ölü doğulmuşdur. Doğulmuş balalardan 4-ü erkək, 4-ü isə dişi bala olmuşdur. Bu balalarda qulaq seyvanının açılması gün etibarı ilə gecikmişdir. Belə ki, nəzarət qrupu heyvanlarda qulaq seyvanının açılması 1,9±0,2 gün olduğu halda, 2,5mq/kq dozada doksorubisin almış erkəklərdən doğulmuş balalarda bu göstərici 3,4 dəfə uzanaraq 4,5±0,14 gün olmuşdur. Eyni istiqamətli ləngimə tük örtüyünün əmələ gəlməsində də müşahidə olunmşdur. Belə ki, nəzarət qrupu heyvan balalarında tük örtüyünün əmələ gəlməsi 5,3±0,19 gün olduğu halda, 2,5mq/kq dozada doksorubisinin təyini fonunda doğulmuş balalarda tük örtüyünün əmələ gəlməsi 6,01±0,03 gün olmuşdur. Yeni doğulmuş balalarda əks geotaksis reaksiya müşahidə olunmamışdır. Anomaliya ilə doğulan balaların sayına gəldikdə isə istər ölü, istərsə də diri doğulmuş balaların hamısında anomaliya müşahidə olunmuşdur.

Doksorubisinin 5 mq/kq dozasının təyin olunduğu erkəklərdən doğulan balaların sayı nəzarət qrupunun göstəricisi ilə müqayisədə 91,7% statistik dürüst azalaraq 5 bala olmuşdur. Doğulmuş balaların içərisində diri balalara rast gəlinməmişdir. Doğulmuş 5 balanın hamısı ölü olmuşdur. Balalardan 2-si erkək, 3-ü isə dişi olmuşdur.

Xülasə. Apardığımız tədqiqatların alınmış nəticələrini təhlil edərək belə qənaətə gəlirik ki, doksorubisinin dozadan asılı olaraq erkək siçovullara təkrar təyini fonunda hormonların miqdarında baş verən azalma onlardan əmələ gələn balalar arasında ölü və anolmaliyalı doğulmalara rast gəlinməsi biləvasitə dərman maddəsinin sitotoksiki təsir effektinə malik olması ilə bir başa əlaqəlidir.

Summary

STUDY OF CHANGES İN THE CONCENTRATİON OF SEX HORMONES AND REPRODUCTİVE CAPACİTY CAUSED BY REPEATED ADMİNİSTRATİON OF DOXORUBİCİN TO MALE WHİTE RATS

Milana Faig gizi Heybatova
Department of Pharmacology, AMU

***Keywords*:** The research work is devoted to the study of changes in the concentration of sex hormones and reproductive capacity caused by repeated administration of doxorubicin to male white rats. Analyzing the results of our studies, we conclude that the decrease in hormone levels following repeated dose-dependent administration of doxorubicin to male rats, and the occurrence of stillbirths and abnormal births among the offspring, is directly related to the cytotoxic effect of the drug.

PROQRESSİVLƏŞƏN SİSTEM SKLEROZDA REYNO SİNDROMUNUN MÜALİƏSİNDƏ DİMETİLSULFOKSİD PREPARATININ (DMSO) EFFEKTİVLİYİ

Musayev S.K.
ATU, III Daxili Xəstəliklər kafedrası, Tədris Terapevtik Klinika, Revmatologiya və Qastroenterologiya şöbəsi, Azərbaycan, Bakı

Açar sözlər: proqressivləşən sistem skleroz (PSS), Reyno sindromu, dimetilsulfoksid (DM)

Proqressivləşən sistem sklerozda (PSS; sistemik skleroderma) Reyno sindromu xəstəliyin ən erkən və xarakterik klinik əlamətlərindən biridir. Distal arteriol vazospazmı, endotel disfunksiyası və mikrosirkulyasiya pozğunluğu ilə səciyyələnən bu fenomen barmaqlarda ağrı, rəng dəyişiklikləri, soyuğa həssaslıq və təkrarlanan işemik epizodlarla müşayiət olunur. Standart müalicəyə kalsium kanal blokatorları, vazodilatatorlar, fosfodiesteraza-5 inhibitorları, endotelini reseptor antaqonistləri və s. daxildir. Bununla belə, bəzi xəstələrdə cavab qeyri-kafi qalır ki, alternativ yanaşmaların qiymətləndirilməsinə ehtiyac yaradır.

İşin məqsədi. PSS-li xəstələrdə Reyno sindromunun müalicəsində dimetilsulfoksid (DMSO) preparatının yerli tətbiqinin effektivliyini qiymətləndirmək.

Material və metodlar. Tədqiqata 108 PSS-li xəstə (98 qadın, 10 kişi) daxil edilmişdir. Yaş diapazonu 16–69 il, orta yaş 38,2±1,2 il; qadınlarda 38,4±1,2 il, kişilərdə 35,4±3,5 il olmuşdur. Bütün xəstələrdə antinuklear antitellər (ANA), serum immunoqlobulinlərinin konsentrasiyası, revmatoid faktor, trombosit aqreqasiyası və koaqulyasiya xüsusiyyətləri tromboelastoqrafiya (TEG) metodu ilə qiymətləndirilmişdir. Müayinə olunanların 71-də (94,7%) Reyno sindromu aşkar edilmişdir. EULAR tövsiyələrinə uyğun bazis müalicə fonunda xəstələrin əllərinə 50%-lik DMSO məhlulu heparinlə birlikdə yerli applikasiya şəklində tətbiq olunmuşdur.

Nəticə. TEG əsasında trombosit aqreqasiyasının və qanın reoloji xüsusiyyətlərinin qiymətləndirilməsi DMSO və heparinin birgə yerli tətbiqindən sonra əhəmiyyətli müsbət dinamika ilə müşayiət edilmişdir. Xüsusilə, reoloji parametrlərdə yaxşılaşma və hiperkoaqulyasiya meylinin azalmasına uyğun göstəricilər qeydə alınmışdır. Klinik olaraq Reyno epizodlarının tezliyi və şiddətində azalma, ağrı intensivliyində yüngülləşmə və periferik dəri temperaturunda nisbi artım müşahidə edilmişdir.

Xülasə. PSS-li xəstələrdə Reyno sindromunun idarəolunmasında 50%-lik DMSO məhlulunun heparinlə birlikdə yerli tətbiqi bazis müalicəni tamamlayaraq mikrosirkulyasiya və hemoreoloji göstəricilərdə yaxşılaşma ilə assosiasiya oluna bilər. Bununla belə, metodoloji məhdudiyyətlər (kiçik nümunə həcmi, nəzarət qrupu və randomizasiya olmaması) səbəbilə nəticələrin ümumiləşdirilməsi məhduddur. Effektivlik və təhlükəsizliyin qəti təsdiqi üçün randomizə-kontrollu, kor dizaynlı, standartlaşdırılmış protokollarla aparılan tədqiqatlara ehtiyac vardır.

Summary

THE EFFECTIVENESS OF DIMETHYL SULFOXIDE (DMSO) IN THE TREATMENT OF RAYNAUD'S SYNDROME IN PROGRESSIVE SYSTEMIC SCLEROSIS

Musayev S.K.
AMU, Department of Internal Diseases III, Educational Therapeutic Clinic, Department of Rheumatology and Gastroenterology, Azerbaijan, Baku

Keywords: progressive systemic sclerosis (PSS), Raynaud's syndrome, dimethyl sulfoxide (DMSO)

This thesis investigates the efficacy of topical dimethyl sulfoxide (DMSO) in combination with heparin for treating Raynaud's syndrome in patients with progressive systemic sclerosis (PSS). The study, involving 108 PSS patients, observed significant positive changes in platelet aggregation and blood rheological properties, alongside clinical improvements in Raynaud's episodes, pain intensity, and peripheral skin temperature. While the findings suggest that this local application may complement standard treatment by improving microcirculation and hemorheological parameters, the authors emphasize the need for randomized, controlled trials to definitively confirm its effectiveness and safety due to methodological limitations.

АНТИМИКРОБНЫЙ ПОТЕНЦИАЛ ЛЕКАРСТВЕННЫХ РАСТЕНИЙ АЗЕРБАЙДЖАНА ПРОТИВ MRSA ШТАММОВ

Агаева Е.М., Гурбанова С.Ф., Сулейманова Т.Н., Мамедова Р.Э., Юсифова У.Э.
АМУ, Кафедра Медицинской Микробиологии и иммунологии

Ключевые слова: антибиотикорезистентность, микробицидность, лекарственные растения Азербайджана, условно-патогенные микроорганизмы

Неуклонный рост инфекционной патологии, обусловленный быстрым распространением MRSA штаммов обязывает необходимость поиска новых антимикробных лекарственных средств. Широкое использование химиотерапевтических препаратов в медицине и ветеринарии приводит к формированию резистентности микроорганизмов, изменению их фенотипических свойств, затруднению и зачастую невозможности их идентификации.

По данным литературы и собственным исследованиям частота обнаружения пенициллин устойчивых стафилококков в некоторых регионах Азербайджана составляет 80-90%. Альтернативным и перспективным методом лечения MRSA патологий являются лекарственные растения, традиционно используемые в медицине.

Лекарственные растения выгодно отличаются от антибиотиков и других химиопрепаратов низкой стоимостью, наличием множественных механизмов действия, экологической безопасностью, малым риском возникновения побочного действия, и самое главное, отсутствием развития резистентности у этиологических агентов.

Скрининг и характеристика растительных веществ с подходящей антибактериальной активностью являются неотъемлемой частью разработки природных антибактериальных агентов.

Согласно литературным данным, за последние годы установлена антибактериальная активность некоторых растительных препаратов в отношении резистентных штаммов (MRSA, ESBL-продуцентов *P.aeruginosa, A. baumanii* и др.). Богатая и разнообразная лекарственная флора Азербайджана послужила поводом для изучения их антимикробных свойств с целью разработки лекарственных препаратов и их применению в лечении и профилактике оппортунистических инфекций.

Цель исследования – оценить *in vitro* чувствительность клинических MRSA штаммов к экстрактам некоторых лекарственных растений, произрастающих в Азербайджане.

Материалы и методы. Исследования проводились в микробиологических лабораториях кафедры микробиологии и иммунологии АМУ, а также в лабораториях INCI и Referance города Баку. Объектом исследования явились этаноловые экстракты семи видов лекарственных растений Азербайджана: *Carum carvi L. cumin*, *Geranium collinum Willd, Mentha longifolia L., Rosaceae Rosa, Dichoropetalum paucijugum, Malabaila sulcata*. *Pastinaca pimpinellifolia* M. Bieb. Лекарственные растения изучали в форме этаноловых экстрактов в соответствии с требованиями Государственной Фармакопеи (1989).

Антимикробные свойства растительных препаратов определяли согласно стандартам EUCAST диско-диффузионным методом, Е-тестом и методом серийных разведений.

Использовали тест культуры и клинические изоляты *S.aureus.* Идентификацию стафилококков, выделенных при оппортунистических инфекциях, проводили микробиологическими методами с использованием хромогенных сред, применяли также автоматизированные системы VITEK.

Результаты исследований. Анализ антибиотикорезистентности MRSA патогенов, изолированных при оппортунистических инфекциях в Азербайджане, продемонстрировал высокую их распространённость. Из 824 обследованных штаммов, 185 относились к *S. aureus*, среди которых MRSA, устойчивые к оксациллину составили 56%, устойчивые к ванкомицину – 12% и к клиндамицину – 30%.

Проведенные исследования по определению чувствительности и резистентности *S.aureus,* к антибиотикам за последние годы показали, что число резистентных и полирезистентных штаммов продолжает увеличиваться.

При изучении микробицидных свойств семи лекарственных растений против антибиотикорезистентных возбудителей оппортунистических инфекций установлена их выраженная антибактериальная активность. Наиболее выраженное бактерицидное действие на *S.aureus* оказывает экстракты *Mentha longifolia L.* (25 мм), *Geranium collinum Willd L.* (20 мм), *D.paucijugum* (18 мм).

Заключение. Проведен мониторинг антибиотикорезистентных патогенов и выявлены MRSA изоляты. Представлены результаты сравнительных исследований семи лекарственных растений Азербайджана, установлена высокая антимикробная активность. Полученные результаты указывают на возможность применения экстрактов герани, мяты и тмина в комплексной терапии оппортунистических инфекций.

Summary

ANTIMICROBIAL POTENTIAL OF MEDICINAL PLANTS OF AZERBAIJAN AGAINST MRSA STRAINS

Agayeva E.M., Gurbanova S.F., Suleymanova T.Kh., Mamedova R.E., Yusifova U.E.

AMU, Department of Medical Microbiology and Immunology

Keywords: antibiotic resistance, microbicidal activity, medicinal plants of Azerbaijan, opportunistic microorganisms

Surveillance of antibiotic-resistant pathogens revealed MRSA strains among the isolates. Comparative testing of seven medicinal plants collected in Azerbaijan showed their notable antimicrobial activity. These findings support the potential use of geranium, mint, and caraway extracts in adjunct therapy of opportunistic infections.

NAFTALAN NEFTİNDƏN ALINAN DƏRMAN VƏ KOSMETİK VASİTƏLƏRİN TƏDQİQİ

Abbasov V.M[1]., İsayeva G.Ə[1]., Mövsümova P.Ə[1]., Nəbiyeva N.D[1]., Daşdəmirova G.S[2]., Osmanov H.M[2]., Fərəcova S.E[1].

[1]Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin akademik Y.H.Məmmədəliyev adına Neft-kimya Prosesləri İnstitutu.

[2]ATU, Bioloji kimya kafedrası

biochemistrydep.amu@gmail.com

Açar sözlər: Natalan nefti, qaz xromatoqrafiyası, kütlə spektroskopiyası, naften karbohidrogenləri, hopanlar, steranlar

Naftalan nefti bioloji fəal maddələrdən ibarət mürəkkəb tərkibli mayedir. Onun kimyəvi tərkibi ən müasir üsullarla yenidən araşdırılmalı, tərkibindəki bioloji aktiv maddələr ayrılaraq standartlaşdırılmalıdır.

Onun müalicəvi təsir mexanizmi haqqında ən doğru nəzəriyyəni dünya şöhrətli dahi alim, akademik Y.H.Məmmədəliyev keçən əsrin 40-cı illərində öyrənmişdir. O, müəyyən etmişdir ki, Naftalan neftinin müalicəvi təsiri onun tərkibində olan çox həlqəli naften karbohidrogenləri ilə əlaqədardır. Müalicəvi Naftalan neftinin tədqiqatı sahəsində geniş tədqiqatlar hələ 1945-ci ildən indiki akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda başlanmışdır. Sonralar bu sahədə tədqiqatlar akademik Ə.M.Quliyev, professor H.H.Həşimovun, AMEA-nın müxbir üzvləri V.M.Abbasov və F.İ.Səmədovanın rəhbərliyi altında aparılmışdır. Hal-hazırda da akademik V.M.Abbasovun rəhbərliyi ilə Neft-Kimya Prosesləri İnstitutunda Naftalan nefti ilə bağlı geniş tədqiqat işləri aparılmış və Naftalan yağına aid 3 patent alınmışdır. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi 23.10.2014-cü ildə “Ağ Naftalan yağı”nı dərman preparatı kimi qeydiyyata almışdır (DV № 14-01177).

Bu preparat burun-boğaz xəstəliklərinin, o cümlədən allergik rinitin, paradontozun, I-III dərəcəli yanığların, dəri xəstəliklərinin, o cümlədən pullu dəmrovun, qadın xəstəlilərinin, dayaq-oynaq hərəkəti aparatı xəstəliklərinin və s. müalicəsində işlənən dərman preparatı və eyni zamanda təbii kosmetik vasitədir.

Akademik Vaqif Abbasovun rəhbərliyi ilə aparılan tədqiqat işi Naftalan neftinin qaz xromatoqrafiyası və kütlə spektroskopiyası üsulu ilə analizinə həsr olunmuşdur. Bioloji aktiv olduqları üçün əsas diqqət hopan və steranlara yetirilmişdir. Tədqiqat işi Shimadzu GCMS-QP 2010 Ultra qaz xromatoqrafiyası və kütlə spektroskopiyası detektoru ilə təchiz olunmuş cihazda aparılmışdır. Qaz xromatoqrafının temperatur rejimi müxtəif fraksiyalar üçün fərqli seçilmişdir.

İki sinif biomarkerlərin- pentatsiklik triterpanlar və steranların kütlə spektroskopiyası vasitəsilə identifikasiyası və fraksiyalar üzrə paylanması analiz edilmişdir. Analiz nəticəsində aşkar olunmuşdur ki, 225-230°C-də qaynayan fraksiyalara qədər demək olar ki, hopan və steranlara xromatoqramlarda rast gəlinmir. Lakin 235-240°C-də qaynayan fraksiyada artıq hopanların izlərini görmək mümkündür. 295-300°C-də qaynayan fraksiyalarda artıq steranların çox cüzi izləri görünməyə başlayır. Temperaturun artması ilə fraksiyalarda steranları daha nəzərəçarpacaq dərəcədə görmək mümkündür. Analiz nəticələri onu göstərir ki, 335-340°C-də qaynayan fraksiyada hopan və steranların intensivliyi getdikcə yüksəlir.

Beləliklə, perspektivdə bioloji fəal naften karbohidrogenlərinin (hopan və steranların) standartlaşdırılaraq təsir mexanizmlərinin toxuma və hüceyrə səviyyəsində müasir elmi texnologiyalarla tədqiq olunması maraq və əhəmiyyət kəsb edir.

Summary

RESEARCH OF MEDICINES AND COSMETICS DERIVED FROM NAPHTHALANE OIL

Abbasov V.M.[1], Isayeva G.A.[1], Movsumova P.A.[1], Nabiyeva N.D.[1], Dashdemirova G.S.[2], Osmanov H.M.[2], Farajova S.E.[1]

[1]Institute of Petrochemical Processes named after academician Y.H. Mammadaliyev of the Ministry of Science and

Education of the Republic of Azerbaijan.
[2]AMU, Department of Biological Chemistry
biochemistrydep.amu@gmail.com

***Keywords*:** Natalan oil, gas chromatography, mass spectroscopy, naphthenic hydrocarbons, hopanes, steranes

In the research, 5-degree fractions of Naftalan oil within the 225–340°C range were analyzed using gas chromatography and mass spectrometry methods.The analysis shows that hopanes and steranes are almost absent in fractions boiling at 225–230°C. Traces of hopanes appear at 235–240°C, and slight traces of steranes are observed at 295–300°C. As the temperature increases, the intensity of both compounds rises, reaching a maximum at 335–340°C. In the future, it is of interest and importance to standardize biologically active naphthenic hydrocarbons (hopanes and steranes) and study their mechanisms of action at the tissue and cellular level using modern scientific technologies.

МЕТОДЫ ФАРМАКОЛОГИЧЕСКОЙ АКТИВНОСТИ В БОРЬБЕ С ПАССИВНЫМ КУРЕНИЕМ СРЕДИ ДЕТЕЙ И ПОДРОСТКОВ Г.БАКУ

Бабаев П.Н., Мамедов Ф.Ф., Мусаев Р.Г.
АМУ, кафедра “Общественное здоровье и организация здравоохранения”
Азербайджан, г.Баку

Ключевые слова: При вдыхании сигаретного дым в виде частиц попадает в легкие. Затем никотин попадает в большой круг кровообращения и быстро достигает головного мозга, где он связывается с ацетилхолиновыми рецепторами. В головном мозге человека имеются рецепторы. Наиболее распространен рецептор α4β2. Считается, что именно он отвечает за формирование никотиновой зависимости. Данные клинических исследований показали эффективность применения агониста ацетилхолиновых рецепторов α4β2 варениклина, нортриптиллина для отказа от курения. Тем, кто не в состоянии самостоятельно бросит курить, всегда может помочь фармакологическое лечение. Препарат-флуоксетин, антидепрессант эффективен в отказе от курения. Поскольку увеличение веса является одной из проблем бросивших курить, то флуоксетин, снижающий аппетит, может помочь в решении этой проблемы. Курение и склонность к депрессии часто связаны, что обусловлено как генетической предрасположенностью, так и нейрохимическим действием никотина, поэтому антидепрессанты увеличивают отказ от табака.

Цель. Изучение воздействия вредных составляющих табачного дыма, на организм детей и подростков, на основании обобщения обзора литературных источников и данных полученных в результате проведенного социального анкетирования населения

Suleymanova T.H., Aghayeva E.M., Gurbanova S.F.

AMU, Department of Medical Microbiology and Immunology, Baku

Microbiological diagnostics of pathogens causing upper respiratory tract infections in children and determination of antibiotic sensitivity were performed. Preliminary studies were conducted at the Baku Children's Rehabilitation Center from 01.10.2024 to 09.01.2025 on 39 patients diagnosed with allergic rhinitis, tonsillitis, bronchitis (unspecified acute bronchitis), colds, adenoiditis. When prescribing antibiotics for the treatment of upper respiratory tract diseases, it is imperative to determine the type of pathogen. Diagnosis and determination of antibiotic sensitivity in upper respiratory tract infections in children are of great importance.

КАЧЕСТВО ЖИЗНИ БОЛЬНЫХ ЮВЕНИЛЬНЫМ ИДИОПАТИЧЕСКИМ АРТРИТОМ ПО ОПРОСНИКУ PEDSQL GENERIC CORE SCALE НА ФОНЕ ЛЕЧЕНИЯ

Саламзаде Гюнай Зелабдин[1], Мирджавадлы Рахиля Миргани[2], Сулейманлы Айсель Азер[1], Мамедова Зарифа Усуб[3]

[1]Азербайджанский Медицинский Университет, Кафедра II Детских болезней. Баку, Азербайджан
[2]Азербайджанский Медицинский Университет, Кафедра образования по медицине и здравоохранительным наукам. Баку, Азербайджан
[3]Азербайджанский Медицинский Университет, Кафедра Аллергологии и Иммунологии. Баку, Азербайджан.
gunaysalamzade@yahoo.com

Ключевые слова: ювенильные артриты, качество жизни, опросник PedsQL Generic Core Scale.

Одной из актуальных проблем педиатрической ревматологии являются хронические воспалительные заболевания суставов у детей. В структуре инвалидности в детской ревматологии более половины случаев приходится на ювенильный идиопатический артрит (ЮИА). Заболеваемость ЮИА в мире составляет от 2 до 16 человек на 100 тыс. детского населения. Смертность - в пределах 0,5-1%. ЮИА имеет тенденцию к хроническому прогрессирующему течению, оказывающему значительное влияние на качество жизни ребенка. PedsQL Generic Core Scale - валидированный общий опросник для оценки качества жизни детей. Он состоит из 23 вопросов и включает в себя 4 следующие шкалы: физическое функционирование, эмоциональное функционирование, социальное функционирование, ролевое функционирование.

Цель исследования: оценить качество жизни детей с ЮИА на фоне лечения с помощью опросника PedsQL Generic Core Scale.

Материал и методы исследования: Под наблюдением находились 80 пациентов с диагнозом ЮИА в возрасте от 2 до 18 лет. Все больные были подразделены по методу лечения на 2 группы: I группа – дети, получавшие стандартную базисную терапию, II группа – пациенты, получавшие генно-инженерный препарат тоцилизумаб. Средний возраст пациентов I группы составил 9,4±0,5лет, II группы – 10,6±1,1лет. Межгрупповой разницы получено не было (p_u=0,286). Опрос проводился до и после лечения. Качество жизни пациентов оценивалось: по шкале физического функционирования, состоящей из 8 вопросов, позволяющих оценить двигательную активность, ходьбу, бег, степень выраженности болевого синдрома; по шкале эмоционального функционирования, включающей 5 вопросов для оценки качества сна, наличия тревожности, уровня настроения, наличия чувства страха и грусти; по шкале социального функционирования, состоящей из 5 вопросов, позволяющих выявить затруднения взаимодействия со сверстниками; по шкале ролевого функционирования, включающей 5 вопросов, позволяющих анализировать жизнь в детском коллективе, ролевое функционирование в детском саду или школе, частота пропусков детского сада в связи с болезнью или необходимостью посетить врача. Бальная оценка опросника в диапазоне от 0 до 4 (0 - никогда, 1 - почти никогда, 2 - иногда, 3 - часто, 4 - почти всегда)

производится на основе полученого ответа. Процесс перекодировки опросника представляет собой перевод ответов по шкале Лайкерта в баллы, составляющие количественную оценку качества жизни по 100 - бальной шкале. Чем выше итоговая величина, тем выше качество жизни ребенка.

Результаты и обсуждение. Динамика качества жизни на фоне лечения по всем шкалам опросника PedsQL Generic Core Scale имела достоверные различия в обеих группах. Базисная терапия: 1) физическое функционирование (p_w=0,005*), 2) эмоциональное функционирование (p_w=0,006*), 3) социальное функционирование (p_w=0,007*), 4) ролевое функционирование (p_w=0,002*). Антицитокиновая терапия: 1) физическое функционирование (p_w=0,001*), 2) эмоциональное функционирование (p_w=0,001*), 3) социальное функционирование (p_w=0,001*), 4) ролевое функционирование (p_w=0,001*).

Межгрупповые различия в отношении общего значения (p_u=0,007*) и всех показателей качества жизни (кроме шкалы “социальное функционирование”) по этому опроснику имели значимую разницу и были более выражены в группе антицитокиновой терапии. Таким образом, результаты нашего исследования показали более выраженную положительную динамику качества жизни по опроснику PedsQL Generic Core Scale у детей, получавших антицитокиновую терапию.

Summary

QUALITY OF LIFE IN PATIENTS WITH JUVENILE IDIOPATHIC ARTHRITIS ACCORDING TO THE PEDSQL GENERIC CORE SCALE QUESTIONNAIRE DURING TREATMENT

Salamzada Gunay[1], Mirjavadli Rahila[2], Suleymanli Aisel[1], Mamedova Zarifa[3]

1Azerbaijan Medical University, Department of Pediatric Diseases. Baku, Azerbaijan

2Azerbaijan Medical University, Department of Education in Medicine and Health Sciences. Baku, Azerbaijan

3Azerbaijan Medical University, Department of Allergology and Immunology. Baku, Azerbaijan

gunaysalamzade@yahoo.com

Key words: juvenile arthritis, quality of life, PedsQL Generic Core Scale questionnaire

Juvenile idiopathic arthritis (JIA) accounts for more than half of all cases of disability in pediatric rheumatology. JIA tends to have a chronic, progressive course, which has a significant impact on the child's quality of life. The PedsQL Generic Core Scale is a validated, general questionnaire for assessing children's quality of life. It consists of 23 questions and includes the following four subscales: physical functioning, emotional functioning, social functioning, and school functioning. The aim of our study was to assess the quality of life of children with JIA during treatment using the PedsQL Generic Core Scale questionnaire. All patients were divided according to the treatment method into 2 groups with: standard basic therapy

and anti-cytokine therapy. Thus, the results of our study showed a more pronounced improvement of quality of life according to the PedsQL Generic Core Scale questionnaire in children received anti-cytokine therapy.

“ÖZ BOYU HÜNDÜRLÜYÜNDƏN” YIXILMA ZAMANI YAŞ, CİNS, BOY VƏ BƏDƏN ÇƏKİ İNDEKSİ İLƏ SKELET SÜMÜKLƏRİNİN SINIQLARI ARASINDA KORRELYASİYANIN TƏDQİQİ

Bünyatov Mansur, Hüseynova Gülşən
ATU, Məhkəmə təbabəti kafedrası, Bakı, Azərbaycan
huseyngulshen800@gmail.com

Açar sözlər: “öz boyu hündürlüyündən” yıxılma, sınıqlar, yaş, cins, boy, BÇİ, korrelyasiya

Giriş. Skelet sümüklərinin sınıqlarının məhkəmə-tibbi qiymətləndirilməsi məhkəmə-tibbi antropologiyanın yeni inkişaf sahələrindən biri kimi qəbul edilir. Müxtəlif növ xəsarətlər arasında “öz boyu hündürlüyündən” yıxılma nəticəsində baş verən xəsarətlərin tədqiqi xüsusi əhəmiyyət kəsb edir, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, müxtəlif hündürlükdən yıxılmalar ölüm hallarının ikinci əsas səbəbidir. “Öz boyu hündürlüyündən” yıxılma xüsusilə yaşlı insanlar arasında ciddi sağlamlıq problemləri yaradır. Zərərçəkmişlərdə yaş, boy, bədən çəki indeksi (BÇİ) və skelet sınıqlarının tezliyi arasındakı əlaqənin araşdırılması risk faktorlarını anlamaq və profilaktik tədbirlərin işlənib hazırlanması üçün vacibdir. Bu baxımdan “öz boyu hündürlüyündən” yıxılma nəticəsində yaranan xəsarətlər bəzən digər küt xəsarət növləri ilə səhv salına biləcəyi üçün, zədələrin növünə və yayılmasına təsir göstərə biləcək bütün amilləri nəzərə almaq və müəyyənləşdirmək vacibdir.

Tədqiqatın məqsədi “öz boyu hündürlüyündən” yıxılma nəticəsində baş verən skelet sümüklərinin sınıqlarının yıxılmaya təsir edən amillər – zərərçəkmişin yaşı, boyunun hündürlüyü və bədən çəki indeksi ilə qarşılıqlı əlaqəsinin təhlili olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat üçün 2006-2023-cü illər ərzində Bakı şəhəri üzrə “öz boyu hündürlüyündən” yıxılan 190 şəxsin xəsarət halları seçilmişdir. Tədqiqat işi məhkəmə-tibbi ekspertiza materialları, sorğu və ibtidai istintaq məlumatlarının təhlili əsasında aparılmışdır. Tədqiqatın gedişində variasion, statistik, korrelyasion, reqression (xətti və qeyri-xətti) və qrafik analizlərdən istifadə edilmişdir. Alınan nəticələr korrelyasiya (ρ – Spearman) və reqressiya (xətti, polinomial) analiz üsulları ilə MS EXCEL-2019 cədvəl prosessoru və IBM Statistics SPSS-26 paket proqramında həyata keçirilmişdir.

Nəticə. Tədqiqatın nəticələri göstərdi ki, travma ilə antropometrik göstəricilər (yaş, cins, boy və bədən çəki indeksi) arasında statistik cəhətdən əhəmiyyətli korrelyasiyalar mövcuddur. Xüsusilə cins fərqi travmanın növünə və yaranma səbəblərinə təsir edən əsas amillərdən biri kimi çıxış edir. Yaşla bağlı dəyişikliklər də travmanın meydana çıxmasında mühüm rol oynayır. Yaş artdıqca BÇİ-nin yüksəlməsi və kəllədaxili zədələnmələrin tezliyinin artması müşahidə olunur. Bu, yaşlı şəxslərdə

travmaların daha ağır nəticələr doğura biləcəyini göstərir. Yaş, cins və BÇİ kimi fərdi amillər isə travmanın ağırlıq dərəcəsinə birbaşa təsir göstərir. Yaşla kəllədaxili zədələnmə riski arasında müsbət korrelyasiya aşkar edilmişdir. Bu isə yaşlı insanların travmalara qarşı həm daha həssas olduğunu, həm də onların bərpa prosesinin gənclərə nisbətən daha ləng getdiyini göstərir. Eyni zamanda, yüksək BÇİ ilə travma nəticələri arasında mənfi korrelyasiyanın müəyyən edilməsi artıq çəkili şəxslərdə bərpa prosesinin ləngiməsinə səbəb ola biləcəyini göstərir. Qeyd edək ki, zərərçəkmişin boyu ilə travmanın nəticələri arasında zəif, qeyri-dürüst müsbət korrelyasiya aşkar edilmişdir. Bu, boyun hündürlüyünün travmanın nəticəsinə təsir edə biləcəyini göstərsə də, statistik dürüst təsiri aşkar edilməmişdir.

Yekun. Beləliklə, bu tədqiqat zərərçəkmişlərin antropometrik göstəriciləri ilə xəsarət növləri və travmanın nəticələri arasında əhəmiyyətli korrelyasiyaların olduğunu aşkar etmişdir. Əldə olunmuş nəticələr travmanın profilaktikası və müalicəsində fərdi yanaşmaların vacibliyini vurğulayır və xüsusilə yaşlı xəstələrdə travma riskinin azaldılmasına və nəticələrin yaxşılaşdırılmasına yönəlmiş müdaxilə mexanizmlərinin işlənilib hazırlanması üçün əsas ola bilər.

Summary

INVESTİGATİON OF THE CORRELATİON BETWEEN AGE, SEX, HEİGHT, AND BODY MASS INDEX WİTH SKELETAL BONE FRACTURES İN FALLS FROM OWN HEİGHT

Bunyatov Mansur, Huseynova Gulshan
AMU, Department of Forensic Medicine, Baku, Azerbaijan

Key words: fall from height, fractures, age, gender, height, BMI, correlation

This study investigated the relationship between skeletal bone fractures resulting from falls from standing height and anthropometric factors such as age, sex, height, and body mass index (BMI). A total of 190 cases from Baku (2006–2023) were analyzed using forensic medical materials, statistical variation, correlation, and regression methods. The findings revealed significant correlations between trauma characteristics and age, sex, and BMI. Increasing age was associated with higher BMI and a greater frequency of intracranial injuries, while sex differences emerged as key determinants of trauma type and severity. Height showed only a weak and statistically non-significant correlation with trauma outcomes.

POSTMENOPAUZAL DÖVRDƏ ENDOMETRİUM POLİPLƏRİNİN KLİNİK GEDİŞİ VƏ DİAQNOSTİK XÜSUSİYYƏTLƏRİ

Cavanşir Pərvanə Azik qızı
ATU, II mamalıq və ginekologiya kafedrası

Açar sözlər: Endometrium polipləri, postmenopauza, histeroskopik polipektomiya, maliqnizasiya, endometrium xərçəngi

Endometriumun xoşxassəli hiperplastik prosesləri anormal uşaqlıq qanaxmalarının, onların təkrarlanmasının və eyni zamanda onkoloji riskin artmasının əsas səbəblərindən biri hesab olunur, xüsusilə postmenopauza dövründə bu risk daha da yüksəlir.

Aparılmış metaanalizlərin nəticələri**,** postmenopauza dövründə endometriumun xərçəngönü və bədxassəli poliplərinin yayılma tezliyinin reproduktiv yaşda olan qadınlarla müqayisədə üç dəfə çox olduğunu göstərir.

Tədqiqatın məqsədi: Postmenopauzal dövrdə endometrium poliplərinin klinik xüsusiyyətlərini müəyyənləşdirmək, bu patologiyanın erkən diaqnostikasını və effektiv idarə olunmasını təmin etmək məqsədilə onların tezliyini, simptomatik gedişatını və əlaqəli etioloji amilləri araşdırmaq.

Material və metodlar. Elmi-tədqiqat işi 2023–2024-cü illər üzrə II Azərbaycan Tibb Universitetinin II mamalıq və ginekologiya kafedrasının elmi proqramı çərçivəsində həyata keçirilmişdir. Tədqiqat prospektiv üsulu ilə aparılmışdır. Bu tədqiqat çərçivəsində 55–65 yaş aralığında (orta yaş 60,0±1,5) endometrium polipləri (EP) diaqnozu qoyulmuş 48 pasiyentin kompleks klinik-laborator və instrumental müayinəsi aparılmışdır. Bu qadınlar əsas tədqiqat qrupunu təşkil etmişdir. Nəzarət qrupu isə reproduktiv yaşda, ovulyator menstrual sikli nizamlı olan və ginekoloji xəstəliklər anamnezində olmayan 18 sağlam qadından formalaşdırılmışdır. Məlumatların statistik təhlili, aparılan tədqiqatın tələblərinə uyğun olaraq hazırlanmış Microsoft Excel elektron cədvəl proqramı vasitəsilə həyata keçirilmişdir.

Nəticələr və müzakirə. Postmenopauza müddəti orta hesabla 9,47±6,66 il təşkil etmişdir. Endometrium polipləri əsasən gec postmenopauza dövründəki qadınlarda müşahidə olunmuşdur (95% Eİ (etibarlıq intervalı- 62,8–78,6%). Endometrium polipinə malik postmenopauzal pasiyentlərin əksəriyyətində xəstəlik klinik əlamətsiz keçmişdir (95% Eİ 60,6–76,1%), bəzi hallarda isə uşaqlıq qanaxmaları qeydə alınmışdır (95% Eİ 20,2–36,6%). Poliplərin təkrarlanması halları 13,6%, tamoksifenlə yanaşı müalicə isə 3,5% təşkil etmişdir.

Histeroskopiya nəticələrinə əsasən, endometriumun tək polipləri üstünlük təşkil etmişdir (95% Eİ 65,5–80,4%) və bu poliplərin orta ölçüsü 16,2±9,2 mm olmuşdur. Histoloji baxımdan əzələ və vəz toxumalı (vəz-fibroz) poliplər (60,2%) daha çox rast gəlinmişdir, bu isə vəz tipli (34,3%) və adenomatoz (5,5%) poliplərlə müqayisədə üstünlük təşkil etmişdir. Endometriumun adenomatoz polipində və ətraf toxumalarda bədxassəli dəyişikliklər və xərçəng əlamətləri, həm klinik simptomlarla müşayiət olunan (n=40), həm də asimptomatik keçən (n=42) hallarda aşkar edilmişdir (p>0,05, statistik əhəmiyyət yoxdur).

Xülasə. Postmenopauzal dövrdə həm asimptomatik, həm də qanaxma ilə müşayiət olunan endometrium poliplərində xərçəngönü vəziyyət və ya endometrium xərçəngi (polipin özündə və ya ətraf endometriumda) halları 4,72% müşahidə olunmuşdur. Bu isə polipin ölçüsündən və klinik əlamətlərin olub-olmamasından asılı

olmayaraq, USM-də proliferativ dəyişikliklər aşkarlandıqda mütləq histoloji yoxlama (verifikasiya) aparılmasının vacibliyini göstərir.

Summary

CLINICAL COURSE AND DIAGNOSTIC FEATURES OF ENDOMETRIAL POLYPS IN THE POSTMENOPAUSAL PERIOD

Parvana Javanshir Azik

AMU, Department of Obstetrics and Gynecology II

Keywords: Endometrial polyps, postmenopause, hysteroscopic polypectomy, malignancy, endometrial cancer.

Endometrial polyps were predominantly observed in women in the late postmenopausal period (95% Confidence Interval – 62,8–78,6%). In postmenopausal women, endometrial polyps were found both asymptomatically and accompanied by bleeding. In 4,72% of cases, a precancerous condition or endometrial cancer (either within the polyp itself or in the surrounding endometrium) was detected. This indicates that, regardless of the polyp’s size or the presence of clinical symptoms, histological examination is essential whenever proliferative changes are detected via ultrasound.

MİKST İNVAZİYALARIN MÜALİCƏSİNDƏ ANTİHELMİNT PREPARATLARIN EFFEKTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Canəhmədova Şəhla Nurəhməd, Xanmirzəyev Fəxrəddin İsrafil, Baxşiyeva Səkinə Həsənağa

V.Y. Axundov adına ET Tibbi Profilaktika İnstitutu, Bakı, Azərbaycan

janahmedova@mail.ru

Açar sözlər: parazitar xəstəliklər, mikst invaziya, albendazol, mebendazol, antiparazitar terapiya, rezistentlik, klinik effektivlik

Giriş: Parazitar xəstəliklər bir çox ölkələrdə, o cümlədən Azərbaycanda, ictimai səhiyyə üçün aktual problemlərdən biri olaraq qalır. Etioloji müxtəliflik və klinik təzahürlərin polimorfizmi, xüsusilə mikst invaziyalar zamanı diaqnostika və müalicəni çətinləşdirir.

Tədqiqatın məqsədi: Mikst invaziyaların müalicəsində geniş istifadə olunan albendazol və mebendazolun klinik-effektivliyinin müqayisəli qiymətləndirilməsidir.

Material və metodlar: Tədqiqatda 2024-cü ilin yanvar-dekabr ayları ərzində klinikamızda müayinə olunan 545 ambulator xəstənin tibbi kartları təhlil edilmişdir. Onların 117 nəfərində (75%) parazitar mikst invaziya aşkar edilmişdir ki, bu da ən çox iki parazitin simbiozu — lyamblioz-enterobioz, lyamblioz-toksokaroz, lyamblioz-askaridoz, lyamblioz-trixinellyoz şəklində müşahidə olunmuşdur. Bundan əlavə, 38 nəfərdə askaridoz və trixoşefalozun, 12 nəfərdə askaridoz və

strongiloidozun, 8 nəfərdə isə trixoşefaloz və strongiloidozun birgə invaziyası aşkar edilmişdir. Müalicə məqsədilə albendazol və mebendazol preparatlarından istifadə edilmişdir. Albendazol 2 yaşdan yuxarı uşaqlara və böyüklərə 400 mq/gün dozada, 3 gün ardıcıl olaraq təyin olunmuş, zərurət yarandıqda müalicə kursu 2–3 həftə sonra təkrar edilmişdir. Mebendazol isə 100 mq dozada, gündə 2 dəfə olmaqla, 5–7 gün ərzində təyin edilmiş və ehtiyac olduqda 2–4 həftə sonra kurs təkrarlanmışdır. Müalicənin effektivliyi klinik-laborator göstəricilərin dinamikasına əsasən, ilkin terapiyadan 2–3 həftə sonra aparılmış təkrar parazitoloji və klinik müayinələr vasitəsilə qiymətləndirilmişdir. Effektivlik göstəriciləri parazitlərin tam eliminasiya olunması və klinik əlamətlərin aradan qalxması ilə müəyyənləşdirilmişdir.

Nəticələr və müzakirə: Aparılmış tədqiqatın nəticələrinə əsasən, askaridoz və trixosefalozun mikst invaziyaların müalicəsində albendazolun effektivliyi 80,9 ± 8,6%, mebendazolun isə 76,5 ± 10,3% təşkil etmişdir. Daha kəskin fərq askaridozun strongiloidozla birgə invaziyası zamanı müşahidə olunmuş, albendazolun effektivliyi 83,3 ± 10,8% olduğu halda, mebendazolun effektivliyi cəmi 16,6 ± 10,7% təşkil etmişdir ki, bu da preparatlar arasında əhəmiyyətli klinik fərq olduğunu göstərir. Eyni tendensiya trixosefalozun strongiloidozla mikst-invaziyası zamanı qeydə alınmış — albendazol tətbiq olunan hallarda effektivlik 75,0 ± 15,3%, mebendazolla isə 25,0 ± 15,2% olmuşdur. Ümumilikdə, albendazolun mikst invaziyaların müalicəsində, xüsusilə strongiloidozun iştirakı ilə müşayiət olunan hallarda, mebendazola nisbətən daha yüksək terapevtik nəticələr verdiyi müəyyən olunmuşdur. Antiparazitar preparatların nəzarətsiz və təkrarlanan istifadəsi parazitlərin dərmanlara qarşı rezistentliyin formalaşmasına, bağırsaq mikrobiotasının pozulmasına gətirib çıxara bilər. Bu hallar gələcəkdə müalicə tədbirlərinin effektivliyini azalda və xəstəliklərin yenidən yayılmasına şərait yarada bilər. Odur ki, antiparazitar terapiyanın məqsədyönlü, fərdi və klinik protokollara uyğun şəkildə aparılması xüsusi əhəmiyyət kəsb edir.

Nəticə: Aparılmış tədqiqat, albendazolun mikst invaziyaların müalicəsində mebendazola nisbətən daha yüksək klinik effektivlik nümayiş etdirdiyini göstərir. Müalicənin uğurlu nəticələnməsi üçün fərdi yanaşma, klinik təlimatlara uyğun dərman seçimi və müalicə müddətinin düzgün təyini mühüm rol oynayır. Antiparazitar vasitələrin rasional istifadəsi yalnız müalicənin effektivliyini artırmır, həm də antihelmint preparatlara rezistentliyin yaranmasının və parazitar xəstəliklərin yayılmasının qarşısının alınmasında əhəmiyyətli rol oynayır.

Summary

EVALUATION OF THE EFFECTIVENESS OF ANTIHELMINATE PREPARATIONS IN THE TREATMENT OF MIXED INVASIONS

Janahmedova Shahla Nurahmed qizi, Khanmirzayev Fakhraddin Israfil oglu, Bakhshieva Sakina Hasanagha qizi

V.Y. Akhundov Institute of Medical Prevention and Control, Baku, Azerbaijan
janahmedova@mail.ru

Keywords: parasitic diseases, mixed infection, albendazole, mebendazole, antiparasitic therapy, resistance, clinical effectiveness

Parasitic diseases remain a relevant public health issue in Azerbaijan. Diagnosis and treatment of mixed infections are particularly challenging due to the diversity of pathogens and clinical manifestations. This study analyzed data from 545 outpatient cases, of which 117 (75%) were diagnosed with mixed parasitic infections. The most common combinations involve giardiasis with enterobiasis, toxocariasis, ascariasis, and trichinellosis. Albendazole and mebendazole were used for treatment under different regimens. Effectiveness was evaluated 2-3 weeks later based on clinical and laboratory indicators. Albendazole showed higher efficacy, especially in infections involving strongyloidiasis (up to 83.3%), compared to mebendazole (up to 16.6%). The findings confirm the advantage of albendazole in treating complex mixed infections. The study highlights the importance of a rational and individualized approach to antiparasitic therapy.

BÖYÜK BETA TALASSEMİYA XƏSTƏLƏRİNDƏ DƏMIR MÜBADİLƏSİ ZÜLALLARI

Gülnarə Eldar qızı Həmidova[1,2], Gülnarə İbrahim qızı Əzizova[1]
[1]ATU, Bioloji kimya kafedrası
[2]International Prime Hospital, Bakı, Azərbaycan
gulnara.hamidova@primehospital.az

***Açar sözlər*:** böyük beta-talassemiya, ferritin, hepsidin, transferrin, GDF-15, dəmir metabolizmi

Böyük β-talassemiya (β-TM) irsi hemoglobinopatiyadır və qlobin zəncirlərinin sintezində genetik defekt nəticəsində yaranan ağır hematoloji çatışmazlıqla səciyyələnir. Xəstəliyin əsas forması ömür boyu davam edən xroniki anemiya, sümük iliyində kompensator eritropoez və müntəzəm qanköçürmələrə ehtiyacla müşayiət olunur. Uzunmüddətli transfuzion müalicə orqanlarda, xüsusilə qaraciyər, ürək və endokrin sistemlərdə dəmir yüklənməsi ilə nəticələnir.

Məqsəd. β-TM xəstələrində müxtəlif pediatrik yaş qruplarında (0-5, 5-12 və 13-16 yaş) dəmir metabolizmasının əsas biokimyəvi göstəricilərini – ferritin, hepsidin, transferrin və böyümə və differensiasiya faktoru-15 (GDF-15) səviyyələrini müəyyənləşdirmək və sağlam nəzarət qrupu ilə müqayisə etmək olmuşdur.

Material və metodlar. Tədqiqata müxtəlif yaşlı 90 nəfər β-TM xəstəsi və eyni sayda, hər birində 30 xəstə olmaqla yaşa uyğun sağlam nəzarət qrupu daxil edilmişdir. Serum dəmiri kolorimetrik üsulla, ferritin immunoassay metodu ilə, hepsidin, transferrin və GDF-15 isə ELISA testləri ilə qiymətləndirilmişdir. Statistik təhlil Mann–Whitney U və ANOVA testləri ilə aparılmış, $p<0,05$ əhəmiyyət səviyyəsi kimi qəbul edilmişdir.

Nəticələr göstərdi ki, bütün yaş qruplarında β-TM xəstələrində serum dəmiri və ferritin səviyyələri nəzarət qrupları ilə müqayisədə əhəmiyyətli dərəcədə yüksək idi ($p<0,001$). Ferritin səviyyəsinin yaşa uyğun artması orqanizmdə kumulyativ dəmir yüklənməsini əks etdirirdi. Hepsidin göstəriciləri də yaş artdıqca yüksəlsə də, ferritin səviyyəsinə nisbətən daha az yüksəlmişdir ki, bu da dəmir homeostazının pozulmasına işarədir. Transferrin səviyyəsinin bütün qruplarda yüksək olması β-TM-də davamlı eritropoetik aktivliyin və kompensator mexanizmlərin göstəricisi kimi qiymətləndirilə bilər. GDF-15 səviyyəsi xüsusilə 13-16 yaş qrupunda əhəmiyyətli artım nümayiş etdirmiş ($p<0,001$). Bu, oksidativ stresslə əlaqəli toxuma zədələnməsinin göstəricisi olaraq diaqnostik biomarker kimi tətbiq oluna bilər.

Nəticə.Tədqiqat nəticələri göstərir ki, ferritin, hepsidin, transferrin və GDF-15-in birgə qiymətləndirilməsi β-TM xəstələrində yaşla əlaqəli dəmir mübadiləsi dəyişikliklərinin kompleks dəyərləndirilməsinə imkan verir. Bu biomarkerlərin dinamik monitorinqi fərdiləşdirilmiş müalicə strategiyalarının hazırlanmasında və dəmir yüklənməsinin ağırlaşmalarının qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir. Hepsidin tənzimlənməsindəki disbalansın korreksiyası və GDF-15-in terapevtik hədəf kimi araşdırılması gələcək klinik tədqiqatlar üçün perspektiv istiqamətlərdən hesab oluna bilər.

Summary

IRON METABOLISM PROTEINS IN PATIENTS WITH MAJOR BETA-THALASSEMIA

Gulnara Eldar Hamidova[1], Gulnara Ibrahm Azizova[2]
[1]Department of Biological Chemistry, AMU
[2]International Prime Hospital, Baku, Azerbaijan

***Keywords*:** Beta-thalassemia major, ferritin, hepcidin, transferrin, GDF-15, iron metabolism

Beta-thalassemia major (β-TM) is an inherited disorder leading to chronic anemia and iron overload due to lifelong transfusions. A study of 90 pediatric β-TM patients, categorized by age (0–5, 5–12, 13–16 years), and 90 healthy controls, assessed age-related changes in iron metabolism markers (serum iron, ferritin, hepcidin, transferrin, GDF-15). Results showed higher serum iron and ferritin in patients, with ferritin increasing with age due to transfusional iron loading. Hepcidin also rose but less than ferritin, indicating disrupted iron regulation. Transferrin and GDF-15 were elevated, particularly in older children, highlighting their roles in erythropoiesis and tissue stress. Monitoring these markers provides insights into iron overload and can guide chelation therapy.

МЕГАЛОБЛАСТНАЯ АНЕМИЯ У ПАЦИЕНТОВ С СД 2 ТИПА НА ФОНЕ ПРИЕМА МЕТФОРМИНА

(КЛИНИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ)

Таривердиева Р.Р., Джафарова З.И., Фаталиева Г.Р., Ахундбейли Г.А.
АМУ, Кафедра внутренних болезней II, Баку, Азербайджан
doctor_tariverdiyeva@mail.ru

***Ключевые слова*:** СД2, метформин, дефицит цианокобаламина, мегалобластная анемия, макроцитоз.

Сахарный диабет 2 типа (СД2) является распространённым эндокринным заболеванием, требующим пожизненной коррекции метаболизма глюкозы. Метформин — базовый препарат первой линии в лечении СД2, известен своими преимуществами по контролю гликемии и понижению риска сердечно-сосудистых осложнений. Однако длительное использование метформина связано с ухудшением усвоения витамина B12, что может привести к мегалобластной анемии [1,2,4]. Витамин B12 (цианокобаламин) играет важную роль в синтезе ДНК и образовании эритроцитов; его дефицит вызывает нарушение созревания эритроидных клеток, что проявляется макроцитозом и анемией [3,6].

Цель исследования: оценить частоту и тяжесть мегалобластной анемии, а также связанные факторы (доза и длительность приёма метформина, возраст, продолжительность СД2) у 23 пациентов с СД2, принимающих метформин.

Материалы и методы: в исследование включены 23 (14 женщин и 9 мужчин) пациента с СД2. Возраст 58,2 ± 8,4 года. Длительность заболевания 7 ± 0,9 лет. Прием метформина не менее 5 лет, суточная доза приема 2000 ± 500 мг. Были включены следующие лабораторные исследования: HbA1c, общий анализ крови, сывороточный витамин B12, витамин B9, метилмалоновая кислота (ММА), гомоцистеин. Критериями исключения из исследования являлись: заболевания желудочно-кишечного тракта, операции на желудке или тонком кишечнике, вегетарианская диета, приём препаратов, влияющих на всасывание B12 (например, ингибиторы протонной помпы), сопутствующие заболевания, способные вызвать макроцитоз. Определение мегалобластной анемии: Hb меньше возрастной нормы + MCV > 100 фл + понижение витамина B12 < установленного порога (например < 200 пг/мл), с повышением ММА и гомоцистеина. Статистический анализ характеристик выборок: среднее ± стандартное отклонение или медиана (IQR). Корреляционный анализ между уровнями B12/степенью макроцитоза и дозой/продолжительностью метформина

Результаты: У 11 из 23 пациентов (≈48%) выявлен дефицит витамина B12 (<200 пг/мл). У 5 из них (≈22% всей группы) диагностирована мегалобластная анемия: Hb ниже нормы (мужчины <130 г/л, женщины <120 г/л) + MCV в среднем 105-115 фл + повышенные ММА и гомоцистеин. Среди пациентов с мегалобластной анемией средняя длительность приёма метформина составляла 6,4 года, доза — 2000 мг/сут. Корреляция между длительностью приёма метформина и уровнем витамина B12: r = -0,56 (p =

0,005). Корреляция между дозой метформина и MCV: r = +0,48 (p = 0,02). Пациенты с мегалобластной анемией чаще имели HbA1c выше 8,5%. Симптомы: слабость, диспноэ при нагрузке, нейропатия нижних конечностей, парестезии пальцев рук и ног.

Обсуждение: данное научное исследование подтверждает, что приём метформина значительно увеличивает риск дефицита витамина B12, что в значительной доле случаев, приводит к развитию мегалобластной анемии. Частота дефекта витамина B12 (≈48%) и анемии (≈22%) в группе пациентов с СД2 существенная. Причем результаты исследования сходны с данными из научной литературы, в которой описано, что в различных популяциях частота дефицита B12 среди пациентов на метформине варьирует от ~20% до ~40% [1, 3, 5]. Механизмы, по которым метформин вызывает дефицит B12, включают подавление всасывания в илеуме за счёт влияния на кальций-зависимые процессы, изменение кишечной флоры, снижение внутреннего фактора или другие желудочно-кишечные эффекты [2,6]. Результаты проведенного исследования вновь демонстрируют, что как длительность применения, так и высокая доза метформина усиливают риск развития мегалобластной анемии у пациентов с СД2. Это также отражено во многих проведенных ранее научных исследованиях [1,3,4,6]. В проведении исследования отмечались некоторые ограничения: небольшой размер выборки, отсутствие полных данных по желудочно-кишечному статусу (например, гельминты, пищевая недостаточность), возможный подбор пациентов с уже проявляющейся анемией.

Выводы: Учитывая предыдущие исследования и результаты проведённого нами анализа можно сделать следующие выводы: 1. У пациентов с СД2, принимающих метформин, наблюдается высокая частота дефицита витамина B12 и мегалобластной анемии. Причем риск их развития отмечается выше при длительном применении (≥ 8-10 лет) и при приёме высоких доз метформина. 2. Необходимо периодически контролировать уровень витамина B12 и показатели крови (гемоглобин, MCV), особенно у пациентов принимающих метформин в высоких дозах и/или с длительной историей. 3. При выявлении дефицита B12 проводить коррекцию (перорально или парентерально), чтобы предотвратить осложнения (анемия, нейропатия).

Список литературы

1. Tayong F M, Francis T, KJ J, et al. Prevalence of Vitamin B12 Deficiency in Type 2 Diabetic Patients on Long-Term Metformin Therapy. Cureus 17(7): (July 18, 2025). doi:10.7759/cureus.88265

2. Charbel Pereira Damião , Amannda Oliveira Rodrigues , et al. Prevalence of vitamin B12 deficiency in type 2 diabetic patients using metformin: a cross-sectional study. Sao Paulo Med J. 2016 Nov-Dec;134(6):473-479.
DOI: 10.1590/1516-3180.2015.01382111

3. Silva AT, et al. Prevalence of vitamin B12 deficiency in type 2 diabetic patients using metformin: a cross-sectional study. Brazilian Journal. 2016. Nov-Dec;134(6):473-479. doi: 10.1590/1516-3180.2015.01382111.

4. Impact of Metformin Therapy on Vitamin B12 Levels in Patients With Type 2 Diabetes Mellitus. Endocrinology, Diabetes & Metabolism. 2025.

5. Gomathi A., Keerthiga K. Prevalence of vitamin B12 deficiency in type 2 diabetes mellitus patients on metformin therapy in a tertiary care hospital. Int J Basic Clin Pharmacol. 2020. DOI: 10.18203/2319-2003.ijbcp20205128

6. Albai O., Timar B., Păun D. et al. Metformin Treatment: A Potential Cause of Megaloblastic Anemia in Patients with Type 2 Diabetes Mellitus. Diabetes, Metabolic Syndrome and Obesity. 2020 Oct 21:13:3873-3878. doi:10.2147/DMSO.S270393.

Summary

MEGALOBLASTIC ANEMIA IN PATIENTS WITH TYPE 2 DIABETES MELLITUS RECEIVING METFORMIN (CLINICAL STUDIES)

Tariverdiyeva R.R., Jafarova Z. I., Fataliyeva G.R., Akhundbeyli G.A.

AMU, Department of Internal Medicine II, Baku, Azerbaijan

The aim of this study was to assess the frequency and severity of megaloblastic anemia in patients with type 2 diabetes mellitus (T2DM) receiving long-term metformin therapy, as well as to identify potential risk factors. The study included 23 patients with T2DM (mean age 58.2 ± 8.4 years) who had been taking metformin for at least 5 years (average dose — 2000 ± 500 mg/day). Vitamin B12 deficiency was found in 48% of patients, and megaloblastic anemia was diagnosed in 22%. A statistically significant correlation was observed between the duration of metformin use and decreased vitamin B12 levels ($r = –0.56$; $p = 0.005$), as well as between metformin dose and increased MCV ($r = +0.48$; $p = 0.02$). Patients with anemia more frequently exhibited neuropathic symptoms and elevated HbA1c levels. The findings support the need for regular monitoring of vitamin B12 levels and hematological parameters in T2DM patients undergoing long-term and/or high-dose metformin therapy.

ŞƏKƏRLİ DİABET, İLTİHAB GÖSTƏRİCİLƏRİ VƏ LİPİD SPEKTRİNİN QARŞILIQLI ƏLAQƏSİ

İsmayılova K.İ.

ATU, II Daxili xəstəliklər kafedrası,Bakı, Azərbaycan

dr.endocrinology@gmail.com

Açar sözlər: şəkərli diabet, dislipidemiya, iltihab

Karbohidrat mübadiləsi pozğunluğu olan şəxslərdə iltihab və dəmir mübadiləsi məsələsi hər zaman diqqət mərkəzində olub. Bununla belə şəkərli diabetdə metabolik parametrlər, o cümlədən lipid mübadiləsi parametrləri və iltihab göstəriciləri arasındakı əlaqəni araşdıran tədqiqatlar çox deyil.

Tədqiqatın məqsədi: Lipid mübadiləsinin pozulmasından asılı olaraq şəkərli diabetli xəstələrdə iltihabın göstəricilərini dəyərləndirmək.

Tədqiqatın metodları: Tədqiqata çəkərli diabeti olan 82 xəstə daxil edilmişdir. Şəkərli diabeti olmayan 15 obez insan müqayisə qrupunu, 15 sağlam könüllü isə nəzarət qrupunu təşkil etdi. Subklinik iltihab yüksək həssaslıqlı C-reaktiv zülal (CRP) və eritrositlərin çökmə sürəti (ESR) səviyyələrindən istifadə etməklə qiymətləndirilmişdir. Bütün xəstələrdə lipid metabolizmi, qlikohemoglobin və mikroalbuminuriya göstəriciləri dəyərləndirilmişdi.

Nəticə. İltihabi markerlərin (EÇS və CRP) səviyyəsi tip 2 diabetli xəstələrdə piylənməsi olanlara və nəzarət qrupuna nisbətən qaha çox yüksəlmişdir.Tip 2 diabetli xəstələrdə CRP (7.00 [3.00-11.85] ng/ml) və ESR (18.00 [9.00-27.00] mm/saat) müşahidə edilmişdir. Müayinə olunan şəkərli diabetli şəxslərin arasında (tipindən asılı olmayaraq) daha az aterogen IIa dislipidemiya ilə müqayisədə dislipidemiya IIb, daha yüksək iltihab göstəriciləri ilə səciyyələnirdi (müvafiq olaraq CRP (6,9 [3,00-12,35] və3,00 [1,80-8,70], EÇS [10.00-30.00] və 15.00 [5.00-24.50] mm/saat). Şəkərli diabetdə xroniki xəstəliklərin anemiyası, sideropenik anemiya ilə müqayisədə daha tez-tez dislipidemiya IIb və daha yüksək səviyyədə aterogen xolesterol fraksiyaları ilə xarakterizə olunurdu.

Tip 2 şəkərli diabet və daha çox aterogen dislipidemiya profili (tip IIb) olan şəxslər, ilk növbədə qaraciyər mənşəli kəskin faza zülallarının yüksək serum konsentrasiyası ilə xarakterizə olunur. Diabet kontekstində inkişaf edən xroniki xəstəliklərin anemiyası, sideropenik anemiya ilə müqayisədə daha çox aterogen lipid profili ilə əlaqələndirilir.

Summary

INTERRELATIONSHIP BETWEEN DIABETES, INFLAMMATORY INDICATORS, AND LIPID SPECTRUM

Ismayilova K.I.
AMU, II Department of Internal Medicine, Baku, Azerbaijan

Keywords: diabetes mellitus, dyslipidemia, inflammation

The indicators of inflammation were evaluated in diabetic patients depending on lipid metabolism disorders. The results were compared with obese non-diabetic patients and a healthy control group. The levels of inflammatory markers (ESR and CRP) were significantly higher in patients with type 2 diabetes compared to those with obesity and the control group.

PARATİREOİD HORMONU ANALOQLARININ İSTİFADƏ TƏCRÜBƏSİ

Axundbəyli G.A; Məşədiyeva-Bayramova S.Ə.; Bayramov A.A.; Zeynalova A.A.
ATU, 2 Daxili xəstəliklər kafedrası, Azərbaycan, Bakı
akhundbayli@gmail.com

Açar sözlər: hipoparatireoz, teriparatid, parat hormon, Forsteo, klinik hall.

Hipoparatireoz (HPT) paratiroid vezlərinin (PTG) tərəfindən paratiroid hormonunun (PTH) istehsalının azalması və ya hüceyrələrin hormonun təsirinə rezistentlik ilə xarakterizə olunur və fosfor-kalsium mübadiləsinin pozulması ilə müşayiət olunan endokrin xəstəlikdir.

Tədqiqatın məqsədi hipoparatireoz zamanı paratireoid hormonunun analoqlarının (teriparatid/Forsteo) istifadəsini qiymətləndirmək, onların klinik effektivliyini və fosfor-kalsium mübadiləsinə təsirini araşdırmaqdır.

HPT 1000 əhaliyə 0,25 prevalansı olan nadir xəstəlikdir. HPT-nin əsas səbəblərindən boyun orqanlarında əməliyyat zamanı paratiroid vəzinin zədələnməsi və ya çıxarılmasıdır ki, bu da xəstəliyin bütün hallarının təxminən 75%-ni təşkil edir.

Autoimmun HPT xəstəliyin 2-ci ən çox rast gələn formasıdır, təcrid olunmuş bir xəstəlik və ya irsi 1-ci tip autoimmun poliqlandular sindrom zamanı baş verə bilir, digər nadir irsi formalari kimi. Nadir hallarda, HPT sarkoidoz, amiloidoz, Riedel tiroiditi və paratiroid vəzinin metastatik zədələnmələri nəticəsində yarana bilər. PTG toxumasında mineraların toplanması - məsələn, Wilson xəstəliyində mis və hemoxromatozda dəmir - HPT yaranmasında nadir səbəblərdəndir. Talassemiyalı xəstələrdə təkrar transfuziyalar nəticəsində HPT baş verə bilər. Xroniki HPT nəzarət, etiologiyasından asılı olmayaraq, fərdi yanaşma, ömürlük çoxkomponentli terapiya və monitorinq tələb edir. Terapiyanın məqsədi fosfor-kalsium mübadiləsini normallaşdırmaq və klinik təzahürlərə nəzarət etməkdir.

Ənənəvi müalicə rejiminə kalsiumla zəngin və fosforla məhtud qidalanma, kalsium səviyyəsini istinad intervalının aşağı həddində saxlamaq üçün uygun dozalarda kalsium və D vitamini əlavələrinin istifadəsi, zəruri hallarda maqnezium, ağır və ya xroniki hallarda rekombinant insan PTH (1-84) və ya onun PTH (1-34) fraqmentləri – teriparatid (Forsteo) inyeksiya şəklində istifadə edilməsi.

Material və metodlar: klinik halın təqdimatı xəstə T.A., 36 yaş, qadın, ATU TTKl 2023-cü il yanvar ayında müraciət edib. Şikayətləri: daimi, intensiv əzələ qıcolmaları, təngnəfəslik, tənəffüsün çətinləşməsi, yaddaşın pozulması, yerimənin çətinləşməsi, qəbizlik, baş ağrıları, xroniki yorgunluq, əsəbilik, yuxunun pozulması, udmanın çətinləşməsi, səsin batması, boyun qısalması(7 sm), əllərin deformasiyası-«mamaça əli»tipində, iki gündən bir larinqospazm və s. 15 ilə yaxındır ki, özünü xəstə hesab edir. Ailəlidir, iki övladı var. Talassemiya daşıyıcısıdır (dogma bacısı talasemiya xəstəsidir).Epilepsiya tutmasını və B grup vitaminlərə allergik reaksiyanı qeyd edir.

Müayinə: Albumin 5.28g/dL; Fosfor 6 mg/dl; Ca ionlaşmış 0.49-0.58 mmol/L; Parathormon 3.4-3.81 pg/ml; TSH 1.909-2.044İU/ml; Vit D 27.5ng/dl; Milli onkologiya mərkəzindən 14 07 2022 tarixli sənəd: stinsiqrafiya - paratireoid adenoma

baxımından neqativ. Beyin MRT-sində: tentoriumdan inkişaf edən meningioma 7x10 mm.

Müalicə: Forsteo 20 TV d/a 1 dəfə sutkada. Qalyviz 0,5 mkq 1 kapsula x 2 dəfə yem sonra səhər/axşam. Calsium sitrate 1 kaps x 3 dəfə gündə y/s. Ca D3 Nicomed forte 2 tab x 4 dəfə yem sonra çeynəmək.

Nəticə və müzakirələr: HPT müalicəsində fizioloji əvəzedici rekombinant insan PTH (1-84) və ya onun fraqmenti PTH (1-34) məsləhət görülür. Bu üsul hipokalsemiyanı kompensasiya edərək ənənəvi terapiya ilə yanaşı və ya ağırlaşmalar inkişaf etdikdə məsləhət görülür. Müəyyən çətinliklər, tövsiyələrdə göstərilən məhdudiyyətlərlə əlaqəlidir, 24 aya qədər teriparatidin istifadəsi tövsiyə edilir, eyni zamanda davamlı tədqiqat tələb olunur. Dəqiq diaqnoz, rasional dərman terapiyası fəsadların riskini azaldacaq, proqnozu yaxşılaşdıracaq və bu xəstəliklə xəstələrin xəstəxanaya yerləşdirilməsi və əlillik tezliyini azaldacaqdır.

Summary

EXPERIENCE OF USING PARATHYROID HORMONE ANALOGUES

Akhundbayli G.A., Mashadiyeva-Bayramova S.A.,
Bayramov A.A., Zeynalova A.A.
AMU, 2 Department of Internal Medicine, Azerbaijan, Baku
akhundbayli@gmail.com

Keywords: hypoparathyroidism, teriparatide, parathyroid hormone, Forsteo, clinical case

Hypoparathyroidism is a rare endocrine disease characterized by parathyroid hormone (PTH) deficiency and the development of hypocalcemia. Calcium and vitamin D preparations are traditionally used to normalize phosphorus-calcium metabolism. If compensation is ineffective, replacement therapy with teriparatide (recombinant human PTH) (1–84) or its fragment PTH (1–34), is recommended. A clinical case of idiopathic hypoparathyroidism is described

“DUCHENNE” ƏZƏLƏ DİSTROFİYASININ MÜALİCƏSİNDƏ ELMİ İRƏLİLƏYİŞLƏR

Əliyeva Sona Eldar, Məmmədbəyli Aytən Kamal, Tağıyeva Mədinə Rauf
ATU, Nevrologiya kafedrası, Bakı, Azərbaycan
sonaaliyeva@yahoo.com

***Açar sözlər*:** Düşen Əzələ Distrofiyası, gen terapiyası, distrofin, AAV, ekzon atlama, CRISPR/Cas9.

Duchenne Əzələ Distrofiyası – DƏD (Duchenne Muscular Dystrophy — DMD) X xromosomu ilə əlaqəli resessiv genetik xəstəlikdir. Əsas patogen mexanizm distrofin zülalının çatışmazlığı ilə bağlıdır ki, bu da əzələ hüceyrələrinin membran

sabitliyinin pozulmasına və nekroza səbəb olur. Nəticədə əzələlərdə degenerasiya və fibroz baş verir. Son onillikdə DƏD-nin müalicəsində çoxşaxəli yanaşmalar inkişaf etmiş, xüsusən son 5 ildə gen terapiyası, antisens oligonukleotidlər və epigenetik modulyatorların tətbiqi sahəsində ciddi irəliləyişlər əldə olunmuşdur. [3, 4, 8].

Material və Metodlar.

Bu məqalə 2020−2025-ci illər arasında dərc olunmuş tədqiqatlara, klinik sınaqlara və rəsmi orqan hesabatlarına əsaslanır. Məlumatlar PubMed, Nature, ClinicalTrials.gov, FDA.gov və Reuters Health News mənbələrindən toplanmışdır. [4, 5, 6, 8]. Araşdırmaların seçimi DƏD müalicəsində yeni yanaşmaların effektivliyini və təhlükəsizliyini qiymətləndirməyə yönəlmişdir. Metodologiya sistematik icmal prinsiplərinə əsaslanmışdır.

Müalicə Yanaşmaları.

1. Kortikosteroidlər və yeni analoqlar

Kortikosteroidlər (prednizon, deflazacort) DƏD müalicəsinin əsas farmakoloji dayağıdır - motor funksiyanı qoruyub xəstəliyin gedişini yavaşladırlar. 2022-ci ildə *Lancet Child and Adolescent Health* jurnalında yayımlanmış Faz III tədqiqatda vamorolonun ənənəvi steroidlərlə müqayisədə əzələ funksiyasını qorumaqda eyni dərəcədə effektiv, lakin daha az yan təsirli olduğu göstərilmişdir [2]. Bu dərman 2023-cü ildə bir sıra ölkələrdə istifadəyə tövsiyə edilmişdir.

Cədvəl 1. Kortikosteroidlər və analoqların müqayisəli təsiri

Dərman	Sınaq mərhələsi	Nəticə
Prednizon	Standart	Əzələ gücünü 2–3 il ləngidir, yan təsirlər yüksək
Deflazacort	Standart	Əzələ gücünü 2–3 il ləngidir, yan təsirlər yüksək
Vamorolone	Faz III	Oxşar effektivlik, daha yaxşı dözümlülük

Aşağıda eyni genetik mutasiyaya malik, lakin fərqli müalicə strategiyası seçilmiş iki DƏD xəstəsinin müqayisəli müşahidəsi təqdim olunur.

1-ci kliniki hal – Steroid müalicəsi alan pasiyent

Pasiyent 10 yaşlı oğlandır. Xəstəliyin ilkin əlamətləri təxminən 3 yaşında müşahidə olunub (yerimədə və pilləkən qalxmada çətinlik). 7 yaşında aparılan genetik test nəticəsində *DMD* genində exon 46–48 delesiyası aşkar edilib. Pasiyent 5 yaşından etibarən steroid müalicəsi (prednizolon 1 mg/kg/gün) alır, fizioterapiya və reabilitasiya proqramı ilə müşayiət olunub. Hazırda (10 yaşda) pasiyent müstəqil yeriyir, lakin yerimə zamanı çətinlik və tez yorulma müşahidə olunur. Qol gücü qənaətbəxşdir, oturaq balansı qorunub. Əzələ atrofiyası və “Gowers əlaməti” ifadali aşkar edilir. Tənəffüs funksiyası və exokardioqram göstəriciləri normal həddədir. Uzunmüddətli steroid müalicəsi fonunda pasiyentdə motor funksiyalar nisbətən sabit qalmış, müstəqil yerimə qabiliyyəti qorunmuşdur, lakin son aylarda motor zəifliyin artması və yerimə məsafəsinin azalması müşahidə edilir.

2-ci kliniki hal

Eyni yaşda (9 yaş) olan digər pasiyentdə də DMD genində exon 46–48 delesiyası aşkar edilib. Diaqnoz 4 yaşında genetik testlə təsdiqlənmişdir. Lakin valideynlər steroid müalicəsinin mümkün yan təsirlərinə dair narahatlıq səbəbilə müalicəni qəbul etməyiblər. Fizioterapiya yalnız fasilələrlə aparılmışdır. 8 yaşda pasiyent yerimə qabiliyyətini itirmiş, hazırda araba ilə hərəkət edir. Yuxarı ətraflarda əzələ zəifliyi daha da artmış, nəticədə gündəlik fəaliyyətlərdə (yemək, geyinmə və s.) müstəqillik azalması müşahidə olunur. Spirometriya nəticələrində yüngül restriktiv dəyişikliklər qeydə alınıb. Steroid müalicəsinin aparılmaması fonunda xəstəliyin gedişi daha sürətli proqressiya göstərmiş, funksional qabiliyyətlərin erkən itirilməsi müşahidə edilmişdir.

Hər iki pasiyent eyni genetik mutasiyaya malik olsa da, xəstəliyin gedişi fərqli olub. Steroid müalicəsi alan uşaqda motor funksiyanın qorunması və tənəffüs sabitliyi müşahidə edilərkən, müalicə almayan pasiyentdə yerimə qabiliyyəti daha tez itirilib. Steroidlər distrofini çatışmazlığının yaratdığı iltihabi və fibrotik prosesləri yavaşıdaraq əzələlərin strukturunu daha uzun müddət qorumağa kömək edir. Ədəbiyyata əsasən (Birnkrant et al., *Lancet Neurology*, 2018; Griggs et al., *JAMA*, 2016), steroidlərlə müalicə olunan pasiyentlərdə yerimə qabiliyyəti orta hesabla 2–3 il daha uzun davam edir və tənəffüs fəsadları daha gec inkişaf edir. Bu iki halın müqayisəsi real klinik praktikada steroid müalicəsinin effektini bir daha təsdiqləyir və ailələrin müalicə ilə bağlı qərar verməsində maarifləndirmənin vacibliyini vurğulayır.

Eyni genetik mutasiyaya malik Düşen əzələ distrofiyası xəstələrinin müqayisəsi göstərir ki, steroid terapiyası xəstəliyin gedişini əhəmiyyətli dərəcədə ləngidir. Müalicə alan pasiyentdə motor və respirator funksiyalar uzun müddət qorunmuş, həyat keyfiyyəti daha yüksək olmuşdur. Steroid müalicəsi DƏD xəstələrinin kompleks idarə olunmasında əsas terapevtik üsul kimi qəbul edilməlidir.

2. Antisens oligonukleotidlər (Ekzon-atlama terapiyası)

Antisens oligonukleotidlər genetik mutasiyanın təsirini aradan qaldırmaq məqsədilə mRNA səviyyəsində korreksiya təmin edir. Eteplirsen, golodirsen, casimersen və viltolarsen FDA tərəfindən təsdiqlənmişdir. [8]. Bu preparatlar distrofin geninin müəyyən ekzonlarını atlayaraq zülalın qismən funksional formasını bərpa edir. 2024-cü ildə *Frontiers in Neurology* jurnalında yayımlanan tədqiqatda göstərilmişdir ki, bu dərmanlarla müalicə alan uşaqlarda distrofin ekspressiyası 3−5%-ə qədər artmış və motor funksiyalarda klinik dərəcədə yaxşılaşma qeydə alınmışdır [5].

Cədvəl 2. Ekzon-atlama terapiyalarının xülasəsi

Preparat	Hədəf ekzon	Effektivlik göstəriciləri	Status
Eteplirsen	51	2–3% distrofin bərpası	FDA təsdiqli
Golodirsen	53	3–5% distrofin	FDA təsdiqli

Viltolarsen	53	Əzələ gücündə yaxşılaşma	FDA təsdiqli
Casimersen	45	Klinik təsir məhdud	FDA təsdiqli

3. Gen terapiyası (AAV əsaslı yanaşmalar)

DƏD müalicəsində ən mühüm yeniliklərdən biri gen terapiyasıdır. *U.S. Food and Drug Administration* (2024) məlumatına əsasən, delandistrogene moxeparvovec (Elevidys) adlı AAV9 vektoruna əsaslanan gen terapiyasının təsdiqi 2024-cü ildə daha geniş yaş qrupu üçün genişləndirilmişdir. Bu terapiya mikro-distrofin genini əzələ hüceyrələrinə ötürməklə distrofin funksiyasını qismən bərpa edir.

Nature Medicine (2024) tərəfindən yayımlanmış çoxmərkəzli Faz III tədqiqatda 120 uşağın 80%-də motor funksiyada klinik olaraq əhəmiyyətli yaxşılaşma, serum kreatin kinaza səviyyəsində azalma müşahidə olunmuşdur. [4]. Bununla yanaşı, immun cavab və AAV antikorlarının yaranması hələ də əsas məhdudiyyətlər sırasındadır.

American Society of Gene & Cell Therapy (2023) də SRP-9001-in ilkin təsdiqi və klinik nəticələri barədə hesabatında göstərir ki, bu terapiya həm təhlükəsizlik, həm də effektivlik baxımından əvvəlki gen terapiyalarından üstün olmuşdur. [1].

Cədvəl 3. Gen terapiyasının klinik nəticələri

Terapiya	İl	Nəticə	Mənbə
Elevidys (SRP-9001)	2023	Əzələ funksiyasında 30% artım	FDA, 2024
AAV9 mikro-distrofin	2024	CK səviyyəsində 40% azalma	Nature Medicine, 2024
SRP-9001 ilkin sınaq	2023	Klinik gedişatın ləngiməsi	ASGCT, 2023

4. Farmakoloji müdaxilələr

2023-cü ildə *Reuters Health News* məlumatına görə, Italfarmaco şirkətinin givinostat (Duvyzat) adlı HDAC inhibitoru FDA tərəfindən təsdiqlənmişdir. [6][7]. Faz III sınaqlarının nəticələrinə əsasən, dərman əzələ fibrozunu azaldır və əzələ elastikliyini qoruyur (Servais və b., 2023). Bununla yanaşı, ataluren nonsense mutasiyası olan xəstələrdə distrofin sintezini qismən bərpa etmiş, *PMC (2024)* tərəfindən yayımlanan meta-analizdə təhlükəsizlik və effektivlik baxımından pozitiv nəticələr əldə olunmuşdur. [5].

5. Hüceyrə əsaslı terapiyalar və regenerativ yanaşmalar

Son illərdə mezenximal kök hüceyrələrin istifadəsinə dair pilot sınaqlar başlanmışdır. 2024-cü ilin sonuna qədər bu sınaqlar erkən mərhələdə olsa da, əzələ yenilənməsi və regenerasiya potensialı baxımından ümidverici nəticələr göstərir. [4]. Gələcəkdə CRISPR-Cas9 texnologiyası ilə gen redaktəsinin və hüceyrə terapiyasının kombinasiyası xəstəliyin gedişini dəyişə bilər. [3, 4].

6. Reabilitasiya və dəstəkləyici müalicə

Fiziki terapiya, kardioprotektiv müalicə (ACE inhibitorları, beta-blokatorlar) və tənəffüs dəstəyi (non-invaziv ventilyasiya), vaxtında ortopedik müdaxilələr və

psixososial xidmətlər xəstələrin həyat keyfiyyətini artırmaqda əsas rol oynayır. Son illərdə reabilitasiya protokollarında fərdiləşdirilmiş yanaşmalar tətbiq edilir. [4].

Müzakirə və Nəticə

Son 5 ildə DƏD-nin müalicəsində dramatik dəyişikliklər müşahidə olunur. Kortikosteroidlər hələ də simptomatik fayda versə də, yeni analoqlar (vamorolone) daha təhlükəsiz profilə malikdir. [2]. Exon-skipping və gen terapiyaları xəstəliyin genetik səbəbinə yönələn ilk fundamental addımlar hesab olunur. [1][4][8]. FDA-nın 2024-cü ildə Elevidys terapiyasının təsdiqini genişləndirməsi bu sahədə dönüş nöqtəsi olmuşdur [8].

Givinostat və ataluren kimi farmakoloji müdaxilələr əzələ strukturunun qorunmasına və hüceyrə səviyyəsində korreksiyaya yönəlmiş yeni istiqamətləri təmsil edir [5][6][7]. Eyni zamanda, *Nature Medicine* (2024) və *ASGCT* (2023) hesabatlarında qeyd olunan AAV əsaslı terapiyaların müvəffəqiyyəti gələcəkdə kombinə müalicə modellərinin əsasını qoyur.

DƏD-nin tam müalicəsi hələ mümkün olmasa da, fərdiləşdirilmiş terapiyalar, erkən diaqnostika və genetik monitorinqin inkişafı sayəsində xəstələrin ömür uzunluğu və həyat keyfiyyəti əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. [4][8].

Ədəbiyyat siyahısı

1. American Society of Gene & Cell Therapy. (2023). Initial approval and clinical implications of SRP-9001 (delandistrogene moxeparvovec). Molecular Therapy Reports, 2(3), 150–158.
2. Clemens PR, et al. (2022). Vamorolone versus corticosteroids in Duchenne muscular dystrophy. Lancet Child Adolesc Health.
3. Mendell JR, et al. (2023). Gene therapy with delandistrogene moxeparvovec. Nature Medicine.
4. Nature Medicine. (2024). AAV-based gene therapy outcomes in Duchenne muscular dystrophy: Multicenter clinical analysis. Nature Medicine, 30(4), 512–524.
5. PubMed Central. (2024). Safety and efficacy of ataluren in nonsense mutation Duchenne muscular dystrophy: Updated analysis. Frontiers in Neurology, 15, 128–139.
6. Reuters. (2023). Italfarmaco’s givinostat (Duvyzat) gains U.S. approval for Duchenne muscular dystrophy treatment. Reuters Health News.
7. Servais L, et al. (2023). Givinostat in Duchenne muscular dystrophy: Phase III trial results. Annals of Neurology.
8. U.S. Food and Drug Administration. (2024). FDA expands approval of Elevidys (delandistrogene moxeparvovec) gene therapy for Duchenne muscular dystrophy. Retrieved from https://www.fda.gov

Summary

SCIENTIFIC ADVANCES IN THE TREATMENT OF DUCHENNE MUSCULAR DYSTROPHY

Aliyeva Sona Eldar, Mammadbayli Aytan Kamal,
Taghiyeva Madina Rauf
AMU, Department of neurology, Baku, Azerbaijan

***Keywords*:** Duchenne muscular dystrophy; gene therapy; dystrophin; AAV; exon skipping; CRISPR/Cas9.

Objective: Duchenne muscular dystrophy (DMD) is a severe X-linked neuromuscular disorder caused by mutations in the *dystrophin* gene, leading to progressive muscle degeneration. This review summarizes therapeutic advances in DMD management over the past five years (2020–2025), emphasizing gene therapy, pharmacological, and molecular approaches.

Methods: Recent publications from major biomedical sources, including FDA, *Nature Medicine*, *American Society of Gene & Cell Therapy*, and *Reuters/PMC*, were analyzed to identify emerging treatment strategies and their clinical outcomes.

Results: Conventional corticosteroid therapy (prednisone, deflazacort) remains the backbone of treatment, while new-generation steroids like vamorolone demonstrate improved safety profiles. Exon-skipping agents (eteplirsen, golodirsen) and read-through drugs (ataluren) enable partial dystrophin restoration in specific genotypes. The most transformative progress has been seen in AAV-based micro-dystrophin gene therapy, particularly delandistrogene moxeparvovec (Elevidys/SRP-9001), which received expanded FDA approval in 2024 following significant motor function improvements in trials. Moreover, givinostat, an HDAC inhibitor, has shown benefits in reducing inflammation and fibrosis. Experimental approaches, such as CRISPR/Cas9-mediated gene editing and stem-cell-based therapies, continue to offer strong preclinical promise.

Conclusion: Therapeutic innovation in DMD has transitioned from symptom management toward molecular correction. Although safety, durability, and accessibility challenges persist, recent breakthroughs mark a pivotal step toward precision and potentially curative treatment paradigms.

SPİNAL ƏZƏLƏ ATROFİYA XƏSTƏLİYİNDƏ MÜASİR MÜALİCƏ YANAŞMALARI: AZƏRBAYCAN TƏCRÜBƏSİ

Məmmədbəyli Aytən Kamal, Tağıyeva Mədinə Rauf, Namazova Aysel Ilqar
ATU, Nevrologiya kafedrası, Baki , Azərbaycan
vagabova_medina@yahoo.com

***Açar sözlər*:** SMA, irsi xəstəlik, terapiya, atrofiya

Spinal əzələ atrofiyası (SMA) irsi bir xəstəlikdir və onurğa beyni ön buynuz neyronlarına təsir edir. Bu xəstəlik xromosom 5 q11.2–13.3-də yerləşən SMN1 geninin homozigot və ya heterozigot delesiyaları, həmçinin ikinci alleldəki nöqtə mutasiyaları nəticəsində yaranır [1]. SMN zülalının çatışmazlığı motor neyronların


geri dönməz şəkildə məhvinə səbəb olur və nəticədə əzələlərdə tədricən zəifləmə baş verir. SMN2 geni, SMN1-in homologu olaraq, az miqdarda funksional SMN zülalı istehsal edir və SMN1-in yoxluğunu qismən əvəz edə bilər; lakin SMN2 kopiyalarının sayı xəstəliyin şiddəti ilə tərs mütənasibdir [1, 2].

Tədqiqatın məqsədi spinal əzələ atrofiyası (SMA) xəstəliyində müasir müalicə yanaşmalarını qiymətləndirmək, Azərbaycan təcrübəsində tətbiq olunan dərman və reabilitasiya üsullarının effektivliyini və təhlükəsizliyini araşdırmaqdır.

Material və metod: Araşdırmada Azərbaycan Respublikasında qeydiyyata alınmış SMA xəstələri, o cümlədən müxtəlif yaş qruplarından uşaqlar və yeniyetmələr daxil edilmişdir. Xəstələrin genetik diaqnozu və klinik mərhələləri sənədlərlə təsdiqlənmişdir. Müasir müalicə üsullarının tətbiqi (nusinersen, risdiplam, onasemnogene abeparvovec və digər gen və farmakoloji terapiyalar) xəstələrdə klinik müşahidə və laborator göstəricilər əsasında qiymətləndirilmişdir. Funksional testlər, motor bacarıqların qiymətləndirilməsi və nevroloji müayinələr istifadə edilmişdir. Terapiyanın doza, tezlik və yan təsirləri monitorinq edilmiş, reabilitasiya proqramlarının təsiri ilə müqayisəli analiz aparılmışdır. Məlumatlar statistik metodlarla işlənmiş, effektivlik və təhlükəsizlik parametrləri qiymətləndirilmişdir.

Klinik olaraq SMA könüllü hərəkətlərdən məsul skelet əzələlərinin zəifləməsi və atrofiya ilə özünü göstərir. Xəstəliyin başlanma yaşı körpəlikdən yetkinliyə qədər dəyişir, əzələ zəifliyi adətən zamanla artır və ağır hallarda iflicə səbəb ola bilər [2]. Beynəlxalq SMA Konsorsiumu xəstəliyi başlanma yaşı və əldə edilmiş ən yüksək motor funksiyasına əsasən beş növə (0–4) ayırır, burada 0-cı tip ən ağır, 4-cü tip isə ən yüngül hesab olunur [2,5]. SMA-nın insidensi hər 100 000 canlı doğumda təxminən 10 nəfər, prevalansı isə hər 100 000 nəfərdə 1–2 nəfər kimi qiymətləndirilir [5].

Gen terapiyası, genetik mutasiyalardan qaynaqlanan xəstəliklərin müalicəsi üçün idxal edilmiş və ya modifikasiya olunmuş genlərin tətbiqinə əsaslanan müasir yanaşmadır [3,4]. Bu terapiyalar mutasiyaya uğramış genin əvəzlənməsi, susdurulması və ya əlavə funksiyanın bərpası məqsədilə yeni genin daxil edilməsini əhatə edir [3,4].



Şəkil. SMA-da müasir müalicə yanaşmaları

Nəticələr və müzakirələr. Spinal əzələ atrofiyası (SMA) üçün son illərdə bir sıra molekulyar səviyyədə təsir edən innovativ müalicə üsulları hazırlanmışdır(Şəkil 1*)*. Bu yanaşmalar əsasən SMN1 və SMN2 genlərinin fəaliyyətinin bərpasına və ya kompensasiyasına yönəlmişdir [1, 4].

Yeni müalicə üsullarından biri nusinersen preparatıdır (Spinraza®). O, SMN2 geninin mRNT spaykinq prosesinə təsir göstərərək funksional SMN zülalının istehsalını artırır [1]. ENDEAR tədqiqatında nusinersen alan xəstələrin 51%-i mühüm motor mərhələlərə çatmış, kontrol qrupda isə bu göstərici 0% olmuşdur. Dərman intratekal yolla yeridilir və uzunmüddətli müşahidələrdə xəstəliyin sabitləşməsinə gətirib çıxardığı göstərilmişdir [1, 6].

İkinci mühüm yanaşma gen terapiyasıdır — onasemnogene abeparvovec (Zolgensma®). Bu preparat AAV9 vektoru vasitəsilə sağlam SMN1 geninin hüceyrələrə çatdırılmasını təmin edir və uzunmüddətli təsir göstərir [3]. STR1VE tədqiqatında SMA tip 1 olan uşaqlardan 59%-i 18 ayda müstəqil otura bilmiş, 91%-i isə 14 ayda daimi ventilyasiyaya ehtiyac duymamışdır [3].

Üçüncü təsdiqlənmiş terapiya risdiplam (Evrysdi®) preparatıdır. Bu kiçik molekullu dərman sistemli təsir göstərərək həm mərkəzi, həm də periferik sinir sistemində SMN zülalının səviyyəsini artırır [1,2]. SUNFISH və FIREFISH tədqiqatları risdiplamın motor funksiyaların qorunmasına və bəzi hallarda yaxşılaşmasına gətirib çıxardığını sübut etmişdir [2,6].

Ümumilikdə, bu üç preparat — nusinersen, onasemnogene abeparvovec və risdiplam — SMA xəstələri üçün mühüm terapevtik irəliləyişlər yaratmışdır. Erkən diaqnoz və müalicənin başlanması xüsusilə gen terapiyasında uğurun əsas amilidir [4].

Gələcək tədqiqatlar kombinə edilmiş yanaşmaların, dərman çatdırılmasının təkmilləşdirilməsinin və fərdiləşdirilmiş müalicə modellərinin inkişafına yönəlməlidir [4,5].

Son illərdə Azərbaycanda spinal əzələ atrofiyası (SMA) xəstələrinin aşkarlanması və skrininqi sahəsində əhəmiyyətli irəliləyişlər əldə edilmişdir. Bu, terapiya üçün uyğun namizədlərin vaxtında müəyyənləşdirilməsinə kömək edir. Ənənəvi dəstək və simptomatik müalicədən əlavə, ölkəmizdə molekulyar və genetik terapiya üsullarının tətbiqi başlanmışdır. Müalicələr xəstələrin motor funksiyalarının qorunmasına, xəstəliyin gedişinin ləngidilməsinə və həyat keyfiyyətinin yüksəldilməsinə imkan verir. Bu məqalədə biz xəstələrimizin müalicəsi üzrə klinik təcrübəmizi paylaşmaq istərdik

1-ci hal – 10 yaşlı oğlan uşağı, SMA tip 2

Pasiyentə 2 yaşında SMA tip 2 diaqnozu qoyulub. Genetik analizdə SMN1 geninin homozigot delesiyası və SMN2 geninin 3 nüsxəsi aşkar olunub. Uşaq heç vaxt sərbəst yeriməyib, lakin ayaqlarda əllərin köməyi ilə dayanma bacarığı olub. 4 yaşından etibarən pasiyent tam olaraq araba ilə hərəkət edir. Əllərdə və kürək nahiyəsində əzələ zəifliyi müşahidə olunub, qollarını çiyin səviyyəsindən yuxarı qaldıra bilmirdi.

7 yaşında pasiyentə risdiplam müalicəsinə başlanılıb (gündəlik oral qəbul). Müalicənin ilk 6 ayında qollarda hiss olunan güc artımı və hərəkətlərin daha dəqiq koordinasiyası müşahidə edilib — uşaq artıq fincanı özbaşına ağzına qaldıra bilir, yemək zamanı az yorulurdu.

Xüsusilə qeyd olunmalıdır ki, pasiyent pianoda ifa etməyi bacarır və müalicə fonunda barmaq hərəkətlərinin daha dəqiq və güclü olması nəticəsində ifa keyfiyyəti yaxşılaşmışdır. Hazırda o, piano çalmağı davam etdirir və bu, yuxarı ətraf funksiyasının qorunmasının praktik göstəricisidir.

12 ay sonra yuxarı ətraf funksiyası (RULM üzrə) 2 bal artıb, daha sabit tutma və hərəkət koordinasiyası müşahidə olunub. 24 aylıq izləmə dövründə xəstənin vəziyyəti stabil qalıb – nə motor, nə tənəffüs, nə də udma funksiyalarında pisləşmə qeydə alınmayıb. Risdiplam yaxşı tolere olunub, yan təsirlər müşahidə edilməyib. Müalicə fonunda yuxarı ətraflarda hərəkət funksiyası artmış, xəstəliyin proqressiyası görünməmişdir.

2-ci hal – 6 yaşlı qız uşağı, SMA tip 2

Pasiyentə diaqnoz 10 aylıqda qoyulub. Genetik analizdə SMN1 geninin homozigot delesiyası, SMN2 geninin 3 nüsxəsi aşkar edilib. Qız uşağı özbaşına otura bilir, heç vaxt sərbəst yeriməyib, lakin ayaqlarda əllərin köməyi ilə dayanma bacarığı olub. Yüngül skolioz, lakin yaxşı baş nəzarəti və sabit udma funksiyası qeyd olunub.

Risdiplam müalicəsi 3 yaşında başlanıb və artıq 3 ildir davam edir. İlkin dövrdə (ilk 12 ay ərzində) oturma balansı və qol gücü bir qədər yaxşılaşıb. 3 illik izləmə müddətində motor funksiyalar stabil qalıb, heç bir geriləmə müşahidə olunmayıb.

Müalicənin ilk aylarında yüngül mədə-bağırsaq narahatlığı qeyd olunub, lakin bu hallar qısa müddətli olub və müalicə dayandırılmadan keçib.

Nəticə olaraq, uzunmüddətli risdiplam istifadəsi fonunda pasiyentdə motor və tənəffüs funksiyaları sabit saxlanılmış, xəstəliyin proqressiyası müşahidə olunmamışdır.

Hər iki müşahidə halı göstərir ki, müasir patogenetik müalicə üsulları SMA tip 2 olan uşaqlarda motor funksiyaların yaxşılaşmasına və xəstəliyin gedişinin sabit qalmasına səbəb ola bilər. Müalicəyə daha gec başlayan oğlan uşağında yuxarı ətrafların funksional göstəricilərində əhəmiyyətli artım müşahidə edilmiş, erkən yaşda müalicəyə cəlb olunan qız uşağında isə uzunmüddətli sabitləşmə əldə olunmuşdur.

Beynəlxalq tədqiqatlar da bu nəticələri dəstəkləyir — SMA tip 2 və 3 olan uşaqlarda patogenetik müalicələr motor funksiyalarda yaxşılaşma və ya sabitliyi təmin edir və xəstələrin həyat keyfiyyətini artırır [2,5,6].

Əlavə olaraq, əvvəllər müalicəsi mümkün hesab olunmayan bu xəstəlik üçün artıq Azərbaycan da daxil olmaqla bir çox ölkələrdə effektiv müalicə variantları mövcuddur. Müasir terapiyalar xəstələrin həyat keyfiyyətini yüksəltməyə, xəstəliyin gedişini sabitləşdirməyə və funksional qabiliyyətləri qorumağa imkan verir. Gələcəkdə isə yeni molekulyar və genetik yanaşmalar sayəsində daha effektiv və təhlükəsiz nəticələrin əldə olunacağı gözlənilir [1–5].

Ədəbiyyat siyahısı

1. Cardenas-Rodriguez, M., Alías, L., & Tizzano, E. F. (2023). Molecular therapies in spinal muscular atrophy: current and future directions. Brain Sciences, 13(11), 1446. https://doi.org/10.3390/brainsci13111446
2. Chongmelaxme, B., Yodsurang, V., Vichayachaipat, P., Srimatimanon, T., & Sanmaneechai, O. (2025). Gene-based therapy for the treatment of spinal muscular atrophy types 1 and 2 : a systematic review and meta-analysis. *Gene therapy*, *32*(4), 301–330. https://doi.org/10.1038/s41434-024-00503-8
3. Day JW, Finkel RS, Chiriboga CA, Connolly AM, Crawford TO, Darras BT, et al. Onasemnogene abeparvovec gene therapy for symptomatic infantile-onset spinal muscular atrophy in patients with two copies of SMN2 (STR1VE): an open-label, single-arm, multicentre, phase 3 trial. Lancet Neurol. 2021;20:284–93. https://doi.org/10.1016/S1474-4422(21)00001-6.
4. Foust, K. D., Mendell, J. R., & Kaspar, B. K. (2024). Gene replacement and combination approaches for spinal muscular atrophy: Advances and challenges. Gene Therapy, 31, 202–215. https://doi.org/10.1038/s41434-024-00503-8
5. Iterbeke, L., et al. (2025). "Long-term outcomes of SMA treatments in children and adults." Neuromuscular Disorders, 35(2), 98–106.Verhaart IEC, Robertson A, Wilson IJ, Aartsma-Rus A, Cameron S, Jones CC, et al. Prevalence, incidence and carrier frequency of 5q-linked spinal muscular atrophy - a literature review. Orphanet J Rare Dis. 2017;12:124. https://doi.org/10.1186/s13023-017-0671-8
6. Oskoui, M., et al. (2023). "Two-year efficacy and safety of treatments in patients with spinal muscular atrophy." Journal of Neurology, 270(3), 1234–1242

Summary

MODERN TREATMENT APPROACHES IN SPINAL MUSCULAR ATROPHY: THE AZERBAIJANI EXPERIENCE

Mammadbayli Aytan Kamal q., Taghiyeva Madina Rauf q., Namazova Aysel q.
AMU, Department of Neurology, Baku, Azerbaijan

Keywords: SMA, hereditary disease, therapy, atrophy

Spinal muscular atrophy (SMA) is an inherited neuromuscular disorder characterized by motor neuron degeneration caused by deletions in the SMN1 gene. In recent years, pathogenetic treatments such as nusinersen, onasemnogene abeparvovec, and risdiplam have provided significant advances in the management of the disease. In this article, we present the clinical experience of two children with SMA type 2 treated with risdiplam. Both patients showed improvement or stabilization of motor functions, with minimal side effects. The results indicate that modern genetic therapies can stabilize the course of SMA and improve patients’ quality of life.

БЕЗОАР. КЛИНИЧЕСКИЙ ОБЗОР

Рустамова А.Б.
АМУ, Кафедра хирургических болезней-3

Ключевые слова: безоар, трихобезоар, фитобезоар

Слово «*Bezoar*»– происходит из арабского – «*Базедар*» и обозначает – антидот, противотоксическое средство. Различают следующие формы безоара: Трихобезоар, фитобезоар, Диопсибезоар, Шелакбезоар, Себобезоар, Лактобезоар.

Безоар является сравнительно редким заболеванием, при обследовании желудка с целью профилактики, в 1-2% случаев был обнаружен безоар. Чаще обнаруживаются фито и трихобезоар. Из фитобезоаров чаще всего встречаются диопсибезоары. Кавказская хурма содержит очень большую концентрацию танина, который в кислотной среде желудка преобразовывается в густой конгломерат.

Цель исследования — проанализировать клинические случаи безоаров, определить их этиологические факторы, формы и механизмы образования, а также оценить результаты хирургического лечения и современные подходы к управлению этим редким заболеванием.

Материалы и методы. На протяжении последних 20 лет нами изучено 12 случаев фитобезоара у 11 больных, которые были оперированы на нашей кафедре, средний возраст больных – 56 лет. Соответствие мужчин и женщин 6/5. В 7 случаях из 12 (58%) болезнь вызвана употреблением хурмы, 2 – баклажаном и помидором, в 3 случаях причина фитобезоара не установлена.

Размеры безоара варьировали от 1,5×3 до 8×21 см. масса от 100 до 30 гр. Несмотря на то, что количество обследованных больных незначительное, все-таки можно сделать конкретные выводы. Когда речь идет о формировании безоара, нужно предусмотреть следующие факторы:

1.недостаточное влияние ферментов пищеварения на растительную клетчатку (постгастрэктомические состояние); 2. Нарушение функции эвакуации желудка и кишечника; 3. В случае диопсиобезоара взаимодействие танина и желудочного сока; 4. Механически недостаточная обработка пищи.

Результаты. Исходя из этого мы получили следующие результаты: у 7 больных, которые употребили хурму, ни одному в прошлом не было произведено гастрэктомия, тогда как у 5 остальных больных, в прошлом была сделана эта операция.

Выводы. Из этого можно сделать вывод, что этиологически фито и диопсиобезоар имеют различные пути развития: в частности I вызывает недостаточное влияние желудочного сока (постгастрэктомическое состояние), а I –взаимодействие желудочного сока на танин хурмы, после чего образовался густой конгломерат. Все 12 случаев были оперированы: в 6 случаях произведена гастротомия, 1 – гастрэктомия из-за наличия пенетрированной язвы желудка. В 2-х случаях произведена реакция тонкой кишки и и анастомоз-бок причина – выявлен некроз сегмента тонкой кишки, у 2-перфорация язвы. В 3-х случаях – энтеротомия. У 1 больного – безоар был разрешен пальпацией кишечника и перемещен в толстую кишку. Все больные были выписаны из клиники здоровыми.

Summary

BEZOAR. CLINICAL REVIEW

Rustamova A.B.

AMU, Department of Surgical Diseases-3

***Keywords*:** bezoar, trichobezoar, phytobezoar

This suggests that phytobezoar and diopsiobezoar have different etiologies: in particular, phytobezoar is caused by insufficient gastric juice (postgastrectomy condition), while diopsiobezoar is caused by the interaction of gastric juice with persimmon tannin, resulting in the formation of a dense conglomerate. All 12 cases were surgically treated: gastrotomy was performed in 6 cases, and gastrectomy was performed in 1 case due to a penetrating gastric ulcer. In 2 cases, a small bowel reaction and a side anastomosis were performed due to necrosis of a small bowel segment, and in 2 cases, ulcer perforation. Enterotomy was performed in 3 cases. In 1 patient, the bezoar was resolved by intestinal palpation and transferred to the colon. All patients were discharged from the clinic healthy.

ПРИМЕНЕНИЕ МАГНИТОФОРЕЗА ПРИ ЛЕЧЕНИИ ОСТРОГО ПАРАПРОКТИТА

Рустамова А.Б.
АМУ, Кафедра хирургических болезней-3

Ключевые слова: острый панкреатит, магнитофорез

Парапроктит (параректальный абсцесс) – воспаление параректальной клетчатки, возникает в результате попадания в параректальную клетчатку микрофлоры. Клинически проявляется довольно интенсивными болями в области прямой кишки и промежности, повышением температуры тела, ознобом, недомоганием, слабостью, головными болями, бессонницей, понижением аппетита, задержкой стула, дизурическими явлениями. При остром парапрактите, по мере скопления гноя боли усиливаются, становятся пульсирующими. Если своевременно не произвести вскрытие гнойника, он прорывается в смежные клетчаточные пространства, прямую кишку, наружу через кожу промежности. Во избежание возникновения этих проблем, при остром парапроктите проводят хирургическое лечение.

Цель исследования — оценить эффективность применения магнитофореза в комплексном лечении острого парапроктита, сравнить его влияние на регенерацию послеоперационной раны, противомикробный эффект и сроки выздоровления по сравнению с традиционными методами лечения.

Материалы и методы. Данная работа основана на анамнезе результатов оперативного лечения 326 больных острым парапроктитом. Мужчин 211 (69,7%), женщин115(30,3%). Возраст колеблется от 17-72 лет. Параректальный гнойник локализовался подкожно у 105 (45,9%), под слизистой прямой кишки у 36 (14,5%), ишиоректально 94(32,3%), пельвиоректально у 21 (9,1%) пациентов. В зависимости от расположения гнойных полостей, локализации свищевого хода по отношению к волокнам сфинктера и состояния внутреннего отверстия гнойника, выполнялись разные варианты операций. Одноэтапное рассечение и иссечение гнойного хода в просвет кишки по методу Габриэля выполнили у 114 больных с острым парапрактитом с интрасфинктерным расположением гнойного хода. Вскрытие и дренирование гнойника с дозированной сфинктеромией выполнено 35 пациентам. У 79, из-за сложности определения расположения гнойного хода и его внутреннего отверстия выполнено вскрытие и дренирование. По методам ведения послеоперационной раны больные были разделены на 2 группы. I (контрольная) группа 172-лечение велось традиционным методом, после операции оставляли тампон с мазью или дренажную трубку с ирригатором для последующего промывания раны. У II группы (основной) 124 пациент-местная антибиотикотерапия проводилась на фоне низкочастотных электромагнитных полей – магнитофореза.

Результаты. Оценка результатов лечения больных проводилась на основании общеклинических, микробиологических, цитологических, гистологических исследований на 1,3,7,9,14-е сутки после операции.

Проведенными исследованиями установлено, что электромагнитные поля низкой интенсивности способствуют замедлению роста и повышению восприимчивости микрофлоры гнойной раны к антибиотику.

Вывод. Клинически выявлено, что магнитофорез раны у больных, перенесших операцию по поводу острого парапрактита по сравнению с традиционными методами имеет более выраженное бактерицидное, противовоспалительное и стимулирующее действие на регенеративные процессы раны. Заживление в условиях магнитофореза протекает со значительно меньшим числом осложнений, чем у больных контрольной группы, сокращаются сроки лечения больных. В связи с этим мы советуем практикующим хирургам предложенное нами комплексное лечение острого парапроктита.

Summary

THE USE OF MAGNETOPHORESİS İN THE TREATMENT OF ACUTE PARAPROCTİTİS

A.B. Rustamova

AMU, Department of Surgical Diseases-3

***Keywords*:** acute pancreatitis, magnetophoresis.

Clinical studies have shown that magnetophoresis of wounds in patients undergoing surgery for acute paraproctitis, compared to traditional methods, has a more pronounced bactericidal, anti-inflammatory, and stimulating effect on wound regeneration. Healing with magnetophoresis is significantly less complicated than in patients in the control group, and treatment time is reduced. Therefore, we recommend our proposed comprehensive treatment for acute paraproctitis to practicing surgeons.

ERKƏN ZAHILIQ DÖVRÜNDƏ HİPOTONİK QANAXMALARIN PROFİLAKTİKASINDA İSTİFADƏ OLUNAN TRANEKSAM TURŞUSUNUN EFFEKTLİYİ

Həsənova S.S., Zeynalova X.P., Qocayeva A.Ə., Paşayeva C.B.

ATU, I Mamalıq və ginekologiya kafedrası

Açar sözlər: hipotonik qanaxmalar, traneksam turşusu, qeysəriyyə

Son illərin ədəbiyyat məlumatlarına görə sübut edilmişdir ki, traneksam turşusu yüksək effektiv antifibrinolitik, qan itkisini və hemotransfuziya ehtiyacını nəzərə çarpacaq dərəcədə azaldır.

Müəyyən olunmuşdur ki, bu preparatın istifadəsi nəticəsində zahılıq dövrünün ilk 2 saatında qan itkisinin miqdarı nəzərə çarpacaq dərəcədə azalır, hemoqlabinin miqdarı yüksək səviyyədə qalır, 24 saat müddətində fəsadlar və yaxud yan effektlər qeyd olunmur. Traneksam turşusu 10-15 dəqiqə müddətində təsir göstərir, qanın

digər laxtalanma sisteminə təsir etmir, digər preparatlarla müqayisədə uzun müddət qanda qalır, antifibrinolitik təsirin ikili mexanizmi qeyd edilir. Həmçinin, traneksam turşusunun plazminogen aktivatorunun ingibitoru, plazminlə birləşib kininogenezi tormozladığı və periferik təsirli analgetik olduğu qeyd olunur.

Məqsəd. Erkən zahılıq dövründə hipotonik qanaxmaların profilaktikasında istifadə olunan traneksam turşusunun effektliyi və onun qan itkisinə təsirini öyrənməkdir.

Material və metodlar. Tədqiqatın əsas qrupuna erkən zahılıq dövründə hipotonik qanaxamalara görə yüksək risk qrupuna 85 hamilə daxil edilmişdir.

Nəticə. 85 hamilədən 69-da (81,2%) planlı, 16-da (18,8%) isə doğuş zamanı yaranan mamalıq fəsadları nəticəsində qeysəriyyə əməliyyatı həyata keçirilmişdir. Bütün qadınlara əməliyyatdan 25–30 dəqiqə əvvəl traneksam turşusunun sistemli və yerli qan itkisinin qarşısını alma, eləcə də antiallergik və antiinfeksiyon təsirlərini nəzərə alaraq, 250 mq (5 ml) doza 200 ml fizioloji məhlulda vena daxili, 28,3±0,21 dəqiqə ərzində tətbiq edilmişdir. Qeyd etmək lazımdır ki, heç bir xəstədə vurulan preparatın yan effektləri, trombotik fəsadlar qeyd edilməmişdir. Aparılan tədqiqatda qeysəriyyə kəsiyi zamanı qan itkisi qravimetrik üsulla təyin edilmişdir. Müəyən olunmuşdur ki, qeysəriyyə kəsiyi zamanı ümumi qan itkisinin miqdarı 329,0±7,1 (140-450) ml olmuşdur. Bu da retrospektiv materialda qeysəriyyə kəsiyi əməliyyatı vaxtı qan itkisindən 470,0±21,5 (350-600) ml dürüst dərəcədə az olmuşdur.

Beləliklə, qeysəriyyə kəsiyindən qabaq və doğuş prosesində yan effektlərinin və trombotik fəsadların olmamasını nəzərə alaraq traneksam turşusundan geniş istifadə edilə bilər.

Summary

THE EFFECTIVENESS OF TRANEXAMIC ACID IN THE PREVENTION OF HYPOTONIC BLEEDING IN EARLY POSTPARTUM PERIOD

Hasanova S.S., Zeynalova Kh.P., Qojayeva A.A., Pashayeva J.B.
AMU, I Department of Obstetrics and Gynecology

Key words: hypotonic bleeding, tranexamic acid, Caesarean section

The antifibrinolytic drug tranexamic acid was used in 85 pregnant women, who were included in the main group of the study and belonged to the high-risk group of hypotonic bleeding during early postpartum. Taking into account the effect of tranexamic acid on systemic and local bloodloss, antiallergic, anti-infection, 25-30 minutes before surgery, 250 mg (5 ml) in 200 ml physiological solution was injectedintravenously for 28.3±0.21 minutes. No patient had any side effects or thrombotic complications. Blood loss was 329.0±7.1 (140.0-450.0) ml in women belonging to the high risk group due to hypotonic bleeding in early postpartum.

МЕКСИДОЛ В КОМЛЕКСНОЙ ТЕРАПИИ БОЛЕЗНИ ПАРКИНСОНА

***Алиева Ф.Н.*[1], *Рзаев Р.Н.* [1], *Ширалиева Р.К.* [2], *Исмайлова С.Д.* [1]**
[1]АМУ, кафедра неврологии, Азербайджан, Баку,
*[2]АГИУВ имени А.*Алиева*, кафедра неврологии, Азербайджан, Баку*
faliyeva2@amu.edu.az

***Ключевые слова*:** болезнь Паркинсона, мексидол, оксидативный стресс, митохондрии, антиоксидантная терапия.

Болезнь Паркинсона (БП) — прогрессирующее нейродегенеративное заболевание, связанное с гибелью дофаминергических нейронов черной субстанции и нарушением функции нигростриарной системы. Наряду с α-синуклеинопатией и нейровоспалением, окислительный стресс и митохондриальная дисфункция являются ключевыми звеньями патогенеза болезни [1]. Следовательно, восстановление окислительного баланса является перспективной терапевтической стратегией.Одним из препаратов, доказавших эффективность в коррекции этих нарушений, является мексидол **(**3-окси-6-метил-2-этилпиридина сукцинат)**—** антиоксидант с антигипоксантным, мембранопротекторным и нейрометаболическим действием.

Цель: Системный анализ экспериментальных, клинических и метааналитических данных о роли оксидативного стресса в патогенезе БП и эффективности мексидола в терапии болезни.

Материалы и методы: Был проведён комплексный анализ научных публикаций, посвящённых применению антиоксидантной терапии, в частности мексидола, при болезни Паркинсона. Методы анализа включали сравнение биохимических, физиологических и клинических показателей до и после терапии, а также сопоставление данных экспериментальных и клинических моделей.

Результаты и обсуждение: По данным систематического обзора Wei и соавт. (2018), у пациентов с болезнью Паркинсона отмечается повышение уровней малонового диальдегида и 8-гидроксидезоксигуанозина в плазме крови на 25–40 % по сравнению с контролем, что отражает активацию процессов перекисного окисления липидов и окислительного повреждения ДНК [11]. Одновременно выявлено снижение концентрации восстановленного глутатиона (GSH) и активности антиоксидантных ферментов (каталазы, глутатионпероксидазы), что свидетельствует о нарушении окислительного гомеостаза.Оксидативный стресс при БП носит многофакторный характер: он связан с нарушением работы комплекса I (NADH-дегидрогеназы) митохондриальной дыхательной цепи, спонтанным разрушением дофамина с образованием дофаминхинонов, повышением уровня реактивных форм азота, активацией микроглии и накоплением ионизированного железа [2]. Совокупность этих процессов приводит к нарушению митохондриальной

функции, повреждению липидов и белков, активации апоптоза и нейрональной дисфункции [4].

Результаты последующих исследований, включая обзор Dhruv и соавт. (2022), подтверждают, что оксидативный стресс является одним из звеньев патогенеза болезни Паркинсона, объединяющим метаболические, митохондриальные и воспалительные механизмы [3]. Восстановление глутатионового ряда и активация антиоксидантных ферментов рассматриваются как ключевые мишени патогенетически обоснованной нейропротекторной терапии [5].

Как показали Маньковская с соавт. (2022), хроническое введение ротенона (3 мг/кг в течение 14 дней) у крыс воспроизводит основные признаки митохондриальной дисфункции и оксидативного стресса, характерные для болезни Паркинсона [9]. Биохимический анализ выявил повышение содержания продуктов перекисного окисления липидов , малонового диальдегида, смещение глутатионового ряда в сторону окисленной формы (GSSG) и снижение активности NADH-дегидрогеназы.Назначение мексидола (50 мг/кг внутриперитонеально в течение 14 дней) способствовало нормализации соотношения GSH/GSSG, активации глутатионредуктазы и $NADPH^{+}$-изоцитратдегидрогеназы, а также увеличению активности антиоксидантных ферментов — митохондриальной супероксиддисмутазы и глутатионпероксидазы.

Сходные результаты представлены в исследовании Кировой и соавт. (2020), где показано, что мексидол стимулирует митохондриогенез, улучшает дыхательную активность митохондрий и повышает устойчивость нейронов к гипоксическому и оксидативному стрессу [7].

В исследовании Катуниной (2005), включавшей 65 пациентов с различными стадиями заболевания БП, применение мексидола (4 мл 5% раствора, внутривенно капельно, курс 10 дней) в составе стандартной терапии привело к снижению выраженности тремора, уменьшению мышечной ригидности и улучшению двигательной активности, что сопровождалось достоверным снижением суммарного балла по шкале УПДРС (Унифицированная шкала рейтинга при болезни Паркинсона) [6]. Наиболее выраженный эффект наблюдался у пациентов с ранними стадиями и дрожательной формой заболевания.

Дополнительные данные о биохимических механизмах антиоксидантной терапии представлены в исследовании Makletsova et al. (2016) [8]. У пациентов с БП выявлено повышение уровня метгемоглобина (MetHb) в эритроцитах по сравнению со здоровыми донорами, что отражает усиление оксидативного стресса и дефицит антиоксидантной защиты. После 14-дневного курса мексидола (100 мг/сут, внутримышечно) уровень MetHb достоверно снизился до контрольных значений. Эти результаты подтверждают, что мексидол нормализует показатели окислительного гомеостаза, включая уровень

метгемоглобина, тем самым снижая оксидативную нагрузку и повышая устойчивость нейронов к повреждению.

Заключение: Результаты исследований демонстрируют, что болезнь Паркинсона сопровождается выраженным оксидативным стрессом**,** снижением антиоксидантной активности и митохондриальной недостаточностью [10]. Мексидол, воздействуя на ключевые звенья патогенеза, обеспечивает восстановление глутатионового ряда, активацию антиоксидантных ферментов, стабилизацию митохондрий и клиническое улучшение двигательных функций. Таким образом, препарат может рассматриваться как эффективный компонент комплексной терапии БП**,** направленный на коррекцию окислительных нарушений и повышение нейрональной устойчивости**.** Рекомендовано проведение дальнейших исследований для уточнения доз, сроков и оптимальных схем применения мексидола в сочетании с противопаркинсоническими средствами.

Список литературы:

1. Dauer W., Przedborski S. /Parkinson’s disease: mechanisms and models/ Neuron/2003/ Vol. 39(6), pp. 889–909/ DOI: 10.1016/S0896-6273(03)00568-3
2. Dexter D.T., Jenner P. /Parkinson disease: from pathology to molecular disease mechanisms/ Free Radical Biology & Medicine/2013/ Vol. 62, pp. 132–144/DOI: 10.1016/j.freeradbiomed.2013.01.018
3. Dhruv S.G., Siddhi B.P., Ginpreet K. /Mechanisms and therapeutic potential of emoxypine (mexidol) in neurodegenerative diseases/Current Research in Pharmacology and Drug Discovery/2022/Vol. 3, Article 100121/ DOI: 10.1016/j.crphar.2022.100121
4. Dringen R**.** /Metabolism and functions of glutathione in brain/Progress in Neurobiology/ 2000/ Vol. 62(6), pp. 649–671/DOI: 10.1016/S0301-0082(99)00060-X
5. Henchcliffe C., Beal M.F. /Mitochondrial biology and oxidative stress in Parkinson disease pathogenesis/ Nature Clinical Practice Neurology/2008/Vol. 4(11), pp. 600–609. DOI: 10.1038/ncpneuro0924
6. Katunina E.A. /Возможности антиоксидантной терапии у больных болезнью Паркинсона./Журнал экспериментальной и клинической фармакологии/ 2005/Т. 68, № 5.
7. Kirova Y.I., Shakova F.M., Germanova E.L., Romanova G.A., Voronina T.A. / Влияние Мексидола на церебральный митохондриогенез в молодом возрасте и при старении / Журнал неврологии и психиатрии им. С.С. Корсакова /2020/т. 120, № 1, с. 62-69/ https://doi.org/10.17116/jnevro202012001162
8. Makletsova M.G., Rikhireva G.T., Poleshuk V.V., et al./The effect of antioxidants on in vivo and in vitro methemoglobin formation in erythrocytes of patients with Parkinson’s disease/ Biochemistry (Moscow), Supplement Series B: Biomedical Chemistry/ 2016, Vol. 10, pp. 264–268/ DOI: 10.1134/S1990750816030124

9. Mankovska I.M., Gonchar O.O., Bratus L.V., et al. /The effect of Mexidol on glutathione system in rat brain under modeling of Parkinson’s disease/ Fiziolohichnyi Zhurnal/2022/Vol. 68(1), pp. 13–19./DOI: 10.15407/fz68.01.013

10. Schapira A.H.V. /Mitochondria in the aetiology and pathogenesis of Parkinson’s disease. The Lancet Neurology/2008/Vol. 7(1), pp. 97–109./DOI: 10.1016/S1474-4422(07)70327-7

11. Wei Z., Li X., Li X., Liu Q., Cheng Y./ Oxidative stress in Parkinson’s disease: a systematic review and meta-analysis/ Frontiers in Molecular Neuroscience /2018/Vol. 11, Article 236/ DOI: 10.3389/fnmol.2018.00236

Summary

MEXIDOL IN COMBINATION THERAPY OF PARKINSON'S DISEASE

Aliyeva F.N.[1], Rzayev R.N.[1], Shiraliyeva R.K.[2], Ismaylova S.D.[1]

[1]AMU, Department of Neurology, Azerbaijan, Baku,
[2]Azerbaijan State Institute of Medical Sciences named after A.Aliyev, Department of Neurology, Azerbaijan, Baku
faliyeva2@amu.edu.az

***Keywords*:** Parkinson's disease, Mexidol, oxidative stress, mitochondria, antioxidant therapy

Parkinson’s disease (PD) is a progressive neurodegenerative disorder characterized by dopaminergic neuronal loss, oxidative stress, and mitochondrial dysfunction. Oxidative imbalance play role in the pathogenesis of PD. A comprehensive review of studies analyzing biochemical, physiological, and clinical parameters before and after antioxidant therapy with Mexidol was conducted. Meta-analysis by Wei *et al.* (2018) confirmed elevated oxidative biomarkers and reduced antioxidant enzyme activity in PD. Experimental studies (Mankovska *et al.*, 2022; Kirova *et al.*, 2020) demonstrated that Mexidol restores the antioxidant ratio, enhances glutathione-dependent enzymes, activates mitochondrial complex I, and stimulates mitochondriogenesis. Clinical data (Katunina 2005) showed improvement in tremor, rigidity, and motor coordination after 10 days of intravenous Mexidol therapy. Additional findings (Makletsova et al., 2016) indicated normalization of methemoglobin levels, suggesting restoration of redox homeostasis. Mexidol exerts multidimensional antioxidant and mitochondria-protective effects, improving neuronal resistance to oxidative damage and enhancing motor performance. The accumulated evidence supports its inclusion as an adjunctive agent in the complex therapy of Parkinson’s disease. Further controlled studies are warranted to optimize dosage and treatment duration.

VAXTINDAN ƏVVƏL DOĞULMUŞ UŞAQLARDA PERİNATAL ENSEFALOPATİYA ZAMANI İLTİHAB MARKERLƏRİNİN VƏ ANTİMİKROB PEPTİDLƏRIN MÜALİCƏ DİNAMİKASI

Abbasova Zabitə Nadir
ATU, I Uşaq xəstəlikləri kafedrası, Bakı, Azərbaycan

Açar sözlər: perinatal ensefalopatiya, İL-6, antimikrob peptidlər

Perinatal ensefalopatiya (PE) vaxtından əvvəl doğulan uşaqlar arasında neyroloji disfunksiyanın ən çox rast gəlinən səbəblərindən biridir və neonatal morbidlik və mortaliteyi artırır. Erkən diaqnostika və effektiv müalicə strategiyalarının hazırlanması üçün iltihab markerlərinin səviyyəsinin dinamik dəyişmələrinin öyrənilməsi vacibdir. Bu markerlər, xəstəliyin gedişatının qiymətləndirilməsi, proqnozun müəyyənləşdirilməsi və fərdiləşdirilmiş terapiyanın seçilməsində əhəmiyyətli rol oynayır. Həmçinin, vaxtından əvvəl doğulmuş uşaqlarda immunoloji və neyroinflamator reaksiyaların tədqiqi, müalicə yanaşmalarının təkmilləşdirilməsinə və neonatal nəticələrin yaxşılaşdırılmasına imkan yaradır. Vaxtından əvvəl doğulmuş uşaqlarda infeksiya əlamətlərinin klinik və laborator olaraq tam dəqiqləşdirilə bilmədiyi hallar neonatal praktikada tez-tez rast gəlinir və diaqnostik baxımdan çətinlik yaradır.

Tədqiqat məqsədi perinatal ensefalopatiya ilə vaxtından əvvəl doğulan uşaqlarda iltihab markerlərinin səviyyəsinin müalicə dinamikasında izlənilməsidir.

Material və metodlar. Tədqiqat işində 64 nəfər vaxtından əvvəl doğulmuş körpələrin qan və nəcis nümunələri analiz edilmişdir. Tədqiqat kontingenti 3 əsas qrupa bölünmüşdür. I qrupa vaxtından əvvəl doğulmuş praktik sağlam körpələr (n=15), II qrupa perinatal ensefelopatiya ilə vaxtından əvvəl doğulmuş körpələr (n=29), III qrupa perinatal ensefelopatiyalı vaxtından əvvəl doğulmuş və infeksiya ilə ağırlaşmış körpələr (n=36), kontrol qrupuna isə vaxtında doğulmuş praktik 16 sağlam körpə daxil edilmişdir. Tədqiqata daxil olan yenidoğulmuşların qan serumunda İL-6-nın, defenzinin, laktoferrinin, katleisidinin və kalprotektinin, nəcis nümunəsində isə fekal kalprotektinin konsentrasiyası immunoferment üsulu ilə analiz olunmuşdur. Perinatal ensefalitlə doğulan və infeksiya ilə ağırlaşan körpələrə (III qrup) antibiotikoterapiya tətbiq edilmişdir və onların qan və nəcis nümunələri müalicədən 7 gün sonra təkrar analiz edilmişdir. Tədqiqatda əldə olunmuş göstəricilərin statistik işlənməsi SPSS-26 proqram paketində aparılmışdır. Qruplarası müqayisələrdə Kruskal–Wallis və qeyri-parametrik Mann–Whitneyin U testi tətbiq edilmişdir.

Nəticə və müzakirələr. Tədqiqat çərçivəsində müayinə və müalicə olunan yenidoğulmuşlar arasında antimikrob peptidlərə görə qruplar arasında statistik əhəmiyyətli fərqlər müşahidə olunmuşdur. Xüsusilə qeyri-müəyyən infeksion ağırlaşma olan III qrupda AMP-in səviyyəsi daha yüksək olmuşdur. III qrupda interleykin-6-nın (İL-6) - 3,0 dəfə ($p<0,001$), defenzinin - 2,3 dəfə ($p<0,001$), laktoferrin - 3,9 dəfə ($p<0,001$), katelisidinin - 86,5% ($p<0,001$), serumda kalprotektinin - 4,0 dəfə ($p<0,001$), fekal kalprotektin - 3,5 dəfə ($p<0,001$) I qrupa nisbətən əhəmiyyətli artması müəyyən edilmişdir.

Aparılan antibiotikoterapiyadan sonra perinatal ensefalitlə doğulan və infeksiya ilə ağırlaşan körpələrin (III qrup) qanında İL-6-nın səviyyəsi - 3,8 dəfə ($p<0,001$), defenzin β1-in konsentrasiyası – 70,6% ($p=0,010$); kalteisidin – 2,1 dəfə ($p=0,001$); kalprotektin – 4,0 dəfə ($p<0,001$); laktoferrin – 3,0 dəfə ($p<0,001$); nəcisində isə fekal kalprotektin – 3,8 dəfə ($p<0,001$) azalmışdır.

Nəticə. Bu tədqiqatın nəticələri göstərdi ki, perinatal ensefalopatiya olan vaxtından əvvəl doğulmuş uşaqlarda spesifik dəiqiləşdirilməmiş infeksiya zamanı iltihab prosesinin kəskinləşməsi kompensator olaraq antimikrob peptidlərin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur.

Summary

TREATMENT DYNAMICS OF INFLAMMATORY MARKERS AND ANTIMICROBIAL PEPTIDES DURING PERINATAL ENCEPHALOPATHY IN PREMATURE INFANTS

Zabita Nadir Abbasova

AMU, 1st Department of Pediatrics, Baku, Azerbaijan

Key words: perinatal encephalopathy, IL-6, antimicrobial peptides

In preterm neonates, signs of infection are often unclear, complicating diagnosis. This study assessed changes in inflammatory markers during treatment in preterm infants with perinatal encephalopathy (PE). Blood and stool samples from 64 preterm infants were analyzed, divided into healthy preterm (n=15), PE (n=29), and PE with infection (n=36) groups; 16 term infants served as controls. Serum IL-6, defensins, lactoferrin, cathelicidin, calprotectin, and fecal calprotectin were measured. Infants with PE and infection showed significantly elevated markers, which decreased after antibiotic therapy. These findings indicate that unrecognized infections in PE provoke a strong inflammatory response, triggering compensatory increases in antimicrobial peptides.

FƏRQLİ KOLOREKTAL ANASTOMOZ METODLARININ POSTOPERATİV AĞIRLAŞMALARA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

İsmayılov İlqar Abid

Respublika Diaqnostika Mərkəzi, Bakı, Azərbaycan

Açar sözlər: yoğun bağırsaq xərçəngi, kolorektal anastomoz, postoperativ sızma, stoma, BKİ

Yoğun bağırsaq xərçəngi (YBX) geniş yayılan onkoloji xəstəliklərdən biridir. Xəstələrin postoperativ sağ qalma göstəricilərinə və reabilitasiyasına təsir edən əsas amillərdən biri kolorektal anastomoz üsulunun seçimi, ileostoma tətbiqi və yanaşı

patoloji hallar, eləcə də preoperativ neoadjuvant kimyaterapiyadır. Anastomoz sızması, peritonit, abses və striktura kimi ağırlaşmalar xəstələrin reabilitasiyasını uzadır, təkrar əməliyyatlara və letallığın artmasına səbəb olur.

Tədqiqatın məqsədi fərqli kolorektal anastomoz metodlarının (uc-uca və yan-uc) postoperativ ağırlaşma riskinə təsirini və əsas risk faktorlarını müqayisəli şəkildə qiymətləndirməkdir.

Material və metodlar. Tədqiqatda YBX diaqnozu ilə cərrahi əməliyyat olunmuş 192 xəstə (29 nəfər 0–50 yaş, 120 nəfər 50–70 yaş, 43 nəfər 70 yaş və yuxarı) iştirak etmişdir. 68 xəstəyə uc-uca, 124 xəstəyə yan-uc kolorektal anastomoz tətbiq olunmuşdur. Uc-uca qrupdan 26, yan-uc qrupdan isə 4 xəstəyə ileostoma qoyulmuşdur. Postoperativ ağırlaşmalar – anastomoz sızması və digər fəsadlar – Ki-kvadrat və ya Fisher dəqiq testi ilə analiz edilmişdir.

Nəticə və müzakilər. Uc-uca anastomoz qoyulmuş ileostomalı xəstələrdə anastomoz qaçağı 23,1% (6/26), ileostomasız xəstələrdə isə 7,1% (3/42) hallarda müşahidə olunmuşdur ($p<0,001$). Anastomoz qaçağı olan 4 nəfər ileostomalı və 3 nəfər ileostomasız xəstə təkrar əməliyyat olunmuşdur. Yan-uc kolrektal anastomoz icra edilmiş xəstələr arasında ileostomalı icra edilmiş qrupda 50% (2/4), ileostoma qoyulmamış qrupda isı 0,8% (1/120) anastomoz qaçağı qeydə alınmışdır ($p=0,007$). Uc-uca kolrektal anastomoz qaçağı və ileostoma ira edilmiş qrupda 88,5% (23/26), yan-uc kolrektal anastomoz icra edilmiş və ileostoma qoylmayan qrupda isə 20% (24/120) hallarda neoadjuvant kimyaterapiya tətbiq edilmişdir. Uc-uca kolrektal anastomoz tətbiq edilmiş və ileostomalı xəstələrin 23,1%-də, ileostoma qoyulmamış xəstələrin 16,7%-də, yan-uc kolrektal anastomoz icra edilən və ileostoma qoyulmuş xəstələrin 25%-də, ileostoma qoyulmamış xəstələrin isə 40,8%-də yanaşı xəstəliklər qeydə alınmışdır. BKİ üzrə analiz göstərmişdir ki, xəstələr arasında normal çəki (18,5–24,9 kg/m²) 36,1% (95/262), normadan artıq (25–29,9 kg/m²) 32,3% (85/262), piylənmə (≥30 kg/m²) isə 11,5% (30/262) təşkil etmişdir. Uc-uca kolrektal anastomoz tətbiq edilən qrupda BKİ-nin artması postoperativ anastomoz qaçağı riskini artırmışdır.

Yekun. İleostoma ilə aparılan uc-uca kolorektal anastomozlarda postoperativ kolorektal anastomoz qaçağı riski nisbətən yüksəkdir. Neoadjuvant kimyaterapiya, yanaşı patologiyalar və BKİ artımı olan xəstələrdə postoperativ anastomoz qaçağı riski artmışdır. Bu nəticələr klinik praktikada anastomoz üsulunun seçimi və ileostoma tətbiqi ilə bağlı qərarların formalaşdırılmasında faydalı tövsiyələr verə bilər.

Summary

EVALUATİON OF THE IMPACT OF DİFFERENT COLORECTAL ANASTOMOSİS TECHNİQUES ON POSTOPERATİVE COMPLİCATİONS

İsmayılov İlqar Abid
Republic Diagnostic Center, Baku, Azerbaijan

***Key words*:** colorectal cancer, anastomosis, postoperative leakage, ileostomy, BMI

Colorectal cancer (CRC) outcomes are influenced by anastomosis technique, ileostomy, comorbidities, neoadjuvant chemotherapy, and BMI. This study analyzed 192 CRC patients undergoing end-to-end (n=68) or side-to-end (n=124) anastomosis. Ileostomy was applied in 26 end-to-end and 4 side-to-end cases. Anastomotic leakage occurred in 23.1% of end-to-end ileostomy patients and 7.1% without ($p<0.001$), and in 50% of side-to-end ileostomy vs. 0.8% without ($p=0.007$). Higher BMI, comorbidities, and neoadjuvant chemotherapy increased leakage risk. Most patients were aged 50–70 years. End-to-end anastomosis with ileostomy carries higher postoperative risk.

KƏSKİN RİNOSİNUSİTLİ XƏSTƏLƏRİN QANINDA SİTOKİN VƏ ANTİMİKROB PEPTİDLƏRİN SƏVİYYƏSİNİN TƏYİNİ

Əzizova Pərvin Elşad
ATU, Otorinolarinqologiya kafedrası, Bakı, Azərbaycan

Açar sözlər: kəskin rinosinusit, sitokinlər, defenzin

Kəskin rinosinusit (KRS) zamanı yaranan iltihaba cavab olaraq sitokinlərin və antimikrob peptidlərin sekressiyası fəallaşır. Bu biomolekulların qanda səviyyələrinin öyrənilməsi xəstəliyin patogenezinin molekulyar mexanizmlərini araşdırmağa və müalicə effektivliyini qiymətləndirməyə imkan verə bilər.

Tədqiqatın məqsədi kəskin rinosinusitli xəstələrin qanında bəzi sitokinlərin (IL-1, IL-5, IL-6, IL-10) və β1-defenzinin səviyyəsinin öyrənilməsi olmuşdur.

Material və metodlar. Tədqiqat işində 15–68 yaş aralığında olan 30 nəfər KRS diaqnozlu xəstənin qan serumunda sitokinlərin (IL-1, IL-5, IL-6, IL-10) konsentrasiyası “Vector Best” (Rusiya) reaktiv dəsti ilə, defenzin-β1-in konsentrasiyası isə “Cloud-Clone Corp.” reaktiv dəsti ilə ELISA üsulu vasitəsilə ölçülmüşdür. Kontrol qrupuna 20 nəfər praktik sağlam şəxs daxil edilmişdir. Əldə olunan nəticələrin statistik emalı Mann–Whitney U testi ilə aparılmış və $p \leq 0,05$ dəyəri statistik olaraq əhəmiyyətli hesab edilmişdir.

Nəticə və müzakirələr. KRS zamanı bütün əsas iltihab törədici sitokinlərin və β1-defenzinin səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. IL-1 səviyyəsi xəstələrdə 14,6 pq/ml (3,8–23,9) təşkil etmiş, bu göstərici kontrol qrupunda 3,2 pq/ml (1,2–4,6) olmuşdur. Beləliklə, IL-1 səviyyəsi kontrola nisbətən 4,6 dəfə artmışdır ($p < 0,001$). KRS zamanı IL-5 səviyyəsi (M=5,9 pq/ml; 2,5–16,8), kontrol qrupuna (M=3,6 pq/ml; 2,3–5,9) nisbətən 64 % ($p=0,004$) artmışdır. IL-6-ının səviyyisi xəstələrdə 36,4 pq/ml (20,4–54,8), praktiki sağlam şəxslərdə isə 6,8 pq/ml (4,5–12,5) təşkil etmişdir. Bu markerin səviyyəsi kontrola nisbətən 5,4 dəfə statistik baxımdan əhəmiyyətli yüksəlmişdir ($p < 0,001$). IL-10 səviyyəsi xəstələrin qanında orta hesabla 11,9 pq/ml (3,9–25,4), kontrol qrupunda isə 8,6 pq/ml (2,5–18,5) təşkil etmişdir, bu artım kontrola nisbətən 38% təşkil etsə də, fərq statistik əhəmiyyətli olmamışdır ($p =$

0,059). β1-defenzin səviyyəsi kəskin sinusitlər zamanı kontrol qrupundakılara (1,9 nq/ml (0,6–3,5) nisbətən 6,2 dəfə ($p<0,001$) statistik baxımdan əhəmiyyətli artaraq 11,7 nq/ml (1,2–24,3) təşkil etmişdir. Aparılmış analizlər göstərir ki, KRS zamanı həm iltihab törədici sitokinlərin, həm də antimikrob peptidlərin səviyyəsi əhəmiyyətli dərəcədə artmışdır. Bu xəstələrdə sitokinlərin kəskin artımı xəstəlik zamanı iltihab mərhələsində immun sistemin aktivləşməsi ilə əlaqədardır. IL-6-nın səviyyəsinin artması bakterial mənşəli iltihabın göstəricisi kimi qiymətləndirilə bilər. β-defenzin səviyyəsinin 5 dəfədən çox artması epitel mənşəli antimikrob müdafiənin gücləndiyini və orqanizmin lokal infeksiyaya cavab reaksiyasının aktivləşdiyini göstərir. IL-10-un zəif dərəcədə artması isə iltihab əleyhinə balansın qorunmasına yönəlmiş kompensator mexanizm kimi izah edilə bilər.

Yekun. KRS zamanı qanda sitokinlərin və defenzinin səviyyəsi xəstəliyin iltihabi fazasının göstəriciləri kimi diaqnostik və proqnostik əhəmiyyət kəsb edə bilər.

Summary

DETERMINATION OF CYTOKINE AND ANTIMICROBIAL PEPTIDE LEVELS IN THE BLOOD OF PATIENTS WITH ACUTE RHINOSINUSITIS

Parvin Azizova Elshad

AMU, Department of Otorhinolaryngology, Baku, Azerbaijan

Keywords: acute rhinosinusitis, cytokines, defensin

Acute rhinosinusitis (ARS) is an inflammatory condition of the upper respiratory mucosa associated with activation of cytokine and antimicrobial peptide secretion. This study aimed to evaluate serum levels of IL-1, IL-5, IL-6, IL-10, and β1-defensin in 30 ARS patients compared with 20 healthy controls. Levels of IL-1, IL-5, IL-6, and β1-defensin were significantly elevated in patients, while IL-10 showed a mild, non-significant increase. The sharp rise in IL-6 and β1-defensin indicates activation of inflammatory and epithelial antimicrobial defense mechanisms. These biomarkers may serve as potential diagnostic and prognostic indicators of the inflammatory phase of ARS.

XRONİK ÜRƏK ÇATIŞMAZLIĞI ZAMANI D VİTAMİNİ DEFİSİTİNİN XƏSTƏLİYİN AĞIRLIQ DƏRƏCƏSİNƏ TƏSİRİ

Alməmmədov Fazil Çoban

ATU, Ailə təbabəti kafedrası, Azərbaycan, Bakı

Açar sözlər: xüronik ürək çatışmazlığı, D vitamini, FGF-23, endotelin 1

Son zamanlar XÜÇ olan xəstələrdə D vitaminin çatışmazlığına xüsusi diqqət yetirilir. Aparılmış tədqiqatlar göstərmişdir ki, D vitamini defisiti olan xəstələrdə XÜÇ riski daha yüksəkdir və bu xəstələrdə klinika daha ciddi və ağır keçir. Xronik ürək çatışmazlığı (XÜÇ) olan xəstələrdə vitamin D defisiti geniş yayılmışdır və bu defisit iltihab, kardiyak remodelinq və kalsium-fosfor mübadiləsinin pozulması ilə

əlaqəlidir. Son tədqiqatlar göstərir ki, D vitamini çatışmazlığı XÜÇ-in klinik gedişatını ağırlaşdırır, NYHA funksional sinfi yüksəldir və mortalite riskini artırır. Buna görə də XÜÇ-li xəstələrdə D vitamini səviyyələrinin monitorinqi və vaxtında korreksiyası xəstəliyin proqnozunu yaxşılaşdırmaq baxımından aktual və zəruridir.

Tədqiqatın məqsədi. Tədqiqatın məqsədi xronik ürək çatışmazlığı zamanı D vitamini səviyyəsinin xəstəliyin ağırlıq dərəcəsinə təsirini və bəzi biokimyəvi göstəricilərin bu təsirdəki rolunu müəyyənləşdirməkdir.

Material və metodlar. Tədqiqat işində 30-89 yaş hədlərində olan123 nəfərində (60,4±1,0 yaş) I-II NYHA, 96 nəfərində (62,9±1,0 yaş) III-IV NYHA funksional sinifləri olan 219 nəfər XÜÇ olan xəstənin qan nümunələri qan serumunda D vitamini, kalsium, fosfor, maqnezium, endotelin 1, FGF-23 (Fibroblast Growth Factor-23) və VEGF-A-nın konsentrasiyası analiz olunmuşdur.

Nəticə. Aparılmış tədqiqat nəticələri göstərdi ki, XÜÇ olan xəstələrdə D vitamini çatışmazlığı xəstəliyin funksional mərhələləri ilə paralel olaraq ağırlaşır. Belə ki, NYHA I–II funksional sinifində D vitamininin konsentrasiyası kontrol qrupu ilə müqayisədə təxminən 50% ($p<0,001$) azalmış, III–IV sinifdə isə bu azalma 2,5 dəfə ($p<0,001$) təşkil etmişdir. Nəticələrdən göründüyü kimi, III-IV funksional sinifdə daha ciddi D vitamini çatışmazlığı müşahidə olunmuşdur. Bu nəticələr, D vitamininin ürək-damar sağlamlığına təsirinin təkcə sümük metabolizmi ilə məhdudlaşmadığını, həmçinin miokard strukturu, hüceyrəvi siqnal yolları da təsir göstərdiyini sübut edir. NYHA III–IV funksional sinifində kalsiumun konsentrasiyasında 9,3% ($p<0,001$) azalma, fosforun isə həm erkən, həm də gec mərhələlərdə, müfaviq olaraq 58,6% ($p<0,001$) və 62,0%, ($p<0,001$) artma müşahidə olunmuşdur. III-IV funksional sinifdə fosforun konsentrasiyası - əhəmiyyətli dəyişməmiş ($p=0,804$), kalsiumun - 5,8 % ($p<0,001$) və maqneziumun – 8,6% ($p<0,001$) isə əksinə azalmışdır. Paratormon (PTH), endotelin-1 və FGF-23 səviyyələri NYHA I–II sinifdə müvafiq olaraq 51,4% ($p<0,001$), 54,2% ($p<0,001$) və 10,8% ($p=0,003$) artmış, NYHA III–IV sinifdə isə bu artım müvafiq olaraq 62,3% ($p<0,001$), 95,0% ($p<0,001$) və 20,0% ($p<0,001$) təşkil etmişdir. Bu göstəricilər xəstəliyin proqressivləşməsi ilə endokrin və vaskulyar regulatorların aktivliyinin artdığını göstərir.Tədqiqat nəticələrinə əsasən, VEGF-A səviyyəsi NYHA I–II sinifdə 4,2 dəfə ($p<0,001$), III–IV sinifdə isə 8,6 dəfə ($p<0,001$) artmışdır. Bu da həm miokard perfuziyasının tənzimlənməsi, həm də ürək toxumasının kompensator mexanizmləri ilə bağlıdır. Əldə olunan korrelyasiyalar göstərir ki, D vitamini səviyyəsi **və** NT-pro BNP göstəriciləri arasında neqativ ($\rho = -0.136$; $p = 0.044$) korrelyasiya mövcuddur**.** Bu, D vitamininin azalması ilə ürək çatışmazlığının ağırlaşması arasında qarşılıqlı asılılıq olduğunu göstərir.

Yekun. Beləliklə, XÜÇ olan xəstələrdə D vitamini çatışmazlığı xəstəliyin funksional sinifləri ilə proqressiv şəkildə dərinləşir və bu dəyişiklik bir sıra biokimyəvi və immunoloji markerlərlə qarşılıqlı əlaqədə olur.

Summary

THE IMPACT OF VITAMIN D DEFICIENCY ON DISEASE SEVERITY IN CHRONIC HEART FAILURE

Fazil Choban Almemmedov
AMU, Department of Family Medicine, Baku, Azerbaijan

Key words: chronic heart failure, vitamin D, FGF-23, endothelin-1

Vitamin D deficiency is increasingly recognized in chronic heart failure (CHF) and is associated with greater disease severity. This study evaluated the relationship between vitamin D levels and CHF severity, along with selected biochemical markers. A total of 219 patients (NYHA I–II: 123; NYHA III–IV: 96) were included. Serum vitamin D, calcium, phosphorus, magnesium, parathormone (PTH), endothelin-1, FGF-23, and VEGF-A were measured. Vitamin D levels decreased progressively with CHF severity (50% in NYHA I–II; 2.5-fold in NYHA III–IV; $p<0.001$). Calcium and magnesium decreased, phosphorus increased, and PTH, endothelin-1, FGF-23, and VEGF-A rose significantly with disease progression. A negative correlation was found between vitamin D and NT-proBNP ($\rho = –0.136$; $p = 0.044$). These findings indicate that vitamin D deficiency worsens with CHF progression and is linked to key biochemical and immunological markers, underscoring its role beyond bone metabolism.

ФУНКЦИОНАЛЬНОЕ СОСТОЯНИЕ СЕРДЦА У БОЛЬНЫХ С АДЕНОМОЙ ПРЕДСТАТЕЛЬНОЙ ЖЕЛЕЗЫ ПРИ ПРИМЕНЕНИИ СИЛОДОЗИНА

Джафарова З.И., Таривердиева Р.Р., Фаталиева Г.Р.
АМУ, Кафедра внутренних болезней II Баку, Азербайджан
doctor_tariverdiyeva@mail.ru

***Ключевые слова*:** доброкачественная гиперплазия предстательной железы (ДГПЖ), артериальная гипертензия (АГ), альфа-1-адреноблокаторы-силодозин

Аденома предстательной железы (доброкачественная гиперплазия простаты, ДГПЖ) часто встречается у мужчин пожилого и старческого возраста и нередко сопровождается сердечно-сосудистыми заболеваниями, такими как артериальная гипертензия и ишемическая болезнь сердца (стенокардия).

Альфа-1-адреноблокаторы являются основной группой препаратов для медикаментозной терапии нижне-мочевых симптомов при ДГПЖ; среди них силодозин выделяется высокой селективностью к α1A-подтипу, что теоретически уменьшает воздействие на сосудистые α1B-рецепторы и, следовательно, риск выраженных кровяных изменений и ортостатических явлений. В то же время вопросы безопасности альфа-адреноблокаторов у пациентов с сочетанной сердечно-сосудистой патологией остаются предметом исследования и обсуждения [1].

Цель исследования: Оценить влияние добавления силодозина к традиционной терапии на сердечную функцию, давление, ЭКГ/ЭхоКГ-параметры и переносимость физической нагрузки у больных с ДГПЖ, стенокардией и гипертонией.

Материалы и методы: Исследование проводилось на базе эндокринного отделения Учебно-Терапевтической клиники Азербайджанского медицинского университета. Сбор рабочего материала произведен в процессе амбулаторного/стационарного (2017-2024 гг.) обследования 42 больных с верифицированной аденомой предстательной железы и сопутствующей артериальной гипертонией; многие пациенты также имели стенокардию напряжения. Возраст пациентов варьировал в трёх группах: 50–59, 60–69 и 70–79 лет. Пациенты были разделены на две сопоставимые по демографии и тяжести сопутствующих заболеваний группы: группа стандартной терапии (контроль) и группа, получавшая традиционную терапию с добавлением силодозина (по схеме 8 мг/сут или 4 мг при необходимости корректировки дозы у пожилых/при нежелательных эффектах). Всего обследовано 42 пациента; группы были сопоставимы по возрасту и тяжести сердечно-сосудистой патологии ($n \approx 21$ в каждой группе). Всем пациентам выполнялись: измерения систолического и диастолического давления в состоянии покоя и при ортостатическом тесте, регистрация ЭКГ в покое, при необходимости — холтер-мониторирование, эхокардиография для оценки ФВ ЛЖ и структурных изменений, а также вело- или тредмил-тест для оценки переносимости физической нагрузки (при отсутствии противопоказаний). Побочные явления документировались (головокружение, предобморочное состояние, ухудшение стенокардии и т. п.). Период наблюдения составил клинически оправданный интервал (6 месяцев) для выявления как ранних, так и среднесрочных эффектов терапии. Статистическая обработка включала описательную статистику и сравнительный анализ (т-тесты/непараметрические тесты) для количественных показателей и χ^2 для долей.

Результаты: Гемодинамика: В группе, получавшей силодозин, значимого постоянного снижения среднего уровня систолического и диастолического давления в покое не наблюдали по сравнению с контролем. Эпизоды ортостатического снижения АД отмечались у небольшого числа пациентов, но, как правило, носили лёгкий и преходящий характер и не требовали отмены терапии в большинстве случаев. Полученные наблюдения согласуются с данными клинической практики, что при высокой уроселективности силодозина риск выраженной ортостатической гипотензии небольшой, но возможно повышение предрасположенности у лиц пожилого возраста или при сочетании с антигипертензивными средствами [1,5]. **ЭКГ:** Никаких достоверных новых нарушений реполяризации (включая применением силодозина, выявлено не было. Это согласуется с опубликованными данными о благоприятном кардиальном профиле силодозина [4]. **Эхокардиография:** Фракция выброса левого желудочка (ФВ ЛЖ) в среднем

не изменилась в обеих группах в ходе наблюдения; у части пациентов с исходным снижением ФВ отмечалась стабильность показателей при добавлении силодозина. **Переносимость физической нагрузки:** Количество приступов стенокардии и толерантность к нагрузке не ухудшались в группе силодозина; у некоторых пациентов отмечено субъективное улучшение переносимости нагрузки, что можно объяснить уменьшением ночных/утренних нарушений мочеиспускания и улучшением качества сна. Наиболее частым побочным эффектом силодозина была ретроградная эякуляция; головокружение и лёгкие эпизоды снижения АД отмечались реже. Серьёзных сердечно-сосудистых осложнений, требующих прекращения терапии, зарегистрировано не было. В литературе также указано, что у некоторых пациентов при комбинированной терапии α-блокаторами может повышаться риск сердечной недостаточности; это требует внимательного мониторинга и индивидуального подхода [2].

Обсуждение: наблюдения подтверждают представление о том, что силодозин, в большинстве случаев демонстрирует благоприятный профиль безопасности в отношении гемодинамики и основных кардиальных показателей у пациентов с ДГПЖ и сопутствующей гипертонией/стенокардией. Тем не менее при лечении пожилых пациентов и при сочетанной терапии с антигипертензивными средствами следует проводить тщательный мониторинг артериального давления и симптомов ортостатизма. Существующие крупные обзоры и клинические исследования также показывают низкую частоту значимых сердечно-сосудистых побочных эффектов у силодозина, но отмечают необходимость осторожности при комбинированной терапии и у лиц с выраженной сердечной патологией[3]. Кроме того, в последние годы появились указания на возможную ассоциацию терапии α-блокаторами с повышенным риском диагностики сердечной недостаточности в популяционных исследованиях — эти данные требуют взвешенного подхода: они не означают причинно-следственной связи на уровне индивидуального клинического наблюдения, но подчёркивают необходимость индивидуального риска-менеджмента [5].

Заключение: В рассмотренной когорте из 42 пациентов добавление силодозина к стандартной терапии ДГПЖ у мужчин с сопутствующей артериальной гипертонией и стенокардией не сопровождалось выраженным ухудшением функционального состояния сердца в течение наблюдаемого периода. Силодозин показал приемлемую переносимость с редкими гемодинамическими побочными явлениями; наиболее частым нежелательным эффектом оставалась сексуальная дисфункция в виде ретроградной эякуляции. Рекомендовано: индивидуализировать подход к назначению у пожилых пациентов и при комбинированной антигипертензивной терапии, проводить мониторинг АД и состояния сердечно-сосудистой системы в динамике.

Список литературы:

1. Moon KH, et al. Efficacy and Safety of the Selective α1A-Adrenoceptor Antagonist Silodosin. International Urology (обзор). 2014.

2. Yoshida M, et al. Safety and efficacy of silodosin for the treatment of benign prostatic hyperplasia. Journal (2011).
3. Lepor H. Silodosin for the Treatment of Benign Prostatic Hyperplasia: Cardiac and Blood Pressure Safety Profile. Pharmacotherapy (2010).
4. Zhang J, et al. Cardiovascular Outcomes of α-Blockers vs 5-α Reductase Inhibitors for BPH. JAMA Network Open (2023). (Популяционные данные по сердечным исходам).
5. Mansbart F, et al. Efficacy and safety of adrenergic alpha-1 receptor antagonists in older adults: systematic review. BMC Geriatrics (2022). (Рекомендации по использованию у ≥65 лет).

Summary

CARDIAC FUNCTIONALITY IN PATIENTS WITH PROSTATE ADENOMA USING SILODOSIN

Jafarova Z.I., Tariverdiyeva R.R., Fataliyeva G.R.

AMU, Department of Internal Medicine II, Baku, Azerbaijan

***Key words*:** benign prostatic hyperplasia (BPH), arterial hypertension (AH), alpha-1-adrenergic blockers-silodosin

A study was conducted to evaluate the effects of silodosin in 42 patients with benign prostatic hyperplasia, arterial hypertension, and stable angina pectoris. Patients were divided into two groups: standard therapy and standard therapy with the addition of silodosin. Blood pressure, ECG, echocardiographic parameters, and exercise tolerance were assessed over a six-month period. The addition of silodosin did not cause significant changes in systolic or diastolic blood pressure. Episodes of orthostatic hypotension were rare and mild. No new repolarization abnormalities were detected on ECG, and left ventricular ejection fraction remained stable. Exercise tolerance did not worsen, and some patients reported subjective improvement in well-being. The main adverse effect was retrograde ejaculation, and no serious complications were recorded. Silodosin demonstrated good tolerability and cardiovascular safety in combination therapy. Individual dose adjustment and blood pressure monitoring are recommended, particularly in elderly patients and those receiving antihypertensive medications.

ПРОГНОЗИРОВАНИЕ КАЧЕСТВА ЖИЗНИ ПРИ СОЧЕТАННЫХ ЧЕРЕПНЫХ ТРАВМАХ

Говхар Гасымзаде

Азербайджанский государственный институт усовершенствования врачей им. А. Алиева, кафедра лучевой диагностики с курсом лучевой терапии, Баку, Азербайджан

Ключевые слова: черепная травма, сочетанные травмы, качество жизни, EQ-5D-5L, повседневная активность, боль, тревожность, депрессия

Сочетанные черепные травмы являются одной из ведущих причин долгосрочных нарушений здоровья и снижения качества жизни пациентов. Несмотря на успешное лечение острого периода, пациенты часто сталкиваются с ограничениями в повседневной активности, психоэмоциональными расстройствами и хроническими болевыми синдромами. Оценка качества жизни с использованием стандартизированных инструментов, таких как EQ-5D-5L, позволяет выявить скрытые последствия травмы и определить направления для комплексной реабилитации, включая медицинскую, психологическую и социальную поддержку.

Цель исследования. Изучить влияние сочетанных черепных травм на показатели качества жизни пациентов с использованием опросника EQ-5D-5L.

Материал и методы. В исследование включены пациенты с сочетанными травмами, среди которых у части диагностированы повреждения черепа. Всего обследовано 92 человека, из них у 39 пациентов были зафиксированы черепные травмы, а у 53 — их не было. Для оценки качества жизни применялся стандартизированный опросник EQ-5D-5L, учитывающий пять доменов: мобильность, самообслуживание, повседневная активность, боль/дискомфорт и тревога/депрессия. Дополнительно использовалась визуально-аналоговая шкала (ВАШ) для субъективной оценки здоровья. Статистическая обработка данных проведена с использованием критерия χ^2 и Манна–Уитни, достоверным считалось значение $p<0,05$.

Результаты. Среди пациентов с черепными травмами состояние здоровья без нарушений было отмечено у 27 (69,2%) человек, инвалидизация — у 8 (20,5%), летальность — у 4 (10,3%). Отличий по сравнению с пациентами без черепных травм не выявлено ($p=0,633$). Общая клиническая оценка состояния показала удовлетворительный уровень у 26 (74,3%) пациентов и неудовлетворительный — у 9 (25,7%), что также не отличалось статистически от группы сравнения ($p=0,250$). По шкале EQ-5D-5L мобильность без ограничений сохраняли 12 (34,3%) пациентов с травмами, в то время как 11 (31,4%) испытывали незначительные затруднения, 6 (17,1%) — умеренные, 4 (11,4%) — выраженные, а у 2 (5,7%) была утрачена возможность передвижения. Однако различия с контрольной группой оказались статистически незначимыми ($p=0,056$).

По самообслуживанию у 16 (45,7%) больных ограничений не было, но у 10 (28,6%) отмечены лёгкие трудности, у 4 (11,4%) — умеренные, у 3 (8,6%) — выраженные, а у 2 (5,7%) — полная потеря способности к самообслуживанию ($p=0,073$). В сфере повседневной активности значимые различия установлены: отсутствие ограничений отмечено у 14 (40,0%) пациентов, у 12 (34,3%) — лёгкие затруднения, у 3 (8,6%) — умеренные, у 2 (5,7%) — выраженные, а у 4 (11,4%) — полная потеря активности. В отличие от контрольной группы, различия были статистически значимыми ($p=0,028$). Анализ болевого синдрома

показал, что 10 (28,6%) пациентов не имели жалоб, у 14 (40,0%) наблюдалась лёгкая боль, у 6 (17,1%) — умеренная, у 5 (14,3%) — выраженная. Достоверных отличий с контрольной группой не выявлено (p=0,058). По шкале тревожности и депрессии установлено, что 16 (45,7%) больных не имели нарушений, но у 10 (28,6%) отмечались лёгкие проявления, у 2 (5,7%) — умеренные, у 4 (11,4%) — выраженные и у 3 (8,6%) — крайне тяжёлые состояния. Различия по сравнению с пациентами без травм были достоверными (p=0,024).

Суммарная оценка по индексу EQ-5D-5L составила Me=9,0 (Q1=5,0; Q3=15,0) против Me=6,0 (Q1=5,0; Q3=12,0) в контрольной группе (p=0,040). По визуально-аналоговой шкале здоровье оценивалось ниже в основной группе (Me=70,0; Q1=45,0; Q3=80,0) по сравнению с контролем (Me=80,0; Q1=55,0; Q3=95,0, p=0,040).

Выволы: У пациентов с сочетанными черепными травмами выявлены нарушения качества жизни, в большей степени затрагивающие повседневную активность и психоэмоциональную сферу (тревожность и депрессия). Несмотря на отсутствие статистически значимых различий по мобильности, самообслуживанию и болевому синдрому, суммарный индекс EQ-5D-5L и субъективная оценка здоровья были достоверно хуже у больных с черепными травмами. Это подтверждает необходимость комплексного подхода к реабилитации таких пациентов, включая не только медицинскую, но и психосоциальную поддержку.

Summary

PREDICTING QUALITY OF LIFE IN CONCOMITANT HEAD INJURIES

Govhar Gasimzade

Azerbaijan State Institute for Advanced Medical Studies named after A. Aliyev, Department of Radiology with a Course in Radiation Therapy, Baku, Azerbaijan

***Key words*:** head injury, concomitant injuries, quality of life, EQ-5D-5L, activities of daily living, pain, anxiety, depression.

This study evaluated the quality of life in patients with combined cranial injuries using the EQ-5D-5L questionnaire. Among 92 patients, 39 had cranial trauma. The results showed significant impairments in daily activities and psychoemotional domains (anxiety and depression) in patients with cranial injuries. Although no significant differences were observed in mobility, self-care, and pain, the overall EQ-5D-5L index and subjective health assessment were significantly lower compared to the control group. These findings highlight the need for a comprehensive rehabilitation approach, incorporating both medical and psychosocial support for patients with cranial trauma.

GINEKOLOGİYADA SÜNİ İNTELLEKT: NAİLİYYƏTLƏR, KLİNİK ƏHƏMİYYƏT VƏ PERSPEKTİVLƏR

Kəmalə Əliyeva[1], Leyla Məmmədova[1], Sevinc Musayeva[2]
[1]Azərbaycan Tibb Universiteti, I Mamalıq və ginekologiya kafedrası
[2]ATU, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası

***Açar sözlər*:** süni intellekt, ginekologiya, diaqnostika, reproduktiv sağlamlıq.

Son illərdə rəqəmsal texnologiyalar və süni intellekt (SI) tibb sahəsinə, xüsusilə ginekologiyaya əhəmiyyətli təsir göstərmişdir. Burada diaqnostik dəqiqlik və vaxtında müalicə uğurlu nəticələr üçün əsas amillərdir. Ginekologiya iltihabi proseslərdən və hormonal disbalansdan onkoloji və reproduktiv patologiyalara qədər geniş xəstəlik spektrini əhatə edir. Ultrasəs, sitoloji, molekulyar-genetik və laborator analizlər vasitəsilə əldə edilən böyük həcmli məlumatlar, yüksək sürətlə və dəqiqliklə işləyə bilən ağıllı sistemləri tələb edir.

SI, o cümlədən maşın öyrənməsi (англ. machine learning, ML), dərin öyrənmə (Deep learning, DL) və böyük məlumat analitikası (Big Data), diaqnostik səmərəliliyi artırır, tibbi görüntüləri avtomatlaşdırılmış şəkildə emal edir, xəstəlik proqnozunu təkmilləşdirir və fərdiləşdirilmiş terapiya imkanları yaradır. Bu yanaşmalar ağıllı, proqnozlaşdırıcı və fərdiləşdirilmiş ginekologiyanın əsasını təşkil edir.

Tədqiqatın məqsədi süni intellektin ginekologiyada tətbiqini araşdırmaq, xəstəliklərin diaqnozu, müalicəsi və qarşısının alınmasında klinik əhəmiyyətini qiymətləndirmək və ağıllı texnologiyaların praktik tibbdə istifadəsi perspektivlərini müəyyən etməkdir.

Ginekologiyada SI-nin tətbiq sahələrinə erkən diaqnoz və xərçəngin qarşısının alınması daxildir. Kompüter görmə alqoritmləri sitoloji yaxmalar, kolposkopiya və MRT şəkillərini təhlil edərək patoloji dəyişiklikləri ənənəvi metodlardan daha dəqiq müəyyən edir. Məsələn, neyron şəbəkə əsaslı sistemlər Bethesda sisteminə uyğun olaraq sitoloji yaxmaları avtomatik təsnif edir, bu da subyektiv səhvləri azaldır və skrininqin keyfiyyətini artırır. Digər bir istiqamət reproduktiv nəticələrin proqnozlaşdırılması və IVF (EKO) dəstəyidir. Maşın öyrənmə metodları IVF proqramlarının uğurunu modelləşdirir, embrion keyfiyyəti və implantasiya ehtimalını təhlil edir. SI hormonal terapiyanı fərdiləşdirir, ovulyasiya stimullaşdırmasını optimallaşdırır və ağırlaşma riskini azaldır, nəticədə müalicə müddəti və xərclər azalır.

Tibbi görüntü təhlili də vacib istiqamətdir. Müasir SI sistemləri çanaq orqanlarının ultrasəs, MRT və histoloji görüntülərini avtomatik şərh edir, bu da endometrioz, mioma, kista və struktur uşaqlıq anomaliyalarının diaqnozunu sürətləndirir və dəqiqliyi artırır.

Fərdiləşdirilmiş terapiya və klinik analitika da əhəmiyyətlidir. Ağıllı sistemlər klinik və laboratoriya məlumatlarını təhlil edir, xəstənin fərdi ehtiyaclarına uyğun müalicə tövsiyələri yaradır. Bu yanaşma fərdiləşdirilmiş ginekologiyaya keçidi asanlaşdırır, terapiyanın xəstənin genetik profili, hormonal vəziyyəti, yanaşı xəstəlikləri və reproduktiv məqsədlərinə uyğun olmasını təmin edir.

Nəticə. Süni intellekt tədricən müasir ginekologiyanın ayrılmaz hissəsinə çevrilir və tibbi diaqnostika və terapiyada yeni bir dövrün başlanğıcını təmin edir. Onun tətbiqi hər bir xəstənin çoxlu miqdarda məlumatların təhlili əsasında optimal yardım aldığı ağıllı şəkildə idarə olunan, yüksək dəqiqlikli və fərdiləşdirilmiş tibbə keçidi asanlaşdırır. Ginekologiyada süni intellektin inkişaf perspektivləri maşın öyrənmə texnologiyalarının elektron tibbi sistemlər, teletibb, farmakogenomika və klinik baza məlumatlarının inteqrasiyası ilə əlaqələndirilir. Ginekoloji praktikanın gələcəyi ginekoloji xəstəliklərin qarşısının alınması, diaqnozu və müalicəsinin effektivliyini artırmağa yönəlmiş tibbi təcrübə və hesablama texnologiyalarının sintezidir.

Summary

ARTIFICIAL INTELLIGENCE IN GYNECOLOGY: ACHIEVEMENTS, CLINICAL SIGNIFICANCE AND PROSPECTS

Kamale Aliyeva[1], Leyla Mammadova[1], Sevinj Musayeva[2]

[1]AMU, Department of Obstetrics and Gynecology I

[2]AMU, Department of Pharmaceutical Technology and Administration

Key words: artificial intelligence, gynecology, diagnostics, reproductive health

Artificial intelligence is gradually becoming an integral part of modern gynecology and is opening a new era in medical diagnostics and therapy. Its application ensures optimal, personalized and highly accurate assistance to patients based on the analysis of a large amount of data. The development prospects of artificial intelligence in gynecology are associated with the integration of machine learning technologies with electronic medical systems, telemedicine and clinical databases. In the future, gynecological practice will be a synthesis of medical experience and computational technologies aimed at increasing the effectiveness of disease prevention, diagnosis and treatment.

GİCGAH-ÇƏNƏ OYNAĞININ ARTROZLARINDA “XONDROKSİD”İN ROLU

Əhmədov E.T., Cəfərov M.Ə., Qurbanəliyeva Q.İ., Quliyev A.H., Əliquliyev V.Q.

Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrası, Azərbaycan, Bakı

elçin.67ahmediv@gmail.com

***Açar sözlər*:** gicgah-çənə oynağı, artroz, xondroksid.

Gicgah-çənə oynağının xəstəlikləri və zədələnmələrinin müalicəsi müasir stomatologiyanın və üz-çənə cərrahiyyəsinin aktual problemlərindən biri olaraq qalır. Gicgah-çənə oynağının patologiyaları arasında artrozların və onların daxili pozğunluqlarının diaqnostikası və müalicəsi xüsusi tibbi-sosial məsələlərdəndir.

Artrozların diaqnostikasında əsas məsələlərdən biri odur ki, kliniki simptomlar heç də həmişə aparılan müayinələrin nəticələrinə uyğun gəlmir. Bu da bu xəstələrdə vahid müalicə taktikasının olmamasına təsir göstərir. Müxtəlif və sxemsiz müalicə metodlarının tətbiqi yeni müalicə metodlarının axtarışına əsas verir.

Məqsəd: Gicgah-çənə oynağının artrozlarında xondroprotektor “xondroksid” preparatının tətbiqinin nəticələrini təhlil etməkdən ibarətdir.

Material və metodlar. Tədqiqat işi 72 xəstədə aparılıb. Onların 57-si qadın, 15-i isə kişi olmuşdur. Xəstələrin əksəriyyətini qadınlar təşkil etmişdir. Bütün xəstələrdə ənənəvi klinik-laborator müayinələrdən sonra iltihabın aktiv faza göstəriciləri və patoloji seroloji proteinlər, vitamin D-nin səviyyəsi, kalsiumun miqdarı aydınlaşdırılıb.

Birləşdirici toxuma strukturlarının informativ markeri – polimorfonukleur elastaza (PMNE) fermentinin aktivliyi də dinamik olaraq periferik qanda öyrənilib. Əlavə olaraq xəstələrdə sümük qələvi fosfataza – BAP və ß-cross laps – BCL osteomarkerləri də müalicədən əvvəl və sonra tədqiq edilib.

Vizualizasiya metodlarından maqnit-rezonans tomoqramma, ortopantomoqrammanın 7-ci proqramı xəstələrdə tətbiq edilmişdir. Kompleks müalicədə ortoped-stomatoloqun, ortodontun, revmatoloqun və endokrinoloqun konsultasiyalarını nəzərə almışıq. Artrozlarda 4, daxili pozğunluqlarda isə 9 nozoloji formanın differensasiyasına xüsusilə fikir vermişik.

Bütün xəstələrdə kompleks müalicədə xondroprotektiv təsirə malik “xondroksid” preparatını tətbiq etmişik. “Xondroksid” preparatının tərkibi xondroitin natrium-sulfat - 250 mq və köməkçi maddələrdən ibarətdir. “Xondroksid” xondrostimuləedici, regenerativ və iltihab əleyhinə təsirə malikdir. Preparat Rusiyanın “Xemofarm” firmasının istehsalıdır.

Xondroitin oynaqların biomaterialı olub və oynaq qığırdağının tərkibinə daxildir. Bu maddə çənənin oynaq başının oynaq çuxurunda lubrikasiyasını yaxşılaşdırır. Əlavə olaraq preparat antioksidant xüsusiyyətə malikdir. Oynaqlara müsbət təsir göstərməklə onların hərəkətliliyini artırır. Kollogenin sintezinə kömək göstərir və oynaqlarda qan dövranını yaxşılaşdırır.

Nəticə və müzakirələr. 3 aydan sonra xəstələrdə çənənin hərəkətləri sərbəstləşmiş və mərkəzi kəsici dişlər arasında məsafə artmışdır. Çeynəmə funksiyası əksər xəstələrdə yaxşılaşmışdır. 75% xəstələrdə çənə oynağında küy və krepitasıya müşahidə edilməmiş, 17% xəstələrdə isə bu əlamətlər azalmışdır. Oynaqətrafı toxumaların palpasiyası və qida qəbulu zamanı ağrılar müşahidə edilməmişdir. Bu müsbət kliniki göstəricilər laborator markerlərlə eynilik təşkil etmişdir. “Xondroksid” preparatının tətbiqi zamanı heç bir ağırlaşma baş verməmişdir. “Xondroksid” preparatının gicgah-çənə oynağının artrozlarında tətbiqi xəstələrin vəziyyətini yaxşılaşdırmış və onların həyat keyfiyyətinin artmasına səbəb olmuşdur. Bütün bu parametrlər artrozların kompleks müalicəsində “xondroksid” preparatının tətbiqinin səmərəliyini və effektivliyini sübut etmişdir.

Summary

THE ROLE OF “CHONDROXIDE” IN OATHEROSSIS OF THE TEMPOMATUM JOINT

Ahmedov E.T., Jafarov M.E., Gurbanaliyeva G.I., Guliyev A.H., Aliguliyev V.G.
Department of Oral and Maxillofacial Surgery,
Azerbaijan Medical University, Baku
elchin.67ahmediv@gmail.com

Key words: temporomandibular joint, arthrosis, chondroxide

This study evaluated the role of the chondroprotector “Xondroksid” in the treatment of temporomandibular joint (TMJ) osteoarthritis. A total of 72 patients (57 women, 15 men) underwent clinical, laboratory, and imaging assessments, including MRI and orthopantomogram. The treatment protocol included the use of Xondroksid, containing chondroitin sodium sulfate 250 mg, known for its chondro-stimulating, regenerative, anti-inflammatory, and antioxidant properties. After three months of therapy, patients demonstrated improved jaw mobility, increased interincisal distance, and enhanced masticatory function. Joint noises and crepitus were eliminated in 75% of patients and reduced in 17%. Pain during palpation and food intake was absent, and laboratory markers correlated with clinical improvements. No adverse effects were observed. These findings indicate that Xondroksid is effective and safe for the management of TMJ osteoarthritis, improving joint function and patients’ quality of life.

HOMOCYSTEINE AND OXIDATIVE STRESS IN β-THALASSEMIA PATIENTS

Dadashova Arzu Ramiz
ATU, Biochemistry Department, Baku, Azerbaijan
arzu26@mail.ru

Keywords: Hyperhomocysteinemia, β-thalassemia, nytrosative stress, carbonylated protein, nitric oxide

β-thalassemia is a hereditary blood disorder characterized by impaired hemoglobin synthesis, chronic anemia, and increased oxidative stress due to iron overload and frequent blood transfusions. Elevated homocysteine levels have been associated with endothelial dysfunction, cardiovascular complications, and oxidative damage. Investigating the relationship between homocysteine concentration and oxidative stress markers in β-thalassemia patients is of great importance for understanding the mechanisms underlying vascular complications and for developing effective antioxidant and therapeutic strategies to improve patient outcomes.

The aim of this study is to investigate biochemical disorders in pediatric patients with β-thalassemia, specifically liver function, iron metabolism, and the role

of homocysteine as a marker of oxidative and nitrosative stress, as well as to assess its possible association with complications arising from haemotransfusion therapy.

Materials and methods:

The study included 76 children aged 2 to 15 years with genetically confirmed β-thalassemia. Patients were divided into two groups: group I (n = 31, heterozygous form) and group II (n = 45, homozygous form). Levels of liver transaminases, bilirubin, transferrin, homocysteine, as well as markers of oxidative and nitrosative stress (carbonylated proteins, nitrotyrosine) were assessed.

Results:

Patients with β-thalassemia had elevated transaminase and bilirubin levels, indicating hepatocellular damage. Homocysteine levels were significantly elevated, especially in children with the homozygous form of the disease. Increased oxidative and nitrosative stress was also noted, reflected in increased levels of carbonylated proteins and nitrotyrosine. Changes in transferrin concentration indicate disturbances in the iron transport system.

Conclusion:

Elevated homocysteine levels in patients with β-thalassemia may be associated with the development of metabolic and vascular disorders, exacerbated by regular haemotransfusion therapy. Monitoring homocysteine and oxidative stress markers is a promising approach for the early detection of transfusion complications and the optimization of individualized treatment.

UŞAQLARDA ÖSKÜRƏK

İbrahim N.İ., Eynalova M.K., Məmmədova N.M.
ATU, II Uşaq xəstəlikləri kafedrası, Bakı ş. Azərbaycan Respublikası.
nigar33@mail.ru

***Açar sözlər*:** uşaqlar, öskürək, xəstəliklər, Lazolvan

Öskürək ambulatoriyada, təcili yardımda, stasionar praktikasında tez-tez rast qələn simptomdur. Ümumilikdə təxminən 55% uşaqlarda öskürək müşahidə olunur və müxtəlif yaş qruplarında müşahidə olunur. Valideyinlər bir çox hallarda öskürək şikayyəti ilə tibbi yardıma müraciət edirlər. Öskürək orqanizmin müdafiə reaksiyalarından biridir. Öskürək təkcə orqanizmin müdafiə reaksiyası deyil, həmçinin müxtəlif xəstəliklərin əlamətidir. Sağlam uşaqlarda gün ərzində orta hesabla 10-15 qısa öskürək epizodları olur. Uşaqlarda öskürək tənəffüs yollarından yad cisimlərin çıxarılmasına yönəlmiş fizioloji refleksdir. Xəstəliklər zamanı patologı dəyişmiş traxeobronxial ifrazatının xaric olunmaına kömək edir bə beləliklə öskürək zamanı tənəffüs yolların normal keçiriciliyi bərpa olur. Kəskin respirator infeksiyalar (KRİ) uşaqlarda ən çox yayılmış yoluxucu xəstəliklərdir, ən yüksək rastgəlmə tezliyi məktəbəqədər və məktəb yaşlı uşaqlarda müşahidə olunur. Əsas törədicilər viruslardır (qrip/paraqrip virusları, adeno/rinoviruslar, korona viruslar), həmçinin bakteriyalar (mikoplazmalar, xlamidiya, pnevmokoklar, H.influenzae) xəstəliyin yaranmasında rol

oynayır. Beləliklə, bu kimi trigerlərin təsiri nəticəində respirator traktın nazofaringit, rinit, faringit, laringit, traxeit, bronxit kimi xəstəlikləri yaranır.

İşin məqsədi. Uşaqlarda kəskin respirator infeksiyası zamanı Lazolvan (ambroksol hidroxlorid) dərman preparatının klinik təsirinin öyrənilməsidir.

Material və metodlar: Tədqiqata KRİ diaqnozu qoyulmuş 5 yaşdan 15 yaşa qədər 42 uşaq daxil olmuşdur. Əsas kliniki simptomlar kimi zökəm əlamətləri, qızdırma, boğaz ağrısı, kəskin rinit, intoksikasiya, quru və nəm öskürək müşahidə olunmuşdur. Bütün uşaqlara simptomatik müalicə (bol maye, antivurus preparatlar, qızdırmasalıcılar) və Lazolvan preparatı təyin olunmuşdur. Bu qrupda yalnız 14 xəstə uşağa qorunan penisilinlər təyin olunmuşdur. Müşahidə edilən uşaqların klinik vəziyyəti, Lazolvan dərman preparatının effektivliyinin müəyyən edilməsi və onun mənfi təsirləri 7 gün ərzində öyrənilmişdir.

Nəticə və müzakirələr: Lazolvan ilə aparılan terapiya ilk gündə uşaqların 5,5%-də, ikinci gündə 33,3%-də, üçüncü gün isə uşaqların 66,7%-də bəlğəmin tez xaric olunmasına kömək etmişdir. Xəstəliyin ilk günlərindən gecə öskürəyi şikayətləri əhəmiyyətli dərəcədə azalmışdır və belə bir hal xəstənin həyat keyfiyyətini xeyli yaxşılaşdırmışdır.

Yekun: KRİ kəskin bir xəstəlik olsada, bəzi hallarda bu, kəskin bir problem olmur və həyat keyfiyyətini əhəmiyyətli dərəcədə pisləşdirən xroniki bir vəziyyətə çevrilə bilər. Beləliklə, uşaqlarda KRİ-nin kompleksli terapiyasında Lazolvan (ambroksol hidroxlorid) dərman preparatı davamlı öskürəyin intensivliyini əhəmiyyətli dərəcədə azaldır, bəlğəmin tez xaric olmasına kömək edir. Bundan əlavə, Lazolvanın istifadəsi nəzərə çarpan kliniki effektə və xəstənin həyat keyfiyyətinin yaxşılaşmasına gətirib çıxarır. Lazolvan preparatını 5 yaşdan yuxarı uşaqlarda davamlı öskürək ilə müşayiət olunan kəskin respirator infeksiyaların (KRİ) kompleksli müalicəsində təsirli və təhlükəsiz bir dərman kimi tövsiyə oluna bilər.

Summary

COUGH IN CHILDREN

Ibrahim N.I., Eynalova M.K., Mammadova N.M.
AMU, II Department of Pediatrics, Baku city. Republic of Azerbaijan.
nigar33@mail.ru

***Key words*:** children, cough, diseases, treatment

Although ARI acute respiratory infections is an acute disease, in some cases it is not an acute problem and can turn into a chronic condition that significantly worsens the quality of life. Thus, in the complex therapy of ARI in children, the drug Lazolvan (ambroxol hydrochloride) significantly reduces the intensity of persistent cough, promotes rapid sputum discharge. In addition, the use of Lazolvan leads to a noticeable clinical effect and an improvement in the patient's quality of life. Lazolvan can be recommended as an effective and safe drug in the complex treatment of (ARI) accompanied by persistent cough in children over 5 years of age.

HAMİLƏ QADINLARDA VULVOVAGİNAL KANDİDOZUN NATAMİSİN PREPARATI İLƏ MÜALİCƏSİNİN EFFEKTLİLİYİ

Bağırova S.K., Əliyeva P.İ.,Əsgərova Ş.M.,Həmidova N.A
ATU, II mamalıq-ginekologiya kafedrası
dr.safabagirova@gmail.com

Açar sözlər: hamiləlik, vulvovaginal kandidoz, maya köbələyi-Candida, Candida albicans, Candida non-albicans, ibtidailər (protozoylar).

Vulvovaginal kandidoz (VVK) uşaqlıq yolunun (vaginanın) və xarici cinsiyyət üzvlərinin selikli qişasının maya köbələkləri tərəfindən zədələnməsidir. Kandidozlu vulvovadinit zamanı uşaqlıq boynunun uşaqlıq yoluna baxan hissəsi (kandidozlu endoservisit), uretra (kandidozlu uretrit və sistit) zədələnə bilər.

Vulvovaginal kandidozun tipik törədicisi *Candida albicans,* qeyri-tipik törədiciləri *Candida non-albicans: Candida torulopsis, Candida rhodotorula,* ibtidailər (protozoylar), trixomonaddır. Vulvovaginal kandidoz zamanı pasiyentlərin 80-95%-də *Candida albicans,* 5-10%-də *Candida non-albicans* və digərləri aşkar olunur. VVK urogenital kandidozun strukturunda 30% təşkil edir.

Qadınların 75%-i həyatları boyu ən azı bir, 40-45% -i iki və daha çox VVK epizodu ilə qarşılaşırlar. Hamiləlik zamanı vulvovaginal kandidozun klinik əlamətləri -xarici dizuriya, vulvada qaşınma, göynəmə, uşaqlığın yolundan kəsmiyəbənzər ifrazatın gəlməsi, xarici cinsiyyət üzvlərində hiperemiya, ödem, çat, uşaqlıq yolunda cüzi ağrı və s. nəzərə carpacaq dərəcədə artır. Hamilələrin 20-50%-də VVK-un klinik əlamətləri müşahidə olunur. Vaginal kandidoz cinsi yolla ötürülmür. Uşaqlıq yolunun mikroflorası dəyişildikdə xəstəlik inkişaf edir.

Antibiotikoterapiya, hamiləlik, piylənmə, şəkərli diabet, uzun müddətli kortikosteroid qəbulu, oral kontraseptivlərin qəbulu, immunosupressiya vəziyyəti və s. vulvovaginal kandidozun risk faktorlarıdır. VVK hamiləliyin gedişatını ağırlaşdırmır, dölün və yenidoğulmuşun sağlamlığına mənfi təsir etmir.

Məqsəd: Hamilə qadınlarda vulvovaginal kandidozun müalicəsində Natamisin preparatının effektliyini öyrənməkdir.

Material və metodlar: Natamisin preparatının tədqiqatında vulvovaginal kandidoz diaqnozu qoyulmuş, reproduktiv yaş dövründə (18–45) olan 30 hamilə qadın iştirak etmişdir. Hamiləlik dövründə VVK-un müalicəsində uşaqlıq yoluna qoyulan azol qrupundan olan preparaların birindən istifadə olunması tövsiyyə olunur. Bu preparatlar geniş, antifunqal(köbələk əleyhinə) təsir spektrinə malikdirlər. Tədqiqat işində Moldova Respublikasında-FARMAPRİM MMS-də istehsal olunan Natamisin (NATAMİKS) preparatından istifadə edilmişdir. Preparatın 100 mq suppozitoriyaları intravaginal olaraq 7 gün tədqiqata daxil edilmiş qadınlara təyin olundu və onun effektliyi qiymətləndirildi.

Nəticə: Uşaqlıq yoluna qoyulan Natalsin şam bədən temperaturunun təsirindən əriyərək köpüklü kütlə əmələ gətirir, bu kütlə selikli və selikaltı qatda adqeziya olunaraq daha effektiv və uzun müddətli təsir göstərir. Tədqiqata daxil edilmiş, VVK diaqnozu qoyulmuş 30 hamilə qadına Natalsin vaginal şamı ilə qısa müddətli (7 gün)

müalicə kursu öz müsbət nəticəsini vermişdir, pasiyentlərdə klinik effektlilik 91% olmuşdur. Müalicəyə qədər mövcud olan klinik simptomlar tam aradan qaldırılmışdır. Preparatın yerli tətbiqinə üstünlük verilir, çünki, bu zaman onun dölə mənfi təsiri qeyd olunmur. Preparat hamiləlik və laktasiya dövründə diqqətli müayinələrdən sonra tətbiq oluna bilər.

Xülasə: Aparılan tədqiqatın nəticələrinə, mikroskopik analız məlumatlarına və klinik xüsusiyyətlərinə əsasən qeyd etmək lazımdır ki, Natamisin preparatı yuksək effektliliyə malikdir və VVK olan qadınların, eyni zamanda hamilələrin müalicəsi üçün tövsiyə oluna bilər.

Summary

EFFECTİVENESS OF TREATMENT OF VULVOVAGİNAL CANDİDİASİS WİTH NATAMYCİN İN PREGNANT WOMEN

Bagirova S.K., Aliyeva P.I., Askerova Sh.M., Hamidova N.A

AMU, II Department of Obstetrics and Gynecology

dr.safabagirova@gmail.com

***Key words*:** pregnancy, vulvovaginal candidiasis, yeast-like fungus-*Candida*, *Candida albicans, Candida non-albicans*, protozoa (protozoa).

Vulvovaginal candidosis is a lesion of the external genitalia and vaginal mucosa by yeast fungi-candida albicans, candida non-albicans, and protozoa. VVC accounts for 30% of urogenital infections. During pregnancy, the clinical symptoms of VVC become more pronounced, including itching, burning, vaginal discharge, slight vaginal pain, and more. The aim was to study the effectiveness of using natamycin suppositories, a macrolide group, in the treatment of VVC in pregnant women. In the study, we included 30 pregnant women aged 18-45 years diaqnosed with VVC. We administered 100 mg of natamycin suppositories vaginally to these women for seven day. Based on the results of the study, microscopic analysis data and clinical characteristics , it should be noted that natamycin can be recommended for the trear.

TOKSOPLAZMOZ, CMV VƏ HERPES SİMPLEX VİRUS İNFEKSİYALARI ZAMANI PERİFERİK QAN GÖSTƏRİCİLƏRİNİN DƏYİŞMƏSİ

Əzizova Ə.N., Vəkilova S.V., Rzayeva N.N.

V.Y.Axundov adına Elmi – Tədqiqat Tibbi Profilaktka İnstitutu,

Bakı, Azərbaycan

asiazizova88@gmail.com

***Açar sözlər*:** Toksoplazmoz, CMV, Herpes simplex və ümumi qan göstəriciləri

Toksoplazmoz, sitomeqalovirus (CMV) və herpes virus infeksiyaları geniş yayılmış opportunistik infeksiyalar sırasına daxildir. Bu infeksiyaların gedişi zamanı

orqanizmin immun cavabı hematoloji göstəricilərdə də əks olunur. Leykosit, limfosit, neytrofil və monosit səviyyələrinin dəyişməsi immun sistemin aktivləşmə və adaptasiya mexanizmlərini qiymətləndirməyə imkan verir. Tədqiqatın məqsədi müxtəlif infeksiya qruplarında periferik qan göstəricilərinin müqayisəli təhlilini aparmaq olmuşdur.

Material və metodlar.

Tədqiqatda ümumilikdə 329 nəfər iştirak etmişdir. Onlardan 27 nəfər Toksoplazma gondii infeksiyası, 122 nəfər sitomeqalovirus (CMV), 102 nəfər herpes virusu ilə yoluxmuş, 62 nəfər mikst infeksiya qrupuna daxil olmuş, 16 nəfər isə sağlam nəzarət qrupunu təşkil etmişdir. Bütün iştirakçılardan periferik qan nümunələri götürülmüş və hematoloji analizlər standart laborator metodlarla aparılmışdır. Qiymətləndirilən göstəricilərə leykositlərin ümumi miqdarı, limfosit və neytrofil faizləri, monosit səviyyələri, trombosit (PLT), C-reaktiv zülal (CRZ) və eritrosit çökmə sürəti (EÇS) daxil idi.

Nəticə.

Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, leykosit səviyyəsi toksoplazmoz qrupunda (7,2±1,1 ml) bir qədər yüksək olmuş, CMV və herpes (müvafiq olaraq 6,5±1,0 ml) infeksiyalarında isə nisbətən azalmışdır. Limfosit faizinin toksoplazmoz (32±0,5 %) və CMV(33,2±5,2%) qruplarında artması hüceyrəvi immun cavabın aktivliyini göstərir. Neytrofil faizlərinin azalması limfosit aktivliyinin artması ilə kompensator şəkildə əlaqəlidir. Monosit faizinin artması viruslara qarşı ilkin immun müdafiənin güclənməsini əks etdirir. CRZ və EÇS göstəriciləri mikst infeksiyalarda daha yüksək olmuşdur ki, bu da iltihabi prosesin daha kəskin gedişini göstərir. Toksoplazmoz və CMV infeksiyalarında limfosit faizinin artması hüceyrəvi immun cavabın aktivliyini göstərir. Mikst infeksiyalar zamanı CRZ və EÇS göstəricilərinin yüksəlməsi daha güclü iltihabi prosesdən xəbər verir. Neytrofil səviyyəsinin azalması immun balansın dəyişməsini əks etdirir. Periferik qan göstəriciləri müxtəlif infeksiya tiplərinin immune-patogenezini qiymətləndirmək üçün faydalı biomarkerlərdir.

.

Summary

CHANGES IN PERIPHERAL BLOOD INDICATORS DURING TOXOPLASMOSIS, CMV AND HERPES SIMPLEX VIRUS INFECTIONS

Azizova A.N., Vakilova S.V., Rzayeva N.N.

V.Y.Akhundov Scientific and Research Medical Preventive Institute,
Baku, Azerbaijan
asiazizova88@gmail.com

Key words: Toxoplasmosis, CMV, Herpes simplex and general blood parameters

The aim of the study was to conduct a comparative analysis of peripheral blood parameters in different infection groups. An increase in the percentage of lymphocytes in toxoplasmosis and CMV infections indicates the activity of the cellular immune response. An increase in CRZ and ESR indicators during mixed

infections indicates a stronger inflammatory process. A decrease in the level of neutrophils reflects a change in the immune balance. Peripheral blood markers are useful biomarkers for assessing the immune-pathogenesis of various types of infections.

XRONİKİ BÖYRƏK XƏSTƏLİYİ OLAN PASİYENTLƏRDƏ PARODONTAL XƏSTƏLİKLƏRİN YAYILMASI VƏ AĞIRLIQ DƏRƏCƏSİ

Yusubova Şəhla Rafail, Hüseynova Sevda Tariyel, Bayramov Qasım Rauf
ATU, Terapevtik Stomatologiya Kafedrası Azərbaycan, Bakı

***Açar sözlər*:** xroniki generalizə olunmuş parodontit, böyrəyin xroniki xəstəliyi, ağız boşluğu, immun sistem

Xroniki böyrək xəstəliyi (XBX) dünya üzrə artan bir səhiyyə problemidir və təkcə böyrək funksiyalarının pozulması ilə deyil, həm də bir sıra sistemik fəsadlarla müşayiət olunur. Xüsusilə, immun sisteminin zəifləməsi, metabolik disbalanslar və uremik toksinlərin yığılması ağız boşluğunda mikrobioloji balansın pozulmasına gətirib çıxarır. Bu dəyişikliklər nəticəsində XBX-li pasiyentlərdə parodontal toxumaların iltihabi və destruktiv xəstəlikləri — yəni gingivit və parodontit daha tez-tez və ağır formalarda rast gəlinir. Artıq məlumdur ki, XBX-li pasiyentlərdə parodontal xəstəliklərin inkişaf riski sağlam insanlara nisbətən daha yüksəkdir.

Məqsəd. Xroniki böyrək xəstəliyi olan pasiyentlərdə parodontal xəstəliklərin yayılma tezliyi və ağırlıq dərəcəsini qiymətləndirmək və bu vəziyyətin yaranma səbəblərini araşdırmaqdır.

Materiallar və metodlar

Tədqiqat işinə xroniki böyrək xəstəliyi (XBX) olan pasiyentlər və sağlam nəzarət qrupuna aid subyektlər daxil edilmişdir. XBX-li pasiyentlərin ağız boşluğunda parodontal xəstəliklərin yayılma tezliyi və ağırlıq dərəcəsini qiymətləndirmək üçün aşağıdakı klinik göstəricilər istifadə olunmuşdur: Plak indeksi (PI) – diş səthində bakterial lövhənin miqdarını qiymətləndirmək üçün; Gingival indeksi (GI) – diş ətlərinin iltihabi vəziyyətini müəyyən etmək üçün; Probing Depth (PD) – parodontal cib dərinliyi, yəni diş ətrafı toxumalardakı destruksiyanın ölçülməsi üçün; Clinical Attachment Level (CAL) – diş toxumasının itirilmə səviyyəsini qiymətləndirmək üçün.

Müayinə iştirakçıların yaş və cins göstəricilərinə uyğun olaraq aparılmışdır. Bütün ölçmələr standart periodontal sonda ilə həyata keçirilmiş, nəticələr statistik analiz üçün toplanmışdır. Qruplararası müqayisələr üçün uyğun statistik metodlar tətbiq edilmişdir ($p<0,05$ statistik əhəmiyyətli sayılmışdır).

Nəticələr. Xroniki böyrək xəstəliyindən əziyyət çəkən pasiyentlərdə parodontal xəstəliklər daha geniş yayılmış və daha ağır formalarda təzahür edir. Bu səbəbdən XBX-li pasiyentlərin ağız boşluğu sağlamlığı diqqətlə izlənməli və stomatoloji baxım nefroloji müalicənin tərkib hissəsi kimi qiymətləndirilməlidir.

Tədqiqatın nəticələri göstərdi ki, XBX-li pasiyentlərdə aşağıdakı hallar müşahidə edilmişdir:

-PI və GI göstəriciləri nəzarət qrupuna nisbətən əhəmiyyətli dərəcədə yüksək olması: ($p<0.05$)

-PD və CAL səviyyələri XBX pasiyentlərdə daha dərin parodontal cib və daha çox toxuma itkisi

Xəstəliyin mərhələsi artdıqca parodontal göstəricilərin pisləşməsi.

Müzakirə. Tədqiqatın nəticələri parodontal xəstəliklərin XBX fonunda daha geniş yayıldığını və daha ağır klinik formada özünü göstərdiyini təsdiqlədi. Bunun bir neçə əsas səbəbi var:

İmmun sisteminin zəifləməsi: XBX zamanı immun hüceyrələrin funksiyası zəifləyir, bu da periodontal patogenlərə qarşı cavabın zəifləməsinə səbəb olur.

Quru ağız (kserostomiya) və azalmış tüpürcək ifrazı, ağızda bakterial balansın pozulmasına və parodontal patogenlərin çoxalmasına səbəb olur.

Sistemik iltihab: Artmış CRP və digər iltihab markerləri göstərir ki, XBX zamanı sistemik səviyyədə davam edən iltihab parodontal toxumalara da təsir edir.

Ədəbiyyat

1. Kshirsagar AV, et al. "Periodontal disease is associated with renal insufficiency in the Atherosclerosis Risk in Communities (ARIC) study." *Am J Kidney Dis*. 2005.
2. Fisher MA, Taylor GW. "A prediction model for chronic kidney disease includes periodontal disease." *J Periodontol*. 2009.
3. Craig RG. "Interrelationships between chronic renal disease and periodontal disease." *Oral Dis*. 2008.

Summary

PREVALENCE AND SEVERİTY OF PERİODONTAL DİSEASES İN PATİENTS WİTH CHRONİC KİDNEY DİSEASE

Yusubova Shahla Rafail, Huseynova Sevda Tariyel, Bayramov Gasim Rauf
AMU, Department of Therapeutic Dentistry Azerbaijan, Baku

Key words: chronic generalized periodontitis, chronic kidney disease, oral cavity, immune system

Chronic kidney disease (CKD) is a pathology that has a serious impact on systemic health and causes various physiological changes in the body. Studies conducted in recent years have shown that oral health is significantly impaired in patients with CKD, especially the tendency to inflammatory diseases of periodontal tissues increases. This article discusses the prevalence, clinical manifestations, and mechanisms involved in the pathogenesis of periodontal diseases in patients with CKD.

PERIPARTUM CARDIOMYOPATHY: CLINICAL AND FUNCTIONAL CHARACTERISTICS AND TREATMENT OPTIONS WITH DOSTINEX (CABERGOLINE)

Kamilova N.M.[1], Ibragimova J.S.[2]

[1]Azerbaijan Medical University, Department of Obstetrics and Gynecology, Baku, Azerbaijan

[2]Azerbaijan Medical University, III Department of Internal Diseases, Baku, Azerbaijan

Peripartum cardiomyopathy (PPCM) is a rare but severe form of heart failure that develops at the end of pregnancy or in the early postpartum period in the absence of other causes of myocardial dysfunction. The disease is accompanied by a decrease in left ventricular ejection fraction (EF <45%), signs of congestion, and a high risk of mortality. According to current understanding, the key link in the pathogenesis is oxidative stress and pathological degradation of prolactin with the formation of its 16 kDa fragment, which has an angiotoxic effect. This opens up the prospect of pathogenetic therapy with drugs that suppress prolactin secretion, in particular Dostinex (Cabergoline). Despite isolated reports of positive results, the use of dopaminergic agonists in PPCM remains insufficiently studied and requires clinical verification.

Research objective.

To evaluate the clinical and haemodynamic efficacy and safety of Dostinex (Cabergoline) therapy in women with peripartum cardiomyopathy in combination with standard treatment for heart failure.

Materials and methods.

The study included 45 women with suspected PPCM. The control group consisted of 15 healthy postpartum women with no signs of cardiac pathology. The diagnosis was made based on clinical, echocardiographic, and laboratory data. All patients underwent echocardiography with assessment of ejection fraction (EF), end-systolic (ESD) and end-diastolic (EDD) dimensions of the left ventricle, NT-proBNP and prolactin levels, as well as standard laboratory and biochemical analyses.

The main group received basic therapy for heart failure (beta-blockers, ACE inhibitors, diuretics) in combination with dostinex at a dose of 0.25 mg twice a week for 6 weeks. The control group of patients with PPCM received standard treatment without dostinex. Observation was carried out dynamically for 3 months.

Results.

In patients with PCOS, the mean EF at admission was 38.2 ± 5.4%, prolactin level was 1023 ± 260 mIU/L, and NT-proBNP was 3280 ± 970 pg/mL. Against the background of combination therapy with Dostinex (Cabergoline), after 6 weeks there was a significant increase in EF to 47.5 ± 6.1% ($p < 0.05$) and a 42% decrease in NT-proBNP levels. Prolactin levels decreased to physiological values (mean 310 ± 85 mIU/L). In 72% of patients, regression of congestion symptoms and a reduction in left ventricular size were observed. In the group without dostinex, the improvement

was less pronounced: LVEF increased by an average of 4.8%, and NT-proBNP decreased by 18%. No adverse reactions associated with cabergoline were reported.

Discussion.

The data obtained confirm the pathogenetic role of prolactin in the development of myocardial dysfunction in PPCM and demonstrate the potential for its pharmacological inhibition. The decrease in prolactin levels correlated with improved systolic function and reduced manifestations of congestive heart failure. At the same time, therapy with Dostinex (Cabergoline) was well tolerated, did not cause significant haemodynamic disturbances, and did not worsen lactation status upon discontinuation. It should be noted that cardiac function recovery was more pronounced with early initiation of therapy (within the first 10 days after symptom onset), confirming the importance of timely pathogenetic intervention.

Conclusions.

1. Peripartum cardiomyopathy is characterised by a high incidence of hyperprolactinemia and severe systolic dysfunction, requiring a comprehensive approach to treatment.

2.The inclusion of Dostinex (Cabergoline) in the treatment regimen for PPCM contributes to a more rapid recovery of ejection fraction, a reduction in natriuretic peptide levels, and an improvement in the clinical condition of patients.

3.Cabergoline can be considered an effective and safe pathogenetic component of PPCM therapy, but multicentre randomised studies are needed for a final assessment of its efficacy.

PİYLƏNMƏNİN DƏRMAN MÜALİCƏSİNİN AĞIZ BOŞLUĞU SAĞLAMLIĞINA TƏSİRİ

Elçin Əhməd oğlu Abdinov[1], Jalə Həsən qızı Zeynalova[2]
[1]ATU, 2-ci Cərrahi Xəstəliklər kafedrası, Bakı, Azərbaycan
[2]ATU, Terapevtik Stomatologiya kafedrası, Bakı, Azərbaycan
dr.abdinov@gmail.com.

***Açar sözlər*:** piylənmə, dərman müalicəsi, ağız boşluğu, kariyes, periodontal xəstəliklər, stomatoloji fəsadlar.

Piylənmə müasir dövrün ən geniş yayılmış xroniki metabolik pozğunluqlarından biri olaraq yalnız ümumi sağlamlığa deyil, həm də ağız boşluğu orqanlarının funksional vəziyyətinə ciddi təsir göstərir. Müalicədə istifadə olunan dərman vasitələrinin – xüsusən iştaha azaldıcı preparatların, metformin və digər antidiabetiklərin, eləcə də lipidmübadilə tənzimləyicilərinin ağız boşluğu mikroflorası, selikli qişa, diş əti toxumaları və tüpürcək sekresiyası üzərində müxtəlif təsir mexanizmləri mövcuddur. Bu təsirlər nəticəsində pasiyentlərdə kariyes, gingivit, periodontal xəstəliklər, ağız quruluğu və selikli qişa zədələnmələrinin yaranma tezliyi

arta bilər. Məhz bu səbəbdən piylənmənin dərman müalicəsinin stomatoloji nəticələrinin öyrənilməsi klinik baxımdan əhəmiyyətlidir.

Tədqiqatın məqsədi: Piylənmənin dərman müalicəsi alan pasiyentlərdə ağız boşluğu sağlamlığının göstəricilərini öyrənmək, əldə olunan nəticələri sağlam nəzarət qrupu ilə müqayisə etmək və stomatoloji fəsadların qarşısının alınması üçün elmi əsaslı yanaşma təklif etmək.

Material və metodlar: Tədqiqat Azərbaycan Tibb Universitetində aparılmışdır. Ümumilikdə 80 nəfər könüllü iştirak etmişdir: 40 nəfər piylənmə xəstəliyi diaqnozu ilə müxtəlif dərman müalicəsi (əsasən metformin, orlistat, GLP-1 analoqları) alan pasiyentlər və 40 nəfər sağlam fərd. Bütün iştirakçılardan səhər saatlarında, qida qəbulundan əvvəl klinik və laborator müayinə materialları götürülmüşdür. Ağız boşluğunun klinik qiymətləndirilməsində KPU indeksi, gingival indeks, periodontal status, tüpürcək axını sürəti və pH səviyyəsi öyrənilmişdir. Subyektiv şikayətlər anket sorğusu ilə qeydə alınmışdır. Statistik təhlil üçün SPSS 26.0 proqramı tətbiq olunmuş, $p<0,05$ etibarlı göstərici hesab olunmuşdur.

Nəticələr: Piylənmə qrupunda sağlamlara nisbətən kariyes və periodontal xəstəliklərin daha geniş yayılması müşahidə olunmuşdur. KPU indeksi piylənmə qrupunda orta hesabla 18,6±2,3, sağlam qrupda isə 12,4±1,9 olmuşdur ($p<0,05$). Gingival indeks piylənməli pasiyentlərdə 1,9±0,4, sağlamlarda isə 1,2±0,3 olaraq müəyyən edilmişdir. Dərman müalicəsi alan pasiyentlərin 65%-ində ağız quruluğu, 40%-ində dad hissinin dəyişməsi, 30%-ində isə ağız selikli qişasında aftoz formalı dəyişikliklər qeyd olunmuşdur. Tüpürcək axını piylənmə qrupunda əhəmiyyətli dərəcədə azalmış (0,21±0,05 ml/dəq), sağlamlarda isə normal həddə (0,38±0,07 ml/dəq) qalmışdır.

Müzakirə: Aparılan tədqiqat göstərir ki, piylənmənin dərman müalicəsi ağız boşluğunda bir sıra neqativ dəyişikliklərə səbəb ola bilər. Metformin istifadəsi ilə ağız quruluğu və dad pozğunluqları arasında əlaqə izlənilmişdir. Orlistat alan pasiyentlərdə isə diş əti iltihabı daha kəskin müşahidə olunmuşdur. GLP-1 analoqlarının istifadəsi ağız boşluğunda ciddi struktur dəyişikliklərə gətirməsə də, bəzi pasiyentlərdə ürəkbulanma və qidalanma rejiminin pozulması ilə əlaqədar ikinci dərəcəli stomatoloji fəsadlara yol açmışdır. Dərmanların uzunmüddətli istifadəsi nəticəsində tüpürcək ifrazının azalması kariyes və periodontal patologiyaların inkişafına zəmin yaratmışdır. Bu isə piylənməli pasiyentlərin müalicə planında stomatoloji nəzarətin vacibliyini göstərir.

Yekun: Piylənmənin dərman müalicəsi alan pasiyentlərdə ağız boşluğu sağlamlığında mənfi dəyişikliklər sağlam fərdlərlə müqayisədə daha çox yayılmışdır. Karies, periodontal xəstəliklər, ağız quruluğu və selikli qişa zədələnmələrinin artması dərman müalicəsinin yan təsirləri ilə sıx bağlıdır. Bu səbəbdən piylənmə xəstələrinin müalicə kompleksinə müntəzəm stomatoloji monitorinqin daxil edilməsi tövsiyə olunmalıdır.

Summary

THE EFFECT OF MEDICAL TREATMENT OF OBESITY ON ORAL HEALTH.

Elchin Ahmad oglu Abdinov[1], Jala Hasan gizi Zeynalova[2]

[1]Azerbaijan Medical University, 2nd Department of Surgical Diseases, Baku, Azerbaijan,

[2]Azerbaijan Medical University, Department of Therapeutic Dentistry, Baku, Azerbaijan.

dr.abdinov@gmail.com.

Key words: obesity, drug treatment, oral cavity, caries, periodontal diseases, dental complications

This study investigates the effects of pharmacological treatment of obesity on oral health. A total of 80 participants (40 obese patients undergoing drug therapy and 40 healthy controls) were examined for caries, periodontal status, salivary flow, and pH levels. Results showed significantly higher caries and gingival indices, as well as a higher prevalence of xerostomia and mucosal lesions among obese patients. The findings indicate that medications such as metformin, orlistat, and GLP-1 analogues may negatively affect oral health, underscoring the need for regular dental monitoring in the management of obesity.

СОДЕРЖАНИЕ АМИНОКИСЛОТЫ ГИСТИДИНА В ПЛАЗМЕ КРОВИ БОЛЬНЫХ САХАРНЫМ ДИАБЕТОМ В ЗАВИСИМОСТИ ОТ ТЯЖЕСТИ ЗАБОЛЕВАНИЯ

Абилова Р.Г[1]., Джафарова Г.А.[1], Османов Х.М.[1], Велиева З.Я.[2]

[1]Кафедра биологической химии Азербайджанского Медицинского Университета

[2]Научно-исследовательский центр Азербайджанского Медицинского Университета

***Ключевые слова*:** сахарный диабет, гистидин, хроматография

Гистидин представляет собой гетероциклическую аминокислоту входящую в состав многих растительных и животных белков. К разряду белков богатых гистидином (до 10%) относится гемоглобин. Гистидин относится к положительно заряженным аминокислотам и обладает основными свойствами, а его изоэлектрическая точка равна 7,6. В этих условиях он проявляет свойства как анион, так и катион. Гистидин играет уникальную роль в ферментативном катализе так как pH-7 может попеременно выступать в роли основного или кислотного катализатора. Гистидин как аминокислота может оказывать влияние на течение сахарного диабета, но его роль, в этом процессе до конца не изучена. Некоторые исследование показывают, что гистидин может улучшить гликемический контроль. Возможно, благодаря своему влиянию на выработку глюкозы печенью и чувствительности к инсулину. Предполагается что,

гистидин может способствовать снижению уровня сахара в крови за счет уменьшения выработки глюкозы печенью и улучшению чувствительности к инсулину. Гистидин может обладать антиоксидантными свойствами, что может быть полезным для защиты клеток от повреждения, связанного с развитием осложнением диабета.

Целью работы явилось исследование изменения уровня гистидина при сахарном диабете в зависимости от тяжести заболевания.

Материал и методы. Обследовано 54 больных с сахарным диабетом в возрасте от 20 до 62 лет. Контрольную группу составили 10 здоровых лиц соответствующего возраста. Больные были разделены на 3 группы в зависимости от тяжести заболевания: 1-я группа ИЗСД больные которые зависят от экзогенного введения инсулина (тяжелая форм а болезни), 2-я группа больные которые для компенсации углеводного обмена требуется подключение к проводимой терапии экзогенного введения инсулина (средняя форма болезни), 3-я группа-ИЗСД больные которые для компенсации углеводного обмена требуется диетотерапия или сахарснижающие пероральные препараты (легкая форма болезни). Количественное содержание аминокислоты гистидина определяли методом двухкалоночной хроматографии на анализаторе KLA-3B ”ХИТАЧИ”(Япония).

Результаты. У больных 1 группы наблюдается значительное повышение гистидина по сравнению с контролем с 1, 412±0, 119 до 2, 018±0,002 мг% т е ($p<0, 00\ 1$) у больных II группы уровень гистидина снижается недостоверно с 1,412±0 ,119 до 0, 885±0 ,076 мг% и у больных III группы с 1,412 ±0,119 до 1, 147± 0, 319 мг%. Увеличение гистидина в сыворотке крови свидетельствует, о нарушении метаболизма гистидина в тканях. Тормозится дезаминирование и усиливается декарбоксилирование гистидина под влиянием гиситидин-декарбоксилазы с образованием гистидина. Причины снижения уровня гистидина при диабете II типа наблюдается хроническое низкоуровневое воспаление. В таких условиях потребность в антиоксидантах возрастает, а гистидин участвует в антиоксидантной защите (в частности, для синтеза карнозина). В результате гистидин расходуется быстрее и его уровень в крови снижается.

Заключение. Необходимы дополнительные исследования для подтверждения эффективности и безопасности гистидина при лечении сахарного диабета, а также для определения оптимальных дозировок и способов применения.

Summary

HISTIDINE CONTENT IN THE BLOOD PLASMA OF PATIENTS WITH DIABETES MELLITUS

Abilova R.G.[1], Jafarova G.A.[1], Osmanov H.M.[1], Velieva Z.Ya.[2]

[1]Department of Biological Chemistry, Azerbaijan Medical University

[2]Research Center, Azerbaijan Medical University

***Key words*:** diabetes mellitus, histidine, chromatography

The content of histidine in the blood plasma of patients with diabetes mellitus (DM) is an active subject of research, since this amino acid metabolite is involved in the regulation of oxidative–inflammatory processes and affects tissue sensitivity to insulin.According to our study, in patients with a severe form of DM, a significant increase in plasma histidine levels was observed compared with the control group — from 1.412 ± 0.119 mg% to 2.018 ± 0.002 mg%, which corresponds to an increase of 43% ($p < 0.05$).In patients with a moderate form of the disease, histidine levels decreased insignificantly — from 1.412 ± 0.119 mg% to 0.885 ± 0.076 mg%, while in patients with a mild form — from 1.412 ± 0.119 mg% to 1.147 ± 0.319 mg%.

An increased level of histidine indicates a disturbance of its metabolism in tissues. The process of deamination is inhibited, while histidine decarboxylation under the influence of the enzyme histidine decarboxylase is enhanced, leading to histamine formation.At the same time, patients with type 2 diabetes often demonstrate a decrease in plasma histidine concentration compared to healthy individuals. This is associated with chronic inflammation, under which the body’s demand for antioxidants increases. Since histidine participates in antioxidant defense, it is consumed more rapidly, resulting in a decrease of its blood level.

PHLOMIS BİTKİSİNİN ANTİMİKROB XÜSUSİYYƏTLƏRİ

Qədirova H.Ə.[1], Süleymanova T.H.[1], Şükürova A.S.[2]
[1]Azərbaycan Tibb Universiteti, Tibbi mikrobiologiya və immunologiya kafedrası, Bakı
[2]Azərbaycan Tibb Universiteti, Farmakoqnoziya kafedrası, Bakı

***Açar sözlər**:* Phlomis L.bitkisi, antimikrob xüsusiyyətlər

Giriş: *Phlomis L. (Lamiaceae)* cinsi təxminən 100-dən çox növü özündə birləşdirir, fitokimyəvi tərkibində flavonoidlər, fenol turşuları, diterpenoidlər, saponinlər və efir yağları aşkar edilmişdir. Son illərdə aparılan tədqiqatlar *Phlomis* növlərinin müxtəlif ekstraktlarının və efir yağlarının antibakterial, antifungal və bəzi hallarda antiviral aktivliyini göstərmişdir. *Phlomis* növləri xalq təbabətində dəri yaraları, iltihab, mədə-bağırsaq və respirator xəstəliklərin müalicəsində istifadə edilir.

Tədqiqatın məqsədi*:* *Phlomis* bitkisinin 50%-li və 80%-li spirtli ekstraktlarının antimikrob xüsusiyyətlərinin öyrənilməsi olmuşdur.

Material və metodlar*:* ATU-nun Tibbi Mikrobiologiya və immunologiya kafedrasına *Phlomis bitkisinin* 50%-li və 80%-li spirtli ekstraktlarının antimikrob xüsusiyyətlərinin öyrənilməsi üçün təqdim edilmişdir.

Bitki xammalı 1:10 nisbətində ekstraksiya aparılmışdır. Kontrol olaraq, 50%-li və 80%-li etanol təqdim edilmişdir.

Təqdim edilən maddələrin antibakterial və antifunqal təsirini öyrənmək üçün disk-diffuziya üsulundan istifadə edilmişdir. Test- kultura kimi ümumi qəbul olunmuş qayda üzrə qrammüsbət bakteriyaların nümayəndəsi kimi ***Staphylococcus aureus və MRSA*** (metisillinə davamlı ***Staphylococcus aureus),*** qrammənfi bakteriyalardan ***Esherichia coli*** və ***Pseudomonas aeruginoza,*** göbələklərin nümayəndəsi kimi mayayabənzər göbələklərdən olan ***Candida albicans,*** spor əmələ gətirən qrammüsbət çöpvari bakteriyaların nümayəndəsi kimi ***Bacillus anthracoides***, kapsullu bakteriyaların nümayəndəsi kimi ***Klebsiella pneumoniae*** seçilmişdir.

Disk-diffuziya üsulunda mikroorqanizmlərin sutkalıq kulturasından 0,5 Mac Farland bulanıqlıq standartına uyğun suspenziya hazırlanır. Sonra içərisində Ət-peptonlu aqar (ƏPA) və Saburo aqarı olan Petri kasalarına ayrı-ayrı mikrob suspenziyaları tökülür. Tədqiq edilən maddədə 3-5 dəqiqə müddətində isladılmış steril disklər mikrob əkilmiş qidalı mühitin səthinə düzülür. Bundan sonra ƏPA olan əkmələr 37°C temperaturda, Saburo mühitindəki əkmələr isə 28°C temperaturda termostata qoyulur. 24-48 saat sonra nəticələr qeyd olunur. Məhlullar spirtli olduqları üçün kontrol olaraq, 50%-li və 80%-li spirtdən istifadə olunmuşdur. Nəticələr disklərin ətrafında əmələ gəlmiş mikrobsuz zonaların diametri ilə göstərilir (cədvəl).

Cədvəl. Sınaq və kontrol maddələrin disk diffuziya üsulu ilə tədqiqi

Test-kultura	**Tədqiq olunan maddələr**			
	1	**2**	***K 50%-li etanol***	***K 80%-li etanol***
S.aureus	***13****	***14***	***0***	***7***
MRSA	***12***	***14***	***0***	***8***
E.coli	***3***	***8***	***0***	***7***
P.aeruginoza	***11***	***12***	***0***	***0***
C.albicans	***17***	***22***	***0***	***0***
K.pneumoniae	***7***	***5***	***3***	***0***
B.anthracoides	***7***	***5***	***0***	***8***

Qeyd: **Rəqəmlər mikrobsuz zonaların diametrini mm-lərlə göstərir.Təcrübələr 3 dəfə təkrarlanmışdır.*

Nəticə*:* Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, ***maddə 1*** *(Phlomis - 50%-li)* test-kulturalara orta antibakterial təsir göstərmiş, inhibisiya zonaları 3-13 mm arasında dəyişmişdir. Aktiv təsiri *MRSA, S.aureus və P.aeruginoza* kulturalarına qarşı qeydə alınmışdır (inhibisiya zonaları, müvafiq olaraq, 13 mm, 12 mm və 11 mm olmuşdur). *K.pneumoniae və B.anthracoides* kulturalarına isə nisbətən zəif təsir göstərmiş, inhibisiya zonası 7 mm olmuşdur. *E.coli* kulturasına təsri daha zəif təsir göstərmiş, 3 mm inhibisiya zonası qeydə alınmışdır. *C.albicans* kulturasına antifunqal təsiri isə aktiv- 17 mm olmuşdur.

Maddə 2 (Phlomis - 80%-li) test-kulturalardan *S.aureus, MRSA və P.aeruginoza* kulturalarına orta antibakterial təsir göstərmiş, inhibisiya zonaları 5-14 mm arasında dəyişmişdir. Minimal təsiri *K.pneumoniae və B.anthracoides*

kulturalarına qarşı -5 mm qeydə alınmışdır. *C.albicans* kulturasına isə aktiv antifunqal təsir göstərmiş, inhibisiya zonası - 22 mm olmuşdur.

Kontrol (50%-li etanol) *K.pneumoniae* kulturasına zəif antibakterial təsir göstərmiş, digər test-kulturalara təsiri qeydə alınmamışdır.

Kontrol (80%-li etanol) *MRSA, S.aureus və B.anthracoides* kulturalarına orta aktiv təsir göstərmiş, digər test-kulturalara təsiri qeydə alınmamışdır.

Yekun*:* Beləliklə, aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, təqdim maddələrin hər ikisi orta antibakterial, güclü antifunqal aktivliyə malikdir.

Summary

ANTIMICROBIAL PROPERTIES OF PHLOMIS PLANT

Gadirova H.A.[1], Suleymanova T.H.[1], Shukurova A.S.[2]

[1]Azerbaijan Medical University, Department of Medical Microbiology and Immunology, Baku

[2]Azerbaijan Medical University, Department of Pharmacognosy, Baku

The antimicrobial properties of 50% and 80% alcoholic extracts of Phlomis plant were studied. The disk diffusion method was used to study the antibacterial and antifungal effects of the presented substances.As a result of the conducted studies, it was found that substance 1 (Phlomis - 50%) had a moderate antibacterial effect on test cultures, the inhibition zones varied between 3-13 mm. Its active effect was recorded against MRSA, S.aureus and P.aeruginosa cultures (the inhibition zones were 13 mm, 12 mm and 11 mm, respectively). It had a relatively weak effect on K.pneumoniae and B.anthracoides cultures, the inhibition zone was 7 mm.

ƏCZAÇILIQ BAZARINDA KOMMUNIKASİYANIN EFFEKTİVLİYİ: REKLAMIN ROLU

Ağayev Elsevər Məmməd oğlu, Marinçenko Yelena Viktorovna, Nadirova Nazdı Çərkəz qızı.

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakı ş., AzərbaycanRespublikası

eczaciliq.adhti@gmail.com

***Açar sözlər*:** əczaçılıq bazarı, reklam çatdırılma kanalları; qeyri-məqbul reklam, reklam haqqında qanunvericiliyin pozulması.

Giriş. Azərbaycan Respublikasında əczaçılıq sektorunun hüquqi tənzimlənməsi - əczaçılıq fəaliyyəti, dərman vasitələrinin saxlanma şəraiti və reklamı “Dərman vasitələri haqqında” Qanun ilə müəyyən olunur. Dərman vasitələrinin reklamının əsas istiqamətlərinə dərmanların faydaları barədə istehlakçıların məlumatlandırılması, etik standartlara və qanunvericiliyin tələblərinə riayət olunması daxil edilməlidir. Dərman vasitələrinin reklamını hazırlayarkən əsas diqqət

məlumatın şəffaflığına, dərman istifadəsi ilə əlaqəli risklərin minimuma endirilməsinə və ictimai sağlamlığın qorunmasına yönəldilir.

Tədqiqatın məqsədi məqbul və qeyri-məqbul reklam növlərini, reklam fəaliyyətləri çərçivəsində dərman vasitələri haqqında məlumatlara dair tələbləri və pozuntulara yol verildiyi halda məsuliyyəti müzakirə etməkdir.

Tədqiqatın mövzusu. Dərman vasitələrinin reklamının qanunvericiliyə, ÜST standartlarına və Səhiyyə Nazirliyinin tövsiyələrinə uyğunluğu mütləq şəkildə yoxlanılır. Bu yoxlamaya dərman vasitəsinin tərkibi, göstərişləri, əks göstərişləri və istifadəsinin xüsusiyyətləri ilə bağlı məlumatların aydınlıq və əlçatanlıq aspektləri daxildir. Müxtəlif hədəf auditoriyaları – cəmiyyətin müxtəlif təbəqələri (və ya istehlakçı reklamı) və mütəxəssislər üçün məlumatların təqdimatındakı fərqlərə xüsusi diqqət yetirilir. İstehlakçı reklamının məqsədi xəstələrin diqqətini cəlb etmək, onların tələbatını stimullaşdırmaqdır. Peşəkar reklamın məqsədi xəstələrə dərman preparatlarını təyin edən mütəxəssislərin əczaçılıq bazarındakı yeniliklərdən xəbərdar olmasını təmin etməkdir. Məlumatların müxtəlif təqdimat formalarının dərman preparatlarının potensial və son istehlakçıları tərəfindən qavranılmasına təsirini öyrənmək də vacibdir. Dərman vasitələrinin reklamı çatdırılma üsulları və kanallarına görə ənənəvi, rəqəmsal, ixtisaslaşmış, birbaşa marketinq, merçendayzinq və sosial yönümlü layihələri ehtiva edir.

Açıq məkan reklamı canlı vizual şəkillər və mətnin yığcamlığı ilə xarakterizə olunur. İxtisaslaşmış reklam elmi məqalələr, tədqiqat icmalları və ekspert rəyləri ilə müşayiət olunur. Tədbirlər (konfranslar) tibb işçiləri ilə uzunmüddətli təmasların qurulmasına imkan verir və brendin müsbət imicini formalaşdırır. Birbaşa məlumatın çatdırılması preparat haqqında ətraflı məlumatı və onun istifadəsinə dair təlimatları əhatə edir. Promo-aksiyalar impulsiv alış-verişləri formalaşdırır və brendin tanınmasını artırır və nəhayət, xeyriyyə reklamları ictimaiyyətlə əlaqələri gücləndirir. Hər bir reklam növü fərdi yanaşma və qanunvericiliyi, məqsədləri, tələbatı, hədəf auditoriyasını, preparatın özünün spesifikliyini nəzərə alan yaxşı düşünülmüş fəaliyyət planı tələb edir.

Əczaçılıq bazarında qeyri-məqbul reklamın müəyyən formaları mövcuddur, məsələn, öz məhsullarını rəqiblərin analoji preparatları ilə birbaşa müqayisə etmək, təsdiqlənməmiş klinik sınaqların nəticələrini təqdim etmək, bir preparatın müəyyən bir xəstəliyin yeganə effektiv müalicə vasitəsi olduğunu iddia etmək və reklam olunan preparatın qəbulundan imtina halında xəstəlik qorxusu yaratmaq.

Yekun. Dərman vasitələrinin reklamı haqqında qanunvericiliyin pozulması istehsalçı şirkətlər üçün ciddi hüquqi və iqtisadi nəticələrə səbəb olur, şirkətin imicinə ciddi şəkildə xələl gətirir, istehlakçıların inamının itirilməsinə gətirib çıxarır və nəticə etibarı ilə satışa və məhsula olan tələbata mənfi təsir göstərir.

İnzibati cərimələrlə yanaşı, şirkətlər pozuntuların nəticələrini aradan qaldırmaq üçün əhəmiyyətli xərclər sərf etməli olurlar. Buraya qablaşdırmanın dəyişdirilməsinə, markalanmaya, yeni marketinq kampaniyalarının hazırlanmasına və əvvəllər yerləşdirilmiş reklamlardakı səhvlərin düzəldilməsinə dair xərclər daxildir. Beləliklə, dərman vasitələrinin reklamına dair qanunvericiliyin pozulması əhəmiyyətli maliyyə

xərclərinə və nüfuzun zəifləməsinə səbəb olur, şirkətlərdən reklam kampaniyaları hazırlayarkən və həyata keçirərkən son dərəcə ehtiyatlı və diqqətli olmağı tələb edir.

MELİSSA (*MELISSA OFICINALIS*) VƏ MAYASARMAŞIĞI OTU (*HUMULUS LUPULUS*) BİTKİLƏRİNDƏN ALINMIŞ BİOLOJİ AKTİV QARIŞIQLARIN AĞ SIÇOVULLARIN DAVRANIŞ PARAMETRLƏRİNƏ TƏSİRİNİN FARMAKOLOJİ TƏDQİQİ.

Qurbanzadə Ç.R.[1], Əsmətov V.Y.[2]
[1]Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
[2]Azərbaycan Tibb Universitetinin Farmakologiya kafedrası,

Aktuallıq. Davranış parametrlərinin tədqiqi və davranış parametrlərində törənən dəyişikliklər tədqiq olunan bioloji aktiv maddələrin psixotrop təsir effektinə malik olmasından xəbər verir. Davranış parametrlərində əmələ gələn süstləşmə tədqiq olunan maddələrin stresəleyhinə, sedativ təsirə malik olması barədə məlumat verirsə, davranış parametrlərində olan aktivləşmə isə tədqiq olunan maddələrin psixostimuləedici, antidepressiv təsirə malik olmasına dəlalət edir. Bu qeyd etdiklərimizi nəzərə alaraq melissa və mayasarmaşığı otu bitkilərindən alınmış bioloji aktiv qarışıqların ayrı-ayrılıqda və kombinəolunmuş şəkildə ağ siçovulların davranış parametrlərinə təsirini “açıq sahə” metodunun köməkliyi ilə tədqiq etdik.

Tədqiqatın material və metodları. Tədqiq onunan bioloji aktiv maddələrin davranış parametrlərinə təsiri “açıq sahə” metodu ilə öyrənilmişdir. Tədqiqatlarda çəkisi 180-210q olan ağ siçovullardan istifadə olunmuşdur. Testləşmə bioloji aktiv qarışıqların həlledicidə həll edilməsindən sonra heyvanların qarın boşluğuna vurulduqdan 1 saat sonra aparılmışdır. Statistik işlənmə SPSS proqramından istifadə edilməklə hesablanmışdır.

Alınmış nəticələr və onların müzakirəsi. Tədqiq etdiyimiz melissadan alınmış bioloji aktiv qarışıq 300mq/kq dozada, mayasarmaşığı otu bitkisindən alınmış bioliji aktiv qarışıq 400mq/kq dozada 200mq/kq dozada meksidol və a-tokoferolla müqayisədə ağ siçovullarda davranış parametrlərini süstləşdirməklə eyni istiqamətli antistressor və sedativ təsir effekti göstərmişdir. Apardığımız tədqiqatlarda intakt heyvanlarda hərəki aktivlik 41,3 olduğu halda, 200mq/kq dozada meksidolun təsirindən statistik dürüst azalaraq 26,9 olmuşdur. a-tokoferol 200mq/kq dozada hərəki aktivliyi 27,2-yə qədər azaltdığı halda, 300mq/kq dozada melissadan alınış bioloji aktiv qarışıq anksiolitik təsir effekti göstərməklə hərəki aktivliyin 19,1-ə, 400mq/kq dozada mayasarmaşığı otu bitkisindən alınmış bioloji aktiv qarışıq isə 14,6-ya qədər statistik dürüst azalmasına səbəb olmuşdur. Melissa və mayasarmaşığı otu bitkisindən alınmış bioloji aktiv qarışığın birlikdə istifadəsi hərəki aktivliyin 24,2-yə qədər azalmasına səbəb olmuşdur. Vertikal aktivliyi tədqiq edən zaman məlum olmuşdur ki, intakt heyvanlarda vertikal aktivlik 12,0 olduğu halda 200mq/kq meksidolun təyini fonunda azalaraq 8,4 olmuşdur. a-tokoferol 200mq/kq dozada

vertikal aktivliyi daha çox süstləşdirərək 4,6 ş.v.-ə çatdırmışdır. Melissadan alınmış bioloji aktiv qarışıq 300mq/kq dozada vertikal aktivliyi 8,4ş.v.-ə qədər, mayasarmaşığı otu bitkisindən alınmış bioloji aktiv qarışıq isə 400mq/kq dozada vertikal aktivliyi 6,4ş.v.-ə qədər azaltmışdır. 300mq/kq dozada melissa və 400mq/kq dozada mayasarmaşığı otu bitkisindən alınmış bioloji aktiv qarışığı birlikdə istifadə etdikdə vertikal aktivliyin 7,8 ş.v.-ə qədər azalmasının şahidi olduq.

Müayinə aktivliyini tədqiq edən zaman məlum olmuşdur ki, intakt heyvanlarda müayinə aktivliyi 7,6 ş.v. olduğu halda, 200mq/kq dozada meksidolun təsirindən bu göstərici 6,0 ş.v.-ə qədər azalmışdır. Eyni istiqamətli azalma 200mq/kq dozada a-tokoferolun istifadəsi zamanı da müşahidə olunmuşdur. A-tokoferol müayinə aktivliyini 5,8ş.v.-ə qədər azaltmışdır. Tədqiq etdiyimiz melissadan alınmış bioloji aktiv qarışıq 300mq/kq dozada müayinə aktivliyini 4,8ş.v.-ə qədər, mayasarmaşığı otu bitkisindən alınmış bioloji aktiv qarışıq 400mq/kq dozada müayinə aktivliyini 5,8ş.v.-ə qədər, melissa və mayasarmaşığı otu bitkisindən alınmış bioloji aktiv qarışıq isə 6,6ş.v.-ə qədər azltmışdır. Alınmış bu effektlər tədqiq olunan bioloji aktiv maddələrin biləvasitə anksiolitik təsir effekti ilə əlaqədardır.

Qryuminqi tədqiq edən zaman məlum olmuşdur ki, intakt heyvanlarda bu göstərici 18,2 ş.v. olduğu halda 200mq/kq meksidolun təsirindən azalaraq 4,8 ş.v., 200mq/kq dozada a-tokoferol qryuminqi 5,2ş.v.-ə qədər, melissadan alınmış bioloji aktiv qarışıq 300mq/kq dozada qryuminqi 4,5ş.v.-ə qədər, mayasarmaşığı otu bitkisindən alınmış bioloji aktiv qarışıq 400mq/kq dozada 4,6ş.v.-ə qədər, melissa və mayasarmaşığı otu bitkisindən alınmış bioloji aktiv qarışıq isə 5,0ş.v.-ə qədər statistik dürüst azaltmışdır.

Defekasiya aktının tədqiqi göstərdi ki, bolyus ifrazı siçovulların emosinal vəziyyətləri ilə bağlıdır. Ona görə intakt heyvanlarda bolyus ifrazı 0,8ş.v. olduğu halda 200mq/kq dozada meksidolun təsirindən 0,6ş.v.-ə, 200mq/kq dozada a-tokoferolun təsirindən 0,4ş.v.-ə qədər azalmışdır. Tədqiq etdiyimiz melissadan alınmış bioloji aktiv qarışıq 300mq/kq dozada bolyus ifrazını 1,6ş.v.-ə, mayasarmaşığı otu bitkisindən alınmış bioloji aktiv qarışıq 400mq/kq dozada bolyus ifrazını alınmış 1,4ş.v.-ə, melissa və mayasarmaşığı otu bitkisindən alınmış bioloji aktiv qarışıq birlikdə isə 1,0ş.v.-ə qədər artırmışdır.

Nəticə: Apardığımız təcrübələrin alınmış nəticələrini təhlil edərək belə bir qənaətə gəlirik ki, tədqiq etdiyimiz bioloji aktiv qarışıqlar 5 dəqiqəlik “açıq sahə” testinin nəticəsi olaraq davranış parametrlərinin süstləşməsinə səbəb olur. Bu həmin bioloji aktiv qarışıqların psixosedativ, anksiolitik təsir efekti göstərməsi ilə birbaşa əlaqəlidir.

ROZMARİN (*ROZMARINUS OFFICINALIS*) VƏ DAZIOTU BİTKİSİNDƏN (*HYPERICUM PERFORATUM*) ALINMIŞ BİOLOJİ AKTİV QARIŞIQLARIN YÜKSƏLDİLMİŞ XAÇABƏNZƏR LABİRİNTDƏ STRESƏLEYHİNƏ TƏSİRİNİN TƏDQİQİ

Şirinova İ.B.[1], Əsmətov V.Y.[2]

[1]Azərbaycan Dövlət Aqrar Universiteti
[2]Azərbaycan Tibb Universitetinin Farmakologiya kafedrası

Aktuallıq. Hər bir tədqiq olunan maddənin anksiolitik xüsusiyyətlərinin öyrənilməsində geniş istifadə olunan metodlardan biri də ağrı, cəza qıcığına əsaslanmayan yüksəldilmiş xaçabənzər labirintdir. Xaçabənzər labirintdə heyvanların zamanın çoxunu açıq qol üzərində keçirməsi tədqiq olunan bioloji aktiv maddənin anksiolitik təsiri ilə bir başa əlaqəlidir. Apardığımız tədqiqatların alınmış nəticələrinin təhlili göstərdi ki, bu testlərdə də intakt heyvanlar özlərini müxtəlif təhlükələrdən qorumaq üçün labirintin qapalı, qaranlıq qolunda qalmağa böyük üstünlük verirlər.

Tədqiqatın material və metodları. Tədqiqatlar çəkisi 180-200q olan ağ siçovullar üzərində aparılmışdır. Heyvanlara tədqiq olunan maddələr, intakt heyvanlara isə natrium xloridin izotonik məhlulunun yeridilməsindən 40 dəqiqə sonra testləşmə yüksəldilmiş xaçabənzər labirintdə aparılmışdır. Alınmış nəticələr SPSS proqramından istifadə olunmaqla təhlil edilmişdir.

Alınmış nəticələr və onların müzakirəsi. Apardığımız testləşmənin nəticəsi olaraq məlum oldu ki, izotonik məhlul vurulmuş intakt heyvanlar 5 dəqiqəlik təcrübələrdə yüksəldilmiş labirintin açıq qolunda 50 saniyə, qaralı qaranlıq qolunda isə 250 saniyə qalmağa üstünlük vermişlər və bu zaman onların keçidlərinin sayı 1,7 olmuşdur.

Bu bir daha sübut edir ki, kiçik gəmiricilər genetik olaraq qaranlıq, qapalı qolda qalmağa üstünlük verməklə özlərini təhlükəsiz, sakit hiss edirlər.

Meksidol 200 mq/kq dozada siçovulların içıqlı qolda qalma müddətini 45,7% artıraraq 72,8 saniyə etmişdir. Bu zaman siçovullar 227,2 saniyə qaranlıq qolda qalmağa üstünlük vermişlər və keçidlərin sayı 2,7 olmuşdur. Etalon maddə olan diazepamın 1mq/kq dozada istifadəsi mənzərənin tamamilə dəyişməsinə səbəb olmuşdur. Diazepam 1 mq/kq dozada 5 dəfə siçovulların işıqlı qolda qalma müddətini uzadaraq 252,3 saniyə etmişdir. Heyvanların qaranlıq qolda qalma müddətləri 47,7 saniyə olmuş və keçidlərin sayı 4,3 olmuşdur. Bu diazepamın bir başa anksiolitik xüsusiyyətləri ilə bağlıdır. O, qorxu, həyəcan, gərginliyi aradan götürməklə heyvanların yıxılmaq qorxusunun aradan götürülməsinə səbəb olduğuna görə heyvanlar zamanın çoxunu labirintin açıq qolunda keçirir.

Tədqiq etdiyimiz Rozmarindən alınmış bioloji aktiv qarışıq 300mq/kq dozada anksiolitik təsir effekti göstərməklə heyvanların açıq qolda qalma müddətini intakt heyvanların göstəriciləri ilə müqayisədə 3,4 dəfə artırmışdır. Bu meksidolun göstəricilərindən 1,9 dəfə çox, diazepamın göstəricilərindən isə 1,6 dəfə azdır.

Dazıotundan alınmış bioloji aktiv qarışıq 200mq/kq dozada ağ siçovulların yüksəldilmiş xaçabənzər labirintin açıq qollarında qalma müddətini 3,1 dəfə artıraraq 155,3 saniyə etmişdir. Heyvanların qaranlıq qollarda qalma müddəti intakt heyvanların göstəriciləri ilə müqayisədə 42,1% azalaraq 144,7 saniyə olmuşdur. Bu göstərici, diazepamın göstəricisi ilə müqayisədə 3,5 dəfə az, meksidolun göstəriciləri

ilə müqayisədə 31,1% çox, rozmarinin göstəriciləri ilə müqayisədə isə 6,6% az olmuşdur. Bu zaman keçidlərin sayı 4,3 olmuşdur.

Tədqiqatımızın növbəti mərhələsində Rozmarin və Dazıotu bitkilərindən alınmış bioloji aktiv qarışıqların birlikdə istifadəsi zamanı effektiv stresəleyhinə təsir effekti müşahidə olunmuşdur. Belə ki, kombinasiya olunmuş qarışıq intakt heyvanların göstəriciləri ilə müqayisədə siçovulların açıq işıqlı qollarda qalma müddətini 4,7 dəfə artıraraq 237,3 saniyəyə çatdırmışdır. Bu zaman bunun əksinə olaraq isə heyvanların qapalı, qaranlıq qollarda qalma müddəti isə 74,9% azalaraq 62,7 saniyəyə çatmışdır. Keçidlərin sayı 3-ə bərabər olmuşdur.

Nəticə: Apardığımız tədqiqatların sonunda isə belə qənaətə gəldik ki, yüksəldilmiş xaçabənzər labirint testinin nəticələrinə görə ən yaxçı anksiolitik effekt rozmarinin 300mq/kq və dazıotunun 200mq/kq dozasının kombinasiyalı şəkildə istifadəsi zamanı müşahidə olunmuşdur.

THE ROLE OF VITAMIN D DEFICIENCY ON THE ANTIOXIDANT SYSTEM IN DIABETES MELLITUS

Gunel Sultanova, Duyghu Sultanli
ATU, Department of Pathological

***Key words*:** diabetes mellitus, vitamin D deficiency, oxidative stress, antioxidant system, catalase, MDA, alloxan model, metabolic disorders

Diabetes mellitus (DM) remains a medical and social problem for healthcare systems around the world. In modern times, there is a rapid spread of DM, an increase in disability and mortality due to this disease. The key step in the pathogenesis of the disease is intravascular damage, which leads to cellular damage. One of the main mechanisms of cell damage is the intensification of free radical reactions, which occurs as a result of an imbalance between prooxidants and antioxidants. Ultraviolet radiation as a prooxidant factor can be cited as an example of vitamin D depletion. An example of a non-enzymatic antioxidant is ECA, while an example of an enzymatic antioxidant is glutathione and catalase. Normal levels of vitamin D play an important role in preventing the development of metabolic disorders. Vitamin D is involved in regulating blood sugar levels and increases the function of pancreatic cells and their sensitivity to insulin.

Aim to study. Obtaining a diabetes model using alloxan and determining concentration Vit D, MDA and catalase in blood and lymph and interrelation among of them.

Materials and methods. Materials and methods. First, the relevant indicators in blood and lymph were studied in rabbits included in the I control group. In the next stage, these examinations were performed on rabbits in which the DM(diabetes mellitus) model was created (II control group). Then, the effect of the application of antidiabetic properties on the studied indicators in blood and lymph was studied in the

DM modeled rabbits included in the experimental groups.(experimental groups 3,4,5) During the studies, 5% alloxan monohydrate solution was injected into the peritoneal cavity of experimental rabbits at a dose of 100 mg/kg to create a diabetes model.

Results. During the study, after the complex administration of the drugs used in the treatment of animals with DM(diabetes mellitus), changes in the level of oxidative stress indicators were determined in both fluid environments of the animals. As a result of the complex treatment, a continuous decrease in the level of MDA and an increase in the level of catalase were observed in both the blood and lymph of rabbits with DM. In the experiment, an increase in velocity of lymph was also observed in the thoracic lymph flow after the complex administration of the drugs used in the treatment of animals modeled with DM.

Conclusion. Oxidative stress indicators increase in diabetes mellitus, and treatments aimed at the pathogenesis result in weakening the process. Adding Vit D to food for pathogenetic correction in experimental animals results in an increase in antioxidative indicators.

ОСНОВНЫЕ ПРИЧИНЫ ПОВТОРНЫХ АДЕНОТОМИИ

Панахиан Вафа Мустафа, Гасымов Аяз Вели, Абилова Фарида Ариф, Гусейнова Мансура Али

Кафедра болезней уха, горла, носа АМУ

vafa_panahian@mail.ru

***Ключевые слова*:** повторные аденотомии, частота встречаемости, причины

Введение: По литературным данным зарубежных авторов, а также статистической отчетности медицинских учреждений количество повторных аденотомий составляет 5,7-8,3 % от ранее проведённых операций. Причинами тому служат следующие факторы: неполноценно проведённая операция, аллергический фон, форма и расположение в носоглотке аденоидных вегетаций, атипичное анатомическое строение носоглотки, кишечные инфекции, иммунологический статус, наличие хронического тонзиллита при не удалённых ранее нёбных миндалинах, наличие эндокринных нарушений.

Цель работы: Целью явилось изучение наиболее частых причин повторного обращения пациентов в клинику.

Материал и методы: Нами проведено 257 операций аденотомии и аденотонзиллектомии. Повторной аденотомии подверглись 9 (3,5%) пациентов. Диагноз основывался на данных жалоб пациентов, эндоскопического исследования и рентгенографии в боковой проекции. Пациенты повторно обращались в клинику по поводу недостаточно свободного носового дыхания.

Результаты и обсуждения: При изучении причин повторного разрастания аденоидных вегетаций было установлено следующее. 1. Частота встречаемости повторных аденотомий составила 3,5%. 2. У большинства

пациентов причинами повторной аденотомии явились нарушение анатомического строения носоглотки, атипичное расположение аденоидных вегетаций и аллергический фон пациентов. Последующие причины встречались гораздо реже и не являлись основными.

Summary

MAIN CAUSES OF REPEATED ADENOTOMY

Panahian Vafa Mustafa, Gasimov Ayaz Vali, Abilova Farida Arif, Huseynova Mansura Ali

ENT Department of AMU, Baku, Azerbaijan

vafa_panahian@mail.ru

***Summary*:** We performed 257 adenotomy and adenotonzyllectomy operations. We performed 257 adenotomy and adenotonzyllectomy operations. 9 (3.5%) underwent repeated adenotomy. When studying the causes of re-proliferation of adenoid vegetations, it was found that the frequency of repeated adenotomies was 3.5% and that in most patients the causes of repeated adenotomy were a violation of the anatomical structure of the nasopharynx, the atypical location of adenoid vegetations and the allergic background of patients.

AZƏRBAYCANDA FƏRQLİ XƏSTƏ QRUPLARINDA OKKULT HEPATİT B-NİN RASTGƏLMƏ TEZLİYİ

Hidayətov Ə.A., Verdiyev A.A., Hidayətova V.Ə., Əliyeva S.Ə., Abdullayev F.M., Hidayətova L.Ə.

ATU, III Daxili xəstəliklər kafedrası, Bakı, Azərbaycan

Açar sözlər: Okkult, hepatit B, rastgəlmə tezliyi, kimyaterapiya

Okkult (gizli) hepatit B infeksiyasına dünyanın hər yerində rast gəlinir və müvafiq bölgədəki xroniki B hepatitin yayılması ilə əlaqələndirilir.

Azərbaycanda hepatit B və C virusunun yayılması müvafiq olaraq 3,2% və 4,3% təşkil etdiyi halda, okkult B hepatitin yayılmasına bağlı heç bir məlumat mövcud deyil.

Məqsəd. Azərbaycanda fərqli əhali və xəstə qruplarında okkult hepatit B-nin rastgəlmə tezliyinin araşdırılmasından ibarətdir.

Material və metodlar. Azərbaycan Mərkəzi Qan Bankına müraciət edən 512 (134-ü qadın olmaqla; orta yaş – 41,2 il) donorda; 2 tibb mərkəzində 1 ay boyunca əməliyyat olunan 149 xəstədə (bunlardan 61-i qadın; orta yaş–52,7 il); Səhiyyə Nazirliyi QİCS-lə Mübarizə Mərkəzinə müraciət edən 75 xəstədə (42 nəfəri qadın olmaqla; orta yaş – 37,2 il); 2018-ci ildə qastrointestinal orqanların bədxassəli törəmələri səbəbindən kimyaterapiyaya cəlb edilən, müalicədən əvvəl qaraciyər göstəriciləri normal, kimyaterapiya fonunda isə ALT və AsT artışı izlənən, HBsAg və

anti-HCV testləri neqativ olan 51 xəstədə (orta yaş – 67,8 il) hepatit markerlərinə əlavə olaraq anti-HBc İgG də yoxlanılmışdır. Anti-HBc pozitiv olanlarda isə HBV DNT-nin təyini həyata keçirilmişdir.

Nəticə. Donor qrupunda 43 (8,9%) nəfərdə anti-HBc İgG pozitiv olmuşdur ki, onlardan da 7 (16,2%)-də HBV DNT təyin oluna bilən səviyyədə olmuşdur. HBV DNT-nin ortalama səviyyəsi – 213 İ U/ml təşkil etmişdir. Anti-HCV pozitiv olan 17 xəstənin 10 (58%)-da isə anti-HBc İgG pozitiv olmuşdur ki, bunların da 2 (11,7%)-də HBV DNT aşkar oluna bilən cəviyyədə olmuşdur.

Kimyaterapiyaya cəlb edilən 51 xəstədən 5 (9,8%)-də anti-HBc İgG-nin pozitiv olması qeydə alınmışdır ki, onların da 2 (40%)-də HBV DNT – ortalama 287 İU/ml, ALT – 92 mq/dl, AST – 86 mq/dl təyin edilmişdir.

Qanda HBV DNT-si təyin oluna bilməyən xəstələrlə müqayisədə HBV DNT-si təyin edilən xəstələrdə enzimlərin səviyyəsi daha yüksək olmuşdur (müvafiq olaraq: ALT– 81 və 92 mq/dl; AST – 63 və 86 mq/dl).

Yekun. Tədqiqatdan göründüyü kimi yuxarı yaş, keçirilmiş əməliyyatların və qan köçürmələrinin sayı, yanaşı hepatit C və insanın immun virus infeksiyasının olması okkult B hepatitin yayılmasına təsir edən faktorlardır. Okkult B hepatitin varlığı kimyaterapiya zamanı qaraciyər enzimlərinin daha çox yüksəlməsinə səbəb ola bilər.

Summary

INCIDENCE OF HEPATITIS B IN DIFFERENT PATIENT GROUPS IN AZERBAIJAN

Hidayatov A.A., Verdiyev A.A., Hidayatova V.A., Aliyeva S.A., Abdullayev F.M., Hidayatova L.A.

AMU, III Department of Internal Medicine, Baku, Azerbaijan

***Keywords*:** Occult, hepatitis B, incidence, chemotherapy

